# AZƏRBAYCAN BAYATILARI

XXI YNE

BAKI–2004

*Bu kitab "Azərbaycan bayatıları" (Bakı, Elm, 1984) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edənlər: **Bəhlul Abdulla**
**Qızılgül Babazadə**
**Elxan Məmmədli**

Ön sözün müəllifi: **İsrafil Abbaslı**

Redaktorlar: **Təhmasib Fərzəliyev**
**İsrafil Abbaslı**

**398.2'094754 - dc 20**
**AZE**
**Azərbaycan bayatıları.** Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2004, 304 səh.

Bayatı Azərbaycan şifahi xalq poeziyasının ən geniş yayılmış janrlarından biridir. Xalq ədəbiyyatının tükənməz xəzinəsi olub, hər birində dərin fikir və duyğu ifadə edilən, bədii-estetik və fəlsəfi-hissi zənginliyinə görə seçilən bu nümunələr məzmunca da müxtəlifdir. Əsasən fərdi-intim duyğuların, lirik xarakterli əhval-ruhiyyənin öz əksini tapdığı həmin sadə və oynaq vəznli, yığcam poetik forma nümunələrindən hər biri ayrılıqda bitkin əsərdir.

Bayatılar Azərbaycan şifahi xalq ədəbiyyatından yazılı ədəbiyyata da keçmişdir. Obrazlarının yeniliyi, qeyri-adiliyi ilə səciyyələnən, hikmət yükü ağır, məna və mətləbcə zəngin olan həmin nadir sənət inciləri həm də musiqi ilə əlaqədardır.

Oxuculara dəyərli töhfə olan bu kitaba bayatı janrının uzaq keçmişimizdən bəri yaradılan nümunələri daxil edilmişdir.

**ISBN 9952-419-00-3**

© "XXI – YENİ NƏŞRLƏR EVİ", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Azərbaycan el ədəbiyyatının lirik qolunun geniş vüsət tapan çox-çeşidli janrlarından biri bayatıdır.

Bayatılar insan həyatının canlı poetik salnaməsidir. Onun varlığını, mənəvi aləmini dünyaya göz açdığı çağdan ömrünün son anlarına kimi müşayiət edir, duyum və hisslərinə estetik, bədii zövq aşılayır. Layla, nazlama, nənni və özgə beşikbaşı nəğmələrdən tutmuş ağı, edi, sızlamalara qədər keçən ömür yolu yüzillikləri adlayaraq həm də tarixi kəsimə, epoxaya çevrilmiş, bu məsafəni isə əski çağlarda formalaşan, illəri, əsrləri ötdükcə yetkinləşən, nəticədə bayatı adı ilə şöhrətlənən poetik incilər ziynətləndirmişdir.

Azərbaycan bayatıları yaradıcısı olan xalqa məxsus ən bəşəri, ülvi duyumları özündə toplamışdır. Bu nümunələrdə insana məxsus gözəl keyfiyyətlər – onun mənəvi qüdrəti, həyat eşqi, dərin ruhi əzabları, kədəri, nisgili, qəmi, həmçinin dostluq, sədaqət, humanizm meylləri canlı, şairanə bir dillə, az sözlə, böyük və dolğun fəlsəfi məna ilə ifadə olunmuşdur.

Bayatı bir söz-termin kimi həm "köhnə, boyat" kəlməsi ilə əlaqələndirilmiş, həm "ulu Tanrı" kimi mənalandırılmış (Mahmud Kaşğari), həm də Oğuz xanın nəvəsi, Gün xanın ikinci oğlu Bayatın, sonralar isə əski azərbaycanlıların soy-kökündə əhəmiyyətli rol oynamış eyni adlı qəbilə, tayfa, elin adı ilə bağlanmışdır (Salman Mümtaz). Bayatıların ən qədim növlərindən olan Saya isə eyni zamanda el nəğməkarı, aşığın əcdadı, ulu babası sayılmış, bu ifaçı-sənətkar bir çox soylar, boylar, dastanların yaradıcısı – müəllifi kimi dəyərləndirilmişdir.[1]

Bu mülahizələrdən həm də o qənaət doğur ki, bayatılar Azərbaycan folklorunun ən qədim janrlarından olmuş, yüzilliklər adlayıb gələn uzun bir inkişaf yolu keçmişdir. Artıq elmi ədəbiyyatda belə bir fikir özünə yer tapmışdır ki, eramızın birinci minilliyində Azərbaycanda yaşamış və Azərbaycan xalqının etnogenezində böyük rol oynamış hunlar, xəzərlər, avarlar, savirlər və başqa türk-oğuz tayfalarının ya-

[1] Folklordan çöl materialları toplusu üzrə (bayatılar) metodik iş, Bakı, 1982, səh. 5-11.

zısı olmasa da, onların ana dilində zəngin şifahi ədəbiyyat nümunələri olmuş və bu günə qədər gəlib çıxmış bayatıların, laylaların, ağıların çoxu o dövrdə yaranmışdır.[2]

Bu həm də o deməkdir ki, "bayatılar islamdan qabaqkı türk ədəbiyyatında türk şerinin milli şəklini təşkil etmişdir".[3]

Başqa sözlə, bayatı – "mani biçiminin dünya ədəbiyyatı tarixində, əzəl olaraq Şərq ədəbiyyatında sadəcə türk ədəbiyyatına məxsus bir nəzm şəkli olduğunu qəbul etmək lazımdır". Bunun bənzər örnəklərinə başqa islami ədəbiyyatlarda az təsadüf olunur və bu nümunələr türk xalq poeziyasının təsiri altında yaranmışdır.[4]

Bu təsirin çevrəsi geniş, üfüqləri sonsuz olub, bir sıra türk xalqlarının tarix boyu məskən salıb yaşadıqları regionları əhatə edir. Özgə sözlə, Azərbaycan bayatıları ilə bərabər pərvəriş tapan özbək, türkmən, qaqauz, türk, kərkük qoşuq-mani-xoyratları da həmin poetik aləmin özülünü təşkil edib yüzilliklər boyu yaşamış, zəngin, tükənməz bir xəzinəyə çevrilmişdir.

Bəllidir ki, bayatı-mani-xoyratların ən əski nümunələri həm dildən-dilə, ağızdan-ağıza, nəsildən-nəslə keçə-keçə, həm ayrı-ayrı əsrlərdə tərtib olunmuş cünglərə, əlyazmalarına yol tapa-tapa, həm də dövrün tanınmış yazıçı və şairlərinin, elm, mədəniyyət nümayəndələrinin müxtəlif səpkili əsərlərində qoruna-qoruna zəmanəmizə kimi yaşamışdır. Maraqlıdır ki, hələ XI əsrin ikinci yarısında tərtib olunmuş "Divanü-lüğatit-türk"də bir sıra el ədəbiyyatı inciləri ilə yanaşı, bayatı-mani səpkisində nümunələr də özünə yer tapmışdır:

*Öpkəm gəlib oğradım,*
*Aslan layu kökredim,*
*Alplar başın doğradım,*
*İmdi məni kim tutur?*

(*Öfkələnərək kənara fırladım,*
*Aslan kimi kükrədim,*
*İgidlərin başını kəsdim,*
*İndi məni kim tutar*).[5]

---

[2] V.Aslanov. XII əsrə qədərki Azərbaycan dili haqqında, "Azərbaycan filologiyası məsələləri", Bakı, "Elm", 1983, səh. 76.

[3] C.Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, "Varlıq" jurnalı, 1982, №2, səh. 31.

[4] Ə.Tərzibaşı. Kərkük xoyratları və maniləri, İstambul, 1975, səh. 98.

[5] Divanu-lügatit-türk tercümesi, I cilt, Ankara, 1939, səh. 125.

*İtil suyu axa durur,*
*Qaya dibi qaqa durur,*
*Balıq təlim baqa durur,*
*Gölüng təki küşerur.*
(*İtil suyu axar durur,*
*Qaya dibini döyər durur,*
*Bütün balıqlar baxar durur,*
*Gölü daha daşırır*).[6]

Əlbəttə, Mahmud Kaşğari tərəfindən qələmə alınan bu və buna oxşar dördlüklərə, o sıradan türk imperatoru Alp Ər Tonqanın ölümündən bəhs edən ağı-edi-sızlamalara bayatı janrının bugünkü tələbləri baxımından yanaşılarsa, onları tam mənası ilə bu janra aid nümunə kimi qiymətləndirmək doğru olmaz. Araşdırmalardan doğan qənaətlər göstərir ki, bu dördlüklər bayatı biçimində yeddi hecalı olsalar da, onlar şəkil, ahəng və məna baxımından bayatı-manilərdən seçilirlər. Onların qafiyə düzümü də bayatılardan fərqli olaraq AAAB şəklindədir. Məna cəhətinə gəldikdə isə bu dördlüklər dastan (epik əsər, poema) mahiyyətində olub, müəyyən əsərlərdən qopmuş lirik parçalardır.[7]

Çox güman ki, onlar sonrakı yüzilliklərdə yeddi hecalı dördlüklər şəklini almış və bayatıların ilkin növlərindən biri kimi geniş yayılmışdır. Onların kütləvi mahiyyət daşıması "Divanü-lüğatit-türk" müəllifinin də diqqət mərkəzində olmuş və yeri gəldikcə bu nümunələrdən faydalanmışdır. Bu bir daha aydın edir ki, bayatılar qədim çağlarda belə geniş mənalı, çoxşaxəli janr olmuş, onun həm ideya-məzmun, həm də biçim-quruluş etibarilə bir-birindən seçilən növləri, şəkil və qolları yüzilliklər boyu xalqın poetik süzgəcindən keçərək yeni çalarlar qazanmışdır. Bağlama, tapmaca, yanıltmac, uşaq oyun mahnıları, həmçinin mövsüm-mərasim nəğmələrinin şəkilcə bayatıya bənzəyənləri, şübhəsiz ki, bu janrın təsiri ilə yaranıb formalaşmışdır. Əkinçi və maldar nəğmələrindən holavarlar, sayalar, inam və etiqadlarla bağlı vəsfi-hallar, habelə layla, nazlama, oxşama, sızlama və ağılar kimi növər isə bu janrın aparıcı qollarına çevrilmişdir.

Bütün bu növ və qolların əksəriyyəti tarix boyu havacatla, musiqi-melodiya ilə vəhdətdə formalaşmışdır. Onların yaradıcı-ifaçıları həm

---

[6] Yenə orada, səh. 73.
[7] Ə.Tərzibaşı. Göstərilən əsəri, səh. 108-109.

də düzüb-qoşduqlarının bəstəkarı olmuşlar. Deməк, Azərbaycan xalq şeri və musiqisinin qarşılıqlı inkişafında bayatılar mühüm rol oynamış, bu cəhət isə onların yaddaşlarda möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır. Musiqi-melodiya-havacatla bağlı bayatı-qacar, bayatı-türk, bayatı-ərəban, bayatı-İsfahan, bayatı-kürd, bayatı-race, bayatı-Şiraz, novruz-bayatı, sallama-bayatı, çoban-bayatı(sı) və s. kimi söz-terminlər deyilənləri bir daha təsdiq etməkdədir. Bayatılar fərdi, fərdi olduğu qədər də kollektiv yaradıcılıq məhsuludur. Ona görə fərdidir ki, müəlliflərini – yaradıcılarını tanımadığımız bu sənət inciləri ayrı-ayrı tarixi kəsimlərdə yüksək poetik qabiliyyətə, düzüb-qoşmaq, ça-lıb-çağırmaq istedadına malik kimsələr tərəfindən qoşulmuşlar. Və ona görə kollektivdir ki, onlar ictimai mahiyyət daşıyırlar; ayrı-ayrı fərdlər tərəfindən düzəldilmiş bu nümunələr xalqın – kütlənin bədii təfəkkür süzgəcindən keçərək yetkinləşir, ideya və sənətkarlıq baxımından zəif olanlar yaddaşlardan silinərək unudulur, əsl sənət nümunələri isə əbədilik şöhrət qazanırlar. Məsələyə bu baxımdan yanaşan M.Hüseyn yazırdı ki, bayatılar ayrı-ayrı şəxslərin yaradıcılıq məhsulu olmasaydı, "...bu əsərlərin fikri-fəlsəfi məzmunu və emosional təsiri də səviyyəcə müxtəlif olmazdı. ...Hətta müxtəlif şəkillərdə təkrar edilə-edilə zəmanəmizə qədər gələn eyni bayatını müqayisə edəcək olsaq, bunların da müxtəlif bədii zövq sahibləri tərəfindən söylənildiyi dərhal aydınlaşar".[8]

Bayatı irsinin zənginləşməsində adlı-sanlı sənətkarlar da mühüm xidmət göstərmişlər. Lələ, Sarı Aşıq kimi ustadlar, "Arzu-Qəmbər" səpkili bayatılı dastanların yaradıcıları özlərini bu janrla şöhrətləndirmişlər. Bayatı qoşmaqda klassik şairlərimiz də qələmlərini sınamışlar. M.Fərzanə qeyd edir ki, Əmani, Əzizi, Saleh, Məcruh, Məsum, Bikəs, Salik və b. sənətkarların əlyazmalarda çoxlu bayatıları qorunmaqdadır.[9]

XV yüzilliyin Azərbaycan xalq şairlərindən Xəlil ibn-Əhmədin Azərbaycan şivəsi ilə 55 dördlükdən ibarət mani-bayatılar yazması faktı da diqqətdən yayına bilməz. Ustad Füzulinin

*Gülə naz*
*Bülbül eylər gülə naz,*
*Girdim dost bağçasına,*
*Ağlayan çox, gülən az –*

---

[8] Bayatılar (*tərtib edəni M.H.Təhmasib*), Bakı, 1943, müqəddimə, səh. 6.
[9] Bayatılar (*toplayanı M.Fərzanə*), Tehran, 1344 (hicri), kitaba müqəddimə, səh. 4-5.

kimi bayatılar qoşması da Kərkük türkmənləri içərisində rəvayət olunmaqdadır.[10]

Klassiklərin, həmçinin aşıq və el şairlərinin yazıb-yaratdıqları bayatıların müəyyən qismi əlimizə çatsa da, qadın şairlərimizin düzüb-qoşduqları dördlüklər demək olar ki, qorunmamışdır. Əslində isə bu irsin zənginləşməsində qadınlarımızın fəaliyyəti daha güclü olmuşdur. Hərgah əsrlər boyu şair təbiətli nənələrimizin, ana və bacılarımızın poetik təfəkküründən sızıb gələn bayatıları bir yerə toplamaq mümkün olsaydı, onda onların üstünlük qazanmasına şübhə qalmazdı. Qadının, ananın ailədə, cəmiyyətdə, ictimai həyatda tutduğu yeri, mövqeyi, həmçinin əksər bayatılarımızda gizlənmiş zərif hiss və duyğuları, ılıq və mülayim ana nəfəsini də nəzərə alsaq, bu nümunələrin xeyli hissəsi onların payına düşər. Layla, nazlama, vəsfi-hal, ağı, oxşama və bu qəbil növlərin qadın düşüncəsinin məhsulu olması bir daha yəqinləşər.

Bayatılar xalqın əlçatmaz, ünyetməz keçmişi, eynilə də dünəni və bu günüdür. Keçmişi dedikdə, ulu babalarımızın bu lirik incilərdə qorunmuş əski həyat tərzi yada düşür. Xalqın dünəni onun nisbətən bizə yaxın olan tarixidir. Bu günü isə o deməkdir ki, bayatı bu gün də yaranıb-yaşamaqdadır.

Bəllidir ki, xalqın tarixi sadəcə tarix olaraq qalmamış, həm də şerə – bayatıya çevrilmişdir. Ayrı-ayrı yüzilliklərin mühüm hadisələri ilə səsləşən bayatılar onu yaradanların həyatında dərin iz buraxan sarsıntıları yada salır, dünənimizdən, ötən günlərimizdən xəbər verir:

*Apardı Boyat məni,*
*Bir zülfu sayat məni,*
*Aparırsan sən apar,*
*Aparmasın yad məni.*

*Ərəb gəldi, hay verin,*
*Nə istəsə pay verin,*
*Aza duran deyillər,*
*Gətirin tay-tay verin.*

*Apardı tatar məni,*
*Qul kimi satar məni,*
*Yarım vəfalı olsa,*
*Axtarıb tapar məni.*

---

[10] Ə.Tərzibaşı. Göstərilən əsəri, səh. 112.

*Apardı Batı məni,*
*Qul kimi satı məni,*
*Yollar uzun, mən yorğun,*
*Doğrayır çatı məni.*

Maraqlıdır ki, bu nümunələr Azərbaycanda olduğu kimi, kərküklülər içərisində də (xüsusilə, birinci və üçüncü nümunə).[11]

Geniş yayılmış incilərdir. Hər iki xalqın bayatı-mani-xoyratlarının çeşidli növləri arasında ya tam eyni, yaxud çox az fərqi olan nümunələrə də sıx-sıx təsadüf edilir. Kərküklü ananın dilində səslənən layla Azərbaycan qadını üçün də doğma və əzizdir:

*Layla edərəm yatınca,*
*Qonça gülə batınca,*
*Gözümə şiş batırram,*
*Sən hasilə yetincə.*

*Laylay edim yatasan,*
*Qonça gülə batasan.*
*Qonça gül payın olsun,*
*Daldasında yatasan.*[12]

Bu həm də o deməkdir ki, bayatı-mani-xoyrat xəzinəsinə malik olan xalqlar doğma olmuş, eyni çeşmədən su içmiş, eyni qaynaqdan barınmışlar. Lakin onu da qeyd etmək lazımdır ki, folklorun epik qolunda onun yaradıcısının ünvanını axtarmaq mümkün olsa da, lirik janrda bu cəhəti ayırd etmək çətin məsələdir.

Azərbaycan bayatılarının yayılma vüsəti, təsir dairəsi o qədər geniş olmuşdur ki, həmin nümunələr tarix boyu azərbaycanlılar ilə çiyin-çiyinə yaşayan xalqların da şifahi söz sənətində özünə əsaslı yer tapmışdır. Başqa sözlə, müxtəlif əlifbalarla toplanılıb, müxtəlif dövrlərə aid əlyazmalara daxil edilmiş bu lirik nümunələr ayrı-ayrı sənətkarların bəhrələndiyi poetik irsə çevrilmiş, söz ustadları bu tükənməz xəzinədən təsirlənərək bir sıra bayatılar qoşmuş, həmçinin bu janr barədə dəyərli fikirlər söyləmişlər.

[11] Ə.Tərzibaşı. Göstərilən əsəri, səh. 436.
[12] Yenə orada, səh. 89.

Azərbaycan bayatıları XIX əsrin rus ziyalılarının da diqqətini cəlb etmiş və onlar bu janr haqqında qiymətli mülahizələr demişlər. İ.Yevlaxovun "Gürcüstandakı xalq nəğmələri haqqında. Bayatı, aşıq... və s.",[13] V.Korqanovun "Qafqaz musiqisi"[14] adlı məqalələri bu baxımdan ayrıca maraq doğurur.

Bayatılarda diqqəti cəlb edən xüsusiyyətlərdən biri də onun qafiyə əlvanlığıdır. Bu lirik incilərin hər bir misrasında Azərbaycan poeziyasında işlənən qafiyənin bütün növləri qorunmuşdur: dayaq qafiyə, tam qafiyə, dolğun qafiyə, qapalı qafiyə, müqəyyəd qafiyə və s.[15]

Əski tarixi ənənəsi olan bayatılar bu gün də dildə-ağızda dolaşan, yaranıb-yayılan bir janr kimi xalqın mənəvi aləmini zənginləşdirməkdədir. Aşıqlarımız, müğənnilərimiz, bəstəkarlarımız xalq bayatılarına tez-tez müraciət edirlər. Mərasimlərimizdə, toy-düyünlərimizdə bu gün də bayatı çağırılır, bayatı oxunur. Qəmli-kədərli anlarımızda da bayatılar köməyimizə çatır, bizə təsəlli verir. Bütün bunlar bayatıların ictimai məzmunundan, bədii və sənətkarlıq qüdrətindən doğan amillərdir.

* * *

Bayatıların əsaslı şəkildə toplanılması və nəşri işində "Azərbaycanı tədqiq və tətəbbö" cəmiyyəti (1923) mühüm rol oynamışdır. Cəmiyyətin nəşr etdirdiyi "Azərbaycanı öyrənmə yolu" jurnalında folklorun digər nümunələri ilə bərabər, bayatılara və bu janr barədə məqalələrə də ayrıca yer verilmişdir. Abbaszadə Mirzə Abbasın nəşr etdirdiyi (1918) "Bayatı, haxışta, sevgi, layla, qayınana-gəlin sözləri" tərtib işindən sonra, müstəqil janr kimi dərc olunan bayatılar kitabı Hatif, Abdulla Şaiq və Şəfiqə xanım Əfəndizadənin adı ilə bağlıdır.[16]

Bundan sonra bayatıların çapı işində on ildən artıq bir müddət keçmiş, nəhayət, 1925-ci il nəşrindəki nümunələri də qismən əhatə edən H.Əlizadənin toplama işi ortaya çıxmışdır.[17]

Bayatıların 1943-cü il nəşri[18] isə həcmi və təsnifi etibarilə fərqlənməkdədir.

---

[13] "Кавказ" qəzeti, 1850, № 64.

[14] Сборник статей, Тифлис, 1908, с. 25.

[15] А.Алиев. Художественные особенности азербайджанских баяты. Автореф. канд. дисс., Баку, 1980, с. 17.

[16] Azərbaycan xalq ədəbiyyatında bayatılar, Bakı, 1926.

[17] Azərbaycan bayatıları (*toplayanı H.Əlizadə*), Bakı, 1938.

[18] Bayatılar (*tərtib edəni M.H.Təhmasib*), Bakı, 1943.

Azərbaycan bayatılarının öyrənilməsi və çapı işində[19] H.Qasımovun əməyini xüsusi qiymətləndirmək lazım gəlir. O, bu janrın elmi təsnifini aparmış, bayatıları mövzular üzrə qruplaşdırmış və tərtib işinə geniş müqəddimə yazmışdır. Bu nəşr həcm, əhatə dairəsi baxımından da əvvəlki çaplardan seçilməkdədir.

M.Fərzanənin toplayıb nəşr etdirdiyi 1320 bayatıdan ibarət kitab da xatırlanan tərtib işlərində özünə yer tapmamış bir çox orijinal bayatılar ilə zəngindir.[20]

Uzun illər Azərbaycan EA Respublika Əlyazmalar Fondunda axtarış aparan, 92 cüng, əlyazma, fraqment və şəxsi arxiv materiallarını saf-çürük edib, Azərbaycan bayatılarının ən qədim nümunələrini[21] oxucuların sərəncamına verən A.Məmmədovanın da zəhməti ayrıca dəyərləndirilməlidir.

Nizami adına Ədəbiyyat İnstitutunun müdiriyyəti və Şifahi ədəbiyyat şöbəsi müxtəlif illərdə bu el ədəbiyyatı ocağında fəaliyyət göstərmiş və bayatıların nəşri ilə bilavasitə məşğul olmuş H.Zeynallı, H.Əlizadə, M.H.Təhmasib, Ə.Axundov və H.Qasımovun bu sahədəki işini davam etdirməyi məqsədyönlü saymış, bunun nəticəsində də mövcud tərtib işi ortaya çıxmışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu toplunun tərtibçi və redaktorları mövcud çapları əsas tutaraq, İnstitutun elmi arxivində saxlanılan, həmçinin ayrı-ayrı illərdə folklor ekspedisiyası zamanı toplanılan və şöbəyə göndərilən nümunələri də nəzərdən qaçırmamış, nəhayət, bütün bu qaynaqlardan faydalanaraq Azərbaycan bayatılarının ən seçmə incilərini sistemləşdirib bu kitaba daxil etmişlər.

Bayatıların təsnifinə Azərbaycan folklorşünaslığının son nailiyyətləri baxımından yanaşılmışdır. Nümunələr başlıca olaraq: ictimai məzmunlu; məhəbbət; əxlaq-tərbiyə; mərasim-inam-etiqad; əmək-zəhmət kimi mövzular ətrafında qruplaşdırılmışdır. Xoyratlar və çoxyönümlü bayatılar isə ayrılıqda verilmişdir.

İctimai məzmunlu bayatıların çoxunda vətən həsrəti, qürbət, qəriblik kimi səciyyəvi motivlər üstünlük təşkil edir. Bu qəbil nümunələrdə həm ayrı-ayrı tarixi kəsimin izləri, həm də ictimai-siyasi hadisələrin doğurduğu amillər ümumiləşdirilmişdir:

---

[19] Bayatılar (*toplayanı və tərtib edəni H.Qasımov*), Bakı, 1956; ikinci nəşri, 1960.

[20] Bayatılar (*toplayanı M.Fərzanə*), Tehran, 1344 (1966).

[21] Bayatılar (*tərtib edəni A.Məmmədova*), Bakı, 1977.

*Gəmi gəldi, yan gəldi,*
*İçində bir can gəldi,*
*Vətən həsrəti çəkdim,*
*Gözlərimdən qan gəldi.*

*Əzizim bir-bir düşər,*
*Ox yaydan bir-bir düşər,*
*Qürbətdə keçən günlər,*
*Ömürdən bir-bir düşər.*

Mərdlik, dostluq, igidlik, qeyrət, namus, ar, məğrurluq kimi insani keyfiyyətləri əks etdirən bayatılar da tərtibdə bir silsilə təşkil edir.

İftixar, dayaq, arxa, kömək məzmunlu bayatılar öz ideya istiqamətinə görə seçilir:

*Bostançı qovun dərdi,*
*Kal dərdi, qovun dərdi,*
*Yığılın, qohum-qardaş,*
*Üstümdən qovun dərdi.*

*Eləmi arxa gəlsin,*
*Su axsın arxa gəlsin,*
*Mən təkəm, düşmənim çox,*
*Köməyə arxa gəlsin.*

Həyatdan, taledən şikayət, narazılıq, giley-güzar, etibarsızlıq kimi cəhətlər bayatılarda elə ümumiləşdirilmişdir ki, onun hər bir misrasında yaradıcısının, bütünlükdə isə xalqın ürək çırpıntıları duyulmaqdadır:

*Eləmi gül anbarı,*
*Gül əkdim gül anbarı,*
*Zalım fələk qoymadı,*
*Doyunca güləm, barı.*

*Mən aşiqəm o dala,*
*O budağa, o dala,*
*Varmı ocağı sönən,*
*Ürəyimdən od ala?!*

*Bu aşiq qəm əridir,*
*Ay üzün qəməridir,*
*Atı məhməz öldürür,*
*İgidi qəm əridir.*

Qaxınc, sərki, sancma, bəzəmə mövzulu bayatılarda xalq yumoru, ironiya daha güclü verilmişdir:

*Dağdan aran yaxşıdı,*
*Tirmə, xaran yaxşıdı,*
*Boyun gödək, gözün tum,*
*Sənin haran yaxşıdı?*

*Araşqının sallama,*
*Yudun, yerə tullama,*
*Çox da gözəl deyilsən,*
*Ağız, burun sallama.*

Zorakılıq, zülm, haqsızlıq bildirən motivlər ictimai məzmunlu bayatılardan aparıcı xətt kimi keçir:

*Mən aşiq xanə bada,*
*Gedibdi xanə bada,*
*Zalıma bir söz desəm,*
*Sürərlər Xanabada.*

Məhəbbət anlamlı bayatıların mövzusunu iki istiqamətdə qruplaşdırmaq mümkündür. Onların bir qismində eşq, sevgi, vəfa, sədaqət, naz-qəmzə, ayrılıq-hicran, intizar-həsrət, istək-arzu, üzüntü, nigarançılıq, təsəlli, nisgil kimi cəhətlər aşılanır. Məhəbbət bayatılarının digər qütbünü isə ananın övlada istəyindən danışan bayatılar təşkil edir. Layla, nazlama adı ilə tanınan nümunələr bu qəbildəndir.

Bayatıların mühüm bir hissəsi də alqış, öymə, hikmət, hörmət-ehtiram, sayıb-sayılmaq motivli nümunələrdir. Tapmaca-bağlama adlı bayatılar ayrıca janr kimi tanınsa da, onların bir qisminin bayatı biçimində yarandığını nəzərə alıb bu qrupa daxil etmək məqsədəuyğun sayılmışdır.

Müxtəlif mövsüm və mərasimlərimizin icrası zamanı oxunan nəğmələrin bir qismi də bayatı ölçüsündə olan nümunələrdir. Onlarda bədii təfəkkürün ilkin çağları ilə bağlı əlamətlərə sıx-sıx təsadüf olu-

nur. Sınama, inam, yozum, vəsfi-hal səciyyəli bayatılar bu sıradandır. Toy-şənlik bayatıları, yas mərasimi zamanı deyilən ağılar, sızlamalar da bu janrın mühüm bir hissəsini təşkil edir.

Qədim əmək və maldar, nəğmələri saya, holavar adları ilə tanınan nümunələrdir ki, onlarda ulu babalarımızın təsərrüfat həyatı canlandırılmışdır.

Kəsik bayatıların – xoyratların ayrıca bölmədə verilməsi isə təsdiq edir ki, İraq-Kərkük türkmanları arasında geniş yayılan bu forma Azərbaycanda da şöhrət qazanmışdır.

Kitab çapa hazırlanarkən aşağıdakı cəhətlərə də xüsusi diqqət verilmişdir:

Əlyazmalarından seçilmiş bayatıların dili, ifadə tərzi olduğu kimi saxlanmışdır. Eyni zamanda arxaik sözlər də qismən qorunmuşdur.

Variantların bir hissəsi saxlanmışdır. Çünki belə nümunələrdəki məna, ifadə çalarları bir-birindən fərqli şəkildədir.

Toplanılmış bayatılar əlyazma nümunələri ilə tutuşdurulduqda bəzən toplama materiallarındakı ifadə tərzləri daha məntiqi olduğundan əlyazmalardakı ifadələr onlarla əvəz edilmişdir.

Bəllidir ki, bayatılara “haxışta” sözü əlavə olunmaqla bu janrın yeni bir qolu yaranmışdır. Tərtibdə isə belə bir bölmə olmadığından haxışta-bayatılar kitab boyu səpələnmişdir.

Bəzi bayatıların əvvəlinci iki misrası bir sıra nümunələrdə təkrarlanır, son iki misrası isə fərqli olur. Kitabda bu qəbil nümunələr də özünə yer tapmışdır.

Tərtibdəki bir çox bayatılar nəğmə kimi oxunan, xüsusi bəstəsi, havası, melodiyası olan nümunələrdir ki, onların ayrılıqda verilməsi məqsədyönlü sayılmamışdır.

Kitaba daxil edilən bayatıların böyük əksəriyyəti ayrı-ayrı nəşrlərdən seçildikləri üçün onların dilində, imlasında müəyyən fərqlər vardır. Bu fərqlər olduğu kimi saxlanmışdır.

Müəllifi bəlli olan, yaxud nümunələrdə yaradıcısının adı çəkilən bayatılar da ayrılıqda deyil, müxtəlif bölmələr üzrə verilmişdir.

Azərbaycan xalq bayatılarının seçmə nümunələrindən ibarət bu kitab barədə rəy və təkliflərini söyləyəcək oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

***İsrafil Abbaslı***

# VƏTƏN. QÜRBƏT

Əzizim Ala dağa,
Gün düşür Ala dağa.
Mən Qaradağ əhliyəm,
Yaz məni Qaradağa.

Zəhmətim getdi bada,
El gəldi çatdı dada.
Yarın gözü yoldadı,
Həsrətdi Ordubada.

Bu qala daşdı qala,
Çınqıllı, daşdı qala.
Qorxuram qərib öləm,
Yar gözü yaşdı qala.

Gəl məni fağır ağla,
Kimsəm yox, sağır ağla.
Çıx dağların başına,
Adımı çağır, ağla!

Elədimi dad ola,
Fəryad ola, dad ola.
Qorxuram qərib öləm,
Ağlayanım yad ola.

Dağlar o dağlarmola?
Baş verər bağlarmola?
Necə ki mən ağladım?
Yarəb, yar ağlarmola?

Yağı gəldi yanıma,
Susamışdı qanıma.
Döndüm qürbət ellərdən,
Qüvvət gəldi canıma.

Sözüm düşər dastana,
Bir ün salar hər yana.
Qürbət qoy sizə qalsın,
Mən gedirəm Şirvana.

Dağ başında minara,
Şoxu düşüb çinara.
Qismətim qürbət oldu,
Sən başına qıl çara.

İrəfə düzdüm kasa,
Kim endirə, kim asa.
Sən orda şadlıq eylə,
Mən burda batım yasa.

Kəm baxtı sönən qərib,
Qürbətdə ölən qərib.
Bəxtəvər günə düşdü,
Vətənə dönən qərib.

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Göydə dolanan bulud,
Rəngi saralan bulud.
Mən eldən aralandım,
Sən də aralan, bulud.

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

Qərib ömrü bitəndə,
Qalar özgə vətəndə.
Sən yadıma düşürsən,
Bağda bülbül ötəndə.

Mən gedirəm o yüzə,
Qayıqda üzə-üzə.
Ay quşlar, siz şad olun,
Meşələr qalır sizə.

Söz qaldı el gələnə,
Çırmandı sel gələnə.
Gözəl bir bağ salmışam,
El gələ kölgələnə.

Baxdım şirin dillərə,
Düşdüm quru çöllərə.
Axtardım qohum-qardaş,
Həsrət qaldım ellərə.

Göy bulud, Şirvan ayaz,
Yaz məni, Şirvana yaz.
Günün yad eldə keçsə,
Dərdini Şirvana yaz.

Əziziyəm dilən, gəz,
Bağda gülə dilən, gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən, gəz.

Bu yolu gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Qırılıb qatarından,
Çıxıb cərgədən, gəlməz.

Yol vermə yada, Təbriz,
El gedər bada, Təbriz.
Sənin həsrətindəyəm,
Can sənə fəda, Təbriz.

Əzizim səni, Təbriz,
El sevər səni, Təbriz.
Al qoynuna əzizlə,
Ana tək məni, Təbriz.

Kəkliyim, fərəm sənsiz,
Düşübdür pərən sənsiz.
Yad eldə, yad ölkədə,
İnan, gülmərəm sənsiz.

Bu elin adı nədi?
Dostu nə, yadı nədi?
Qürbət eldə bilmədim,
Ağzımın dadı nədi?

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Araza gəmi gəldi,
Mən dedim, hamı gəldi.
Sən ağla, ay gözlərim,
Ayrılıq dəmi gəldi.

Gəmi gəldi, yan gəldi,
İçində bir can gəldi.
Vətən həsrəti çəkdim,
Gözlərimə qan gəldi.

Qoy gedim yurda məni,
Tapşırma qurda məni,
Gözü yolda qalan var,
Öldürmə burda məni.

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət yer cənnət olsa,
Yenə də vətən yaxşı.

Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı.

Su gələr arxa, haray!
Tökülməz çarxa, haray!
İgid qürbətə düşsə,
Çağırar arxa, haray!

Dərdim elə car haray!
Qara günüm var, haray!
Yad oba, qərib ölkə,
Könül istər yar, haray!

Sorağın qarğadan al,
Hayıfın darğadan al.
Qürbətdə yar xəbərin
Bir atı yorğadan al.

Belədimi qürbət el,
İgid oğul, qürbət el.
Adamı tez qocaldır
Qərib ölkə, qürbət el.

Ceyran, çölə dolan gəl,
Sonam, gölə dolan gəl.
Yad ölkədə dözməsən,
Bizim elə dolan gəl.

Qardaş gəl, ay qardaş, gəl,
Qarlı dağları aş, gəl.
Qürbət eldir, kimsəm yox,
Tökür gözüm qan-yaş, gəl!

Ağrıdır yara məni,
Təbib yox yara məni.
Burda bir kimsənəm yox,
Yetirin yara məni.

Tutmadı dağlar məni,
Bülbüllü bağlar məni.
Qəribəm, bir kəsim yox,
Təkcə yar ağlar məni.

Bu yerlər tala yeri,
Bürc yeri, qala yeri.
Qiyamət o gün qopar,
El köçə, qala yeri.

Aşiq, qara yaxşıdı,
Geysən qara yaxşıdı.
Qürbətdə dolanmaqdan,
Getsən gora, yaxşıdı.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Sərin çeşmə, göy yaylaq
Yenə marala qaldı.

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

Dağlarda talam qaldı,
Biçmədim, lalam qaldı.
Dağılsın qürbət ölkə,
Orda bir balam qaldı.

Bağçada barım qaldı,
Dərmədim, narım qaldı.
Özüm yad elə düşdüm,
Vətəndə yarım qaldı.

Arazda axar qaldı,
Tərlan uçdu, sar qaldı.
Elimdən ayrı düşdüm,
Gözlərim baxar qaldı.

Getdi arxa dolandı,
Sular çarxa dolandı.
Düşmən elin gücündən
Qorxa-qorxa dolandı.

Araz gəldi yan axdı,
Dibindən min can axdı.
Vətən sarı baxanda
Ürəyimdən qan axdı.

Əzizim məzə qanlı,
Mey qanlı, məzə qanlı.
Qorxuram cavan öləm,
Yurdumda gəzə qanlı.

Əzizim dözə qanlı,
Sürmə çək gözə, qanlı.
Qorxuram qərib öləm,
Yerimdə gəzə qanlı.

Gəzdim dağı, aranı,
Seçdim ağdan qaranı.
Vətən viran olsa da,
Cənnət gördüm oranı.

Aşiqin odu yarı,
Bayqunun odu yarı.
Qürbətdə vətən tutduq,
Unutduq o diyarı.

Şirvanın boz dağları,
Basıbdır toz dağları.
Yadına düşər ağlar
Qəribin öz dağları.

Gəzirəm suz dağları,
Bağlayıb buz dağları.
Hər kəsə şirin olar
Öz yeri, öz dağları.

Bu dağlar bizə sarı,
Dolan gəl bizə sarı.
Qürbətdə qalan canım,
Çəkərsən yüz azarı.

Əzizim kətan sarı,
Ağ sarı, kətan sarı.
Çıxaydım Şah dağına,
Baxaydım vətən sarı.

Varımdır dərd hazarı,
Ağlama elə zarı.
Yolum qürbətə düşdü,
Çəkirəm el azarı.

Bu maral sayıq deyil,
Yatıbdır, ayıq deyil.
Qürbətdə tək qalmağım
Adına layiq deyil.

Bu yol yola tən deyil,
Yar burdan ötən deyil.
Qürbətdə xoş gün görsəm,
Yenə də vətən deyil.

Əzizim kətanda gül,
Şalda gül, kətanda gül.
Yerimiz yaxşı yerdi,
Hayıf ki vətən degil.

Nə yatmısan, oyan gül,
Bu yan bağça, o yan gül.
Mən qəribə rəhm elə,
Bülbülündən doyan gül!

Eşq oduna qalannam,
Yar başına dolannam.
Vətəndən ayrı düşsəm,
Viran ollam, talannam.

Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu qalxam.
Çıxam qəlbi dağlara,
Bir vətən sarı baxam.

Zərliyəm, zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn gündən
Biyabangərd olmuşam.

Dolannam, düzə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Qərib, qürbət ölkədən
Qurtarsam, sizə gəlləm.

Mən aşiq səsə gəlləm,
Nəvaya, səsə gəlləm.
Yad eldən qaça bilsəm,
Yolları kəsə gəlləm.

Rum mənəm, İraq mənəm,
Bu yanan çıraq mənəm.
Qul tək ellərə düşdüm,
Vətəndən iraq mənəm.

Dağlarda gəzən mənəm,
Əhdim var bəzənmənəm.
Ağır elin qızıyam,
Qürbətdə gəzəmmənəm.

Yazı yaza bilmirəm,
Qara poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

Su gəlsə sel bilərdim,
Meh əssə yel bilərdim.
Dağda bir oba salsan,
Mən səni el bilərdim.

Qürbətdə cana yetdim,
Təng olub, sana yetdim.
Vətənə dönən günü
Dinə, imana yetdim.

Təbrizim, can Təbrizim,
Sənə qurban, Təbrizim.
Düşmənə boyun əymə,
Mərd ol, dayan, Təbrizim.

Əzizim arxa dolandım,
İp tək çarxa dolandım.
Qərib oğlan, yad ölkə,
Qorxa-qorxa dolandım.

Araqçını yan qoydum,
İçinə biyan qoydum.
Vətənə kəc baxanın
Ürəyində qan qoydum.

Hicrana düşdü yolum,
Yağıdır sağım-solum.
Vətəndən ayrı düşdüm,
Buxovlanıbdı qolum.

Su içərəm çanaxdan,
Bal süzülər dodaxdan.
Neynim, gələ bilmirəm,
Salamım var uzaxdan.

Su doldurdum mən arxdan,
Düşdüm əldən-ayaxdan.
Ömrüm qürbətdə keçir,
Qadan alım uzaxdan.

Qəribəm, qəlbim duman,
Dilimdən düşməz aman.
Mən düşmüşəm, görmüşəm,
Sən düşmə, qürbət yaman.

Don tiksən, ağı bizdən,
Belinin bağı bizdən.
Qoymayın yad ellini,
Almağa bağı bizdən.

Çuxanın ağı bizdən,
Belinin bağı bizdən.
Düşmən gəlib yurd salsa,
Alar xoş çağı bizdən.

Eləmi, tağı bizdən,
Eyvanın tağı bizdən.
Yağılar basqın etsə,
Alarlar bağı bizdən.

Əzizim söz deməkdən,
Heç doymur söz deməkdən.
Canım möhnətdə keçdi,
Yar deyib gözləməkdən.

Əziziyəm çəkməkdən,
Qəlyan alıb çəkməkdən.
Qəddim kamana döndü,
Qürbət dərdi çəkməkdən.

Gəz dolan bu dağ ilən,
Gülü dər budaq ilən.
Qannım yad ellilərdi,
Mən ölsəm bu dağ ilən.

Sonasan, nazpərisən,
Dolan gəl, az, bəri sən.
Qürbətdə can versəm də,
Dilimin əzbərisən.

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?
Bu dünyada şirin şey,
Bir anadır, bir vətən.

Sənin ala gözlərin,
Bir od sala gözlərin.
Qorxuram qərib öləm,
Baxa qala gözlərin.

Qolunda var qüvvətin,
Arzum var olsun mətin.
El yolunda baş qoyan,
Qazanar el hörmətin.

Əzizim, əgər başın,
Yastığa dəgər başın.
Başını qovza, qərib,
Gəldi sənin qardaşın.

Əzizim ov səsi var,
Dağlarda ov səsi var.
Qəribin nə qohumu,
Nə də bir kimsəsi var.

Dağlarda maralım var,
Ürəyi yaralım var.
Qəribliyə düşmüşəm,
Gözlərəm, qəralım var.

Sorağın aldığım yar,
Mən yola saldığım yar.
Ürəyimdə od salır,
Qürbətdə qaldığım, yar.

Maya getsə, nər qalar,
Arvad ölsə, ər qalar,
Yad ellərdə qəribi
Dərd üstündən dərd alar.

Əziziyəm, bac alar,
Mərd rəqibdən bac alar.
Hər kəsi el istəsə,
Bülənd olar, ucalar.

Yar başa qara bağlar,
Ürəyin yara bağlar.
Vətəndən ayrı düşsə,
Ümidin hara bağlar?

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Qürbət eldə ürəyim
Dərddən, qəmnən köz bağlar.

Yar gülü telə bağlar,
Kəmərin belə bağlar.
Bülbül oxur, gül açar,
Yaşasın belə bağlar!

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Yarım səndə gəzibdir,
Səni yüz yaşa dağlar!

Rübənd çək üzə, dağlar,
Kölgə sal düzə, dağlar.
El sinəndə yurd salsın,
Gəlməsin gözə dağlar.

Rübənd tut üzə, dağlar,
Gəlməsin gözə dağlar,
Ovçu kəkliyin qovsun,
Dağıtsın düzə, dağlar.

Ay dönüb ilə, dağlar,
Gəlibdir dilə dağlar.
Bülbül qonub oxuyur,
Bürünüb gülə dağlar.

Gün gedir ilə, dağlar,
Gəlibdir dilə dağlar.
Bülbül kimi hay salıb,
Dönüb bülbülə dağlar.

Əzizim dərə dağlar,
Düz bağlar, dərə dağlar.
Kəklik, turac otlağı,
Marala bərə dağlar.

Bu dağlar qəlbi dağlar,
Boy atıb qəlbi dağlar.
Günü xoş keçməyəndə,
Ah çəkər qəlbi dağlar.

Üstü meşəli dağlar,
Həzar peşəli dağlar.
El qoynunda yurd salır,
Gül bənövşəli dağlar.

Əzizim daşdı dağlar,
Çınqıllı, daşdı dağlar.
Sən yatıbsan nəqafil,
Mehmanın köçdü, dağlar.

Başı ağ qarlı dağlar,
Yazlı, baharlı dağlar.
Yarla çıxım sinənə,
Əhdə ilqarlı dağlar.

Ağardıb yalı dağlar,
Gül açıb salı bağlar.
Qərib öz balasını,
Çöllərə salıb ağlar.

Bu dağlar yastı dağlar,
Qar üstün basdı, dağlar.
Üç ay toylu, bayramlı,
Doqquz ay yaslı dağlar.

Eləmi boyan dağlar,
Al-yaşıl boyan dağlar.
Sənə pənah gətirdim,
Yatıbsan oyan, dağlar.

Əzizim nazım dağlar,
Baharım, yazım dağlar.
Ucalır sinən üstə,
Söhbətim, sazım dağlar.

Ağlayarlar, güləllər,
Göz yaşını siləllər.
Köçən yurdun qədrini,
Düşən yurdda biləllər.

Əlində nəlbəkilər,
Tutubdu nəlbəkilər.
Açın qala qapısın
Gəlsin səfərdəkilər.

Çən, duman düzə neylər?
Zülfün tök üzə, neylər?
Ov bizim, ovlaq bizim,
Yad ovçu bizə neylər?

Göllərində üzərlər,
Tərlan kimi süzərlər.
Sənə tay ola bilməz,
Yüz obalar, yüz ellər.

Gün çıxar, dağ gün görər,
Boylanar bağ gün görər.
Qürbətdə can çürüdən,
Vətəndə ağ gün görər.

Mən aşiq kim düşürər,
Kim düzər, kim düşürər,
Qürbətlikdə öləni,
Qəbirə kim düşürər.

Durna sanınnan keçər,
Ötər, sanınnan keçər.
İgid vətən yolunda,
Ölər, canınnan keçər.

Əzizim bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Qürbətdə keçən günlər
Ömürdən bir-bir düşər.

Çay deyiləm axım bir,
Dağı-daşı yaxım bir.
Qanadım yox ucalım,
Vətən sarı baxım bir.

Keçmə, Araz dərindir,
İçmə suyun, sərindir.
Həsrət baxan bu ellər,
Sənin də ellərindir.

İstəkanın qanlıdır,
Əl vurma, dərmanlıdır.
Yurdumu xəbər alsan,
Əslim Girdimanlıdır.

Qolumda yaram vardır,
Başımda bəlam vardır.
Qürbət adı çəkməyin,
Qürbətdə anam vardır.

Ay qız, adın heç oldu,
Qurban dedin, qoç oldu.
Qürbət el, yara həsrət,
Cavan ömrüm puç oldu.

Susamışam, su yoxdu,
Su çoxdu, verən yoxdu.
Düşmüşəm qəribliyə,
Dərdimi bilən yoxdu.

Oda saldın özünü,
Kor eylədin gözünü.
Qəribin dərdi çoxdu,
Kimə desin sözünü?

Əlimdən bıçaq düşdü,
Bilmədim haçaq düşdü.
Viran qalsın qəriblik,
Yar məndən qaçaq düşdü.

Dağ başında qara bax,
Üstün alan sara bax.
Aləm cənnətə dönsə,
Mənə xoşdur Qarabağ.

Qəribəm, vətənim yox,
Bu yoldan ötənim yox.
Düşdüm dərin dəryaya,
Əlimdən tutanım yox.

Bağban, barın dərdi çox,
Dərdi yerə sərdi çox.
Yad ellərdə insanın,
Dərmanı yox, dərdi çox.

## MƏRDLİK – NAMƏRDLİK. DOSTLUQ. İGİDLİK. MƏĞRURLUQ. NAMUS – QEYRƏT – AR

Yol gedir Ordubada,
Salmasdan Ordubada.
Sərkərdə qoçaq olsa,
Heç getməz ordu bada.

El batır qəm dəryada,
Kimə gedim mən dada?
İgid döyüşdə ölsə,
Adı qalar dünyada.

Yar gəlir bədöy atda,
Arxalığı gey, qatda.
İgid oğul bəd gündə.
Ya atda, ya yer altda.

Əzizim nə qarıya,
Xalların nə qarıya?
Mərd igidin həmdəmi,
Nə ölə, nə qarıya.

Bülbül uçar bu dala,
Qonar o dal, bu dala.
Dost sözün açıq deyər,
Düşmən deyər budala.

İgid gərək atlana,
Atın minə, atlana.
Mərd odur ki, döyüşdə.
Hər yaraya qatlana.

Mən aşiq daldasına,
Qonça gül dalda sına.
Namərd elə namərddi,
Üzü nə, daldası nə?

Dağlar batıbdır qara,
Ovçu düşübdür dara.
Üzünə gülən dostun,
Qayıt bir qəlbin ara.

Əzizim qəlbi nara,
Tutuşdu qəlbi nara.
Üzdə dost deyənlərin
Get öyrən, qəlbin ara.

Əzizim gülən olsa,
Göz yaşın silən olsa,
Dost, aşnalıq yaxşıdı,
Qədrini bilən olsa.

Qızılgülü xar olsa,
Dörd yanında sar olsa.
Qoç igid heç durarmı,
Yarı yadlara qalsa?

İgid paşa, say paşa,
Sənə yoxdur tay, paşa.
Koroğlu bir gəlibdi,
Bir də gəlsə, vay, paşa.

Almaz üzük, dar barmaq,
Muradım səni almaq.
Hər igid karı deyil
Yardan yadigar almaq.

Qarşıda dağı Müştaq,
Sinəmdə dağımış, dağ.
Bizə müştaq olana
Biz ondan dağı müştaq.

Əzizim dərdi məndə,
Dərmanın dərdi məndə.
Namərd ağası olmam,
Qul ollam dərdiməndə.

Görünür gözə Təklə,
Bu dərdə dözə Təklə.
Namərdin rəhmi olmaz,
Yüz yalvar, yüz ətəklə.

Əzziyəm o ləngine,
İgidin o ləngine,
Xain dost, qarı düşmən,
Göz dikər ölən günə.

Oturmuşam daş üstə,
Papaq durar qaş üstə.
Sən düşməni nişan ver,
Nallamağı baş üstə.

Gedərsən özü qoymaz,
Dinərsən sözü qoymaz,
Kasıb var-yoxun versə,
Ağanın gözü doymaz.

Əzzinəm kasad olmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin,
Doğrasan, kasa dolmaz.

Bu sazı alan gəlməz,
Oxuyub-çalan gəlməz.
İgidi öldürələr,
Dilinə yalan gəlməz.

Axtardın yol belədi,
Sür atın, yol belədi.
Dostlar ilqarlı olsa,
Nə gərək yol bələdi.

Dövranın gəşti getdi,
Ox təki keçdi getdi.
Mərdlər bir bulaq qazdı,
Namərdlər içdi getdi.

El köçər dağa gəli,
Bülbüllər bağa gəli.
Namərdin qaydasıdı,
Can verən çağa gəli.

Ləl içindən üz ləli,
Sərraf kimi düz ləli.
Namərd gəlib mərd olmaz,
Yüz sızılda, yüz ləli.

Bir ev tikdim dəyirmi,
Dirəkləri iyirmi.
Namərd, hara gedirsən?
Bu yurd sənin deyilmi?

Salma bu dərdə məni,
Yar görsün bir də məni.
Namərdə möhtac etmə,
Kəs qurban mərdə məni.

Salma bu dərdə məni,
Vermə namərdə məni.
Qurtar namərd əlinnən,
Yetir bir mərdə məni.

Qəm sarıb, nədi məni?
Dərd-qüssə yedi məni.
Namərd dosta söz dedim,
Car çəkdi, dedi məni.

İncidən bəydi məni,
Saraldan neydi məni.
Dost bilib könül verdim,
Bəd yerdə əydi məni.

Dağlar dağladı məni,
Zülfün bağladı məni.
Mərd yolunda can qoydum,
Ellər ağladı məni.

Yandırıb-yaxdı məni,
Dağ-daşa çaxdı məni.
Mərd bilib arxalandım,
Namərdtək yıxdı məni.

Donu tik, üz ilməni,
Şanə tək düz ilməni.
Vəfalı dost yad olmaz,
Görməyə yüz il məni.

Qorxutmur bu qar məni,
Hər yapalaq, sar məni.
Mən ondan da qoçağam,
Heç atarmı yar məni?

O kimdir atar məni?
Hər dərdə qatar məni?
Namərd gəlib dost olmaz,
Dostluqda satar məni?

Qaşların əyər məni,
Gözlərin yeyər məni.
Mən dostluqda möhkəməm,
Tanısan əgər məni?

Dəryalar tutdu məni,
Naqqalar uddu məni.
Əziz, istəkli dostum,
Nə tez unutdu məni?

Göydə ulduz naşıdı,
Kim ulduzun yaşıdı?
İgidə ellər qurban,
İgid ürək başıdı.

Əzizim oy naşıdı,
Dağlarda oy naşıdı.
Görüşürük xəlvətdə,
Deyirlər oynaşıdı.

Qəlbimin hovun aldı,
Gözümün tovun aldı.
Kəpəzdən qalxdı tərlan,
Muroydan ovun aldı.

Söz sözə mehribandı,
Qaş gözə mehribandı.
O ki düşmana dostdu,
Nöş bizə mehribandı?

Əziziyəm aslandı,
Qılınc qından aslandı.
Tülküdən aslan olmaz,
Aslan elə aslandı.

Əziziyəm ay batdı,
Ulduz batdı, ay batdı.
Yarım bivəfa çıxdı,
Məni əğyara satdı.

Mən aşiq xoşa dalı,
Xoş üzlü, xoş ədalı.
Mərd igiddə qaydadı,
Meydanda xoş ad alı.

Dağ başın çən alarmı?
Alsa, kölgə salarmı?
Bir məzlumun qisası
Bir namərddə qalarmı?

Salxımı üzmə, barı,
Nimçəyə düzmə, barı.
Aşnalığı üzmüsən,
Dostluğu üzmə, barı.

Əzizinəm din barı,
Danış barı, din barı.
İgidə tab gətirməz
Yağı tikən min barı.

Çəkilib dərd hasarı,
Gedirəm dərdə sarı.
Namərd dizimi qırsa,
Sürünnəm mərdə sarı.

Mən aşiq nə vəfası,
Nə əhdi, nə vəfası.
Vəfalıya can qurban,
Namərdin nə vəfası.

Əziziyəm dost aşı,
Dost xörəyi, dost aşı.
Düşmənin gülləsindən
Yaman olar dost daşı.

Mərd anadan mərd oğul,
Yada ağa, mərdə qul.
Qorxaq töhmət gətirər,
Baş ucaldar mərd oğul.

Əziziyəm qəmdə gül,
Qəmdə danış, qəmdə gül.
Ağ gündə gülən könül,
Mərd igidsən qəmdə gül.

Ovçuyam,Təklədənəm,
Tək evli Təklədənəm.
Arazbar tərlanıyam,
Sonalar təklədənəm.

Mən fələyi dindirdim,
Bilmədiyin bildirdim.
Dosta yazan qələmin
Alıb əldən sındırdım.

Xar qonub bağa, dostum,
Bostana, tağa, dostum.
Qoçum yox qurban kəsəm,
Canım sadağa, dostum.

Sən mənim ağa dostum,
Sallan gəl bağa, dostum.
Üzünün hörmətindən
Bizə nur yağa, dostum.

Dağa qar yağa, dostum,
Sallan gəl bağa, dostum.
Sən duman ol, mən çiskin,
Çəkilək dağa, dostum.

Mən aşiq, otağından,
Qaşların o tağından.
Mərdin tovlası yeydir.
Namərdin otağından.

Getmərəm otağınnan,
Gül sınar butağınnan.
İgid atın səyirdər
Düşmənin yatağınnan.

Tiflisin üstü bostan,
Gözəl yerdir Gürcüstan.
Namərdin qaydasıdı,
Ayırar dostu dostdan.

Dünyanın gəşti məndən,
Ox təki keçdi məndən.
Yaxşıya körpü oldum,
Yaman da keçdi məndən.

Dünyanın gərdişindən,
Təng oldum hər işindən.
Mərdin başı qal çəkir
Namərdin şər işindən.

Üzüyündə qaşam mən,
Comərdlikdə başam mən
Yaxşı gündə gəz, dolan,
Pis gündə yoldaşam mən.

Bu dağın qaşı sənsən,
Dibinin daşı sənsən.
Dünyaca dostum olsa,
Hamının başı sənsən.

Sən məni qul eylədin,
Dərdimi bol eylədin.
Dağıtdın el-obanı,
Düşmənə yol eylədin.

Əziziyəm yaxşı sin,
Ovçu, yerə yaxşı sin.
Mərd igiddə qaydadı,
Sevər yarın yaxşısın.

Qonub üstə sar, divar,
Örtüb üstün qar, divar.
Sənlə mənim dostluğum
Ölənəcən vardı, var.

Halalar, ay halalar,
Qartal dağda balalar.
Qorxaq ölər, məhv olar,
İgid alar qalalar.

Bağında var alçalar,
Yaşıl çalar, al çalar.
Ağlama, dəli könlüm,
Düşmən görər, əl çalar.

Ovçular ovun ovlar,
Gözləyər ovun ovlar.
Murquzdan qalxan tərlan,
Yalvazda ovun ovlar.

Gül-gülə qat, a bağlar,
Dərd-qəmi at, a bağlar.
Yaxşı at minən igid
Ümidin ata bağlar.

Aşıq odasın bağlar,
Şeh düşüb, çiskin bağlar.
Namərd mehman görəndə
Çəkər odasın bağlar.

Sular gələr, göl dolar,
Şaxta vurar, gül solar.
Mərd igidin balası
Özü kimi mərd olar.

Buxarı qurum saxlar,
Od yanar, qurum saxlar.
Aşiq der: ər libasın
Geyməsin qurumsaxlar.

Sisyanı Qapan saxlar,
Canda dərd qapan saxlar.
Aşiq ar çəkmək üçün
Könüldə qapan saxlar.

Dağdan gələr sel axar,
Yar gül dərər, gül taxar.
İgid üz-üzə gəlsə,
Bir-birinə dik baxar.

Gəmi gələr, yan gedər,
Yan əylənər, yan gedər.
Dost dostdan keçən olsa,
Üz çevirib, yan gedər.

Əlində fanar gedər,
Baxdıqca yanar gedər.
Bir dost bivəfa çıxsa,
Dostundan kənar gedər.

Durnalar qatar gedər,
Buludda batar gedər.
Vəfalıya can qurban,
Bivəfa atar gedər.

İldırım çaxar gedər,
Su gəlib axar gedər.
Dostlar pis gündə gələr,
Bivəfa baxar gedər.

Əzizim dalda gəzər,
Bülbüllər dalda gəzər.
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

Əziziyəm baş əyər,
Barlı budaq baş əyər.
Dünya namərd dünyadı,
Mərd namərdə baş əyər.

Gəmi yükün yan çəkər,
Zəli sorar, qan çəkər.
Yaxşı gündə dost-aşna,
Yaman gündə can çəkər.

Yağıbdır qar, a tellər,
Ağardı qara tellər.
Namərd gəlib ellərin
Ömrünü qarat eylər.

Dağlara duman gələr,
Ay gələr, aman gələr.
Getməsin o yaxşı ki,
Yerinə yaman gələr.

Suyumuz Kürdən gələr,
İçməyə Kürdən gələr.
İgid dönsə obaya,
Xəbərsiz, birdən gələr.

Sürülər mələr gələr,
Dağları enər gələr.
Namərdə tuş olanın
Başına nələr gələr?!

Aşiqəm bir gün düşər,
Atlanan bir gün düşər.
Düşmənə düşən bazar,
Bizə də bir gün düşər.

İgidin bir atıdır,
Bir də təmiz zatıdır.
Koroğluda qoçaqlıq
Onun ehtiyatıdır.

Mən aşiqəm dərd oldu,
Gözlərimə dərd oldu.
Eşitdim rəqib ölüb,
O da mənə dərd oldu.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim yar görməyə,
Namərdlər kəsdi yolu.

Əzzim İrana doğru,
Gedər İrana doğru.
Başım kəs, qanım axsın
Qədir bilənə doğru.

## ARXA. KÖMƏK. DAYAQ. İFTİXAR

Əzizim ötmək olmaz,
Köhləni ötmək olmaz.
Elin atdığı daşı
Yerdən tərpətmək olmaz.

Bostançı qovun dərdi,
Kal dərdi, qovun dərdi.
Yığılın, qohum-qardaş,
Üstümdən qovun dərdi.

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Oğlana ellər qurban,
Oğlan ürək başıdı.

Mənim yarım naşıdı,
Naşıların başıdı.
Atdananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

Bulağın başı dayı,
Dibinin daşı dayı.
Durum başına dönüm,
Anam qardaşı dayı.

Qardaş mənim məliyim,
Cibimdə iynəliyim.
Köçəndə köçüm-qonum,
Düşəndə kölgəliyim.

Bircə belə mumudum,
Su qoynunda qumudum.
Nə kimim var, nə kimsəm,
Sana gəlir umudum.

Qaya tək buzlar gördüm,
Göydə ulduzlar gördüm.
Anasına oxşayan
Qoçaq, mərd qızlar gördüm.

Baxtım qaradır başdan,
Qəlbim qayımdır daşdan.
Bir ala göz yar üçün
Keçmək olmaz qardaşdan.

Şəftəliyəm, ağam mən,
Hər meyvədən çağam mən.
Qorxma, vəfalı dostum,
Ölməmişəm, sağam mən.

Dağların qaşı sənsən,
Dibinin daşı sənsən.
Eldə neçə igid var,
Hamının başı sənsən.

Eləmi arxa gəlsin,
Su axsın, arxa gəlsin.
Mən təkəm, düşmənim çox,
Köməyə arxa gəlsin.

Qızın baxtı ağ olsun,
Qohumları sağ olsun.
Qızın getdiyi yollar
Yansın, çilçıraq olsun.

Əziziyəm dadı var,
Yarın şirin dadı var.
Yüz igid sırasında
Qardaşımın adı var.

Dağ döşündə damım var,
Bağımda badamım var.
Gəl qapıdan gir, qardaş,
Desinlər adamım var.

Qurban sənə gözüm, yar,
Vardı sənə sözüm, yar.
Burdan bir qonşu keçdi,
Sərkərdəsi bizim yar.

Əzizim qara bağlar,
Al üstən qara bağlar.
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

Bu yurdun tacı bağlar,
Meyvəsi acı bağlar.
Ağrısa qardaş başı,
Yenə də bacı bağlar.

Dağ başında qar olar,
Bağçalarda bar olar
Qaynana pis olanda
Dərdə qalan yar olar.

Aya belə baxarlar,
Günə belə baxarlar.
Arxası olmayanın
Evin belə yıxarlar.

Dərd əlindən dağ yanar,
Bağça yanar, bağ yanar.
Qardaş girsə qapımdan,
Evimdə çıraq yanar.

Gəmim gələr yan gedər,
İçində bir can gedər.
Qardaş gələn yollara
Bacılar qurban gedər.

Sənə telli deyirlər,
Əli belli deyirlər.
Bura bir igid gəlib,
Bizim elli deyirlər.

Mən aşiq daşa düşər,
Kəkliyim daşa düşər.
Qardaşın müşkül işi
Yenə qardaşa düşər.

Göz yaşım daşa düşər,
Axdıqca daşa düşər.
Bacının ağır gündə
Yükü qardaşa düşər.

Dövran, işin kələkdir!
Gərək gövhər, gərək dürr,
Qardaşa can yandırın,
Yaman günə gərəkdir.

Xəncər üstə qaş gəlir,
Qoşun başabaş gəlir.
Qoşuna qurban olum,
İçində qardaş gəlir.

Qardaşım Çindən gəlir,
Çöldən biçindən gəlir.
Əlində bir dəstə gül
Bəylər içindən gəlir.

Maral oxdan qaçıbdır,
Qannan çoxdan qaçıbdır.
Ellərə xəbər olsun,
Yağı çoxdan qaçıbdır.

Qardaş mənim gülümdür,
Gülümdür, bülbülümdür.
Bacı qardaşa qurban,
Qardaş ölsə, zülümdür.

Gətir sazını, qardaş,
Pozma yazını, qardaş.
Böyü, ol qoçaq igid,
Çəkim nazını, qardaş.

Arxam, hayanım qardaş,
Harda dayanım, qardaş?
Baş qoyum dizin üstə,
Qoy çıxsın canım qardaş.

Qardaş, qardaş, xan qardaş,
Qıyğacı baxan qardaş.
Böyü-böyü, başa çat,
Aparaq nişan, qardaş.

Gülüm qardaş, can qardaş,
Mən sənə qurban qardaş.
Canım sənə sadağa,
Sən itirmə qan, qardaş.

## UMU-KÜSÜ. GİLEY-GÜZAR. ŞİKAYƏT – NARAZILIQ. BƏXT-TALE. MƏZƏMMƏT. ETİBARSIZLIQ

El köç eylər bu dağa,
Quşlar qonmaz budağa.
Elə ki mən dözürəm,
Heç kəs dözməz bu dağa.

Yetişdik Qalacığa,
Uyma gəl Qalacığa.
Məcruh der: sona köçə,
Yurdunda qala cığa.

Aşiqəm, bən də dada,
Ləbinnən bəndə dada.
Yetişsən, özün yetiş,
Yetişməz bəndə dada.

Dağları en piyada,
Yolu kəs tən piyada.
Gedirəm haqqa çatam,
O atlı, mən piyada.

Veribdi ağı yada,
Yar çəkib dağı yada.
Bizdən bağban olmadı,
Tapşırdıq bağı yada.

Qarğayaram o yada,
O düşmənə, o yada.
Yatıb yuxuya qalsam,
Bir kəsim yox oyada.

Əziziyəm dəryada,
Gəmim qaldı dəryada.
Ağladım, göz yaşımdan
Doldu, daşdı dərya da.

Düşübdü qan arada,
Xəstə yox, qan arada
Oldum qəfəs bülbülü,
Qaldım mən qənarada.

Aşiqəm, Salmasa da,
Yol gedər Salmasa da,
Pünhan ağla, gözlərim,
Aləmə salma sada.

Seyvanın qur ucada,
Kor möhtac quru cada.
Gülgəzin göz yaşından
Qalmadı quru cada.

Əziziyəm bu dağda,
Bülbül oxur budaqda.
Sar gəldi dağa qondu,
Haray çəkir bu dağ da.

Əziziyəm qolumda,
Qüvvətim yox qolumda.
Gör necə qarabaxtam,
Bu da varmış yolumda.

Gül əkdim gül məkanda,
Yerin bil, gül, məkanda.
Sən güldün, mən də güldüm,
Mən handa, gülmək handa?!

Mən aşiq gül alanda,
Gül bitər Gülalanda
Yarım yadıma düşər
Əlimə gül alanda.

Qazağın bucağında,
Od yanar ocağında.
Aşiq necə can versin
Yadların qucağında?

Duman dağ arasında,
Şamma tağ arasında.
Şam kimi şölə çəkdim,
Yandım yağ arasında.

Əzizim yanar oda,
Pərvanə yanar oda.
Dərdimi kim eşitsə,
Halıma yanar o da.

Mən aşiq ahü zarda,
Canım dərddə, azarda.
O gündən ki qul oldum,
Satırlar hər bazarda.

Mən aşiq bu damaxda,
Qəm məni budamaqda.
Heç bir kafir görməsin
Leylisin bu dəm ahda.

Yaxşı yol yaxşı qıza,
Burdan keçən Nərgizə.
Bu bəxtəvər qızları
Köçürmək düşmür bizə.

Əzizim ayransıza,
Ayran ver ayransıza.
Zülm evi abad olmaz,
Qalmaz bu dövran sizə.

Əzziyəm gözəl maya,
Dönübdü göz almaya.
Əsrəmiş nər öldürdün,
Qanlısan, gözəl maya!

Əzizim ağ çuxaya,
Çal kişi, ağ çuxaya.
Mənim yarım cavandı,
Verdilər ağ çuxaya.

Bir vecsiz daşdı dünya,
Çürük ağacdı dünya.
Kimə deyim dərdimi,
Tamam qan-yaşdı dünya.

Mən aşiqəm, o dala,
O budağa, o dala.
Varmı ocağı sönən,
Ürəyimdən od ala?!

Bağda biyan varmola,
Gülə ziyan varmola.
Sonsuzun bu gününə
Yazıx deyən varmola?!

Aşiq naçar ağlama,
Gündür keçər, ağlama.
Fələk bağlı qapını
Bir gün açar, ağlama.

Dedim: dilbər, ağlama,
Qara örpək bağlama
Öz dərdim mənə bəsdi,
Mən yazığı dağlama.

Dolub tamam bağ alma,
Bağban bəslər ağ alma.
Yaram, nə sızıldarsan?
Sağalmırsan, sağalma!

Mən aşiq Ərzuruma,
Yol gedər Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözürəm hər zuluma.

Samavar yana-yana,
Buğlanır yana-yana.
Danışırıq kağızla,
Dil qalır yana-yana.

Əziziyəm yar qana,
Yar oxuya, yar yana.
Laçın çalmış sonayam,
Qısılmışam yarğana.

Əzizim Maralyana,
Yol gedir Maralyana.
Qorxuram ah-naləmdən
Dağlarda maral yana.

Mən aşiqəm Salyana,
Dara zülfün, sal yana.
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana.

Pərvanə nədən yana,
Od tuta bədən yana.
Yaxşı dost yaman gündə
Çəkilir nədən yana?

Ay zamana, zamana,
Oxu qoydun kamana.
Eşşəklər arpa yeyir,
At həsrətdi samana.

Pis keçəndə zamana,
Baxmaz yaxşı-yamana.
Aclıq əymiş yoxsulun
Qəddi dönər kamana.

Əzizim Dağıstana,
Yol gedər Dağıstana,
Necəsən bir ah çəkəm,
Ahımdan dağ istana?!

Yol düşdü Dağıstana,
Sən də gəl Dağıstana.
Ağlasana, gözlərim,
Qəmindən dağ istana.

Əzizi ay aydına,
Tər salar ay aydına.
Zülmətdə qalan başım,
Çıxmadın ay aydına.

Dağların daldasına,
Gün gedər daldasına.
Bir dala daldalandım,
Qorxuram dal da sına.

Biz gəldik tayasına,
Atlılar tayasına.
Eşidən Tənhayinin,
Yıxılsın ta yasına.

Çıxdım hündür divara,
Baxdım bir gözəl yara.
Mən baxdım, o baxmadı,
Qəlbimə vurdu yara.

Eləmi bağrı qara,
Bir quş var bağrıqara.
Lalə kimi gül olmaz,
Onun da bağrı qara.

Əzizim üzüm qara,
Bağımda üzüm qara.
Yar yanına gedirəm,
Əlim boş, üzüm qara.

Əzizim zülfü qara,
Ağ üzdə zülfü qara.
Hər kim mənə zülm etsə,
Tapşırram Zülfüqara.

Dağlar düşübdü dara,
Bu dərdə yoxdu çara.
Kasıb bir yabı tapdı,
Otçun qaldı avara.

Mən aşiq bağı yara,
Bağbanın bağı yara.
Biz çıxdıq bağbanlıqdan,
Tapşırdıq bağı yara.

Mən aşiqəm dil yara,
Bayqu meyli dil yara.
Ağlamaqdan gözlərim,
Sızlamaqdan dil yara.

Ziyatam, başdan yara,
Artıbdı başdan yara.
Məni həsrət yaratdı
Yaradan başdan yara.

Vurdu mənə yar yara,
Doğra bağrım yar, ara.
Fələkdə nə qaydadı,
Həsrət qalır yar yara?!

Sözün demə aşkara,
Dərdə tapılmaz çara.
Dindirmə, qan ağlaram,
Ürəyimdə var yara.

Bulud endi dağlara,
Xəzan gəldi bağlara.
Fələyin gərdişindən
Ömür-gün keçir qara.

Bu yol gedir otara,
Otar hara, ot hara?
Yoxsul da bir at aldı,
Yer tapmadı otara.

Mən aşiq gülü xara,
Yaylığın gülü xara.
Dedilər bülbül ölüb,
Verdilər gülü xara.

Mən olmuşam biçara,
Biçarəyə nə çara?
Qapım haqdan bağlanıb,
Kimə gedim açara?

Tamburun üzi taxta,
İkimiz bir otaxta.
Mən nə çarə eyləyim
Allah verməyən baxta.

Maral tuş gəldi oxa,
Yayındı, çıxdı yoxa.
Mahalda kənd bircədi,
İçində əlli koxa.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Öləydim, qurtaraydım
Bu günlərə qalınca.

Nəfəs var can durunca,
Ürəkdə qan durunca.
Təngə-cəzana gəldim
Qanmazı qandırınca.

Eləmi qar qamışa,
Qar yağıb Qarqamışa.
Yüz min bəndə neyləsin
Bir fələk qarğamışa.

Gəmi gedib, yan gedib,
İçində bir can gedib.
Mən necə ağlamayım –
Əldən xanıman gedib?!

Ovcu bərədə durub,
Bərə üstə tor qurub.
Yardan neçə yaram var,
Hərəsin bir yol vurub.

Saqqalına dən düşüb,
De görüm nədən düşüb.
Xalxa oğlan düşəndə
Mənə də dədən düşüb.

Almalar budaq-budaq,
Yarandıq biz qəm udaq.
Neynədim ki, küsmüsən,
Bağlanıbdı dil-dodaq.

Ay çıxıb bircə barmaq,
Gəl sinəmə çəkmə dağ.
Yarım məndən küsübdü,
Bağlanıbdı dil-dodaq.

Ay çıxıb bircə barmaq,
Gəl sinəmə çəkmə dağ.
Yarım məndən küsübdü,
Bir çara var – yalvarmaq.

Dəf çalan nazik barmaq,
Başında qızıl qarmaq.
Qız, sana layiqdimi
Məni bu dərdə salmaq?

Bu gecə toy olacaq,
Qız-gəlin oynayacaq,
İlan vurmuş anası
Qızını qoymayacaq.

Mən cavanam utancaq,
Başımda vardı sancaq.
Nə qız oldum, nə gəlin,
Odlara yandım ancaq.

Əzizim qucaq-qucaq,
Odun ver qucaq-qucaq.
Yoxsulun daxmasında
Nə od olar, nə ocaq.

Oturaram binədə,
Tambur çaldım sinədə.
Üç ildən bir görməsəm,
Unutmaram yenə də.

Aşiqəm ya xam əldə,
Öyrənir ya xam əl də.
Tutdum hicran yaxasın,
Gördüm öz yaxam əldə.

Aşiqəm dərdiməndə,
Dərd dedim dərdiməndə.
Gah dərd məni aparır,
Gahbagah dərdi mən də.

Gəzmişəm, Murov, səndə,
Getməz qar, qırov səndə.
Yüz il ovçuluq etdim,
Vurmadım bir ov səndə.

Əmim oğlu biçində,
Köynəyi tər içində.
Getdim tərin silməyə,
Qaldım tikan içində.

Tənhayi qara gündə,
Oxuram qara gündə.
Mənim əvvəl dəftərim,
Yazılmış qara gündə.

Aşiq qan ara yerdə,
Qəssab, qan ara yerdə.
Öldürdü canan məni,
Getdi qan ara yerdə.

Gül-çiçək bitən yerdə,
Qumrular ötən yerdə.
Yetim başı dincələr,
Yastığa yetən yerdə.

Qu durub bürkü yerdə,
Qalıbdı tükü yerdə.
Canım ölsün, qurtarsın,
Qalsın qəm yükü yerdə.

Dağlarda, meşələrdə,
Şam yanar şişələrdə.
Hər ay sən yar qoynunda,
Mən qaldım meşələrdə.

Suyun üzündə pərdə,
Düşmüşəm mən bu dərdə.
Vallah, dözə bilmirəm
Dostum olmayan yerdə.

Gün keçir pərdə-pərdə,
Mən dözürəm bu dərdə.
Ev-eşiyim dağılıb,
Qalmışam quru yerdə.

Bostan təzə, bağ təzə,
Maral təzə, dağ təzə.
Qaysaqlı yaram üstə
Yar çəkibdi dağ təzə.

Tutdum bağı şərəkə,
Dişlədim oldu ləkə.
Necə yaman olurmuş
Yar olmayan mərəkə.

Əlimdə camı belə,
Doldur ver camı belə
Cananı ayrılanın
Qalırmı canı belə?!

Əzizim bu dağ ilə,
El gedər bu dağ ilə.
Necə qəbrə qoyarlar
Mən ölsəm bu dağ ilə?!.

Bağında üzüm gilə,
Ver, sana, düzüm gilə.
Bivəfaya dost oldum,
Qoymadı üzüm gülə.

Mən aşiq ah-uf ilə,
Dərd getməz ah-uf ilə.
Mollaya dərd açanın
Dərdi dönür qifilə.

Qoyun gedir iziylə,
Dırnağının tozuylə.
Qardaş məni tulladı
Yad qızının sözüylə.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Düşmən evimi yıxdı
Üzümə gülə-gülə.

Bülbül qonubdu gülə,
Calaq olub gül-gülə.
Xar gəldi bağçamıza,
Xəzan gətirdi gülə.

Gedən boz atlı, getmə!
Yolun uzaqdı, getmə!
Mənim gözümün yaşı
Sənə duzaxdı, getmə!

Yaxşı dost, döz günümə,
Gəl de bir söz günümə.
Fələk əlimə düşsə,
Salaram öz günümə.

Səhər getdim dükənə,
Daraşdım gül əkənə.
Mənim qorxum ondadı,
Yarsız ömrüm tükənə.

Səhəngi aldım, nənə,
Suya yollandım, nənə.
Bu viranə çöllükdə
Mən susuz qaldım, nənə.

Eləmi bayquş sənə,
Qonmazmı bayquş sənə.
Necə bədbəxt yurd oldun,
Hey gələr bayquş sənə.

Yol verdin gəmisinə,
Su verdin zəmisinə.
Heç bəndənin balası
Qalmasın əmisinə.

Çıxdım divar üstünə,
Çehil minar üstünə.
Mən sənə neyləmişdim –
Günü aldın üstümə.

Mən aşiq düzüm yerə,
Mirvari düzüm yerə.
Kəfənim yırtılıbdı,
Sürtülür üzüm yerə.

Bülbül uçar bağ üstə,
Şamamalar tağ üstə.
Nə qaydadı fələkdə –
Dağı çəkər dağ üstə?!

Əzizinəm gül üstə,
Bülbülünəm gül üstə.
Uçmaram, can verərəm
Bu tikanlı gül üstə.

Ağacda vardı püstə,
Hər yanı sardı püstə.
Yada boyun əyincə
Allahdan ölüm istə.

Əziziyəm belə yaz,
Qələm götür belə yaz.
Nakam könlüm şad olmaz,
Yüz il gəlsə belə yaz.

Əzizim qaranı yaz,
Ağ üstən qaranı yaz.
Əzzəl dəftər başına
Mən baxtı qaranı yaz.

Dağı yaz, aranı yaz,
Tufanı, boranı yaz.
Gözümə dərddən düşən
Ağı yaz, qaranı yaz.

Yar yardan geri qalmaz,
Yarın əhdi pozulmaz.
Heç pərvanə mənim tək
Özünü oda salmaz.

Aşiqəm oda salmaz,
O Xoydu, o da Salmaz,
Heç pərvanə mənim tək
Özünü oda salmaz.

Əzizim ayaz olmaz,
Buluddu, ayaz olmaz.
Mən ki qəm oylağıyam –
Dərd məndən ayaz olmaz.

Dağlarda biyan olmaz,
Can dosta qıyan olmaz.
Yüz il qürbətdə qalsam,
Hardadı deyən olmaz.

Bağında gilas olmaz,
Meyvə çox, gilas olmaz.
Nə bəlalı qulam mən,
Dərd məndən xilas olmaz.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz.
Mənim kimi dərdlini
Fələk bir də yaratmaz.

Əziziyəm gülə naz,
Bülbül eylər gülə naz.
Dövran elə dövrandı,
Ağlayan çox, gülən az.

Araz, Araz, can Araz!
Mən sənə qurban Araz!
Zaman məni yandırdı,
Sən də alış, yan, Araz!

Dolan gəl yurdu, Gülgəz!
Qalıbsan torda Gülgəz!
Mən burda qan ağlayım,
Sən də qal orda gül, gəz.

Əziziyəm dolan gəz,
Bürün dərdə, dolan, gəz.
Namərdə əymə boyun,
Get qürbətdə dolan, gəz.

Sar qonsa bağ da dözməz,
Xar düşsə tağ da dözməz.
Yardan ayrı düşənin
Dərdinə dağ da dözməz.

Bu dövran belə gəlməz,
Doğru söz dilə gəlməz
Bir aya vədə verən,
Ay dönüb ilə gəlməz?

Yar gələr yara yetməz,
Sonalar sara yetməz.
Pis gündən qurtarmağa
Ağlamaq çara etməz.

Ucadı başın, Kəpəz,
Ağarıb qaşın, Kəpəz.
De, bir nədən qaralıb
Sənin sal daşın, Kəpəz?

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman verdim,
Özüm qaldım dərmansız.

Ay çıxıbdı kənarsız,
Niyə məni qınarsız?
Açıb desəm dərdimi,
Od tutarsız, yanarsız.

Bir ay doğdu kənarsız,
Genə gülləm mən arsız.
Mənim ahı-zarımdan,
Qaçın ellər, yanarsız!

Papağın qabağı düz,
Dalı düz, qabağı düz.
Dünya, səndən kim keçdi,
Qaşı düz, qabağı düz.

Əziziyəm nə dərddi,
Nə dərmandı, nə dərddi.
Ayrılarsan yarından,
Bilərsən bu nə dərddi.

Gözüm o gəlindədi,
Kəməri belindədi.
Mən ağlaram, o gülər,
İnsaf öz əlindədi.

Gəşti-sirat eylədi,
Sözüm bərat eylədi.
Sevdim bivəfa yarı,
Gönlüm qarat eylədi.

Qəm nədi, qəmçi nədi?
Səməndin qəmçilədi.
Canı dərddən qorudum,
Qəm üstə qəm çilədi.

Şirvandı, xan yeridi,
Ordubad can yeridi.
Sağımdan güllə dəydi,
Solumdan qan yeridi.

Bu yer ellər yeridi,
Şana tellər yeridi.
Qaysaqlanmış yarama
Təzə millər yeridi.

Eləmi yağ əridi,
Piltədə yağ əridi.
Dərdimi dağa dedim,
Ahımdan dağ əridi.

Əllidi, yüz incidi,
Qablara düz, incidi.
Könül hər dərdə dözdü,
Bəd üzdən üz incidi.

Su gəldi daşa dəydi,
Kirpiklər qaşa dəydi.
Bivəfa yar yolunda
Gül ömrüm başa dəydi.

Aman, məni dərd əydi,
Namərd əydi, dərd əydi.
Sinəmin şüşəsinə
Çarx hərləndi, pər dəydi.

Arxın suyun sel əydi,
Üzdə telin yel əydi.
Qürbətdən qazancım var,
Saç ağartdı, bel əydi.

Buludlar qara gəldi,
Yol açdı, hara gəldi?
Fələk bir dərd göndərdi,
O dərd də yara gəldi.

Ay getdi, ilə gəldi,
Bülbüllər dilə gəldi.
Əğyar bu pis günümə
Hey gülə-gülə gəldi.

Gün keçdi, ilə gəldi,
Göz yaşım gilə gəldi.
Təbrizin naləsindən
Dağ-daş da dilə gəldi.

Gün keçdi, ilə gəldi,
Göz yaşım gilə gəldi.
Çərxi-dövran əlindən
Sümük də dilə gəldi.

Dilimə kəlmə gəldi,
Oxudum, kəlmə gəldi.
İnsafsız qocalığa
Ha dedim, gəlmə, gəldi.

Əcəl getdi, tər gəldi,
Tərdən dərdi-sər gəldi,
Mən qəriblik hayında,
Bir də bədxəbər gəldi.

Dağ başına sis gəldi,
Ocaq yandı, his gəldi.
Mənim bu qara baxtım
Əzəl başdan pis gəldi.

Yar yara əhli-dildi,
Yarım dərdimi bildi,
Qürbətə düşən günü
Bivəfa yar sevindi.

Yar getdi, can kəsildi,
Əhdü peyman kəsildi.
Dörd yanı düşmən aldı,
Yol-iz, hər yan kəsildi.

Kəhərin sinə bəndi,
Ovçunun binə bəndi.
Mən dərddən qaçaq oldum,
Dərd məndə binələndi.

Kim qurubdu bu bəndi,
Su gəldi basdı kəndi.
Dövran əydi kaman tək
Mən yazıq dərdiməndi.

Mənim yarım gedəndi,
Gül üzlü, gülbədəndi.
Deyən məndən küsübdü,
Heç bilmirəm nədəndi?

Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi.
Gözəldən vəfa umma,
Ürəyi dəmirdəndi.

Ay doğdu girdələndi,
Doğduqca girdələndi.
Oduva yandı canım,
Külüvə gird ələndi.

Dağlara qan çiləndi,
Səməndin qəmçiləndi.
İçdim dərdim azala,
Daha da qəm çiləndi.

Əzizim nə dərindi,
Dəryalar nə dərindi.
Mən yara nə dedim ki,
O, mənimlə sərindi?

Tərxun əkdim, təlx indi,
Viran könlüm, qalx indi!
Yarımdan ayrı düşdüm,
Sakit olsun xalx indi.

Əzizim gədə dərdi,
Gül əkdim, gədə dərdi.
Aləmi dərd öldürdü,
Məni də gədə dərdi.

Nökərin yekə dərdi,
Yüklənib lökə dərdi.
Nər olsa çəkə bilməz,
Fil gərək çəkə dərdi.

Əzziyəm namaz dərdi,
Bağdan gül Namaz dərdi.
Xalxı Allah öldürdü,
Məni annamaz dərdi.

Yerin de, əkim dərdi,
Doğrayım, töküm dərdi.
Dərddən gücüm qalmayıb,
Mən necə çəkim dərdi?

Söz yox, dua göndərdi,
Oxun suya göndərdi.
Özü qürbətdə qaldı,
Quru dua göndərdi.

Eləmi qovun dərdi,
Bostançı qovun dərdi.
Yığılın, el-əğrəba,
Başımdan qovun dərdi.

Zaman gücün bildirdi,
Gün görməzi güldürdü.
Hərəyə bir gün verdi,
Məni dərddən öldürdü.

Gəlin bir aş bişirdi,
Gözündə yaş bişirdi.
Bütün günü işlədi,
Elə bir daş bişirdi.

Qiblədən külək əsdi,
Eşqin səbrimi kəsdi.
Yarıma xəbər apar,
Ağlamaq dəxi bəsdi.

Xoş günüm ayda getdi,
Tor qurdum, çayda getdi.
Mən günləri sayırdım,
Tez gəldi, ay da getdi.

Burdan bir maya getdi,
Sallandı, çaya getdi.
Yolunda cəfa çəkdim,
Əməyim zaya getdi.

Bülbüllər qoşa getdi,
Hay saldı çaşa getdi.
Tor qurdum tərlan tutum,
Zəhmətim boşa getdi

Yar mənə baxdı getdi,
Qəlbimi yaxdı getdi.
Ağlamaqdan göz yaşım,
Sel kimi axdı getdi.

Hər gələn baxdı getdi,
Gül dərdi, taxdı getdi.
Yar bu sınıq qəlbimi
Odlara yaxdı getdi.

Ağ dəvə ağlı getdi,
Zəncirdə bağlı getdi.
Qoymadılar kam alım,
Yar qəlbi dağlı getdi.

Burdan bir atlı getdi,
Atın oynatdı getdi.
Gün kimi şəfəq saçdı,
Ay kimi batdı getdi.

Gün doğalı tar getdi,
Tərlan getdi, sar getdi.
Zaman elə dolandı,
Dostluq, etibar getdi.

Bu eşq nələr elədi,
Ömrüm hədər elədi.
Ağlamaqdan üzümdə,
Göz yaşım yer elədi.

Dərya, səndən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Yar gönlünü alınca,
Ürəyimə sim keçdi.

Dərya, səndən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Başım cəllad əlində,
Ürəyimə kim keçdi.

Göydə ulduz üç keçdi,
Cavan ömrüm puç keçdi.
Fələk bir dərd göndərdi,
Ürəyimdən tuş keçdi.

Göydə ulduz xoş keçdi,
Cavan ömrüm boş keçdi.
Fələk, bir söylə görüm,
Hansı günüm xoş keçdi?!

Əzziyəm günü keçdi,
Ay keçdi, günü keçdi.
Qocaldın, qoçaq gəlin,
Yerinə günü keçdi.

Əzizim nə tarazı,
Nə daş var, nə tarazı.
Kişini tez qocaldar
Arvadın natarazı.

Qoy çalsın ney dərdimi,
Hə, peydərpey dərdimi
Tapaydım dərd çəkəni,
Tökəydim hey dərdimi.

Mən aşiq hey dərdimi,
Görür güney dərdimi.
Elə bil dilmacımdı,
Çalır bu ney, dərdimi.

Eləmi gözəl kimi,
Baxırsan gözəl kimi.
Dərddən saraldı, düşdü
Ürəyim xəzəl kimi.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzəl ollam, tököllləm
Viranə bağlar kimi.

Dağlara quş gələrmi?
Gəlsə də boş gələrmi?
Mən sevim, yad aparsın,
Tanrıya xoş gələrmi?

Vermə xazara məni,
Çəkər bazara məni.
Yada kəniz verincə
Salla məzara məni.

Əzizim mən çəkəni,
Cəzanla mən çəkəni.
Heç kafər, heç müsəlman,
Çəkməsin mən çəkəni.

Atdılar bada məni,
Bürüyüb qada məni.
Almadı qohum-qardaş,
Verdilər yada məni.

Əzizim buda məni,
Xəncər al, buda məni.
Gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

Əzizim alma məni,
Sevdaya salma məni.
Sənnən ev tikən olmaz,
Yazığam, alma məni.

Aşiq yadına məni,
Xalın yadına məni.
Kimim var yar yanında,
Sala yadına məni.

Yaz günü qara məni,
Çəkdirmə dara məni.
Zalım-imansız anam
Satdı kafdara məni.

Mən aşiq yasəməni,
Xalların yasəməni.
Aparmadı şadlığa,
Apardı yasə məni.

Aşiqəm yasəməni,
Gey, sallan yasəməni.
Özü toylara varır,
Göndərir yasə məni.

Qızılgül dəstə məni,
Eylədin xəstə məni.
Avara bülbül kimi
Qoydun  qəfəsdə məni.

Yad gördü, dedi məni,
Dərd oydu, yedi məni.
Vəfasıza sirr verdim,
Aləmə dedi məni.

Könül aldatdı məni,
Qürbətə atdı məni.
Ana, yazdığın sözlər
Xeyli ağlatdı məni.

Əziziyəm dəm məni,
Qoy aparsın dəm məni.
Ərzim yara yetirin,
Öldürdü bu qəm məni.

Qar kimi oydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə bəslədin,
Nə günə qoydun məni.

Yad gəldi süzdü məni,
Saplara düzdü məni.
Ağ günə həsrət qoydu,
Qara gün üzdü məni.

Dağda tutub qar məni,
Gözlə çalar sar məni.
Gör nə günə qalmışam,
Satır yada yar məni.

İncidir əğyar məni,
Xəncər alıb yar məni.
Gör nə zamandı zaman
Ovlayır bu sar məni.

Bu dərdlər oyar məni,
Al qana boyar məni.
Ögeydən ana olmaz,
Sərgərdan qoyar məni.

Dağda qar alar məni,
Gözlə, xar alar məni.
Dağlardan aşıb gəlsəm,
Ovçu yaralar məni.

Apardı çaylar məni,
Ulduzlar, aylar məni.
Yüküm dərd-qəm yüküdü –
Yordu bu taylar məni.

Apardı tatar məni,
Qul edib satar məni.
Vermə düşmən əlinə,
Pis deyib atar məni.

Oda yaxır ah məni,
Gah yarımı, gah məni.
Taxsırım, günahım yox,
Bağışlamır şah məni.

Ay alma soydu məni,
Yeməmiş doydu məni.
Nədir mənim taqsırım?
Yandırıb oydu məni.

Qızdırma tutdu məni,
Tutdu, qurutdu məni.
O ki söz verdi, getdi,
Nə tez unutdu məni?

Dəryalar tutdu məni,
Naqqalar uddu məni.
Fələk bir iş işlədi,
Yar da unutdu məni.

Əkəydim arpa, səni,
At gələ qırpa səni.
Bilsəydim vəfan budur,
Çəkərdim bərkə səni.

Bişirim aşım səni,
Töküm qan yaşım, səni.
Götürüm hara gedim,
Bəlalı başım, səni?

Geymisən pərsəngini,
Gey, sallan pərsəngini.
Desəm dağlar götürməz
Dərdimin pərsəngini.

Dağ yeridi, düz yeri,
Yolçu, yolun düz yeri!
Yıxdılar atam evin,
Qaldı, indi düz, yeri.

Addadıq düşən yeri,
Zülf üzə düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

Od yaxır bu şən yeri,
Yar gəlib düşən yeri.
Dostumun göz yaşları
Yandırır düşən yeri.

Bağçası gül ənbəri,
Bol olsun gül ənbəri.
Nə zalım canım aldı,
Nə qoydu güləm bari.

Qarşıda gül ənbəri,
Dərmişəm gülənbəri.
Hicran qoymaz göz açam,
Dərd qoymaz güləm bari.

Bağdadın gədikləri,
Xurmadı yedikləri.
Məni dərdə salmaqdı
Fələyin dedikləri.

Dağların göy sinəsi,
Göy çəmən, göy sinəsi.
Yarı qəflət apardı,
Açıldı göysi nəsi.

Aşiqin hə kimsəsi,
Hə kimi, hə kimsəsi.
Yaralarım qövr etdi,
Eşitdi həkim səsi.

Mən aşiq Kaşan işi,
Hind işi, Kaşan işi.
Düşmən düşmənə tutmaz,
Sən mənə tutan işi.

Eləmi ay qabağı,
Buluddu ay qabağı.
Üzü gülməz yetimin,
Açılmaz ay qabağı.

Aşiqəm qara dağı,
Gəncənin Qaradağı.
Sinəmin üstə çəkdin
Əlif tək qara dağı.

Naxçıvanın duz dağı,
Duz təpəsi, duz dağı.
Çəkdi yar sinəm üstə
Dağ üstündən yüz dağı.

Şirvanın yastı dağı,
Su gəldi basdı dağı
Gedirdim yar yanına,
Yağılar kəsdi dağı.

Əzizinəm Pir dağı,
Pir ocağı, Pir dağı.
Könlüm sevda cünunu,
Çəkmə ona pir dağı.

Bu dağlar hürü dağı,
Duman, gəl bürü dağı.
Ölü dağı çəkilər,
Sağalmaz diri dağı.

Mən aşiq qəmqalağı,
Tutubdu qəmqalağı.
Dağlardan uca könlüm,
Tutubdu qəm qalağı.

Göründü baldır ağı,
Ləbindi, bal durağı.
Gəl öldürmə aşiqi,
Sənə babaldır ağı.

Pəncərə ay işığı,
Oldum ellər aşığı.
Gedibdir, gələr tapar,
Məhləmin yaraşığı.

Düyməsi var, dondadı,
Düzübdü boynundadı.
Yetimin üzü gülməz,
Əlləri qoynundadı.

Eləmi dəm bağladı,
Od yandı, dəm bağladı.
Dilbilməzin bir sözü
Sinəmdə qəm bağladı.

Yarmı dərddən ağladı,
Sular kimi çağladı.
İstədim bir söz deyəm,
Dilim-ağzım bağladı.

Çaylar daşdı, çağladı,
Dərd üstdən dərd bağladı.
Getdim dərdsiz yanına,
O məndən çox ağladı.

Ürəkdə qan qalmadı,
Üzüldü, can qalmadı.
Elə bir bəla gəldi,
Nə ad, nə san qalmadı.

Kisə tikdim, dolmadı,
Suya saldım, solmadı.
Elçi gəldi qapıya,
Özüm deyən olmadı.

Dağ başın qar alıbdı,
Yağıbdı, qar alıbdı.
Bacadan bir daş düşüb,
Ocağım qaralıbdı.

Əzizim yar dağıdı,
Görünən yar dağıdı.
Sinəmin qəm kasasın,
Dağıtsa yar dağıdı.

Aşıq Qarabağlıdı,
Xalın qara bağlıdı,
Nə gedən var, nə gələn,
Yollar qara bağlıdı.

Gözümün qarasıdı,
Könlümün parasıdı.
Məni avara qoyan
Bir zalım balasıdı.

Arxalığın sarıdı,
Sinən dağın qarıdı.
Mən yazığın çəkdiyi
Yarın ahü-zarıdı.

Mən aşiq bada qaldı,
İşim imdada qaldı.
Cəfası mənnən oldu,
Səfası yada qaldı.

Dərd getdi, qada qaldı,
Günüm fəryada qaldı.
Zülm əlindən el köçdü,
Yurd-yuvam yada qaldı.

Gəmim dəryada qaldı,
İşim fəryada qaldı.
Sən mənim baxtıma bax,
Yar sevdim, yada qaldı.

Namazım qəza qaldı,
Qılmadım, qəza qaldı.
Nə qul murazın açdı,
Nə günü yaza qaldı.

Bağçada lala qaldı,
Əldə piyala qaldı.
Ananı apardılar,
Yurdda bir bala qaldı.

Bu dağlar hara qaldı,
Gəzmədim, sara qaldı.
Yar sevdim, apardılar,
Könlümə yara qaldı.

Təpə uçdu, dağ qaldı,
Maral qaçdı, sağ qaldı.
Yar yada qismət oldu,
Mənə ağlamaq qaldı.

Xan getdi, çəkmə qaldı,
Ləbə mey çəkmə, qaldı.
Yarın yad oldu, aşiq,
Sənə cançəkmə qaldı.

Qışdan yaza nə qaldı,
Ərzim yazana qaldı.
Qələmdə nə günah var,
Mürvət yazana qaldı.

Eldən gələn nə qaldı,
Nə qovğadı, nə qaldı?
Qəmzə yadın, naz yadın,
Daha mənə nə qaldı?

Bu yerdə binə qaldı,
El köçdü, binə qaldı.
Qəmdən bir ev tikdirdim,
Bilmədim kimə qaldı.

Əzizim qönçə qaldı,
Qızılgül qönçə qaldı.
Hər dərdə dözən canım
Əridi, incə qaldı.

Eləmi dağlı qaldı,
Ürəyim dağlı qaldı.
Talandı ev-eşiyim,
Darvazam bağlı qaldı.

Eləmi, bəfam qaldı,
Pəncədə bəfam qaldı.
Cəfa çəkdim, yar sevdim,
Özümə cəfam qaldı.

Yağış yağdı, nəm qaldı,
Qəlyan keçdi, dəm qaldı.
Bağçada bar bol idi,
Dolu vurdu, kəm qaldı.

Dəryada  gəmim qaldı,
Biçmədim, zəmim qaldı.
Çox çəkdim yar cəfasın,
Mənə də qəmim qaldı.

Dağlar başın dad aldı,
Dörd bir yanın yad aldı.
Gedirdim yetəm yara,
Üstümü cəllad aldı.

Dağ başın ayaz aldı,
Qar gəldi, ayaz aldı.
Saydım, günüm il keçdi,
Saymadım, ay azaldı.

Dağ başın duman aldı,
Çən getdi, duman aldı.
Sonalar köç eylədi,
El, oba sara qaldı.

Yel əsdi əsər qaldı,
Sərimdə əsər qaldı.
Yar sevdim, yad apardı,
Mənə dərdi-sər qaldı.

Bu dağda qaya saldı,
Gün ona sayə saldı.
Yarı xəlvətdə gördüm,
Söz dedim, haya saldı.

Dost dostun atın aldı,
Davanı satın aldı.
Evim o gün yıxıldı,
Ağam bir xatın aldı.

Dağ başını qar aldı,
Qarda bu nə qaraldı?
Yar məndən üz döndərdi,
Ömrüm, günüm qaraldı.

Dağ başını sar aldı,
Könlüm ahü-zar aldı.
Dünən bir, bugün iki,
Rəngin nədən saraldı?

Əzizim qara saldı,
Xalların qara saldı.
Yar qalxdı qəm dağına,
Özünü qara saldı.

Haray, məni bu saldı,
Uzun ömrüm qısaldı.
Qan ağlayan gözlərim
Viran bağa su saldı.

Çalmanı başa çaldı,
Göz üstən qaşa çaldı.
Mən namərdə neylədim,
Ömrümü daşa çaldı?!

Kəklik qoşa dağıldı,
Çaşa-çaşa dağıldı.
Ananı öldürdülər,
Bala daşa dağıldı.

Əzizim mehribandı,
Qaş gözə mehribandı.
Məndən yad olan gözün
Gör kimə mehribandı.

Altı dərya, üz qandı,
Əyri qandı, düz qandı.
Ev yıxmaq bir qandısa,
Könül yıxmaq yüz qandı.

Mən aşiq ağlağandı,
Gözlərim ağlağandı.
Sən dərdli, mən yaralı,
Görək kim ağlağandı.

Səməndin oynağandı,
Çək başın, oynağandı.
Rəhmin yox, insafın yox,
Əllərin oy, nə qandı!

Əzizim, dabda yandı,
Gün batdı, dağ dayandı.
Getdim odum söndürəm,
Odumdan dağ da yandı.

Əzizim tağda yandı,
Şamama tağda yandı.
Dalımı dağa verdim,
Alışdı dağ da yandı.

Yaşım üzə dayandı,
Axıb dizə dayandı.
Bayaq dərdim beş idi,
İndi yüzə dayandı.

Yan verdi sal dayandı,
Barxanam saldı yandı.
Dərdimdən xəbər bildi,
Od tutdu, sal da yandı.

Bu yerdə su dayandı,
Od gəldi, suda yandı.
Dərdimi suya dedim,
Alışdı su da yandı.

Bu el sənin tayandı,
Halım sənə əyandı.
Ah çəkdim, duman qalxdı,
Göydə quşlar dayandı.

Bir gəmim seldə yandı,
Dərd çəkdi, sel də yandı.
Gördü gözümün yaşın,
Axarda sel dayandı.

Üzüyün qaşı yandı,
Üstünün daşı yandı.
Param yox nişan verim,
Qəlbimin başı yandı.

Ay keçdi, ilim yandı,
Köynəkdə milim yandı.
Dərddən ürək tutuşdu,
Ağızda dilim yandı.

Bağımda gülüm yandı,
Şeh düşdü, gülüm yandı.
Bağban, bağban deməkdən
Ağzımda dilim yandı.

Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mənim ahu-zarımdan,
Çərxi-fələk oyandı.

Bulud gəldi qalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

Atlı piyadalandı,
Dərdi ziyadalandı.
Gəldim dərdim azala,
Dərd ta da sadalandı.

Elim günüm talandı,
Üstündən od qalandı.
Yad əlindən el köçdü,
Bir dağa daldalandı.

Gün getdi, ay dolandı,
Bulud da daldalandı.
Hər dərdə dözən canım,
Çək, indi öz bəlandı.

Qarşıda ay İrandı,
Ay Rumdu, ay İrandı.
Yamana baxmaz aşiq,
Yaxşıdan ayırandı.

Əlimdə gülüstandı,
Aç, oxu "Gülüstan"dı.
Bülbülün göz yaşından
Bağçada gül istandı.

Geyindi yar, arındı,
Qəm bağrım yarar indi.
Canansız yerdə, aşiq,
Can nəyə yarar indi?

Əzizim yad apardı,
Dad çəkdi, dad apardı.
Yara bir gül saxladım,
Onu da bad apardı.

Məni Davat apardı,
Qələm, davat apardı.
Yaram sağalır olsa,
Həkim dava tapardı.

Sel gəldi, daş axıtdı,
Suyu çaş-baş axıtdı.
El köçdü, oba qaldı,
Daş-divar yaş axıtdı.

Dağdan su gəldi daşdı,
Daşıb, bərədən aşdı.
Mən yara neylədim ki,
Yar məni qoydu qaşdı?!

Qoyun, quzu qarışdı,
Cavan canım alışdı.
Sən uzaqda, mən burda,
Bu necə ismarışdı.

Gəldi gecə tarazı,
Zülfün gecə tarazı.
Bu həmdəmsiz aşiqdən
Olmaz gecə də razı.

Qarşıda ərəb Alı,
Arifsən ara balı.
Dərdimi çəkməz, aşiq,
Gəlsə yüz arabalı.

Məcməyidə gavalı,
Yedim, oldum havalı.
Qonşuda bir qız sevdim,
O da çıxdı davalı.

Mən aşiqəm, Göy Alı,
Bağban saxlar göy alı.
Fələyin qaydasıdı,
Yetişməmiş göy alı.

Bir quş uçur balalı,
Arı şandan bal alı.
Görəsən heç olarmı
Mən tək başı bəlalı?

Aşiq bilər halalı,
Haqdan dilər havalı.
Gözəlin bivəfası
Axır candan hal alı.

Yoxdan var uman alı,
Bəlkə var güman alı.
Bəxtikəm ova çıxsa,
Dağları duman alı.

Dağların nə qaralı,
Nə səbri, nə qaralı.
Canıma bir od vurdun,
Nə sönər, nə qaralı.

Ovçu vurar maralı,
Maral düşər yaralı.
Fələk bir od vurubdu,
Nə sönü, nə qaralı.

Əzizim yara qanlı,
Yar qanlı, yara qanlı.
Öldürsən mən yazığı,
Olarsan yara qanlı.

Elədinmi vay qanlı,
Vay qadalı, vay qanlı.
Yar, məni sən öldürsən,
Adın olar vayqanlı.

Maralın gözü qanlı,
Yolu qan, izi qanlı.
Balam gedib gəlməsə,
Tutaram sizi qanlı.

Qarşıda oda damı,
O cənnət, o da damı.
Elə ki yar yandırır,
Yandırmaz od adamı.

Əzizim, qıza damı,
Od yana, qıza damı.
Hər dərddən çox saraldar
Bivəfa qız adamı.

Əzizim dəvə damı,
Nər damı, dəvə damı.
Nə çöldə çoban oldum,
Nə evdə ev adamı.

Əzizim sərin camı,
Doldur ver sərin camı.
Fələk vurdu, dağıtdı
Mən biçən sərəncamı.

Dərd məni almadımı?
Döşəyə salmadımı?
Çox gözləməm var idi,
Gözümdə qalmadımı?

Eldən mərd azalımı?
Qoyma mərdə zalımı.
Loğman təbib gəlməsə,
Candan dərd azalımı?

Bağçalarda gül varmı?
Gül üstə bülbül varmı?
Biçindən əlim üzdüm,
Yığmağa sünbül varmı?

Qış gəlsə gün olarmı?
Qışda çiskin olarmı?
Ağla, gözlərim, ağla,
Bundan pis gün olarmı?

Dağ başın çən alırmı?
Alsa kölgə salırmı?
Yüz məzlumun qisası
Bir zalımda qalırmı?

Bürüyüb sar obanı,
Gəzərəm xar obanı.
Bədöy at minən canım
Minibdi arabanı.

Minmisən al yorğanı,
Sür, yeri, al yorğanı.
Gələn əcəl təridi,
Üstümdən al yorğanı.

Dolaşdım hər divanı,
Axtardım sər divanı.
Burda bir eyvan tikdim,
Uçurtdu çar divanı.

Dağlar tutum dumanı,
Yoxdu bircə umanı.
Eldən əli üzülüb,
Kimə getsin gümanı?

Geymisən alacanı,
Mənsurun ala canı.
Aşiq o gündən qorxar,
Əzrail ala canı.

Əzzinəm, daşdı canı,
Kəkliyin daşdı canı.
Dərdimi pünhan çəkdim,
Dedilər: daşdı canı.

Əzizim gül açanı,
Yandırar gül açanı.
Bivəfa yar yolunda
Döndərdim külə canı.

Qar tutub Şah dağını,
Don vurub növrağını.
Çəkilib tülək tərlan,
Sar alıb ovlağını.

Maralın dizi qannı,
Gözü qan, üzü qannı.
Yar özü qan eyləyib,
Tutubdu bizi qannı.

Ağacın əzəl barı,
Yeməyə əzəl barı.
Sən ki vəfasız idin,
Deyəydin əzəl, barı.

Eləmi gül anbarı,
Gül əkdim gül anbarı.
Zalım fələk qoymadı
Doyunca güləm barı.

Dağların şaxta qarı,
Dörd yanı oldu barı.
Kasıba qız verməzlər,
Kəsilsin qaydaları.

Dağların təzə qarı,
Yağıbdı təzə qarı.
Arvadı pis olanın
Saqqalı tez ağarı.

Dağların yatan qarı,
Dumanda batan qarı.
Kişini tez qocaldar
Axşamdan yatan qarı.

Dolan gəl bu dağları,
Yaşıl çəmən, bağları.
Aldı mənim əlimdən
Fələk gözəl çağları.

Gecənin bu dağları,
Gül açmış budaqları.
Ölsəm sinəmdən getməz
Yarımın bu dağları.

Şirvanın bu çağları,
Od tökər ocaqları.
Hamı yara qovuşdu,
Mən gəzdim bucaqları.

Gəncənin ağaşları,
Bar gətirər başları.
Mən bir gözəl sevmişəm,
Verməyir qardaşları.

Tullan bağda hasarı,
Ya ağ geyin, ya sarı.
İgidi alçaq eylər
Zən əhlinin yasarı.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Saldı bizi axırda
Rəhmsiz zaman ayrı.

Bağban düzər hasarı,
Bağa qoymaz yasarı.
Qəmdən bir ev tikmişəm,
Hicrandandı hasarı.

Şirvanın ağ alması,
Yeməli ağ alması.
Qiyamət günə qaldı
Yaramın sağalması.

Qulağında tanası,
Üstün örtüb şanası.
Qonşu qızın sevirəm,
Vermir zalım anası.

Köynəyin o yaxası,
Dərd gəlib, oya xası
Qoy mənim əlim olsun,
Düşmənin o yaxası.

Bağda üzüm ağacı,
Üzüm, gözüm ağacı.
Bağa baltalı gəldi,
Kəsdi bizim ağacı.

Aşıq neylər yad aşı,
Çaxçax döyər ha daşı.
Yükün hicran yüküdü,
Kirəkeşsən; ha daşı.

Dəyirmanın ha daşı,
Çaxçax döyər ha daşı.
Çün də sən hambal oldun,
Qəm yükünü ha daşı.

Mən aşiq, qəmə qarşı,
Xalların qəmə qarşı.
Nə bəlalı qul oldum,
Durmuşam qəmə qarşı.

Əzizim milə qarşı,
Kirpiyin milə qarşı.
Dərdlə keçən günlərim
Durub bir ilə qarşı.

Mən aşiq gecədən vay,
Ver mürğə gecə dən, vay.
Gecə səndən gileyli,
Mən yarsız gecədən, vay.

Atlanan hey, düşən hey!
Gəncin üstədi şən hey!
Ağlar, bəs ağlamazmı?
Belə dərdə düşən hey!

Araşqını dəstə qoy,
Endirib göz üstə qoy.
Gətir bütün dərdləri,
Dərdimin düz üstə qoy.

Mən aşiq əsdi fələk,
Səbrimi kəsdi fələk.
Burda bir çadır qurdum,
Kələfin kəsdi fələk.

Eləmi əsdi fələk,
Canımın qəsdi fələk.
Hansı suya tor atdım,
Doğradı, kəsdi fələk.

Oddan fələk, yan fələk,
Qəlbin olub qan, fələk.
Kimiyə min dərd verdin,
Kimiyə dərman, fələk.

Nə zalımsan sən fələk?
Ömrü böldün tən, fələk.
Can qurtarım əlindən,
Hara gedim mən, fələk?

Getmədin, qaldın, fələk,
Xoş günüm aldın, fələk.
Yanar odun içinə
Bir məni saldın, fələk.

Aman fələk, ox fələk!
Vurdun mənə ox fələk!
Yoxsul, qərib edincə,
Et bir yolluq yox, fələk!

Dağlardan əsən külək,
Səbrimi kəsən külək.
Yar zülfünü dağıtdın,
Zalımsan, nəsən külək?

Sana bir ana gərək,
Oduna yana gərək.
Bu dərdləri çəkməyə
Bir xəlvət xana gərək.

Söz deməyə söz gərək,
Baxmaq üçün göz gərək.
Könül, sən ki dözənsən,
Bu dərdə də döz, görək.

Əzizim qandı ürək,
Yar sözün dandı ürək.
Şirin şərbət içirtdin,
Nədən bəs yandı ürək?!

Hər sözün qandı ürək,
Səni dost sandı ürək.
Dinəndə dilim yandı,
Dinmədim, yandı ürək.

Yar geyinib tamam al,
Tamam yaşıl, tamam al.
Bu yarımçıq canımı
Rəhmin yoxsa tamam al.

Qara dərya, qara sal,
Ağ üstünə qara sal.
Bir dərddi, çəkər aşiq,
Kimsə bilməz qərəz hal.

Ağ buxaqda qara xal,
Xoş yaraşır yara xal.
Mənim sınıq könlümə
Eyləmədi çara xal.

Dağlardan əsən bu yel,
Ömrümü kəsən bu yel.
Yarı məndən ayırdı,
Qannımdı əsən bu yel!

Sirr sözüm açdı gözəl,
Sözündən qaçdı gözəl.
Dil açdım, könül verdim,
Ürəyin daşdı, gözəl?

Gəl eyləmə qan, gözəl!
Qurban sənə can, gözəl!
Mən həsrətdən yanıram,
Sən də alış yan, gözəl!

Xoruz ban verəndə gəl,
Sinəm qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl!

Bağça bar verəndə gəl!
Heyva, nar verəndə gəl!
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl!

Əzizim Mərəndə gəl,
Xas gülün dərəndə gəl.
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl.

Əlində güldəstə gəl,
Dərdi qoy dərd üstə, gəl.
Can verirdim, gəlmədin,
İndi qəbrim üstə gəl.

Əzizinəm oyan gül,
O yan bülbül, o yan gül.
Səndən əlim üzmərəm,
Məni mağmın qoyan gül.

Bağçasında sarı gül,
Yarı qönçə, yarı gül.
Niyə məndən küsübsən?
Barı danış, barı gül!

Yeri get asta, könül,
Dolan gəl dosta, könül.
Gözüm yarı axtarır,
Kan olub xəstə, könül.

Qızıl üzük bir badam,
Bu ölkədə mən yadam.
Qəfəsdə bülbül kimi
Gah məyusam, gah şadam.

Ulduz deyiləm, ayam,
Ulduzlardan mən sayam.
Bir yaman qaynanam var,
Əlindən cazanayam.

Əziziyəm nə qiyam,
Zülfün üzdə nə qiyam.
Sən camaldan nə qıydın,
Mən canımdan nə qıyam?

Mən bir ərəb qızıyam,
Qərib Sərab qızıyam.
Dindirmə, qan ağlaram,
Xanəxərab qızıyam.

Şəftəliyəm, sarıyam,
Qızılgülün xarıyam.
Mən fələyə neylədim,
Qoymadı bir yarıyam?

Yaxşı avaz, gur kəlam,
Oxu dərsin pürkəlam.
Nə soyuğa tabım var,
Nə pulum var, kürk alam.

Bağçanızda gül ollam,
Oxuram, bülbül ollam.
Bivəfa yar əlindən
Oda yanıb kül ollam.

Qara atı bağlaram,
Sağ qolundan dağlaram.
Yar məni qoydu getdi,
Gecə-gündüz ağlaram.

Şirvana yol bağlaram,
Dərd əlindən ağlaram.
Yardan kağız almasam,
Mən də küsü saxlaram.

Əzzinəm ovlamaram,
Ov görsəm, ovlamaram.
Mən özüm yaralıyam,
Yaralı ovlamaram.

Yaralıyam, yatmaram,
Hərfə qələt qatmaram.
Mənim dərdim özgədi,
Heç dərdlərə qatmaram.

Neylüfərəm, açmaram,
Ətrim bica saçmaram.
Yar onsuz da dərdlidi,
Dərdim ona açmaram.

Mən aşiq oxumuşam,
Nə dərdi çoxumuşam.
Bir ağır el içində
Kimsəsi yoxumuşam.

Mənim o yazıq bəndəm,
Yad edir məni dəm-dəm.
Dərdlərimi bölməyə
Tapılmır heç bir həmdəm.

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Dindirmə, qan ağlaram,
Bir şirin dilə bəndəm.

Qızılgüləm, dəstəyəm,
Bülbüləm, kol üstəyəm.
Əyil üzündən öpüm,
Ayrılaq, yol üstəyəm.

Gecdən durmuş kimiyəm,
Məskən qurmuş kimiyəm.
Gecə uzun, mən yalqız,
İlan vurmuş kimiyəm.

Eləmi saqisiyəm,
Məclisin saqisiyəm.
Yar mənə nə pis baxır,
Elə bil ağisiyəm.

Mən aşiqəm, baxtı kəm,
Bağbanım yox bağ tikəm.
Mən fələyə neylədim,
Fələk mənə baxdı kəm?!

Dolanıb dağ gəzirəm,
Bülbüləm, bağ gəzirəm.
Yüz yerimdən yaram var,
Deyirlər sağ gəzirəm.

Od mənəm, ocaq mənəm,
Üstündə sacaq mənəm.
Gəlib səni görməsəm,
Qaranlıq bucaq mənəm.

Əlif mənəm, bey mənəm,
Əlif üstə tey mənəm.
Apar, əcəl köynəyin,
Mən cavanam, geymənəm.

Qaralı, ağlı mənəm,
Qanadı bağlı mənəm.
Hamının dərdi olsa,
Ürəyi dağlı mənəm.

Dağlarda keyik mənəm,
Buynuzu böyük mənəm.
Yarın nə dərdi, qəmi,
Ona ağır yük mənəm.

Əzzim aça bilmənəm,
Açsam, saça bilmənəm.
Belimdə qəm yükü var,
Salıb qaça bilmənəm.

Dağlarda boran mənəm,
Karvanı yoran mənəm.
Heç bəndə dura bilməz,
Bu dərdlə duran mənəm.

Bu dağdan aşan mənəm,
Ellərə qoşan mənəm.
Qaynar dərd qazanında
Qaynayan, daşan mənəm.

Hər dərdə dözən mənəm,
Əhdim var, bəzənmənəm.
Göz yaşlı, ürək qəmli,
Sərgərdan gəzən mənəm.

Dağıstan tuncu mənəm,
Gün düşsə inci mənəm.
Sən məndən incisən də,
Mən səndən incimənəm.

Boyda bir qarış mənəm,
Hər işə qarışmanam.
Çəkil, dindirmə məni,
Küsmüşəm, barışmanam!

Göydən uçan quş mənəm,
Atlanmışam, düşmənəm.
Hər quşun bir yurdu var,
Vətənsizəm, düşmənəm.

Mən aşiqəm, düşmənəm,
Atlanmışam, düşmənəm.
Gör necə yad olmuşam,
Heç yadlara düşmənəm.

Əzziyəm dərdə Kərəm,
Yoldaşdı dərdə Kərəm.
Qoşmuşam qəm kotanın,
Özümə dərd əkərəm.

Qəlyanı mən çəkərəm,
Səninlə tən çəkərəm.
Dərdin qoy dərdim üstə,
Onu da mən çəkərəm.

Mən istidən bişmərəm,
Atlanmışam, düşmərəm.
Gör nə günə qalmışam,
Yar yadına duşmərəm.

Altımda at gedirəm,
Üstündə mat gedirəm.
Əvvəli sərdar canım,
İndi saldat gedirəm.

Dərdim nədi, bilirəm,
Göz yaşımı silirəm.
Bir yandan bu ayrılıq,
Bir yandan can verirəm.

Ağzım aça bilmirəm,
Yoldan keçə bilmirəm.
Belimdə hicran yükü,
Atıb qaça bilmirəm.

Ərzim var yara, gedim,
Ürəyim para gedim.
Sən məndən üz döndərdin,
İndi mən hara gedim?

Yarım yox, yara gedim,
Dərdimə çara gedim.
Nə yar qaldı, nə ilqar,
Haram var, hara gedim?

Tarçıyam, simə gedim,
Sözün de, himə gedim.
Bu dərd ki yardan gəlib,
Dərmana kimə gedim?!

Dərdimə çarə gedim,
Mən baxtıqara gedim.
Sən məni oda saldın,
Haram var, hara gedim?

Dağ başında qar idim,
Gün dəyməmiş əridim.
Məndən üz döndərən yar,
Axı yarın mən idim.

Fələyi dindirəydim,
Bilməzin bildirəydim.
Mənə yazı yazanda
Qələmin sındıraydım.

Qəlyanı bayaq çəkdim,
Doldurub bayaq çəkdim.
Yarı bivəfa gördüm,
Yolundan ayaq çəkdim.

Can dedim, cana gəldim,
Dinə, imana gəldim.
Yarım qürbətdə qaldı,
Mən yana-yana gəldim.

Dağları gəzdim gəldim,
Daşların düzdüm gəldim.
Yarım vəfasız çıxdı,
Ümidim üzdüm gəldim.

Bu dağı aşdım gəldim,
Sel kimi daşdım gəldim.
Bir cüt öpüşdən ötrü
Yarnan savaşdım gəldim.

Lələyəm mən lələndim,
Beşiyə mən bələndim.
Əkdim, bişdim, sovurdum,
Arxama şələləndim.

Mən aşiq yaza dərdim,
Katib yox yaza dərdim.
Fağır bülbüllər kimi,
Qalıbdı yaza dərdim.

Bülbül ötənə dərdim,
Yetdi bu tənə dərdim.
Qoy çıxım yol üstünə,
Deyim yetənə dərdim.

Əzizim qara dərdim,
Mev əkdim, qora dərdim.
Bircə həmdəm tapılmaz,
Aparram gora dərdim.

Əzizim dedi dərdim,
Yar gəldi, dedi dərdim.
Gəl düş mən düşən dərdə,
Onda bil nədi dərdim.

Dağdan ünüm keçirtdim,
Qara günüm keçirtdim.
Ağladım, bacarmadım,
Güldüm, günüm keçirtdim.

Aşiqəm nə sin, deyim,
Nə əlif, nə sin deyim.
Günüm qarətə keçdi,
Halımın nəsin deyim?

Qışdı, yazdı, neyniyim,
Əldə sazdı, neyniyim.
Qamətin qiyamətdi,
Ağlın azdı neyniyim.

Göy üzü  kilim-kilim,
Dəydi budağa neylim?
Yarım məndən küsübdü,
Gəlmir otağa neylim?

Əzizim yada neylim?
Yad oğlu yada neylim?
Görür ahu-naləmi,
Gəlmir imdada, neylim?

Bivəfa yara neylim?
Geyinib xara neylim?
Kəklik, turac ovlağı
Qalıbdı sara, neylim?

Qərənfil əsdi, neylim?
Səbrimi kəsdi, neylim?
Özü dost, qəlbi qara,
Mən belə dostu neylim?

Bağa su keçdi, neylim?
Gülləri biçdi, neylim?
Aləmə can paylandı,
Bizə qəm düşdü, neylim?

Aşıq ovanı neylim,
Dərdi sovanı neylim?
Mənə özün gərəksən,
Quru duvanı neylim?

Tambur saz oldu, neylim?
Ördək qaz oldu, neylim?
Mən bir azara düşdüm,
Səbəb qız oldu, neylim?

Dərd-qəmim çoxdu, neylim?
Ürəkdə oxdu, neylim?
Düşdüyüm bu bəlanın
Çarəsi yoxdu, neylim?

Eləmi günü neylim?
Gün vermir günü neylim?
Ər döyür, baldız döyür,
Mən belə günü neylim?!

Bağa su düşdü, neylim?
Tənək su içdi, neylim?
Allah pay paylayanda
Mənə bu düşdü, neylim?

Çovğun mənim, bad mənim,
Ömrüm üzür yad mənim.
Cəfa çəkdim, yar sevdim,
Yar özgənin, ad mənim.

Barmağım beşdi mənim,
Günlərim keçdi mənim.
Cəfa çəkdim, yurd saldım,
Axırım heçdi mənim.

Hanı dərmanım mənim,
Dərdim, dərmanım mənim?
Cəlladın əlində ox,
Ölüm fərmanım mənim.

Yandı bu canım mənim,
Töküldü qanım mənim.
Zamana aldı əldən
Dinim, imanım mənim.

Yad üzdü canım mənim,
Axıtdı qanım mənim.
Ömrü başa vurmağa,
Yoxdu gümanım mənim.

Dərd mənim, dözüm mənim,
Keçməyir sözüm mənim.
Ölsəydim, qurtarardı
Həsrətdən gözüm mənim.

Ümman dərdim var mənim,
Könlüm olur xar mənim.
Məskənim dağlar başı,
Həmdəmimdi qar mənim.

Başıma küllər mənim,
Gözümə millər mənim.
Əydi şux qamətimi
Bu uzun illər mənim.

Mən neynim, özüm neynim?
Bu dərdə dözüm neynim?
Ah çəksəm, aləm yanar,
Çəkməsəm, özüm neynim?

Qapıda qalma, yetim,
Sadağa alma, yetim.
Yazığam, ah odunu
Canıma salma, yetim.

Sən yetim, mən də yetim,
Asta get, mən də yetim.
Sən muradına yetdin,
Gün olsun mən də yetim.

Qapının yanı yetim,
Sözümün canı yetim.
Yeyib doyandan sonra
Deyərlər, hanı yetim?

Əzizim günə yandım,
Gün çıxdı, günə yandım.
Aləm bir dəfə yansa,
Mən dönə-dönə yandım.

Yatmış idim, oyandım,
Dərdə, qəmə boyandım.
Daş olsaydım, əririrdim,
Torpaq idim dayandım.

Əzizim ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim, vəfan budur,
Sənə bel bağlamazdım.

Ax-vay dedim, qarıdım,
Ax-vaydan nə yarıdım.
Təzə yağan qar idim,
Gün dəyməmiş əridim.

Yarın könlün alaydım,
Dərdim yada salaydım.
Qismətim belə imiş,
Gərək yalqız qalaydım.

Qayadan atılaydım,
Qul olub satılaydım.
Bivəfa yar əlindən
Öləydim, qurtulaydım.

Aşıqla tən olaydım,
Sazla ötən olaydım.
Əğyar canın almağa
Əzrail mən olaydım.

Qara qazan asaydım,
Altda çırpı basaydım.
Sözündən dönən qızı
Saçlarından asaydım.

Gəzib arxa dolandım,
Sap tək çarxa dolandım.
Zalım fələk əlindən
Qorxa-qorxa dolandım.

Dağ üstə hara baxdım,
Yar gəldi, yara baxdım.
Sənin üzün gülmədi,
Mənim də qara baxtım.

Saraydan sabun asdım,
Sən mənim əziz dostum.
Hər nə dedin, sən dedin,
Mən nə dedim, sən küsdün?

Günümü qara yazım,
Yoxumdu çara, yazım.
Ürək dəftərim dolub,
Dərdim var, hara yazım?

Əzizim yara yazım,
Tükəndi çara yazım.
Günümün hər vərəqi
Dolubdu, hara yazım?

İlxıdan at paylayım,
Olsa on qat paylayım.
Orucdan nə gördüm ki,
Fitrə-zəkat paylayım?

Bağda bar olan canım,
Heyva, nar olan canım.
Bivəfa yardan ötrü
Solub, saralan canım.

Eləmi şəkər canım,
Hər dərdi çəkər canım.
Nə haqqım var, nə müzdüm,
Bəylərə nökər canım.

Mən aşiq xırda yarım,
Görünməz burda yarım.
Xoyrad sözilə məni
Çuladı dərdə yarım.

Bu dağda qalan oldum,
Dillərdə talan oldum.
Hər bir dərdini çəkdim,
Axır mən yalan oldum.

Çöllərdə bostan oldum,
Dillərdə dastan oldum.
Taleyim bəd gətirdi,
Aşnadan, dostdan oldum.

Əzizim üzdən oldum,
Söhbətdən, sözdən oldum.
Bir bivəfa yolunda
Ağladım, gözdən oldum.

Nalə çəkdim, ah tutdum,
Gah əyləndim, gah tutdum.
Eldə bir dərdli gördüm,
Öz dərdimi unutdum.

Mən bir bəlalı quşdum,
Dağdan qayaya uçdum.
Enib gülə qonurdum,
Nə pis tikənə düşdüm.

Yarımı çayda gördüm,
Əlində bayda gördüm.
Nə öpdüm, nə dişlədim,
Bundan nə fayda gördüm.

Qarşıda sarı gördüm,
Tərlanı, sarı gördüm.
Zabit, yarın meyl eylər
Rəqibə sarı gördüm.

Eləmi hala düşdüm,
Yaman bir hala düşdüm.
Mən ki qaldan uzaxdım,
Nədən bəs qala düşdüm?

Əzizim xəstə düşdüm,
Yıxıldım, xəstə düşdüm.
Fələyin dustağına
Qolları bəstə düşdüm.

Əzzim yadolan gözüm,
Ya dön, ya dolan gözüm.
Ağlamasın neyləsin,
Yardan yad olan gözüm.

Bağında vardı üzüm,
Dərdim nimçəyə düzüm.
Dərd-qəm məni saraldıb,
Yenə gülür bəd üzüm.

Bağban könlüm, bar könlüm,
Heyva könlüm, nar könlüm.
Gülməklə aram yoxdu,
Ağlamağa var könlüm.

Dumanlı dağlar, könlüm,
Niskilli bağlar, könlüm.
Nə açılmaz, nə gülməz,
Həmişə ağlar könlüm.

A mənim turac könlüm,
Qırğı gəldi, qaç könlüm.
Çəkil dağlar başına,
Qəm kitabın aç, könlüm.

Dəmir könlüm, daş könlüm!
Hicran gəldi, qaş könlüm!
Çəkil viran küncünə,
Qəm dəftəri aş, könlüm!

Mənim bu yanmış könlüm,
Dərdlə qalanmış könlüm,
Bildir nədən xoş keçdi
Bu il talanmış könlüm.

Dağın maralı qurban,
Gözün qaralı qurban.
Sənin təzə yarana
Köhnə yaralı qurban.

Mən aşiqəm yaxa qan,
Ya sultanam, ya xaqan.
Belə hənəkmi olu?
Əl qan, üz qan, yaxa qan.

Ülkər qandı, Qəmər qan,
Dərə, təpə hamar qan.
Dərdli sinəm odlanıb,
Qan üstünə damar qan.

Sürü endi qayadan,
Yükün tutdu tayadan.
Yar dalınca dolaşdım,
Düşdüm abır-hayadan.

Mən öldüm ağlamaqdan,
Arxa su bağlamaqdan.
Bağda xəzəl qalmadı
Yarama bağlamaqdan.

Yaralandım yanımdan,
Quşlar doymaz qanımdan.
Fələk bir dərdə saldı,
Əl çəkdim öz canımdan.

Heç dərmədim barımdan,
Əlim üzdüm yarımdan.
Dağlar dumana döndü
Mənim ahu-zarımdan.

Uzaq keç o divandan,
O xandan, o divandan.
Gözgörə rüşvət alır,
Qorxuram o divandan.

İçdik dərd ayağından,
Dostam dərdə yaxından.
Qəm başından Bikəsin,
Tutmuş dərd ayağından.

Qaşların qarasından,
Qoy öpüm arasından.
Gec tapdım, tez ayrıldım
Zalımın balasından.

Köynəgin sarısından,
Od tutub yarısından.
Səni məndən eyliyən
Dönübdü Tarısından.

Nə istər Tarı yardan,
Əl çəksin barı, yardan.
Fələyin qaydasıdı,
Ayırır yarı yardan.

İşim aşmadı başdan,
Gözüm doymadı yaşdan.
Fələk mənə versəydi,
Verərdi əzəl başdan.

Mən gəlirəm Ağdaşdan,
Papağım düşdü başdan.
Bu qız mənə yar olmaz,
Eylər qohum-qardaşdan.

Mən aşiq o da giryan,
Mən giryan, o da giryan.
Dedim odumu söndür,
Demədim oda gir, yan.

Dolanır keçir zaman,
Fələk vermir bir aman.
Nə dostda etibar var,
Nə yarda əhdü peyman.

Əzizim o balıqnan,
Dəryada o balıqnan.
Bir vədəsiz yel əsdi,
Yandıq biz obalıqnan.

Gülü dərdim budaqnan,
Sallanıb gəl bu dağnan.
Sənə yaxşı deməzlər,
Mən ölərsəm bu dağnan.

Bu dağların barınan,
Görmədim nobarınan.
Mərd olan da dönərmi
Verdiyi ilqarınan?

Araz gəlir daşınnan,
Suyu qalxır başınnan.
Əzəli dumduruydu,
Bulandı göz yaşınan.

Qızılgülsən, butasan,
Dostu əziz tutasan.
Mənə quru söz verdin,
Könül verdin yada sən!

Aşnadansan, yaddansan,
Aşna tutdun yaddan sən.
Nə ahın candan gedər,
Nə çıxarsan yaddan sən.

Dağların maralı can,
Gözlərin qaralı can.
Əl dəyər-dəyməz ağlar,
Fələkdən yaralı can.

Eləmi mən pərişan,
Halım yoxdu danışam.
Varmı mənim kimisi,
Dərdi dərdə qarışan?

Bir quş gəlir Dərbənddən,
Yükün tutubdu qənddən.
Sinəmdə bir dəftər var,
Yazılıbdı hər dərddən.

Keçirdim məhlənizdən,
Səs gəldi dəhnənizdən.
Gündə bir xəbər gəlir.
Dağılmış məhlənizdən.

Gedərəm elinizdən,
Düşmərəm dilinizdən.
Bir yaşılbaş sonayam,
Uçaram gölünüzdən.

Aşıq deyər Əlidən,
Sözün başlar bəlidən.
Ağlı kəm canana bax,
Küsübdü mən dəlidən.

Quşum qaçdı tüləkdən,
Qolum sındı biləkdən.
Mənimki belə gəldi,
Çarxı dönmüş fələkdən.

Su tükəndi sənəkdən,
Sənək sındı biləkdən.
Bir yaman günə düşdüm,
Qurtarmadım kələkdən.

Mən aşiqəm əzəldən,
Yar yarın verməz əldən.
Dostum var, düşmənim var,
Salma məni nəzərdən.

Bağı gəzdim əzəldən,
Dəstə tutdum xəzəldən.
Bilsəydim vəfan budu,
Dost olmazdım əzəldən.

Dağa çıxdım əzəldən,
Ömür getdi tez əldən.
Yoxsulluq ayrı saldı,
Məni səntək gözəldən.

Əziziyəm məndildən.
Başa örtmüş məndildən.
Deyən dedi qurtardı,
Qurtarmadım mən dildən.

Ay gəldi keçdi ildən,
Sular bulandı lildən.
O qədər yalvardım ki,
Axır düşdüm mən dildən.

Ayrıldım Əsədimdən,
Canımdan, cəsədimdən.
Bu gün də dərdim artdı
Gündəlik rəsətimdən.

Fələyin dad əlindən,
Olmuram şad əlindən.
Bağlar xəzələ döndü,
Töküldü bad əlindən.

Əlli səndən, yüz məndən,
Xəyal keçər yüz məndən.
Qanlı yaşım axmaqdan,
İnciyibdi yüz məndən.

Əlifin beyi məndən,
Aldılar heyi məndən.
Ürəyimtək nalə çək,
Çalmağa neyi məndən.

Ovçunun gəşti məndən,
Ox dəydi, keçdi məndən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Təbilin sinci məndən,
Dürr məndən, inci məndən.
Dedim vəfalı dost ol,
Demədim inci məndən.

İl alır ayı məndən,
Günləri, sayı məndən.
Yar ox atır qəlbimə,
Gizlədir yayı məndən.

Dağların qarı məndən,
Bağların barı məndən.
İnsafsız yara bir bax,
Əsirgər narı məndən.

Dərya səndən, sal məndən,
Yaşıl səndən, al məndən.
Fələk, zülmün bəs eylə,
Gəl bu canı al məndən!

Bağa girsən bar məndən,
Heyva məndən, nar məndən.
Bilmədim nə dedim ki,
İnciyibdi yar məndən.

Mən aşiq ölkə səndən,
Qorxuram yolkəsəndən.
Dağlar, qüzeyli könlüm,
Heç getməz kölgə səndən.

Əzizim dad əlindən,
Fələyin dad əlindən.
Canım cəzana gəldi,
Hər gün fəryad əlindən.

Fələyin öz əlindən,
Açmadım göz əlindən.
Kimə edim şikayət,
Bəxtimin əzəlindən?

Haray naşı əlindən,
Atmaz daşı əlindən.
Yastıq şikayət eylər
Gözüm yaşı əlindən.

Haray naşı əlindən,
Atmaz daşı əlindən.
Özü bir şux tərlandı,
Dad qardaşı əlindən.

Fələyin ay əlindən,
Hey düşmür yay əlindən.
Öləydim, qurtaraydım,
Dünyada vay əlindən.

Haray yetim əlindən,
Yan ver ötüm əlindən.
Qaçıram, can qurtarım,
Yenə tutur əlimdən.

Tərlanım sar əlindən,
Dərd çəkir xar əlindən.
Canım cəzana gəldi
Bivəfa yar əlindən.

Mən aşiq, əllisindən,
Yüzündən, əllisindən.
Dərdimin dərmanını
Soruşdum əllisindən.

Bir quş gəlir Tərtərdən,
Kətan köynək, ağ gərdən.
Bu qız bizə yar olmaz,
Axır eylər sərgərdən.

Əziziyəm bağ ilən,
Bağça ilən, bağ ilən.
Dedin aranda gözlə,
Yolun saldın dağ ilən.

Dolan gəl bu dağ ilən,
Gülü dər budaq ilən.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağ ilən.

Dərya dolu lil ilən,
Bülbül oynar gül ilən.
Aləmə can bağışlar,
Məni saxlar dil ilən.

Əziziyəm, naqqa mən,
Çayda tutdum naqqa mən.
Sürürəm qəm atını,
Çatammıram haqqa mən.

Əziziyəm qulam mən,
Ağa sənsən, qulam mən.
Qoymayırlar danışam,
Deyirlər ki, qulam mən.

Söz vermərəm yada mən,
İçməmişəm bada mən.
Bivəfanın əlindən
Kimə gedim dada mən?

Geyinmişəm qara mən,
Tuş olmuşam sara mən.
Nə qədər cəfa çəkdim,
Yaraşmadım yara mən.

Gəldim əldə əsa mən,
Torpaq basa-basa mən.
Yar üz döndərdi getdi,
Batıb qaldım yasa mən.

Əziziyəm yoxsa mən,
Gülmü dərim, yox səmən?
Sən sevdin, sən usandın,
Dəli sənsən, yoxsa mən?

Əziziyəm bir də mən,
Doldur içim bir də mən.
Ömür keçdi, gün keçdi,
Cavan olmam bir də mən.

Göy üzündə pərdə mən,
Düşdüm yaman dərdə mən.
Sən yatdın nazbalıncda,
Qaldım quru yerdə mən.

Mixək əkdim mərzə mən,
Bağlamadım dərzə mən.
Bivəfa yar əlindən
Kimə gedim ərzə mən.

Dağdan endim düzə mən,
Tikan oldum gözə mən.
Ayırdınız yarımdan,
Neyləmişdim sizə mən.

Lələ mənəm, lələ mən,
Dinməyirəm hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən.

Bağlamışam şələ mən.
Yük altdayam hələ mən.
Fələk çəkən bu dağa
Dözəmmərəm belə mən.

Bağında var yasəmən,
Süsən, sünbül, yasəmən.
Yardan ayrı düşəli
Qərq olmuşam yasa mən.

Bu yerin xanıyam mən,
Eşqin sultanıyam mən.
Yerbəyerdən vurursuz
Məyər moltanıyam mən?

Şəftəliyəm, kalam mən,
Dilim yoxdu, lalam mən.
Varlı yerdən qız sevdim,
Pul tapmadım alam mən.

Əziziyəm qulam mən,
Ağa sənsən, qulam mən.
Qoymayırlar danışam,
Deyirlər ki, qulam mən.

Dağlarda dağınam mən,
Məclisdə sağınam mən.
Səndə bu nə baxışdı?
Elə bil yağınam mən.

Nə desən qanıram mən,
Səni yar sanıram mən.
Mənə od nə gərəkdi,
Odsuz da yanıram mən.

Bir buynuzlu qoçam mən,
Yerim yoxdu, qaçam mən.
Ürəyim süfrə deyil,
Hər yetənə açam mən.

Sözüm yara dedim mən,
Barın dərdim yedim mən.
Sərgərdan qoydun məni,
De bəs hara gedim mən?

Yer-yemişin yedim mən,
Ürək sözüm dedim mən.
Heç Allaha rəvadı,
Ağsaqqala gedim mən?

Bir canım var keçdim mən,
Qəm şərbətin içdim mən.
Fələk mənə qarğadı,
Səndən ayrı düşdüm mən.

Şuxum mən, ay şuxum mən,
Kimin könlün yaxım mən.
Girdim yar bağçasına,
Nə dərdim ki, çıxım mən.

Bu arxları atan mən,
Suyu suya qatan mən.
Kölgəlik yada qaldı,
Gün altında yatan mən.

Bayquş mənəm, bayquş mən,
Hər quşlardan say quş mən.
Nə bəlalı quş oldum,
Sızıldaram yay, qış mən.

Dərya dolu lilinən,
Balam oynar gülinən.
Aləmə can bağışlar,
Məni saxlar dilinən.

Daş gəlir sellərinən,
Dərd gəlir yellərinən.
Yarın dərdi öldürməz,
Yandırar illərinən.

Dağlar dağınca sənnən,
Bağlar bağınca sənnən.
İncimişəm, küsmüşəm
Ağrı dağınca sənnən.

Mən aşiq bağı sənnən,
Bağbanın bağı sənnən.
Bağa bağban tutdular,
Aldılar bağı sənnən.

Fələyin dad əlinnən,
Can üzdüm bad əlinnən.
Nə öldüm, nə qurtardım,
Burda fəryad əlinnən.

Haray naşı əlinnən,
Atmaz daşı əlinnən.
Yastıq şikayət eylər
Gözüm yaşı əlinnən.

Uzaq getmə, qal mənnən,
Yaşıl mənnən, al mənnən.
Ya bu dərdə şərik ol,
Ya bu canı al mənnən.

Bulağın başına sən.
Dibinin daşına sən.
Düyün qoydun, dağ çəkdin
Ürəyim başına sən.

Nə batmısan qara sən,
Könül yara-yara sən.
Nə tükənməz dərd oldun,
Nə sağalmaz yara sən.

Əziziyəm yara sən,
Könül yara-yara sən.
Nə elə kömək oldun,
Nə hay verdin yara sən.

Əzizim bez tikibsən,
Ağ donun bez tikibsən.
Mənim gözüm səndədi,
Sən kimə göz tikibsən?

Əziziyəm gündə sən,
Kölgədə mən, gündə sən.
Can almaq bir gün olar,
Canım aldın gündə sən.

Mən aşiqəm keşkəsən,
Körpü üstən keşkəsən.
Gəldin dərdim artırdın,
Gəlməyəydin keşkə sən.

Əziziyəm enəsən,
Dağ başından enəsən.
Dostluqda nə oldu ki,
Uzaqlaşdın yenə sən?

Mən aşiqəm yarəsən,
Bayqu, meyli yara sən.
Nə tükənməz dərd oldun,
Nə sağalmaz yara sən.

Gəldin ki, yüz görəsən,
Yüz göstər, yüz görəsən.
Evin yıxdın aşiqin,
Yüz görə, yüz görə sən.

Fələk, necə fələksən,
Başa gətdin kələk sən.
Yarım əlimdən getdi,
Daha nəymə gərəksən?

Mən aşiqəm bağ üstən,
Elat köçər dağ üstən.
Bivəfa yar sinəmə,
Dağı çəkib dağ üstən.

Əzizim səfa gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə mən öldüm qurtardım,
Nə sən insafa gəldin.

Əzizim kəsə gəldin,
Yolları kəsə gəldin.
Vədə verdin gəlmədin,
Ağladım, səsə gəldin.

Bu dağda çəkdim əkin,
Aldılar əlimdəkin.
Heç kafər, heç müsəlman,
Olmasın mənim təkin.

Aşiqin çoxdu sənin,
Kirpiyin oxdu sənin.
Yolunda can üzürəm,
Xəbərin yoxdu sənin?

Aşiq ala gözlərin,
Canım ala gözlərin,
Qorxuram düşəm öləm,
Yada qala gözlərin.

Mən aşiqi dərd əysin,
Əlif qəddin dərd əysin.
Sən orada şad ol gəz,
Məni burda dərd əysin.

Bu dağlar məzələnsin,
Göy geysin, təzələnsin.
Nə gözüm səni görsün,
Nə dərdim təzələnsin.

Çırağın gizli yansın,
Şölə ver, gizli yansın.
Bacı bacı oduna
Yananda gizli yansın.

Oydun, yaramı oydun,
Tutdun maralı soydun.
Qəm dağı basılmamış,
De, bir haramı qoydun?

Məs geyinib, məsi var,
Canında əsməsi var.
Qorxuram verməsinlər,
Bir zalım nənəsi var.

Ovçunun hər nəsi var,
Belində qəməsi var.
Minib hicran atına,
Olmuşam qəmə süvar.

Əzizim Leylisi var,
Məcnunun Leylisi var.
Yarı nakam gedənin
Əlbət gileylisi var.

Xan Kərəmin bağı var,
Girmə bağa, yağı var.
Dindirmə, qan ağlaram,
Sinəmdə yar dağı var.

Getmə, oğlan, yağı var,
Belində belbağı var.
Dul kişiyə getmərəm,
Saqqalında ağı var.

Qızıldan tanası var,
Əlində hanası var.
Gözləyirəm, gəlməyir,
Yəqin bir mahnası var.

Aşiqin ya xası var,
Təşnəyəm, yaxa suvar.
Fələk, əlin dəyməmiş
Gör kimin yaxası var?

Mən aşiqəm yüz yal var,
Bir gədik var, yüz yal var.
Fələk bildiyin eylər,
Sən istərsən, yüz yalvar.

Əziziyəm nə dəm var,
Nə söhbət var, nə dəm var.
Dəyirmana getməyə,
Nə ulaq var, nə dən var.

Ağır keçən ilim var,
Söz tutmayan dilim var.
Məni zorla gətirdin,
Mənim burda kimim var?

Bir quşam, qanadım var,
El-obada adım var.
Əlini üzmə məndən,
Qohumdan çox yadım var.

Bu dağda maralım var,
Ox dəymiş yaralım var.
Nə gecələr yuxum var,
Nə gündüz qəralım var.

Dağ üstə güzarım var,
Ürəkdə azarım var.
Yar yanına qoymasa,
Getməyə məzarım var.

Başımda külahım var,
Sənin tək pənahım var.
Göz görür, könül sevir,
Mənim nə günahım var.

Hər bulaqda gülün var,
Sənin tək pənahım var.
Gizlətmə, gəl açıq de,
Ürəyində kimin var?

Dağ başına töküb qar,
Bağ-bağçaya çöküb qar.
Bir bülbüləm qəfəsdə,
Dörd yanımı alıb sar.

Aşiq diyarbadiyar,
Xalın diyarbadiyar.
Fələk tutdu qolumdan,
Atdı diyarbadiyar.

Nə ölkədi, nə diyar,
Peymanın de, nədi yar?
Qoydun kəməndə məni,
Atdın diyarbadiyar.

Bu dağda ovdadı yar,
Ördək, qaz novdadı, yar.
Söz verdin görünmədin,
Bu necə sevdadı, yar?

Bir gül verdim aldı, yar,
Boynuma qol saldı yar.
Düşmən yolumu kəsdi,
Evdə yalqız qaldı yar.

Əzizim maralım yar,
Gözüm yar, qaralım yar.
Necə rəva görürsən,
Gül təkin saralım, yar?

Gecəm yar, gündüzüm yar,
Ülkərim, ulduzum yar.
Aləm qucar yarımı,
Mən qucaram dizim yar.

Əlində gül tutan yar!
Ağ otaqda yatan yar!
Sevdin, sevdin, tərk etdin,
Allahdan bir utan, yar!

Pəncərədən baxan yar,
Telinə gül taxan yar.
Söz verib, üz döndərib,
Yandırıban, yaxan yar!

Ay sallanıb gedən yar!
Arxalığın nədən yar?
Sən ki belə deyildin,
Səni bir öyrədən var.

Nə sözün var dedin yar?
Saçların hörmədin yar.
Ürək alışdı, yandı,
Tüstüsün görmədin, yar.

Araxçının yan qoyar,
Yan götürər, yan qoyar.
Qabaqda duran oğlan
Ürəyimə qan qoyar.

Xınanı teldən qoyar,
Kəməri beldən qoyar.
Gözüm görməz o yarı,
Sevdiyin əldən qoyar.

Dərya susuzmu qalar?
Dibi qumsuzmu qalar?
Dünyada sağ adamın
Könlü yarsızmı qalar?

Göllərdə var bağalar,
Ürəkdə dağdağalar.
Yarın vurduğu yara
Məhşər günü sağalar.

Halalar, ay halalar,
Dağda laçın balalar.
Ana balasın verməz,
Bəlkə zorla alalar.

Əziziyəm yaralar,
Yar könlünü yar alar.
Fələk vurub qəlbimə
Sağalmayan yaralar.

Aşiq daşın ab ağlar,
Xalın daşına bağlar.
Bülbülün naləsindən
İstər daşına bağlar.

Aşiq, mərdə nə bağlar?
Gümüş gərdənə bağlar.
Gedək dərdli yanına,
Görək dərdə nə bağlar?

Dolan, gəz binə, bağlar,
Könül Qəzvinə bağlar.
Gözüm yaşı göl olub,
Ördək, qaz binə bağlar.

Aşiq süsəni bağlar,
Sünbül, süsəni bağlar.
Bağbanlar su yerinə,
Yaşım su səni bağlar.

Mən aşiq bu şam bağlar,
Şam bağçalar, şam bağlar.
Könlüm elə virandı,
Arı gəlsə, şan bağlar.

Bu bağlar hərəm bağlar,
Gülü yox, dərəm, bağlar.
Zamana belə getsə,
Ürəyim vərəm bağlar.

Düşübdü pərən bağlar,
Kölgəsin sərən bağlar.
Günlərim belə keçsə,
Ürəyim vərəm bağlar.

Əzziyəm nobar bağlar,
Gül tökər nobar bağlar.
Günlərim belə keçsə,
Ürəyim qubar bağlar.

Bar verər dolu bağlar,
Qar yatar, dolu bağlar.
Bağbanı apardılar,
Qurudu dolu bağlar.

Əzizim küsü bağlar,
Dindirmə, küsü bağlar.
Mən yara neylədim ki,
Yar məndən küsüb ağlar.

Mey dağlar, məzə dağlar,
Yar sizdə gəzə, dağlar.
Köhnəlmiş dağ üstündən
Çəkildi təzə dağlar.

Qarşımızda ya dağlar,
Ya dügünlər, ya dağlar.
Aşiq, Yaxşın ölübdü,
Qohum gülər, yad ağlar.

Bağçasız, barsız dağlar,
Dumansız, qarsız dağlar.
Mən sizə arxalandım,
Siz olduz karsız, dağlar.

Yatıbsan, oyan, dağlar,
Al-yaşıl boyan, dağlar.
Bura zülmətxanadı,
Necədir o yan, dağlar?!

Dostluqdan bərin dağlar,
Çeşməsi sərin dağlar.
Yad ovçuya yar oldun,
Bir utan, ərin, dağlar.

Düşüb üzülün, dağlar,
Qalxıb, düzülün, dağlar.
Ləb təşnə, ciyər odlu,
Sinəmi zülüm dağlar.

Nədən ağlar bu dağlar,
Xəzəl tökər budağlar.
İllər keçsə sağalmaz
Namərd çəkən bu dağlar.

Yad gəldi, doldu dağlar,
Saraldı, soldu dağlar.
Ürəyimin odundan
Yandı, kül oldu dağlar.

Bostan ağlar, lək ağlar,
Qərib dərdin tək ağlar.
Elə dərdə düşmüşəm,
Ayaq altda xak ağlar.

Xar əlindən gül ağlar,
Gül ağlar, sünbül ağlar.
Bağçaya xəzan gəlsə,
Yaş tökər, bülbül ağlar.

Əziziyəm qan ağlar,
Qan-yaş tökər, qanağlar.
Yar yara saz olmasa,
Dərdini pünhan ağlar.

Bu yoldan gedən ağlar,
O nazik bədən ağlar.
Mən ki yarı sevirəm,
Bəs yarım nədən ağlar?

Bu yoldan gedən ağlar,
O nazik bədən ağlar.
Soyulan qəflə mənim,
Kiradar nədən ağlar.

Mən aşiq düşən ağlar,
Atlanan, düşən ağlar.
Düşdü aşiq gözünə
Zülfünə düşən ağlar.

Əzizim quşun ağlar,
Uçurub quşun ağlar.
Var-yoxu gedən mənəm,
Kirəkəş nöşün ağlar?

Aşiqəm yüz gün ağlar,
Qaş, gözü süzgün ağlar.
Yarından əli çıxan
Bir gəlsə, yüz gün ağlar.

Mən aşiqəm yar ağlar,
Yolum kəsdi yarağlar.
Ayrılıq, yəqin ola,
Mən ağlaram, yar ağlar.

Əzizim nə xandılar,
Nə sultan, nə xandılar.
Apardılar yarımı,
Tayfalıqca dandılar.

Yol kəsib haramılar,
Dərd çəkir yaralılar.
Siz Allah, yar cavandı,
Dəyməyin, haramılar!

Əzizim ya saraylar,
Yapılmış ya saraylar.
Üstümə hücum etdi
Pis günlər, yassar aylar.

Mən aşiqəm hər aylar,
Hər həftələr, hər aylar.
Başım cəllad əlində,
Dilim səni haraylar.

Bu dağda xal-xal oylar,
Ov gəzər, xal-xal oylar.
Fələk vurduğu yara
Sinəmi xal-xal oylar.

Əzizim almadılar,
Yolladım, almadılar
Can qoydum bu qəfəsə,
Yalvardım almadılar.

Ürəkdə yara sızlar,
Hovlanıb yara sızlar
Yaralılar dərdini
Nə bilər yarasızlar.

Sarvanda maya bozlar,
Nər bozlar, maya bozlar.
Mənim qurumuş dilim
Hərdən bir vaya bozlar.

Bikəsəm, gülə damlar,
Göz yaşım gülə damlar.
Dünya yenilsə yegdir
Solunca gül adamlar.

Eləmi acı damlar,
İtirib acı damlar.
Şah yanına gedənin
Gözündən acı damlar.

Yığılıb oturanlar,
Dərdimi artıranlar,
Mənə bir çarə deyin,
Bu dərddən qurtaranlar.

Gün dolanar, ay olar,
Pis gün aya tay olar.
Harda ki şahlıq oldu,
Cəllad olar, vay olar.

Dağlarda qar, qış olar,
Könlümə qar, qış olar
Sonsuzun şirin sözü
Fələyə qarğış olar.

A quşlar, ağa quşlar,
Qonubdu bağa quşlar.
Kəsdilər ağacları,
Uçuşdu dağa quşlar.

El bu dağda ya qışlar,
Ya köç elər, ya qışlar.
Başım cəllad əlində,
Nə vurar, nə bağışlar.

Əziziyəm qan damar,
Arı vurar, qan damar.
Kasıblıq adın çəkmə,
Ürəyimə qan damar.

Əzziyəm damar-damar,
Göy üzü damar-damar.
Kəsəm düşmən dilini,
Doğrayam damar-damar.

Əzizim damar-damar,
Sifətindən qan damar.
Şişə könlüm sınarsa,
Bəs onu kimim yamar?

Gözlə, zülfün bad vurar,
Bad əlindən dad vurar.
Dərddən aman deyənin
Boynunu cəllad vurar.

Aşiq haraya çatar,
Oğul haraya çatar.
Bu iş Allah əmridi,
Haray haraya çatar.

Günlər hər aya çatar,
Gələr hər aya çatar.
Başım cəllad əlində,
Əlim haraya çatar?!

Əzizinəm nə bahar,
Nə qış, nə yaz, nə bahar.
Zəhməti bülbül çəkdi,
Gülü qucdu yenə xar.

Qateq daşar, Kür daşar,
Çıxıb körpüdən aşar.
Mən dərdimi danışsam,
Dağlar, daşlar ağlaşar.

Qəlyanı çəkənə ver,
Doldurub çəkənə ver.
Bu dərdi çəkəmmənəm,
Apar get, çəkənə ver.

Əzzim gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

Dəvələr qatar gedər,
Gecəni yatar, gedər.
Yar ki bivəfa çıxdı,
Yarını atar gedər.

Dağ başında sar gedər,
Tərlanı busar gedər.
Zəhləm gedər o yardan,
Hər gecə küsər gedər.

Yaman gün keçər gedər,
Ömrümü biçər gedər.
Dünyada qəm şərbətin
Hər gələn içər gedər.

Əlində fanar gəzər,
Gəzdikcə yanar gəzər.
Bir kəs ki yoxsul olsa,
Dost ondan kənar gəzər.

Əzizim gülə bənzər,
Qönçəyə, gülə bənzər.
Yardan gileylənən yar
Dərdli bülbülə bənzər.

Oxun yetimə dəyər,
Atma, yetimə dəyər.
Açma yetim ağzını,
Yetim yetimə dəyər.

Əzizinəm baş əyər,
Yolu bu dağ, daş əyər.
Zaman necə zamandı,
Mərd namərdə baş əyər.

Şam yanar, yağ əriyər,
Piltədə yağ əriyər.
Dərdimi dağa desəm,
Dözməyər dağ əriyər.

Mən aşiq dara çəkər,
Zülfünü dara çəkər.
Şahın qəzəbi tutsa,
Hökm elər, dara çəkər.

Aşiq Qaraman çəkər,
Xalı qaraman çəkər.
Yarın savuq üzündən
Dağda qar aman çəkər.

Aşıq gəzər, gərd elər,
Dolanar, vargərd elər.
Orucluq ayı gəldi,
Yoxsul hər gün dərd elər.

Ahular mələr gələr,
Dağları dələr gələr.
Bivəfa yar əlindən,
Gör başa nələr gələr?

Aşıq əldə saz gələr,
Ördək uçar, qaz gələr.
Yoxsul pis gün keçirər,
Gözləyər ki, yaz gələr.

Araz başdan lil gələr,
Dəstə-dəstə gül gələr.
Neylərəm belə yarı,
Ayda, ildə bir gələr.

Sel axar, mələr gələr,
Dağ-daşı dələr gələr.
Düşmən gəldi, indi gör
Başıma nələr gələr.

Aşıq yolun çaş gələr,
Gözlərindən yaş gələr.
Yoxsul yağış gözləyər,
Göydən yerə daş gələr.

Bağda maral çaş mələr,
Çaş dolanar, çaş mələr.
Mənim ahu-zarımdan
Dağ inildər, daş mələr.

Gəlir qara gecələr,
Bağrı yara gecələr.
Qəlbi daş, insafsız yar,
Dərdə çarə gec elər.

Gecələr, il gecələr,
Dərdimi bil, gecələr.
Mən burda qan ağlayım,
Sən orda gül gecələr.

Araz daşdı dedilər,
Kür qarışdı dedilər.
Məlhəmi yaramadı,
Həkim qaşdı, dedilər.

Bostanı ləklədilər,
Tağını təklədilər.
Düşdüm nadan əlinə,
Nazımı çəkmədilər.

Çəkməni çəkmədilər,
Çək dedim, çəkmədilər.
Düşdüm qəm dəryasına,
Əlimdən çəkmədilər.

Dəryada mahnı neylər?
Gərdan sürahı neylər?
Ayrılıq özündədir,
Buna ilahı neylər?

Əziziyəm kül eylər,
Ocaq yanar kül eylər.
Varlı yoxsul başına
Yumruq vurar, kül eylər.

Gözəllər güzgü neylər?
Baş bəzər, güzgü neylər?
Qəmə qərq olan könül,
Qəm səni üzgün eylər.

Əziziyəm səs eylər,
Quşlar uçar, səs eylər.
Yar əlindən dərdliyəm,
Bu dərd mənə bəs eylər.

Dərd məni mayıf eylər,
Öldürməz zayıf eylər.
Düşmən görər, şad olar,
Dost görər, "hayıf" eylər.

Əziziyəm gül əllər,
Şana barmaq, gül əllər.
Dəryacan ağlın olsa,
Yoxsul olsan güləllər.

Qızılgülü dərərlər,
Yaylıq üstə sərərlər.
Aralıqda çuğul var,
Səni məndən elərlər.

Qızılgülü dərərlər,
Həşəm üstə sərərlər.
Rəngimi yar saraldıb,
Qızdırmadan görərlər.

Oba qalxdı, köçərlər,
Köçü köçdən seçərlər.
Yetimin göz yaşından
Körpü salıb keçərlər.

Noxuda əz verirlər,
Əlimə saz verirlər.
Düşdüm dərmansız dərdə,
Dərmanım az verirlər.

Araz axar, yan verər,
Səsi mənə can verər.
Yaramı möhkəm bağla,
Bağlamasan qan verər.

Su axar, lillləndirər,
Bağçanı gülləndirər.
Dərdliyə söz deməyin,
Dərd onu dilləndirər.

Mən aşiqəm yar gülər,
Mizrab oynar, tar gülər.
Sona göldən küsəndə
Tərlan ağlar, sar gülər.

Dəyirman belə işlər,
Tovlanıb belə işlər.
Çəkməmiş mənim başım
Gör çəkir belə işlər.

Şirmayı telə işlər,
Dəyirman elə işlər.
Heç kafərin başına
Gəlməsin belə işlər.

Eləmi qaldı səbir,
Qovğadı, qaldı səbir.
Nə yar insafa gəldi,
Nə məndə qaldı səbir.

Tənbəkim tükənibdir,
Çəkməyə tükənibdir.
Xubluğun getdi, aşiq,
Üzünə tük ənibdir.

Bulud gəlir, çən gedir,
Bir-biriylə tən gedir.
Gəlib keçən bu günlər
Bir-bir ömürdən gedir.

Başında şalın nədir,
Danış, xəyalın nədir?
Yanımdan ötüb keçib,
Demirlər halın nədir?

Bu aşiq qəm əridir,
Ay üzün qəməridir.
Atı məhmiz öldürür,
İgidi qəm əridir.

Dərdim vardı nədəndir,
Səbəb o gülbədəndir.
Mənim qanlım fələk yox,
Səni məndən edəndir.

Qızılgül haça bənddir,
Sana gör neçə bənddir.
Bir dərdə düşmüşəm ki,
Ömrüm bir heçə bənddir.

İş qalsa məcəldəndir,
Dağ döşü qəcəldəndir.
Yetimi dərd öldürsə,
Deyərlər əcəldəndir.

Bu dağlar kömürdəndir,
Keçən gün ömürdəndir.
Fələyin bir quşu var,
Caynağı dəmirdəndir.

Bu xəbər nə xəbərdir?
Yaram qəbər-qəbərdir.
Bir yanım köçüb gedib,
Bir yanım bixəbərdir.

Əziziyəm san verir,
Açma, yaram qan verir.
Çöllərdə gəzən Məcnun
Leyli deyib can verir.

Şam yanır, yağda ərir,
Qar yağır, dağda ərir.
Mən düşən dərdə düşsə,
Mum olur, dağ da ərir.

Əzizim nə mindirir,
Nə salır, nə  mindirir.
Dərdlini dindirməyin,
Dərd onsuz da dindirir.

Yarın meyli yadadır,
Söz deməyin qadadır.
Hamının bir dərdi var,
Mənimki ziyadadır.

Yarın özü qaradır,
Qaşı-gözü qaradır.
Yoxsul qonaq istəməz,
Çünki üzüqaradır.

Başında şal xaradır,
Gedir, yolu haradır?
Yarım bivəfa çıxıb,
Gör günüm nə qaradır.

Ülkər Aydan ucadır,
Nə aydınlıq gecədir.
Mənim halım pis keçir,
Sənin halın necədir?

Əzzim oda salıbdır,
Özün oda salıbdır.
Mən yara neylədim ki,
Gözdən o da salıbdır?

Geydiyin arxalıqdır,
Hamidən arxalıqdır.
Hicran əydi aşiqi,
Bu necə arxalıqdır?

Dağların vay qarıdır,
Fərhadı vay qarıdır.
Aşiq der qarımazdım,
Məni bu vay qarıdır.

Əzizim dağ başıdır,
Dağ üstü, dağ başıdır.
Qalada bir toy tutdum,
Şabaşı göz yaşıdır.

Zəlili, yara qandır,
Tir bağrım yaraqandır.
Atma qəmzən xədəngin,
Dəyməsin, yara qandır.

Əziziyəm, nə qandır,
Gözdən axan nə qandır?
Daş deyil, kəsək deyil,
Rəhm eylə, bu ki candır.

Dağda bu nə fəğandır?
Gələn bulud yağandır.
Gedək dərdli yanına,
Görək kim ağlağandır?

Qəlbi qara qazandır,
Dilim ərzə yazandır.
Fələyə bel bağlama,
Fələk pərgar pozandır.

Payız gəlib xəzandır,
Xəzan pərgar pozandır.
Ürəkdə bir dərdim var,
El-obaya yaz, andır.

Səyyad, əldə kamandır,
Oxun atma, amandır.
Yarı intizar qoyan,
Yar deyil, pis zamandır.

Dağlar başı dumandır,
Elin halı yamandır.
Dövran belə dəyişib,
Bəlkə axır zamandır?

Bu gedən yaxşı candır,
Sirrin vermə, amandır.
Mənim bivəfa yarım
Gör kimə mehribandır!

Qaşların qələmgahdır,
Əymə onu günahdır.
Lənkəran duman olsa,
Bil ki, mən çəkən ahdır.

Səyyadda qəmə hazır,
Ov hazır, qəmə hazır.
Gör nə günə qalmışıq,
Lələk də qanun yazır.

Yağış gəlir, dayanmır,
Yar qəflətdən oyanmır.
İkimiz də oddayıq,
Mən yanıram, o yanmır.

Duman dağa yollanır,
Dağdan dağa yollanır.
Mən gör bir nə dərddəyəm,
Yar gör bir nə sallanır.

Bu gedən can aparır,
Düz yolu yan aparır.
Aç zülfün yaram bağla,
Amandı, qan aparır.

O da məni yandırır,
Bu da məni yandırır.
Soyundum, suya düşdüm,
Su da məni yandırır.

Məni canım yandırır,
Qaynar qanım yandırır.
Aləmi od yandırsa,
Məni xanım yandırır.

Babanın hərayı gör,
Hər həftə, hər ayı gör.
Yıxılmış, viran olmuş,
Ömrünün sarayı gör.

Sən mənim baxtımı gör,
Qızıldan taxtımı gör.
Üz döndərib gedən yar,
Bir bəri baxdımı, gör?!

Apar məni bəndə vur,
Zülfünnən kəməndə vur.
Min yara dövran vurub,
Əsirgəmə, sən də vur.

Mən aşiqəm yalda dur,
Gör dünya nə haldadır.
Kimi cır-cındır tapmır,
Kimi geyib şaldadır.

Sonam süzən olubdur,
Göldə üzən olubdur.
Dərd-qəm görməyən canım
Dərdə dözən olubdur.

Gedirəm, yolum budur,
Başıma zülüm budur.
Yar sevib, yerdə qalmaq,
Əcəlsiz ölüm budur.

Dağlarda qalan budur,
Dağa səs salan budur.
Bəla çəkməyən başım,
Çək indi bəlan budur.

Anam ozan olubdur,
Dərdə dözən olubdur.
Haqdan bağlanan dilim
Ərzə yazan olubdur.

Əzizim yaram yoxdur,
Qəm ilə aram yoxdur.
Dərdim sənin dərdindi,
Kimsədən yaram yoxdur.

Yetiməm, atam yoxdur,
Qəribəm, butam yoxdur.
Düşdüm qəm dəryasına,
Qolumdan tutan yoxdur.

Aşıq bir iz görübdür,
Meydanı düz görübdür.
Zülm etməkdən doymayır,
Məni yalqız görübdür.

Gül verdim, yana qoydu,
Sözü pünhana qoydu.
Mən qürbətdə ölürəm,
Yar evdə hana qoydu.

Atlılar kəndə doldu,
Su gəldi, bəndə doldu.
Nə qədər dərdli gəlsə,
Dərmanı məndə boldu.

Bağçalarda yaz oldu,
Bülbül, dərdin az oldu.
Oxu dedim, ağladın,
Bu necə avaz oldu?

Araz başdan az oldu,
Ördək vurdum qaz oldu.
Gücilən bir yar tapdım,
O da kələkbaz oldu.

Arpa biçdim, dərz oldu,
Sözüm xana ərz oldu.
Yardan bir xəbər gəldi,
Ölüm mənə fərz oldu.

Yağış yağdı, yay oldu,
Göydə ulduz say oldu.
Cəfa çəkdim, yar sevdim,
Mənə qalan “vay” oldu.

Dərd verən fələk oldu,
Hər işi kələk oldu.
Məni bu dərdə salan
Bir nazlı mələk oldu.

Bağlar başı tel oldu,
Yel əsdi tel-tel oldu.
Bivəfa yar ucundan
Gözüm yaşı sel oldu.

Sən gedən bir il oldu,
Bağlar yandı, gül oldu.
Vədə verdin, gəlmədin,
Bu nə yaman dil oldu.

Əzizim vağam oldu,
Güllərin vağam oldu.
Evin yıxılsın fələk,
Nökərim ağam oldu.

Bu dağlar daşım oldu,
Sirim-sirdaşım oldu.
Mənə təsəlli verən
Yenə göz yaşım oldu.

Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Hamının bir dərdi var,
Mənə çox zulum oldu.

Dağlar başı qan oldu,
Çən gəldi, duman oldu.
Yar məndən üz döndərdi,
Dərdim bir ümman oldu.

Yar dedim, yalan oldu,
Ömrümə talan oldu.
Hamı yardan yarıdı,
Mənimki yalan oldu.

Ev tikdim, yalan oldu,
Gül ömrüm talan oldu.
Nə çubuğum bərkidən,
Nə keçəm salan oldu.

Düz qəddim kaman oldu,
Əhvalım yaman oldu.
Yandırdı yar könlümü,
Ahımdan duman oldu.

Qərənfil dən-dən oldu,
Dərmədim, xəndən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

Qızılgül dən-dən oldu,
Dərmədim, dən-dən oldu.
Mən əhdə vəfalıyam,
Bu həsrət səndən oldu.

Yetim yetərgin oldu,
Sözü bitərgin oldu.
Yetimə kəc baxdılar,
İtdi, didərgin oldu.

Dağda çən tutqun oldu,
Gəldin sən, tutqun oldu.
Nədəndi ki, ürəyim
Gün-gündən tutqun oldu?

Dağlar başı qar oldu,
Bulud gəldi, tar oldu.
Dünya mənim başıma
Nədən belə dar oldu?

Durnam göydə üç oldu,
Sirəmləndi, üç oldu.
Zorla ərə verdilər,
Cavan ömrüm puç oldu.

Bu gülü şaxta vurdu,
Nə yaman vaxta vurdu.
Bimürvət düşman məni
Dostdan iraxda vurdu.

Gülümü şaxta vurdu,
Nə yaman vaxta vurdu.
Yarım məni vurmuşdu,
Üstündən xalq da vurdu.

Məni bir arı vurdu,
Dimdiyi sarı vurdu.
Arı belə vurmazdı,
Göydəki Tarı vurdu.

Fələk mənə daş vurdu,
Daşın atdı, çaş vurdu.
Qanlı qəm dəryasına
Yar da gəldi baş vurdu.

Durnam göydə düz durdu,
Qatarlandı, düz durdu.
Mən yara xoş söz dedim,
O, pis yerə yozdurdu.

Əzizim talan budu,
İndi çək, bəlan budu.
Dərddən savay nəyim var,
Mənə də qalan budu.

Yetiməm, atam yoxdu,
Bülbüləm, butam yoxdu.
Düşdüm qəm dəryasına,
Əlimdən tutan yoxdu.

Burda yaralı çoxdu,
Göylü-qaralı çoxdu.
Bostanı şirnək vurub,
Tağı yaralı çoxdu.

Gedirdim yastı yolu,
Su gəldi basdı yolu.
Qürbət eldən qaçırdım,
Namərdlər kəsdi yolu.

Dağdan gələn sudumu?
Daş-torpağı yudumu?
Vədə verdin, gəlmədin,
Etibarın budumu?

Dağda çiskin olurmu?
Duman çiskin olurmu?
Ağlar gözüm, çox ağla,
Bundan pis gün olurmu?

Mən aşiqəm al oxu,
Çək, sədağdan al oxu.
Qan yaş ilə yazılmış,
Bir ərzəmi al oxu.

Dərd məndə üz görübdü,
Meydanı düz görübdü.
Gedir, gedir, qayıdır,
Məni yalqız görübdü.

Karvan yola düzüldü,
Xumar gözlər süzüldü.
Necə mən ağlamayım,
Əlim yardan üzüldü.

Əzizim yara döndü,
Məlhəmdən yara döndü.
İstədim boynun qucam,
Zülfün şahmara döndü.

Dağ başını sar gördü,
Göz qamaşdı, tar gördü
Cəfasını mən çəkdim,
Səfasın əğyar gördü.

Qarabağın söyüdü,
Mən gələndə göy idi.
Sən ki belə deyildin,
Kimdən aldın öyüdü?

Dağdan enən sürüdü,
Dağı duman bürüdü.
Vəfasız yar yolunda
Cavan ömrüm çürüdü.

Qar gəldi, dağa düşdü,
Xar qondu, bağa düşdü.
Əzəl başda gəzən yar
Gəldi ayağa düşdü.

Burda bir qala düşdü,
Dağ aşdı, yala düşdü.
Göydən bir bəla gəldi,
Bizim mahala düşdü.

Qayadan təkə düşdü,
Dağa səksəkə düşdü.
Cananın bir sözündən
Qəlbimə ləkə düşdü.

Qırmızı yastıq üzü,
Qoyunlar otlar düzü.
Gəl otur həmdəm olaq,
Danışaq dərdimizi.

Apardılar gülümü,
Eylədilər zülümü,
Nə qoydular danışam,
Nə kəsdilər dilimi.

Eləmi yarı günü,
Ağladım yarı günü.
Mən fələyə neylədim,
Görmədim tarı günü.

Mən aşiq gözəl günü,
Gözəlin gözəl günü.
Dözdüm hər bir zülmünə,
Gözlədim gözəl günü.

Görəsən gözəl günü,
Gözəldə gözəl günü.
Özümü bədbəxt etdim,
Mən aldım gözəl günü.

Dağa qar düşən günü,
Ürəyim bişən günü.
Yar mənə dağ üstündən
Dağ çəkdi nişan günü.

Su gəlir məndən ötrü,
Axır çəməndən ötrü.
Mən hara, dağ-daş hara,
Gəzirəm səndən ötrü.

Ulduza bax, aya bax,
Yar əlində yaya bax.
Sən ümman axtarırsan,
Dərd dolu dəryaya bax.

Əlimdə yayıma bax,
Gülüzlü ayıma bax.
Çəkdiyim zəhmətimə,
Aldığım payıma bax.

Arazda daşqına bax,
Suyunun məşqinə bax.
Dərd əlindən oxuram,
Deyirlər eşqinə bax.

Gəncənin dağına bax,
Soluna-sağına bax.
Dərdimə inanmasan,
Gözümün ağına bax.

Gecənin ayına bax,
Ulduzun sayına bax.
Yar yolunda can üzdüm,
Verdiyi payına bax.

Dağların başına bax,
Qar yağıb, başına bax.
Mən sevdim, yad apardı,
Fələyin işinə bax.

Cadukünsən, tasa bax,
Ya bu gün gəl, ya sabah.
Ellər şadlıq içində,
Biz keçirən yasa bax.

Quşa bax ha, quşa bax,
Qanadı sınmışa bax.
Aləmə yağış yağdı,
Mənə yağan daşa bax!

Mən aşiqəm məşqə bax,
Əlindəki müşkə bax.
Mən oxuram dərdimdən,
Görən deyir eşqə bax!

Elə baxma, belə bax,
Dağdan gələn yelə bax.
Tər tökdük, oba saldıq,
Evlər yıxan selə bax.

Aşiqəm əşinə bax,
Dağların qaşına bax.
Gec sevdim, tez ayrıldım,
Fələyin işinə bax.

Ağlamaqdan həyam yox,
Qanadım yox, sayam yox.
Yükləndi qəm karvanı,
Qəmdən artıq payam yox.

Yaxamın ilməsi yox,
Qırılıb düyməsi yox.
Məni qoyub gedəli
Üzümün gülməsi yox.

Əziziyəm heyim yox,
Taqətim yox, heyim yox.
Əzrail birdən gəldi,
Verməyə bir şeyim yox.

Mən aşiqəm qəmər qaç,
Günəş gəlir, qəmər qaç.
Yüz yerimdən yaram var,
Üstünə qan damar, qaç.

Eləmi qalam qardaş,
Səngərim, qalam qardaş,
Yağı basqıncaq tapdı,
Dardadı balam, qardaş.

Qoyma tək qalam qardaş,
Səngərim, qalam qardaş,
Yağı gəldi, töküldü,
Sürüldü balam, qardaş.

Eləmi nalam qardaş,
Fəryadım-nalam qardaş,
Top atıldı, bürc sındı,
Alındı qalam, qardaş.

Yol üstə bular imiş,
Nə sərin sular imiş.
Əzrail, adın bədnam,
Can alan bular imiş.

Dağlar başı qar imiş,
Qardan bir anbar imiş.
Sözdə şirin dünyanın
Əsli zəhirmar imiş.

Mən aşiq oda yanmış,
Od düşmüş, o da yanmış.
Əlim dost ətəyindən
Üzdü bir oda yanmış.

Başın nədən ağarmış?
O gül bədən ağarmış.
Sənə güvəndiyim dağ,
Sənə də qar yağarmış.

Şamaxı bir bazarmış,
El bazarda azarmış.
Bülbüldən gül istədim,
O da güldən bezarmış.

Lənkəran bir bazarmış,
Dərdim qəmim hazarmış.
Bu gedişlə, sən demə,
Yar yarından bezarmış.

Üzülmüşəm, üzülmüş,
Xumar gözlər süzülmüş.
Varmı bir mənim kimi
Əli yardan üzülmüş.

## SƏRKİ. QAXINC. SANCMA. BƏZƏMƏ

Araşqının sallama,
Yudun, yerə tullama.
Çox da gözəl deyilsən,
Ağız-burun sallama.

Aşı süz qoy, qaynana!
Odun düz qoy, qaynana!
Oğlun aldım əlindən,
Başına buz qoy, qaynana!

Damda dirək qaynana!
Şana, kürək qaynana!
Oğlu evə gələndə
Hamıdan zirək qaynana!

Bir səs düşüb Şonqara,
Şikar gərək şonqara.
Cik-cik deyən sərçələr
Neylər şahin-şonqara.

Ay doğdu batan yerdə,
Can-cana qatan yerdə.
Dosta yadigar verdim
Yaxından ötən yerdə.

Ay dolanır gün-günə,
Yar tələsir gün-günə.
Saçlarına dən düşüb,
Cavanlaşır gün-günə.

Əziziyəm təndirə,
Odun qala təndirə.
Dədəsizin nə həddi,
Dədəliyə tən dura.

Qaş qara, gözlər almaz,
Yar yarı dərdə salmaz.
Axır ki bu gözəllik
Gedər, sənə də qalmaz.

Bu gələn özün bilməz,
Danışar, sözün bilməz.
Suya tək gələn gözəl
Çeşmənin gözün bilməz.

Rəqibdən kam al indi,
Dərdin yada sal indi.
Küsdürübsən yarını,
Evdə yalqız qal indi.

Oxladı pər sinəmi,
Qan aldı sər sinəmi.
Açıq danış, açıq din,
Yandırma tər sinəmi.

Həmayilin sarısı,
Gümüşdəndi yarısı.
Arvadların əri var,
Qızların da Tarısı.

İstəkanın sarısı,
İçdim qaldı yarısı.
Ərlilərin əri var,
Ərsizlərin Tarısı.

Əziziyəm at alı,
Atın satan at alı.
Gülmə mənim halıma,
Mən yetim, sən atalı.

Yaylığım kilkəm-kilkəm,
Yuyuram silkəm-silkəm.
Məni sənə verməzlər,
Mən bir davalı mülkəm.

Hanı o dərdi yazan,
Dərdindən oldum ozan.
Yeyən Gülcahan olsun,
Sən zəhmətlə pul qazan.

Qaşların çatan oğlan,
Köynəyi kətan oğlan.
Nişanlın apardılar,
Bixəbər yatan oğlan.

Tapma dən, itirmə dən,
Hər mürğə yetirmə dən.
Eşitdim rəqib ölmüş,
Qurtuldum it ürmədən.

Ay gəlin, gözüm gəlin,
İşlərəm özüm gəlin.
Neyləsin qaynanası,
Tənbəldir bizim gəlin.

Dağda səyyad sinibdir,
Ovun yerin bilibdir.
Sən əkdiyin ağaclar
Çoxdandır kəsilibdir.

Gəmi gəlir ləng gəlir,
İçi dolu qənd gəlir.
Gəlin bir söz deyəndə
Qaynanaya dərd gəlir.

Gəlin gəlir xan gəlir,
Evləri yıxan gəlir.
Əlində ülgüc-tiyə,
Başları qırxan gəlir.

Dağlar başı işıqdır,
Yar əlində qaşıqdır.
Qaynanam sevməsə də,
Oğlu mənə aşıqdir.

Dağdan aran yaxşıdır,
Tirmə xaran yaxşıdır.
Boyun gödək, gözün tum,
Sənin haran yaxşıdır.

## ZÜLM. ZORAKILIQ. HAQSIZLIQ

Mən aşiq xanə bada,
Gedibdir xanə bada.
Zalıma bir söz desəm,
Sürərlər Xanabada.

Mənim balam, az ağla,
Payız ağla, yaz ağla.
Al qələmi əlinə,
Dərdim deyim yaz, ağla.

Atılır top qoşuna,
Mindilər ağ maşına.
Nə insafsız zabitdir,
Baxmayır göz yaşına.

Kür qırağı toxmaca,
Yel vura burcun açа.
Yarım buxoylu getdi,
Nola bir kimsə açа!

Ulduzlar sürü kimi,
Ayın kəsiri kimi.
Apardılar balamı,
Firəng əsiri kimi.

Dağların dağı məni,
Bağçası, bağı məni.
Mən səndən ayrılmazdım,
Ayırdı yağı məni.

Təbriz üstü daşlıdı,
Torpağı zər qaşlıdı.
Dindirməyin Təbrizi,
Gözləri qan yaşlıdı.

Su gəldi, daş apardı,
Gözləri yaş apardı.
Yadellilər yad elə
Yarı birbaş apardı.

Dağda zəriş kolları,
Çapar tutub yolları.
Yar dərdin necə yazsın,
Bağlanıbdır qolları.

Nə mədəd var, nə kərəm,
Nə abırsız nökərəm.
Xan yanından gəlirəm,
Dinmə, dişin tökərəm.

Xan yanında nökərəm,
İşim yoxdur, bekaram,
Tövcünü gətirməsən,
Başında turp əkərəm.

Ox dəydi yaralandım,
Ürəkdən paralandım.
Vətəndən ayrılmazdım,
Zor ilən aralandım.

Əzizim yar əlindən,
Bülbül tək xar əlindən.
Vəfalı yardan qaçdım,
Mən bir əğyar əlindən.

Haray sağır əlindən,
Tutmur fağır əlindən.
Yarı yardan edənin
Zülüm yağır əlindən.

Gedirəm bu dağ ilən,
Əlimdə çıraq ilən.
Yarı eldən sürdülər
Əllərdə yaraq ilən.

Tərxun əkdim bel ilən,
Suvardım mən sel ilən.
Yarımdan ayrılmazdım,
Ayırdılar fel ilən.

Əzizim yazığam mən,
Əl vurma, yazığam mən.
Mən ölsəm sənə qurban,
Sən ölmə, yazığam mən.

Dağ başında qalan var,
Yarı dərdə salan var.
Elə bir hay düşübdür,
Qul yığırlar, talan var.

Qalalar, ha qalalar,
Qaladan yol salalar.
Analar bala verməz,
Bəlkə güclə alalar.

Dağ döşündə çil ovlar,
Çil kəkliklər, çil ovlar.
Yar əlləri nazikdir,
İncitməyin, cilovlar.

Elədimi, cilovlar,
Əlim kəsdi cilovlar.
Yar toy günü sürüldü,
Dəmdə qaldı çilovlar.

Halıma dağlar ağlar,
Bu matəm sinə dağlar.
Qoyma oğul, amandır,
Zalımlar qolum bağlar.

Arazı ayırdılar,
Qumunan doyurdular.
Mən sənnən ayrılmazdım,
Zor ilən ayırdılar.

Yar gələr, yaşa dolar,
Ya ağlar, ya şad olar.
Hicran sözün eşitcək
Gözləri yaşa dolar.

Söz kəc gəlsə, qan olar,
Ürəkdə şan-şan olar.
Zülm eliyən, qan tökən,
Ya xan, ya sultan olar.

Dağın döşü düz, hamar,
Nə bağça var, nə də bar.
Ölkəyə bir şah gəlib,
Qılıncından qan damar.

Qateq qırağ toxmaçar,
Yel əsib, bürcün açar.
Dost buxoylu qalıbdır,
Gətir ona bir açar.

Bu yol Kəşana gedər,
Aşar Kəşana gedər.
Sənin bu yaraların
Yara nişana gedər.

## YENİ DÖVRAN. XOŞBƏXTLİK. BOLLUQ-BƏRƏKƏT

Çimdim Gəncə çayında,
Baharında, yayında.
Mən azadlıq quşuyam,
Düşmən canın hayında.

Aşıq dolaq altına,
Sarı dolaq altına.
Sülh bayraq tək ucalsın,
Biz də dolaq altına.

Yol üstə bulaq olluq,
Ellərə soraq olluq.
Kim bizə bel bağlasa,
Ondan göz qulaq olluq.

Aran bizdə, dağ bizdə,
Kef bizdə, damağ bizdə.
Əkirik, becəririk,
Su bizdə, torpaq bizdə.

Bu yollar buz bağlamaz,
Namərdlər sir saxlamaz!
Həqiqətin təməli
Yüz tərpətsən laxlamaz.

Dost dost ilə qac olmaz,
Bir tikəylə ac olmaz.
Zəhmət sevən, iş görən
Özgəyə möhtac olmaz.

Bağçamızda gül bitdi,
Lalə bitdi, gül bitdi.
Vətəndə bir bağ saldıq,
Hər nə əkdik, gül bitdi.

Əzizim bəzən yeri,
Gey sallan, bəzən yeri.
Dərd qüssə ala bilməz,
Azadlıq gəzən yeri.

Bağımda güllər gözəl,
Oxur bülbüllər gözəl,
Azadlıq dünyasında
Ömürlər, günlər gözəl.

Bada bülbülə baxdım,
Sevindim, gülə baxdım.
Dönüb şeyda bülbülə,
Qonubdur gülə baxtım.

Al qələm, yaz, a baxtım,
Açılmış təzə baxtım.
Məhv olub köhnə dünya,
Çıxıbdır yaza baxtım.

Qarşımızda bu dövran,
Bu zamana, bu dövran.
Gəlin, qədrini bilək,
Düşməz ələ bu dövran.

Əziziyəm, quşam mən,
Dağlara qonmuşam mən.
Ellərə göz olmağa,
Keşikdə durmuşam mən.

Yağılar qan içməsin,
Bu yerlərdən keçməsin.
Əkdiyimiz gülləri,
Düşmən əli biçməsin.

Aşıq sözə gəlməsin,
Ceyran düzə gəlməsin.
Getsin qara buludlar,
Bir də bizə gəlməsin.

Düşməni yarımasın,
Yarısa, qarımasın.
Torpağıma göz diksə,
Heç işi sarımasın.

Nə gözəl ellərim var,
Ördəkli göllərim var.
Şirvan, Muğan düzündə
Məhsullu çöllərim var.

Mən aşiq belə bağlar,
Kəmərin belə bağlar.
Gül açıb, bülbül oxur,
Var olsun belə bağlar.

Dağlar, aralı dağlar,
Qəlbi yaralı dağlar.
Qoynunda yadlar görsəm,
Rəngim saralı, dağlar.

Ay doğar, bədrin bilər,
Yar yarın qədrin bilər.
Zəhmətlə xoş gün görən
Əməyin qədrin bilər.

## EŞQ-MƏHƏBBƏT. VƏFA-SƏDAQƏT. NAZ-QƏMZƏ

Gülü dərdim tabağa,
Qoydum qaldı sabaha.
Yara mehman gedəndə
Durar çıxar qabağa.

Tərlan gəlib bu bağa,
Qonur budaq-budağa.
Ölü olsam diriləm,
Dəysə dodaq-dodağa.

Əziziyəm bu bağa,
Bu bağçaya, bu bağa.
Bir dəfə üzün görsəm,
Canım verrəm sadağa.

Bülbüllər uçdu bağa,
Qondu budaq-budağa.
Dünyada bir canım var,
Olsun yara sadağa.

Bülbüllər uçdu bağa,
Qondu budaq-budağa.
Sinən bir dağ ayrıcı,
Kölgə salıb buxağa.

Gəl gedək bizim bağa,
Canım sənə sadağa.
Bülbül olaq, oxuyaq,
Qoyaq dodaq-dodağa.

Bu yara kim sadağa?
Kim qurban kim sadağa?
Mən Məcnun varisiyəm,
Qoymaram kimsə dağa.

Sürünü sürün dağa,
Duman, gəl bürün dağa.
Leylisi itmiş Məcnun,
Salıbdı bir ün dağa.

Təbriz üstü Marağa,
Zülfün gəlməz darağa.
Axtarıram yarımı,
Düşüb soraq-sorağa.

Yar gəlibdi yatmağa,
Gündə bir boy atmağa.
Sabah yuxusu şirin,
Qıymıram oyatmağa.

Ay dolanır batmağa,
Yuxum gəlmir yatmağa.
Əllərim öyrənibdi,
Şux məmə oynatmağa.

Aşiqəm yaracığa,
Sonalar yara cığa.
Can verrəm, busə verməz,
Düşübdü yar acığa.

Əl vuraram qaşığa,
Söz deyərəm aşığa.
Mən səni alacağam,
Məhləmə yaraşığa.

Mən aşiq kim səyada,
Tor qurub kim səyada.
Gözdə könüldə sənsən,
Düşərmi kimsə yada?

Mən aşiq kim səyada,
Tor qurub kim səyada?
Nə kimim kimsənəm var,
Nə salmaz kimsə yada.

Dağdan endim piyada,
Dərdim vardı ziyada.
Biz xəlvətdə görüşdük,
Aləmə düşdü səda.

Mən aşiq duran ada,
Axan su, duran ada.
Sənə qurban, ay nənə,
Yanında durana da.

Əziziyəm gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl ola gül bağda.

Mən aşiqəm yaz bağda,
Bülbül ötər yaz bağda.
Yara qonaq olaydım
Qış otaqda, yaz bağda.

Əzizim gül alanda,
Gül bitmiş Gülalanda.
Yarım yadıma düşər
Əlimə gül alanda.

Qızılgül açılanda,
Açılıb saçılanda.
Yarımdan ayrılaydım
Hər sabah açılanda.

Əziziyəm bu canda,
Gözəl olmaz bu canda.
Eşqin məni yandırdı,
Alovlandı bu can da.

Arı bal salı şanda,
Baldan kam alı şanda.
Çətin olur ayrılıq,
Göz gözə alışanda.

Ağdamın yollarında,
Bənd oldum kollarında.
Bir bazübənd olaydım
Yarımın qollarında.

Aşiq dağ arasında,
Duman dağ arasında.
Şam kimi şölə çəkdim,
Yandım yağ arasında.

Əzizim üzü maya.
Qaş qara, üzü maya.
Dağılsın bulud zülfün,
Sataşsın gözüm aya.

Elədimi o taya,
Bu xırmandı, o taya.
Zülfünü kəmənd eylə,
Məni də çək o taya.

Gəmin çıxdı dəryaya,
Zülfün üzə tər yaya.
Qələm qaşın görmüşəm,
Bənzətmərəm hər aya.

Çıxdım Balaxanıya,
Baxdım xəlvətxanıya.
Yel vurdu, tel ayrıldı,
Qorxdum yarım tanıya.

Göz düşdü ya dolmuya,
Rəqiblər yad olmuya.
Bir üz göstər aşiqə,
Qapıda yad olmuya.

Əzizim qalmaqala,
Dinc başın salma qala.
Biz gizlin sevişmişik,
Kim saldı qalmaqala?

Mən aşiqəm buz qala,
Kösöyləri düz qala!
Şövqün yüzümə düşdü,
Yıxılmışdım az qala.

Ocağa odun qala,
Od gəti, odun qala.
Qorxuram düşəm öləm,
Canımda odun qala.

Dağ başında qar qala,
Duman keçə, tar qala.
Bir arzum var ürəkdə,
Mən ölsəm də, yar qala.

Yol ötdüm, çıxdım yala,
Nahaqdan düşdüm qala.
Əyil üzündən öpüm,
Candan çıxsın dərd-bəla.

Mən aşiq ay camala,
Yar əldən, ay, cam ala.
Götür üzdən rübəndin,
Baxım bir ay camala.

Marala bax, marala,
Vur, ox ilən yarala!
Dərd verən yar yetişsin,
Dərdim düşsün qarala.

Dolan gəl sən bu dağla,
Yolu kəs tən bu dağla.
Sənə yaxşı deməzlər,
Mən ölərsəm bu dağla.

Xançalı işlə yolla,
Üstün gümüşlə yolla.
Yanına beş alma qoy,
Birini dişlə yolla.

Dağın başında qala,
Heyranam üzdə xala.
Qaş-göz ilən danışma,
Öldüm, a ceyran bala.

Buxarıya az qala,
Odun gətir, az qala.
Bir ox atdın aşiqə,
Öldürmüşdün az qala.

Dağlarda gəzdim lala,
Gözüm dəydi hilala.
Yara qurban kəsərəm,
Bir gecə mehman qala.

Mən aşiq Güləndama,
Çıxıbdı gülən dama.
Olam bir xara köynək,
Yaraşam gül əndama.

Dağlar başı dolama,
Bəylər gedər salama.
Yar özü bostançıdı,
Məndən istər şamama.

Ovçu, maralı qoyma,
Gözün qaralı, qoyma.
Mənim canım maraldı,
Öldür, yaralı qoyma.

Ürəyim başın oyma,
Saxla, maralı soymə.
Oxun sinəmdə qaldı,
Öldür, yaralı qoyma.

Tabaqda yarım alma,
Qalıbdı yarım alma.
Alırsan canımı al,
Əlimdən yarım alma.

Əlimdə yarım alma,
Yeməli yarım alma.
Dedim ki, qanlı fələk,
Canım al yarım alma.

Gəl məni bəndə atma,
Xoydan Mərəndə atma.
Hamı üz döndəribdi,
Rəhm elə, sən də atma.

Gün çıxıbdı yoluma,
Kəmər bağla belimə.
Qız, sənin ağ məməni
Alaydım sağ əlimə.

Əzizim nərdivana,
Ayaq qoy nərdivana.
Yar qədrini yar bilər,
Nə bilər hər divana.

Əzizim Məməqana,
Yol gedir Məməqana.
Kəs başım sinən üstə,
Qoy batsın məmə qana.

Yol düşdü ha Muğana,
Sən də gəl ha Muğana.
Şana bir muy üzübdü,
Düşmüşük hamı qana.

Samavar yana-yana,
Od düşüb şirin cana.
Danışıram kağıznan,
Dil qalır yana-yana.

Bağçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə yarım oyana.

Bağçamızda miyana,
Gül yasdığa boyana.
Oxuram eşq ayəsin,
Yar qəflətdən oyana.

İki quyu yan-yana,
Əlimə yaxdım hana.
Sənə süd verən ana,
Olsun mənə qaynana.

Mən aşiq, bir canana,
Bir cana, bir canana.
Hər yetənə can vermə,
Canı ver bir canana.

Kotana bax, kotana,
Kotan macı tutana.
Mənim yazığım gəlir
Gecə yalqız yatana.

Ay qız adın Məstana,
Girmə bizim bostana.
Qorxuram yağış yağa,
Tər şamama istana.

Eləmi gül istana,
Şeh düşə, gül istana.
Ayıq ol, şeyda bülbül,
Xar qonar gülüstana.

Əzizim gülüstana,
Şeh düşdü gülüstana.
Qorxuram göz yaşımdan,
Qoynunda gül istana.

Əzizim xana-xana,
Evləri xana-xana.
Əlim bəndivan olub
Zər baftalı yaxana.

Tənhayi, özgə şana,
Zülf üzdü özgə şana.
Ləblərin zənburiyəm,
Getməzəm özgə şana.

Mən Həsrəti, o şana,
Zənburudu o şana.
Əqlim pərişan oldu,
Zülfü tökdü o şana.

Çıxdım Kəpəz dağına,
Baxdım gənnət bağına.
Qızılgül calaq olub
Bənövşə yarpağına.

Çöllərin bulağına,
Köynəyin zolağına.
Dur gedək, əziz dostum,
Sevgili oylağına.

Mən aşiqəm ayına,
Bəndəm qaşın yayına.
Qorxuram müjkan çalam,
Üzündən göz yayına.

Baxdım hicran ayına,
Ay istədi yayına.
Canımı qurban verdim,
Yarın haqqı-sayına.

Əlində yar yayına,
Qurbanam yar yayına.
Məhşəridi aşiqin,
Gözündən yar yayına.

Mən aşiqəm halına,
Yarın xoş əhvalına.
Gözlərim bənduvandı
Ağ üzündə xalına.

Əziziyəm sanına,
Durna baxmaz sanına.
Sənə bir yol baxanın,
Od salırsan canınıa.

Yar deməz söz yarına,
Dəyməsin göz yarına.
Sağalar xəstə könül
Yetəndə öz yarına.

Dağların lalasına,
Gözlərin alasına.
Yara könlümü verrəm,
Qorxuram ala sına.

Gözlərin qarasına,
Xal düşüb arasına.
Yar gülüşü məlhəmdi
Ürəyim yarasına.

Qaşların qarasına,
Dərdimin çarasına.
Məni qönçə gül eylə,
Qoy sinən arasına.

Qaşların qarasına,
Xal düşüb arasına.
Mənim bir cüt narımı
Qoy sinən arasına.

Gəlin bulaq altına,
Sərin bulaq altına.
Sən ağac ol, kölgə sal,
Biz də dolaq altına.

Əzizim yar arxına,
Su gəlib yar arxına.
İncədi barmaqların,
Qorxuram yarar xına.

Eləmi dağda qara,
Zülfünü bağda dara.
Vəfalı yardan ötrü
Rumu gəz, Bağdad ara.

Abdulla, ayaq ara,
Şəmisən aya qara.
Gördü körklü camalın,
Düşübdü aya qara.

Əzizim üzü qara,
Qaranın üzü qara.
Gedirəm yar yanına,
Əli boş, üzü qara.

Yar gəldi bu diyara,
Könlümə etdi çara,
Gözəl bir qız sevmişəm,
Ay camallı, göz qara.

Dağların başı qara,
Dibi göy, başı qara.
Bir qız mana ox vurdu,
Göz ala, qaşı qara.

Dağların başı qara,
Dibinin daşı qara.
Bu gün mən bir qız gördüm,
Gözü şux, qaşı qara.

Əzizim dağda qara,
Gün düşüb dağda qara.
İtirmisən Leylini,
Məcnun ol, dağ-dağ ara.

Əzizim gündə dara,
Zülfünü gündə dara.
Səndən əlim üzmərəm,
Çəksələr gündə dara.

Gəlibdi sünbül zara,
Dərd əlindən gül zara.
Bülbül ollam, qonaram,
Yar gül olsa, gülzara.

Aşıq süzgün, göz yara,
Qəmdən üzgün göz, yara.
Yar nədi, doymaq nədi?
Baxsa yüz gün göz yara.

Əzizim dəydi yara,
Su gəldi dəydi yara.
Lal olsun mənim dilim,
Nə dedim dəydi yara.?

Əziziyəm dil yara,
Dodaq yara, dil yara.
Oturaydım göz-gözə,
Yetirəydim dil yara.

Əziziyəm yar yara,
Qara bağrım yar yara.
Ürək titrər, qan qaçar,
Naz eyləsə yar yara.

Əzizim canı yara,
Qəlbi yan canı yara.
Tutum, qoyum qəfəsə,
Göndərim canı yara.

Mən aşiq bu çağlara,
Bülbül qonub bağlara.
Qayıtmasan bərəyə,
Ovçu sallam dağlara.

Əziziyəm şıxlara,
Zülfü dolaşıqlara.
Əlimə bir saz allam,
Qoşullam aşıqlara.

Aşiqəm bir dəm ara,
Neştər vur bir damara.
Məni zülfün vurubdu,
Vurdurma bir də mara.

Köynəyin gülü xara,
Geymisən gülü xara.
Cəfanı çəkən bülbül,
Verərmi gülü xara?

Əzizim gülü xara,
Yaylığın gülü xara.
Bülbülə xəbər getsin,
Verdilər gülü xara.

Köynəyim buta-buta,
Kim yapışa, kim tuta.
İkimiz birdən ölək,
Qoyulaq bir tabuta.

Arxalığın cüt yaxa,
Yaxana yar gül taxa.
Baş qoyum dizin üstə,
Can verim baxa-baxa.

Əzizim bu sabaha,
Söz verdi bu sabaha.
Yar yardan necə doysun,
Can ucuz, busə baha.

Yük üstə sarı xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olum,
Dindirə, könlüm aça.

Xal görmədim xalınca,
Xalından kam alınca.
Bilsəydim bivəfasan,
Göz qoymazdım dalınca.

Mən aşiqəm narınca,
Gül əkdim kənarınca.
Sonam sallandı gəldi,
Bir laçın da yanınca.

Dəryanın kənarınca,
Çıx, sallan kənarınca.
Sonamdı bağdan gəlir,
Bir tərlan kənarınca.

Bu bağda bar olunca,
Heyvalar nar olunca.
Dil açar dəli könlüm
Sən mənə yar olunca.

Dağ başını qar alıb,
Bağçaları bar alıb.
Hər yetənə can verməm,
Bir canım var yar alıb.

Çəltiyə basma ayaq,
Ləkləri birgə sayaq.
Belə gizli sevginin
Adını bəs nə qoyaq?

Əzizim oymaq-oymaq,
Evləri oymaq-oymaq.
Hər nədən doymaq olsa,
Çətindi yardan doymaq.

Ay doğdu bircə barmaq,
Qəlbimə batdı qarmaq.
El yatdı, oba yatdı,
Mənə qaldı yalvarmaq.

Əzizim səndən iraq,
Düşmüşəm səndən iraq.
Qoy dərdin mənə gəlsin,
Tək olsun səndən iraq.

Başında sarı sancaq,
Ağ sancaq, sarı sancaq.
Kamım almaq istərəm,
Mən uşaq, yar utancaq.

Başında sarı sancaq,
Sancaq olub oyuncaq.
Mənim nə taqsırım var,
Sən naşı, mən utancaq?

Qədək aldım yaxalıq,
Gəldi düşdü bahalıq.
Can üzüb yar sevmişəm,
Sən kömək ol, ya xalıq.

Zərxaradan arxalıq,
Əşrəfidən yaxalıq.
Bir busə ver o xaldan,
Dadına çatsın xalıq.

Ağac ağaca yovuq,
Çıxdı ağaca toyuq.
Bir əlim yar qoynunda,
Birin apardı soyuq.

Bostan əkdim tağbatağ,
Əydim sındı şax budaq.
Bir sən, bir mən olaydıq,
Bir də bir xəlvət otaq.

Ovçu gəzir girəvə,
Bağça dolan, gir evə.
Yar yarın bəd günündə
Başın qoyar girevə.

Nə dad vardı məzədə,
Qismət olsun bizə də.
Sənə də qurban olum,
Sənə baxan gözə də.

Əzizim közdərə də,
Parıldar göz dərədə.
Qurban olum sənə də,
Səndəki gözdərə də.

Elədimi sinədə,
Ovçu durub sinədə.
Qoy sığınım qoynuna,
Dərmanım var sinədə.

Əzizim məzə sizdə,
Mey sizdə, məzə sizdə.
Mən sənin sərxoşunam,
Meysiz də, məzəsiz də.

Bostan əkdim tağ üzdə,
Ayran altda, yağ üzdə.
Mən sənə nə dedim ki,
Tər göründü ağ üzdə?

Bir qız gördüm göyəmdə,
Göyəm boynun əyəndə.
Əlin əlimə verdi
Şamamalar dəyəndə.

O tayda duran bəndə,
Bir heyva gördüm səndə.
Heyva kimi saraldım,
Heç insaf yoxmuş səndə.

Su gəldi doldu bəndə,
Axdı töküldü kəndə.
Ürəyimə od düşdü
Yar boynunu bükəndə.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Mən yarımı sevmişəm
On beş yaşın içində.

Aşiq, qana dəgəndə,
Qəmzən qana dəgəndə.
Sonada canım qalır
Tərlan qanad əgəndə.

Dan yeri söküləndə,
Zülf üzə töküləndə.
Şeh düşmüş gülə bənzər
Ağ üzdən öpüləndə.

Dan yeri sökülәndә,
Yerə nur töküləndə.
Qəddim kamana dönər
Yar qəddi büküləndə.

Mən aşiq qala məndə,
Bürc məndə, qala məndə.
Yardan bir busə aldım,
Yadigar qala məndə.

Aşiqəm yara mən də,
Dərd məndə, yara məndə.
Yolunda canım verdim,
Yaradım yara mən də.

Aşiqəm yara məndə,
Sızıldar yara məndə.
Ölür olsam dirilləm
Ləbindən, yar, əməndə.

Dərd məndə, gecə məndə,
Dərd artdı gecə məndə.
Tiflin tək ağlar aşiq
Ləbindən gec əməndə.

Gün məndə, gecə məndə,
Dərd gəlib keçə məndə.
Gözlərim yaş axıdır
Ləbindən gec əməndə.

Dövranın gərdi məndə,
Can qurban dərdiməndə.
Eşqə ürcah olanın
Tapılar dərdi məndə.

Dəsmalın ağdı məndə,
Güllüdü, ağdı məndə.
Yar, sənin bir “yox” sözün
Düyündü, dağdı məndə.

Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Sinəm əttar dükanı,
Hər nə desən var məndə.

Əziziyəm sinəndə,
Ovçu ovun sinəndə.
Tifiləm, al qoynuna,
Bəslə məni sinəndə.

Araşqının təpəndə,
Üzə gülab səpəndə.
Könlüm murada yetər
Ağ üzündən öpəndə.

Bülbül güldən küsəndə,
Küsər gedər süsən də.
Bir söz dedim qızardın,
Nə qaydadır bu səndə?

Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə.
Ruhum bədəndə oynar
Yadıma sən düşəndə.

Əzizim birdə-birdə,
Nə sirr var bu səbirdə.
Mən də səninlə ölüm,
Qoysunlar bir qəbirdə.

Mən aşiqəm Gülgəzə,
Bülbül gəzə, gül gəzə.
Bağda qoy bülbül gəzsin,
Ayağı yox gül gəzə.

Karvan gedir Təbrizə,
Yolu çıxıbdı düzə.
Dünən dedin gəlmədin,
Bu gün barı gəl bizə.

Yox aşiq kimsəsizə,
Rəhm eylə kimsəsizə.
Nə göydə mələk bənzər,
Nə yerdə kimsə sizə.

Yar zülfün töküb üzə,
Sallanır süzə-süzə.
Gecə keçdi gəlmədi,
Ümid qaldı gündüzə.

Mən aşiqəm ya düzə,
Ya çəmənə, ya düzə.
Sənsən ömrün qönçəsi,
Qoyarammı yad üzə!

Reyhanı əkdim düzə,
Göyrədi, qalxdı dizə.
Allah, sana çox şükür,
Yar üzün çördü bizə.

Mən aşiqəm üz-üzə,
Sonam göldə üz-üzə.
Qovuşasan yarına,
Söykəyəsən üz-üzə.

Mən aşiqəm bir üzə,
Ördək göldə bir üzə.
Bağban, yad qoyma bağa,
Bir sındıra, bir üzə.

Gəlirdim süzə-süzə,
Qızılgül üzə-üzə.
Yar mənə qaş-göz atdı
Tellərin düzə-düzə.

Əziziyəm Minayə,
Gələ qurban, Minayə.
Səndən əl götürmərəm,
Göydən gələ min ayə.

Mən aşiq tərsi nəyə?
Tər damar tər sinəyə.
Xəstənin gözü düşmüş,
Yetişmiş tər sinəyə.

Yar gəlib yar görməyə,
Ömrünü tar görməyə.
Mən bağçaya gəlməzdim,
Gəldim nobar görməyə.

Eləmi düşməz ələ,
Sar uçar, düşməz ələ.
Mənim sevdiyim bu yar,
Yüz il gəz, düşməz ələ.

Tanrı, məni quş elə,
Qanadım gümüş elə.
Dar doqqazda, dar yolda,
Yarı mənə tuş elə.

Əziziyəm yad ələ,
Vermə quşum yad ələ.
At müjganın sinəmə,
Ya dağıda, ya dələ.

Mən aşiq narın ələ,
Narın əz, narın ələ.
Bağı bərk, bağçası bərk,
Heç verməz narın ələ.

Dağ başına çən gələ,
Duman gələ, çən gələ.
Bağçamızdan üz narın,
Oynat sonra çəngələ.

Aşiq minayə gələ,
Xalın minayə gələ.
Küsmüşəm, barışmaram,
Göydən min ayə gələ.

Gedirdim yaraq ilə,
Ot biçdim oraq ilə.
Bir ilqarlı gözəli
Gəzirəm soraq ilə.

Kəkilə bax, kəkilə,
Kəkil üzə tökülə.
Qiyamət o gün qopar,
Yar gözümdən çəkilə.

Üzüm dərdim tənəklə,
Suyun içdim sənəklə.
Yarı bağçada gördüm,
Əlin sıxdım hənəklə.

Ay qız, çıxma çəkilə,
Çit köynəyi sökülə.
Bu canım qurban olsun
Qız, səndəki şəkilə.

Su gəlir gilə-gilə,
Bülbüllər gəlir dilə.
Yarımı bağda gördüm,
Batıbdı qızılgülə.

Araz axar lil ilə,
Suyu gələr gül ilə.
Yar məni yola saldı
Şirin-şirin dil ilə.

Dərya dolu lil ilə,
Yarım oynar gül ilə.
Hamıya can bağışlar,
Məni saxlar dil ilə.

Əziziyəm bağ gülə,
Bağça gülə, bağ gülə.
Pərvanə də mənim tək
Bənd olub bir ağ gülə.

Əziziyəm gül gülə,
Bülbül gülə, gül gülə.
Yar başına gül taxdım,
Calaq oldu gül gülə.

Su gəlir lülə-lülə,
Yar gəlir gülə-gülə.
Əlində güllü dəsmal,
Qan-tərin silə-silə.

Əziziyəm nəh demə,
Nəh danışma, nəh demə,
Qoy öpüm al yanaqdan,
Mən də çatım əhdimə.

Gecəni dan eyləmə,
Zülfünü yan eyləmə.
Baxışına mən qurban,
Könlümü qan eyləmə.

Əzizim kəlmə-kəlmə!
Sözün de kəlmə-kəlmə.
Oturaq xəlvət evdə,
Danışaq kəlmə-kəlmə.

Göyərib bağça nanə,
Bağ nanə, bağça nanə.
İntizarlı gözlərim
Doyunca bax canana!

Mən aşiqəm dər, de nə?
Gül budaqdan dər, de nə?
Axtardım bir dərdli yar,
Qatdım dərdim dərdinə.

Saydım ulduz yüz dənə,
Bir təsbehdi, yüz dənə.
O günündən qorxuram,
İnciyəsən, üz dönə.

Əzziyəm Məngələnə,
Zülfləri tən gələnə.
Qoynunda Şəki narı,
Saxlarsan mən gələnə.

Su gəlir pər gələnə,
Zülfün bas tərgələnə.
Üzün bir ay parçası,
Göstərmə hər gələnə.

Mən aşiq hər gələnə,
Hər gedib, hər gələnə.
Məmən cənnət meyvəsi,
Göstərmə hər gələnə.

Yarım yad oldu mənə,
Düşmən şad oldu mənə.
Obada bir qız sevdim,
Quru ad oldu mənə.

Əzizim şirin mənə,
Dərmandı şirin mənə.
Fərhadın Şirinindən
Şirinsən, Şirin mənə.

Su gəlir, ax desənə,
Şimşəyə çax desənə.
Sən mənim şahzadamsan,
Qurmuşam taxtı sənə.

Gözlərim axdı sənə,
Axdıqca baxdı sənə.
Mən səni qiblə bildim,
Qıldım beş vaxtı sənə.

Mən aşiq neylim sənə,
Qonubdu meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən neylim sənə?

Vardı bir sözüm sənə,
Düşübdü gözüm sənə.
Pulum yox qurban alım,
Qurbanam özüm sənə.

Mən aşiqəm can sənə,
Qalmışam heyran sənə.
Yüz qurban deyən olsa,
Mən özüm qurban sənə.

Mən aşiqəm can sənə,
Qurban sənə, can sənə.
Sən məni şirin çağır,
Mənsə deyim, can sənə.

Əziziyəm can sənə,
Gəl kəsim qurban sənə.
Nə sirridi qalıbdı,
El-oba heyran sənə?

Yar gəldi yoxun sənə,
Pay verdi çoxun sənə.
Sən yara neylədin ki,
Vurubdu oxun sənə?

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə.
O qızın incə beli
Nə vaxt düşər əlimə?

Əlinə can əlinə,
Tamburun beş telinə.
Aç qolların sarmaşım
Nazik, incə belinə.

Mən aşiq gözlərinə,
Qoy baxım gözlərinə.
Canım canına qurban,
Gözlərim gözlərinə.

O palıdın tirinə,
Heç çatmadım sirrinə.
Qalanla işim yoxdur,
Qurban olum birinə.

Əziziyəm bağ sinə,
Səyyad keçə dağ sinə.
Baxdım, huşum apardı,
Mərmər buxaq, ağ sinə.

Əzizim beləsinə,
Dolan gəl beləsinə.
Qoy durum qurban olum,
Gözlərin giləsinə.

Əzizim sinə, sinə,
Mim yaz gül sinəsinə.
Calasan bitərmi ola,
Sinəm dost sinəsinə?

Əzizim sinə-sinə,
Səyyad gəz sinə-sinə!
Məcnun könlüm bənd olub
Leylinin sinəsinə.

Dağların sinəsinə.
Ov qalxır sinəsinə.
Burda bir səyyad durub,
Tor qurur sinəsinə.

Aşiq canan səsinə,
Can ver canan səsinə.
Sallanıb canan getdi,
Düşdü canan səsinə.

Mən aşiq xan gözünə,
Su tək axan gözünə.
Nə sürmədi çəkibsən
Evlər yıxan gözünə.

Yox aşiq gül yüzünə,
Şeh düşmüş gül yüzünə.
Pərim bağından gəlir,
Sancıbdı gül yüzünə.

Əzizim gül üzünə,
Şeh düşüb gül üzünə.
Oturaydım diz-dizə,
Baxaydım gül üzünə.

Mən aşiqəm üzünə,
Heyranam qaş-gözünə.
Sən məndən əl üzməzdin,
Baxdın özgə sözünə.

Bu təpə, daşdı təpə,
Səndən kim aşdı, təpə?
Ovçuya xəbər yetir,
Maralın qaçdı, təpə!

Gün getdi yatan yerə,
Ay getdi batan yerə.
Sinəmi nişan qoydum
Yar oxun atan yerə.

Duman aldı dağ, dərə,
Daşa dağıldı fərə.
Ovçu maral axtarır,
Göstərmə yerin, dərə.

Bu dərə dərin dərə,
Suları sərin dərə.
Yardan cavab alınca
Yalvarmışam min kərə.

Bu dərə narın dərə,
Torpağı narın dərə.
Gözləyirəm yar gələ,
Qəlbimin narın dərə.

Bu dərə uzun dərə,
Getdikcə uzun dərə.
Burda bir bağ salmışam,
Yar gələ üzüm dərə.

Ay doğubdu bizlərə,
Qulaq verin sözlərə.
Bu canım qurban olsun,
Yalqız yatan qızlara.

Əziziyəm Tərtərə,
Bu yol gedir Tərtərə.
Üz qoyum üzün üstə,
Qoy qarışsın tər tərə.

Ovçu ovun düz görə,
Düz dolana, düz görə.
Mən yara neylədim ki,
Atdı məni göz görə.

Odun götür təndurə,
Canım oda tən dura.
Aşiqə şan deyilmi,
Yaxşı ilə tən dura?

Üzümü dər səbətə,
Nə qorxu var, nə xətə.
Elə yar sevmişəm ki,
Səs salıb məmləkətə.

Qızılgül dəstə-dəstə,
Bülbül qonar gül üstə.
Burda bir yar sevmişəm,
Ala göz, boyu bəstə.

Bulud gəlir dağ üstə,
Şeh tökülür bağ üstə.
Şamamanı gizləmə,
Qoy görünsün tağ üstə.

Ay çıxıbdı dağ üsdə,
Ləkəsi var ağ üsdə.
Zülfün bir şahmar ilan,
Qıvrılıbdı tağ üsdə.

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər
Bir alagöz qız üstə.

Xal vurmusan xal ustə,
Zülfü tökmə şal üstə.
Söz dedin, könül aldın,
Şərbət tökdün bal üstə.

Çıxaram üzüm üstə,
Oynaram dizim üstə.
Sən mənə qonaq gəlsən,
Saxlaram gözüm üstə.

Şeh düşür üzüm üstə,
Nimçə ver, düzüm üstə.
Yarı mənə yetirin,
Peşkəşi gözüm üstə.

Çən gedir çəmən üstə,
Düşür yasəmən üstə.
Yar nə vaxt bizə gəlsə,
Yeri var sinəm üstə.

Mən aşiq izin üstə,
İz salma izin üstə.
İzin ver bircə dəfə
Baş qoyum dizin üstə.

Ağacda üçdü püstə,
Qızıl, gümüşdü püstə.
Yar dodağın büzəndə
Yadıma düşdü püstə.

Evləri Tərtər üstə,
Tən yorğan örtər üstə.
Yarın çuxası bizdə,
Görən nə örtər üstə.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər: bir öpüş,
Qızlar deyər: baş üstə.

Oturubsan daş üstə,
Çal papağın qaş üstə.
Sən nə vaxt göz eylədin,
Mən demədim: "Baş üstə!"

Əzizim oyan gecə,
Şeh düşdü Geyəngecə.
Can cəsəddə titrəyər
Əl-ələ dəyən gecə.

Yaylığın micə-micə,
Dərdə mən dözüm necə?
Yeddi qurban kəsərəm
Sən bizə gələn gecə.

Əzizim təkcə-təkcə,
Xalların təkcə-təkcə.
Baş qoyum dizin üstə,
Danışaq təkcə-təkcə.

Tərtərdən gərək İncə,
Yol çəkmiş gərəgincə.
Dərmansız dərddən aşiq,
Götürgil gərəgincə.

Çayır incə, su incə,
Su səpərlər birincə.
Adam özündən çıxır
Sevdiyini görüncə.

Araz qırağı meşə,
Gətir dəsmalın döşə.
Arasına gül düzüm,
Yanlarına bənövşə.

Dağ başında var ayaz,
Üstün alıb qar, ayaz.
Dərdim anam bilməsin,
Nə yazırsan yara yaz.

Bağçadan gülü üz yaz,
Dərdimi ipə düz yaz.
Qələmə, dilə gəlməz,
Yarın tərifin yüz yaz.

İl dolandı gəldi yaz,
Bülbül satdı gülə naz.
Ağlım başımdan aldı
Burdan gedən sərvinaz.

Su gələr axar, doymaz,
Dağ daşı yaxar, doymaz.
Gözlərim yar gözünə
Ölüncə baxar, doymaz.

Əzizim baxar, doymaz,
Yandırar-yaxar doymaz.
Baxdıqca gözlərimdən
Qanlı yaş axar, doymaz.

Əzziyəm dərdi qalmaz,
Bağrında dərdi qalmaz.
Yar yara tez yetişsə,
Ürəkdə dərdi qalmaz.

Əzizim gedər qalmaz,
Axar su gedər, qalmaz.
Vəfalı əlin üzməz,
Vəfasız gedər, qalmaz.

Dağ başın duman almaz,
Yar yarı dərdə salmaz.
Yar mənə bir dərd verib,
Yüz il keçə sağalmaz.

Elə ağlamaq olmaz,
Sinə dağlamaq olmaz.
Əhdə vəfasız yara
Ürək bağlamaq olmaz.

Bu dağı aşmaq olmaz,
Narıncı başmaq olmaz.
Bir quru sözdən ötrü
Yarla savaşmaq olmaz!

Dağ üstə buğ ağ olmaz,
Şoranda duz ağ olmaz.
Yar yardan ayrı düşsə,
Ürəkdən uzaq olmaz.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Yad yerdən qız sevənin
Ürəyində yağ olmaz.

Bir gül ilən yaz olmaz,
Yazın ömrü az olmaz.
Öldüm nazın çəkməkdən,
Belə ərkinaz olmaz.

Dağ başında iz olmaz,
Dərə, təpə, düz olmaz.
Yarın boyu gödəkdi
Gözəl eyibsiz olmaz.

Ulduz dönüb ay olmaz,
Yaz getməsə yay olmaz.
Könül sevən gözələ
Gözəllikdə tay olmaz.

Bulud gəlsə ay olmaz,
Bir gül ilən yay olmaz.
Tamam eldə, mahalda
Sevgilimə tay olmaz.

Ərəb atı zay olmaz,
Köhlən ata tay olmaz.
Mən ki səndən pay umdum,
Bir öpüşdən pay olmaz.

Bu dağı enmək olmaz,
Yaşıl geyinmək olmaz.
Hər yetənin sözüylə
İlqardan dönmək olmaz.

Uçan quş lümək olmaz,
Acı söz yemək olmaz.
Bivəfa yar sözünü
Heç yerdə demək olmaz.

Durna tək süzmək olmaz,
Bu dərdə dözmək olmaz.
Bir qəmzə, bir naz üstə
Yardan əl üzmək olmaz.

Baharda xəzəl olmaz,
Yar yardan bezar olmaz.
Sevgi eyibsiz olsa,
Eyibsiz gözəl olmaz.

Dağ üstə əkin olmaz,
Əksən də əkin olmaz.
Yığılsa min bir gözəl,
Biri sən təkin olmaz.

Dağlarda əkin olmaz,
Heç kəs mən təkin olmaz.
Sən yanıma gəlməsən,
Ürəyim səkin olmaz.

Dost gəlsə yad yandırmaz,
Əssə də bad, yandırmaz.
Elə ki sən yandırdın,
Heç vədə od yandırmaz.

Qarabağda quş durmaz,
Dərdli başda huş durmaz.
Yarı hər yerdə görsəm,
Yanmış dilim dinş durmaz.

Dağlarda naşı durmaz,
Sel gələr, daşı durmaz.
Gözlərim gözlərinə
Baxmasa yaşı durmaz.

Dərd əlindən can durmaz,
Yaram çoxdu, qan durmaz.
Yar elə yandırdı ki,
Od da belə yandırmaz.

Dağ başında quş durmaz,
Bahar gəlsə qış durmaz.
Cavan oğlan, cavan qız,
Yüz and içsə dinş durmaz.

Gün dolanar ay batmaz,
Yar dərdi dərdə qatmaz.
Göz görüb könül sevən,
Yaxın gələr, söz atmaz.

Gecə uzun, ay batmaz,
Vəfalı yar yar atmaz.
Sən tək bir çinarboyu
Tanrı bir də yaratmaz.

Gün doğmasa ay batmaz,
Dərdlilər gecə yatmaz.
Aləm məni atsa da,
Sevgilim məni atmaz.

Gecə uzun ay batmaz,
Sevənlər evdə yatmaz.
Cananımtək bir canan
Xudam bir də yaratmaz.

Gəl aşiqi dağda gəz!
Düyündə gəz, dağda gəz!
Əqlimi zülfün kimi
Dağıdanı dağda gəz!

Huri-qılman kimi gəz,
Tar çalansan, simi gəz.
Ürəyin məndə olsun,
Özün tərlan kimi gəz.

Ceyranın düzə gəlməz,
Yol gedən izə gəlməz.
Gizlətmə ay üzünü,
Qoy baxım gözə gəlməz!

Kəhəri sürən gəlməz,
Saç-yalın hörən gəlməz.
Yar gedəndə söz verdi,
Nədəndir, görən, gəlməz?

Bağa girmənəm sənsiz,
Gülü dərmənəm sənsiz.
Ox dəyib, qanım töksə,
Yenə bilmənəm sənsiz.

Aşiq oldum telə qız,
Kəmər bağla belə, qız.
Onu gücnən tapmışam,
Ana doğmaz belə qız.

Əziziyəm sarı qız,
Sarı köynək, sarı qız.
Məmən cənnət meyvəsi,
Özün dünya malı, qız.

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız.
Gözləri şah alması,
Özü dünya malı qız.

Qaşları kaman, ay qız,
Əymə gəl, aman ay qız.
Vədə verib gəlməsən,
Ollam bədgüman, ay qız!

Üzündə xalın, ay qız,
Xoşdu camalın, ay qız.
Öldürür nazın məni,
Nədi xəyalın ay qız?

Dam üstədi damımız,
Qoşadı eyvanımız.
Sən ordan bax, mən burdan,
Kor olsun düşmanımız.

Dam üstədi damımız,
Sovruldu xırmanımız.
Vəfalı yar yolunda
Qurban olsun canımız.

Cəmi getdi fanarsız,
Yükün vurdum dinarsız.
Məndən uzaq dolanın,
Siz də mən tək yanarsız.

Ay çıxıbdı kənarsız,
Gəzmək olmaz fanarsız.
Göz gördü, könül sevdi,
Niyə məni qınarsız?

Aşiq olub yara göz,
Tərlan tikər sara göz.
Ağlım başımdan aldı
Mənim bir cüt qara göz.

O şəhla göz, xumar göz,
Yar əğyara yumar göz.
Bir qəlbim var verirəm,
Canımı da umar göz.

Mən aşiqəm, yana üz,
Ördək göldə yana üz.
Necəsən bir ah çəkim,
Yaş tökülə, yana üz!

Yaşın gəlsin yaşa düz,
Sancağını boşa düz.
Yardan ayrı düşənin
Ağlı gəlməz başa, düz.

Mən aşiq yüz yerdən üz,
Sonalar, yüz yerdən üz.
Müjgan sayəsi düşmüş,
Dağılmış yüz yerdən üz.

Aşıq sözü düz dedi,
Gülü bağdan üz dedi.
Xalın yeri buxaqdır,
Niyə səndə üz dedi?

Aşıq sözün nəs dedi,
Gəl dilimi kəs dedi.
Mən dedim bir busə ver,
O məndən can istədi.

Kilim-gəbə yükdədi,
Gözlərin gədikdədi.
Dönüb geri baxsana,
Sevdiyin yar dikdədi.

Aşıq sözün gizlədi,
Sözün düzün gizlədi.
Sən baxçaya çıxanda
Lalə üzün gizlədi.

Aşıq Rza sənlədi,
Hökm-rizə sənlədi.
Saxlasan qulun ollam,
Satsan, riza sənlədi.

Gözlərin məstdi, nədi?
Yolumu kəsdi, nədi?
Yar məni öldurməkdə,
Bilmirəm qəsdi nədi?

Axşam nə, səhər nədi?
Yar nədi, qəhər nədi?
Ala gözün yanında
Dürr nədi, gövhər nədi?

Qara kəlim xəstədi,
Quyruğu güldəstədi.
Mən bir gəlin sevmişəm,
Yetişib peyvəstədi.

Dağlar başı meşədi,
Könlüm sınıq şüşədi.
Yarın yara töhfəsi
Bir dəstə bənövşədi.

Gələn aşıq Vəlidi,
Əlində yar əlidi.
Hər zülmünə dözərəm,
Sövdamın əvvəlidi.

Bu bağlar meyvəlidi,
Gözlərin işvəlidi.
Nə yatmısan, xumar göz,
Qoynunda yar əlidi.

Dili nə məzəlidi,
Sevdamın əzəlidi.
Mən sevdiyim bu gözəl
Ellərin gözəlidi.

Bu dərə səkməlidi,
Burda gül əkməlidi.
Mən yarımı tanıram,
Dizədək çəkməlidi.

Gör aşiq dər dəmidi,
Xəstənin dər dəmidi.
Təbib, dərmanın apar,
Yaramın dər dəmidi.

Eləmi dan yeridi,
Görünən dan yeridi.
İki məmən arası
Yatmağa can yeridi.

Əziziyəm incidi,
Mirvaridi, incidi.
Mən yara nə dedim ki,
Küsdü məndən, incidi.

Ox atdım dağa dəydi,
Solumdan sağa dəydi.
Mən yara nə dedim ki,
Küsdü məndən, incidi.

Ox atdım dağa dəydi,
Solunnan sağa dəydi.
Göz göz ilə tuş oldu,
Dodaq dodağa dəydi.

Eləmi yara dəydi,
Dəymədim, yara dəydi.
Dilim ağzım qurusun,
Nə dedim yara, dəydi?

Bağında qora dəydi,
Yeməli qora dəydi.
Kəsərəm, dilim səni,
Nə dedin yara dəydi?

Əzizim üzüm dəydi,
Bağında üzüm dəydi.
Qiyamət qopmadı ki,
Üzünə üzüm dəydi.

Bağımda gilas dəydi,
Gül açdı, gilas dəydi.
Yar əlindən ox çıxdı,
Sinəm üstə rast dəydi.

Dağda maral ikiydi,
İki maral təkeydi.
Kaş ki mən su olaydım,
Su qızların yükiydi.

Maralım daşa gəldi,
Yolunu çaşa gəldi.
Əl atdım yar qoynuna,
Bir cüt nar qoşa gəldi.

Yan durun, aşıq gəldi,
Elə yaraşıq gəldi.
Yel vurub sinən açdı,
Gözümə işıq gəldi.

Ay doğdu, gecə gəldi,
Soruşma necə gəldi.
Yarı gecə gözlədim,
Gündüzü becə gəldi.

Bu ay hansı fəsildi?
Çayın suyu kəsildi.
Peymanından dönmədi,
Nəcabəti əsildi.

Bağda güllər biçildi,
Bir-birindən seçildi.
Bircə yol səni gördüm,
Tutqun könlüm açıldı.

Mən aşiqəm həşəmdi,
Zülf üzündə həşəmdi.
Qarabağ tərlanıyam,
Sona almaq peşəmdi.

Ağacdan gözəl endi,
Dibinə xəzəl endi.
Bir öpdüm, bir dişlədim,
Dişimə nəzər endi.

Aşıq dolandı bəndi,
Gəzdi mahalı, kəndi.
Ləblərindən kam alan
Neylər şəkəri, qəndi?

Dişlərin incidəndi,
Dürdəndi, incidəndi.
Özün əcəb gözəlsən,
Dilin can incidəndi.

Bu dağlar incidəndi,
Dür, sədəf, incidəndi.
Kəsərəm mən dilimi,
Bilsəm yar incidəndi.

Qızıl gül ləpələndi,
Meh vurdu ləpələndi.
Yarımnan xəbər gəldi,
Ürəyim ləpələndi.

Ay doğdu, qəlbiləndi,
Doğduqca qəlbiləndi.
Nəyə desən and içim,
Bu qəlb o qəlbiləndi.

Yarım gəlir, nə şəndi?
Zülf üzündə həşəmdi.
Mən zər bilən sərrafam,
Gözəl seçmək peşəmdi.

Əlində almaz indi,
Tutubdu almaz indi.
Bircə can, bir də busə,
Verərsəm almaz indi.

Bu bağ əmimgilindi,
Gəl tərini sil indi.
Cəfa çəkdin, yar sevdin,
Yarın qədrin bil indi.

Sal gəldi, sona mindi,
Qoy gəlsin sonam indi.
Bir dəfə üzün gülsə,
Mənimçün sanı mindi.

Üzündə xal kimindi?
Başında şal kimindi?
Ləblərin şəhdi-şəkər,
Dəhanın bal kimindi.

Bağçamızda bar indi,
Hər nə desən var indi.
Aç yaxan düyməsini,
Qoy görünsün nar indi.

Gözlərin xumar indi,
Yaş tökər yumar indi.
Çək şalın sinən üstə,
Görən nar umar indi.

Ay gedər, batar indi,
Nazlı yar yatar indi.
Leylinin bazarında
Məcnun can satar indi.

Arpa çayı dərindi,
Suyun içdim sərindi.
Nə yatıbsan dur, oğlan,
Keçən bu nazpərindi.

Ay doğdu, işıq verdi,
Yara yaraşıq verdi.
Sinəndən ulduz doğdu,
Gözümə işıq verdi.

Aşiqin gələn dərdi,
Gül əkdim, gələn dərdi.
Canımdan yey saxlaram
Canandan gələn dərdi.

Çəkdi illər bu dərdi,
Çəkən bilər bu dərdi.
Könlümdən silsə ancaq
Yarım silər bu dərdi.

Bakının yeli əsdi,
Əsib səbrimi kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

Araz buruldu getdi,
Suyu duruldu getdi.
Mən dedim yar incidi,
Demə yoruldu getdi.

Od yandı, odu keçdi,
Qəlyanın odu keçdi.
Aç gözün, qafil ovçu,
Maralın odu, keçdi.

Eləmi səyad əli,
Ov ovlar səyad əli.
Sərt yerin tərlanıyam,
Dəyməmiş səyad əli.

Əzizinəm yad əli,
Ya divanə, ya dəli.
Məhşərim o gün qopar,
Yara dəysə yad əli.

Bağında ha səndəli,
Mən dəli, ha sən dəli.
Gülgəz, yarana dəysin
Təbibin hasand əli.

Gəldi bir yüz məzəli,
Ləb şirin, yüz məzəli.
Qasım vəfalı yardan
Ölüncə yüzməz əli.

Eləmi ay incəli,
Yol gedər ay incəli.
Səni axtaran gözüm
Nə yatar nə dincəli.

Araxçının mil-mili,
Zər üstədir hər gülü.
Bizim bağda oxusun
Sizin bağın bülbülü.

Ay doğdu pərli-pərli,
Qapısı qoşa nərli.
Girəydim yar qoynuna,
Çıxaydım tərli-tərli.

Kəkliyin pərəndimi?
Torunu hörəndimi?
At ürbəndi üzündən,
Görüm mən görəndimi?

Arxalığı biçdimi?
Üstündə and içdimi?
Bir də görüş arzusu
Ürəyindən keçdimi?

Açılmışam gül kimi,
Oxuram bülbül kimi.
Dəymə mənim könlümə,
Sarallam sünbül kimi.

Oturubsan gül kimi,
Söylürsən bülbül kimi.
Nə daldadan baxırsan
Satın alma qul kimi.

Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldatdın aşiqi,
Yağa su damar kimi.

Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Ürəyim səni istər
Tər-təzə yemiş kimi

Əzizim incəlimi,
Əriyib incəlimi.
Çıxsam, boyum görünsə,
Gözlərin dincəlimi?

Yar qoydu bağda məni,
Nə ağır çağda məni,
Ölsəm Məcnuntək ölüm,
Gəzsinlər dağda məni.

Əziziyəm, ya məni,
Qız, qaşların yəməni.
Ya öldür, canım qurtar,
Qəbul eylə ya məni.

Tapmısan güldə məni,
Görürsən ildə məni.
Dedin səni sevirəm,
Sevirsən dildə məni.

Eləmi dərdə məni,
Qurban kəs mərdə məni.
O gedən nazlı sənəm
Salıbdı dərdə məni.

Əzizim lələ məni,
Sinənə bələ məni.
Məmən neştərə dönüb,
Qorxuram dələ məni.

Əzizim səslə məni,
Gün gedir, səslə məni.
Rəhm eylə mən tifilə,
Sinəndə bəslə məni.

Dağlarda səslə məni,
Qoynunda bəslə məni.
Necə ki mən istərəm,
Elə də istə məni.

Mən aşiq yasəməni,
Üzübsən yasəməni.
Qanrılıb geri baxdın,
Batırdın yasa məni.

Mən aşiq elçi məni,
El yaylaq, el çiməni.
O qaş, o göz, o kiprik
Salıbdı elçi məni.

Dağlar dağladı məni,
Görən ağladı məni.
Zəncir buxov tab etməz,
Zülfün bağladı məni.

Söz dedin, aldı məni,
Çöllərə saldı məni.
Zülfün şahmar ilandı,
Əl vurdum, çaldı məni.

Üzdü qeylü-qal məni,
Hərdən yada sal məni.
Mən səni mərd bilmişəm,
Namərd olma, al məni!

Gəl geyindir, al məni,
Bir yadına sal məni.
Bas bağrına saz kimi,
Həzin-həzin çal məni.

Yaxanda büz ilməni,
Üstünə düz ilməni.
Vəfalı yar yad olmaz,
Görməsə yüz il məni.

Gözlə bu sardan məni,
Ayırma yardan məni.
Zülfünü kəmənd eylə,
Qurtar bu dardan məni.

Aşiq, qaralar məni,
Zülfün qaralar məni.
Xəyalınnan yatmışdım,
Basdı qaralar məni.

Burda sar alar məni,
Zülfün qaralar məni.
Sənsiz yatağa girsəm,
Yataq yaralar məni.

Yad gələr alar məni,
Düzlərə salar məni.
Göz ol şahmar tellərə,
Qorxuram çalar məni.

Atıbdı çoxlar məni,
Bircə yar yoxlar məni.
Amandır, elə baxma,
Kirpiyin oxlar məni.

Qızılgüləm, dər məni,
Məxmər üstə sər məni.
Məxmər üstə sərməsən,
Sinən üstə sər məni.

Əzizim neylər məni,
Üzdü bu neylər məni.
Gedin yardan soruşun,
Çağırıb neylər məni?

Qurban götür kəs məni,
Qənarədən as məni.
Al könlümü, saz eylə,
Sinən üstə bas məni.

Apardı boz at məni,
Saxladı səyad məni.
Baş qoyum dizin üstə,
Çox yatsam oyat məni.

Əzizim ovçu məni,
Dağlardan qov çiməni.
Ya mələrəm, taparam,
Ya vurar ovçu məni.

Su səni, suda səni,
Saxlasın Xuda səni.
Bir öpüb, beş qucaydım,
Şirin yuxuda səni.

Əzizinəm ha səni,
Haqq saxlasın ha səni.
Sənin könlün nar istər,
Mənim könlüm ha səni.

Gözüm, göz görə səni,
Kabab, köz görə səni.
İstəməm öz gözümnən,
Ayrı göz görə səni.

Sevdim əzəldən səni,
Hərfi qəzəldən səni.
Yoxladım kamalını,
Qoydum tez əldən səni.

Əzizim küləcəni,
Gey, sallan, küləcəni.
Mən də sənin yolunda
Döndərdim külə canı.

Məcnun gəzər Leylini,
Bilməz onun felini.
Oğlanın qaydasıdır,
Qıza salar meylini.

Mən aşiq sini-sini,
Dolur ver sini-sini.
Mənə öz yarım gərək,
Neylərəm özgəsini?

Aşiqəm öz səmtini,
Zülf bulur öz səmtini.
Vəfalı yar yad olmaz,
Görməsə öz səmtini.

Əzizim dalda yeri,
Yel tutmaz dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Bu yerlər qala yeri,
Bürc yeri, qala yeri.
Qorxuram bağa gəlsəm,
İz salam, qala yeri.

Yeri, dam üstə yeri,
Qızıl cam üstə yeri.
Ayaqların incisə,
Çıx, sinəm üstə yeri.

Əzziyəm xal-xal yeri,
Görünən xal-xal yeri.
Öpəydim ağ üzündən,
Qalaydı xal-xal yeri.

Əziziyəm en bəri,
Dolan dağdan, en bəri.
Ləblərin görən neylər,
Görə bir də ənbəri.

Əldə təzə nübəri,
Tutmuş təzə nübəri.
Cənnət kimi qoynunun
Çıxmış təzə nübəri.

Əzizim  hil qədəri,
Qaşların mil qədəri.
Hər sabah boyun görsəm,
Açıllam gül qədəri.

Yarın ala gözləri,
Şux piyala gözləri.
Axırda saldı məni
Qalmaqala gözləri.

Şirvanın küçələri,
Banlayır beçələri.
Çağırdım öz yarımı,
Hay verdi neçələri.

Ayağında çəkməsi,
Qızıldandı düyməsi.
Heyvaya, nara bənzər,
Qoynundakı meyvəsi.

Aşiqin səndəlisi,
Gözlərin sən dəlisi.
Sevdiyim zülflərindən,
Gəlir səndəl iyisi.

Qurşanduq bu sədağı,
Ovçular bulsa dağı.
Bir ox bəsdir aşiqə,
Nə tökdün bu sədağı.

Əzziyəm, Gəncə bağı,
Gül açıb Gəncə bağı.
Alıb Tiflis gözəli,
Gəzəsən Gəncə bağı.

Əzizim gəzər bağı,
Dost gəlib gəzər bağı.
Məhəbbət bir dəstə gül,
Açılıb bəzər bağı.

Bülbüllər süzər bağı,
Yar gələr gəzər bağı.
Camalın gül-qonçası,
Açılsa bəzər bağı.

Mən aşiq gül budağı,
Tutubdu gül bu dağı.
Məni dərdin əyibdi,
Necə ki gül budağı.

Gəl gedək dolan bağı,
Gülləri solan bağı.
Pərvanədən öyrəndim
Başına dolanmağı.

Göz gördü ol sadağı,
Ol oxu, ol sadağı.
Tənhayi der: yar cövrin
Çəkərəm olsa dağı.

Əlində bu sədağı,
Ovçunun busa dağı.
Çıxmaz aşiq könlündən
Cananın busə dağı.

Qurşanmış gör sədağı,
Ov gedər görsə dağı.
Cənnəti neylər aşiq,
Camalın görsə dağı.

Mən aşiq busə dağı,
Yardan al busə dağı.
Bir ox bəsdir aşiqə,
Boşaltma bu sədağı.

Aşiq, yaramaz ağı,
Bayqu yarama zağı.
Tut xınalı barmaqdan,
Eylə yarla mazağı.

Aşiqəm yaz fərağı,
Oxuyan, yaz fərağı,
Tamaşadı bülbülün
Gül ilə yaz fərağı.

Qarşımızda o Tağı,
Usta çəkib o tağı.
Aşiqə cənnət evi
Öz yarının otağı.

Məhləmizin qoçağı,
Olma yarın qaçağı.
Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.

Əzziyəm busacağı,
Yaxşıdı busə çağı.
Tərlanın oylağıdı,
Sonanın busacağı.

Əlimdə su sancağı,
Su tök yuyum sancağı.
Elə xoşuma gəlir
İyidin utancağı.

Qarşımızda bağdadı,
Paşa gəzər Bağdadı.
Getməz bülbül sərindən,
Gül sevdası, bağ dadı.

Bu dərə buz bağladı,
Dibi yarpız bağladı.
Gəlin vurdu, oxladı,
Yaramı qız bağladı.

Balakən çar qaladı,
Hər tərəfi taladı.
Yarın al yanaqları
Elə bil bir laladı.

Ovçu ovun qovladı,
Bərə üstə ovladı.
Ceyran könül verməzdi,
Yəqin onu tovladı.

Yar bağçada ağladı,
Ürəyimi dağladı.
Axıtdığı göz yaşı
Əl-qolumu bağladı.

Mənim yarım molladı,
Atın gümüş nalladı.
Əlində tər şamama,
Gah veri, gah aldadı.

Əcəb səbzəli bağdı,
Getsəm, yolum uzaqdı.
Mən səndən ayrılmaram,
Nə qədər canım sağdı.

Qızıl üzük laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.

Karvan yolun tuşladı,
Dağdan endi qışladı.
Əhdindən dönən yarı
Yenə yar bağışladı.

Tut ağacı damadı,
Yolum xiyabanadı
Əyil öpüm üzündən,
Qara tellər yanadı.

Əzizim yüz qan adı,
Tərlanın yüz qanadı.
Zülfünə qadağa ver,
Toxundu, üz qanadı.

Həyətləri nanadı,
Qulağında tanadı.
Əyil üzündən öpüm,
Əcəb xəlvətxanadı.

Dağ döşü mağaradı,
Çalınan nağaradı.
Özün ağ maya dilbər,
Gözlərin nə qaradı?

Arxalığın xaradı,
Bağrım başı yaradı.
İzn ver, mən də bilim,
Yar, oylağın haradı?

Aşıq xalqa nayıbdı,
Açma, xalxdan ayıbdı.
Zənəxdan qıpqırmızı,
Məgər xal qanayıbdı?

Ağ alma allanıbdı,
Ağacdan sallanıbdı.
Mən sənə nə dedim ki,
Gül üzün xallanıbdı?

Yar qapını açıbdı,
Nolub rəngin qaçıbdı?
Dur gəl bizim bağçaya,
Gör nə güllər açıbdı.

Aşığın yolu dağdı,
Bağbanın meyli bağdı.
Çəkəcək yar qəhrini,
Nə qədər canı sağdı.

Bu dağ yara dağıdı,
Çəkmə, yara dağıdı.
Əlini sürt başıma,
Əlin yara dağıdı.

Bu gəlin haralıdı?
Dağların maralıdı.
Gəl könlümü qırma sən,
Ürəyim yaralıdı.

Bağça gülün canıdı,
Qızılgül xırmanıdı.
Yarın incə gülüşü
Xəstələr dərmanıdı.

Payız yazdan yaxşıdı,
Ördək qazdan yaxşıdı.
Toyda bir gəlin gördüm,
Vallah, qızdan yaxşıdı.

Qala bizim olaydı,
Daşı qızıl olaydı.
Yara qonaq gedəndə,
Gecə uzun olaydı.

Eyvan bizim olaydı,
Dirəyi qızıl olaydı.
Yarım bizə gələndə
Qurban quzum olaydı.

Alma budaqda qaldı,
Qızlar otaqda qaldı.
Bir öpdüm, bir dişlədim,
Dişlər yanaqda qaldı.

Bağçalarda bad qaldı,
Dost çəkildi, yad qaldı.
Yar qismətim olmadı,
Üstümdə bir ad qaldı.

Yağış yağdı, nəm qaldı,
Sevgi, söhbət dəm qaldı.
Qoynundakı şamama
Əl dəyməmiş, xam qaldı.

Bağında üzüm qaldı,
Yemədim, üzüm qaldı.
İki əmi qızının
Birində gözüm qaldı.

Araz başdan azaldı,
Üstün ördək, qaz aldı.
Olan-olmaz huşumu
Gedən sərvinaz aldı.

Bu nə gözəl camaldı,
Əldən gözəl cam aldı.
Eşqə ürcah eyləyən
Məni, gözəl camaldı.

Şamamalar saraldı,
Tağdan düşdü qaraldı.
Hamını dərd öldürdü,
Mənim canım yar aldı.

Yar məni yada saldı,
Dağlara səda saldı.
Gəldi hamıya çatdı,
Apardı oda saldı.

Eləmi gül açıldı,
Yaz gəldi, gül açıldı.
Rəngin nədən dəyişdi,
Al oldu, gülə çaldı.

Əziziyəm nə qandı,
Nə qovğadı, nə qandı.
Qaşların yağı, cəllad,
Gözlərin oynağandı.

Mən aşiqəm üz qandı,
Sinə qandı, üz qandı.
Xal öpmək bir qan olsa,
Buxaq öpmək yüz qandı.

Oğlan, adın Firqandı,
Hər baxışın bir qandı.
Elə bildim sən gəldin,
Sümüklərim yırğandı.

Əzizim oda yandı,
Mən gəldim, o dayandı.
Yar mənə bir od vurdu,
Mən yandım, o da yandı.

Dağ başı al boyandı,
Al-əlvan şal boyandı.
Camalından nur yağdı,
Bütün mahal boyandı.

Görünən Savalandı,
Qızılquş ov alandı.
Dərdin kimi dərd olmaz,
Nə yaman sağalandı.

El köçdü, dağ dolandı,
Damağı çağ dolandı.
Əl atdım şamamaya,
Əlimə tağ dolandı.

Əzizim Dilimandı,
Xoy, Salmas, Dilimandı.
Gözəllik bəhsi düşdü,
Səni çox dilim andı.

Dağ başında borandı,
Boran yatıb, torandı.
Yar sinəsi mənimçün
Həm dağdı, həm arandı.

Aşiq bu gül butandı,
Gül dəstəsin tutandı.
Ayla gün bəhsə girdi,
Camalından utandı.

Çay daşdı, can apardı,
Yayındı, yan apardı.
Aç zülfün, bağla yaram,
Amandı, qan apardı.

Çiskin yağış yağırdı,
Məni bir qız çağırdı.
Məməsinə əl atdım,
“Ana” deyib bağırdı.

Aşiqəm gülə baxdı,
Bülbüllər gülə baxdı.
Bir gözəl gülümsədi,
Ağzından gülab axdı.

Qaşların qibləgahdı,
Qiblə desəm günahdı.
Dağlara duman çöksə,
O da mən çəkən ahdı.

Ay dolandı, il aşdı,
Bağım, bağçam gül açdı.
Yalvardım danışmadı,
Küsən kimi, dil açdı.

Yar gəldi dağdan aşdı,
Gördüm dilim dolaşdı.
Gözün ahu gözüdü,
Bu qaş səndə nə qaşdı.

Ceyranım dağdan aşdı,
Gördüm, gözüm qamaşdı.
Yarla üz-üzə gəldim,
Birdən dilim dolaşdı.

Mizar yüzü qırmızı,
Yandırıb yaxma bizi.
Ağ yüzünü dişləsəm,
Qan çıxar qıpqırmızı.

Yolun dağlı, qayalı,
Hər işdən oldum halı.
Nə dağdan qar əksilər,
Nə məndən yar xəyalı.

Mərd sözü sözdən alı,
At qaçar, gözdə nalı.
Mahir ovçu ovlaqda
Nişanı gözdən alı.

Dağlar başın qar alı,
Duman, çiskin qar alı.
Canan cana od saldı,
Nə yanar, nə qaralı.

Ovçu gəzər maralı,
Maral durar aralı.
Mən səninəm, sən mənim,
Gözlərimin qaralı.

Haralısan, haralı?
Gözlərimin qaralı.
Burda bir yar sevmişəm,
Bizim elin maralı.

Qurban mənzil ox alı,
Döşənibdi o xalı.
Zülfün əcəb xaindi,
Gizləyibdi o xalı.

Otağın gözəl xalı,
Döşənmiş gözəl xalı.
Müştağı candan eylər
Bəyimin gözəl xalı.

Bakı qızı bakılı,
Alnında var kəkili.
Qonşuda bir qız sevdim,
Kimdi onun vəkili?!

Qarşıda üzə calı,
Sonalar üzəc alı.
Canansız ölməz aşiq,
Yetişsə yüz əcali.

Yar gəlir yolu daşlı,
Yaxası zər naxışlı.
Aldı əldən ağlımı,
Gedər xumar baxışlı.

Arxalığın badamı,
Gün yandırar adamı.
Əzəli özüm qurban,
Sonra kəndin adamı.

Əzizim oda damı,
O bağı, o da damı.
Elə ki sən yandırdın,
Yandırmaz od adamı.

Əzzim dağ, dağ adamı,
Dügün, dağ, dağ adamı.
Yara meyil yaxşıdı,
Eylər dağ dağ adamı.

Əziziyəm yaramı,
Sızıldatma yaramı.
Qoy cərrah əlin çəksin,
Yar bağlasın yaramı.

Arxalığı aldımı,
Qıraqları şaldımı?
Qonşudakı gözəlin
Dodaqları baldımı?

Bu gələn Salahdımı?
Dəryadan sel axdımı?
Canansız can gəzdirmək,
Aşiq der: salahdımı?

Gecə işıq olarmı?
Gül yaraşıq olarmı?
Bir qəlbdə iki  sevgi,
İki aşiq olarmı?

Aşıq ötən qurbanı
Böldürdü tən qurbanı.
Apar Mina dağına,
Kəs yara mən qurbanı.

Əzizim, xan divanı,
Xan eylər xan divanı.
Yara bir eyvan tikdim,
Qızıldan nərdivanı.

Bu divan xan divanı,
Xan eylər xan divanı.
Gözlərin qurbanıyam,
Qaşların bəndivanı.

Qızıl üzük miyanı,
Barmaqlara dayanı.
Belimi qucan oğlan,
Tez get, atam oyanı.

Qızıl üzüyün yanı,
Durmaz barmağım qanı.
Niyə bizə gəlmirsən,
Dil-dodağın qurbanı.

Qara atın yalmanı,
Göyə atdım almanı.
Oynatmağa istərdim,
Qoynundakı almanı.

Göz gördü sən cananı,
Ver mənə səncə nanı.
Könül əldən qoyarmı
Göz qoysa sən cananı?

Əzizim, oba xanı,
El xanı, oba xanı.
Kirpiyin od kimidir,
Gəl vurma o baxanı.

Gözüm gördü o xanı,
O sultanı, o xanı.
Sinəmi nişan tikdim,
Gəldim deyəm ox hanı?

Mən aşiq oba hanı?
El hanı, oba hanı?
Ya ölləm, ya öldürrəm,
Mən allam o baxanı.

Əzziyəm su cahanı,
Saçın tək suca hanı?
Ləblərin təşnəsiyəm,
Götürsə su cahanı.

Gözü gördü əjdəhanı,
Kəbə tək səjdə hanı?
Doymaz yaxşı ləbindən
Aşiqin əj dəhanı.

Bulud keçdi, ay hanı?
Qaşın kimi yay hanı?
Sənə oxşar yar gəzdim,
Eldə sənə tay hanı?

Bülbül hanı, gül hanı?
Bülbül gülün mehmanı.
Gəldim səni görməyə,
Danışmağa dil hanı?

Əzizim hara canı,
Mən qoyum hara canı?
Bilsəm müştağındadı,
Tapşırram yara canı.

Seyr etdik Sayrıcanı,
Biyanı, Sayrıcanı.
Şərif peşkəş göndərdi
Canana sayrı canı.

Bəylər, xanlar nişanı,
Quba balının şanı.
Gözəl ona deyirlər,
Çəkmir ənnik-kirşanı.

Əzzinəm, güləm barı,
Çəkilir gül ənbəri.
Nə gülən, güldürəndi,
Nə qoymur güləm barı.

Dağları gəl en barı,
Çəkilir gül ənbəri.
Xalqda var dəstə-dəstə,
Bizdə var gül anbarı.

Dağların çoxdu qarı,
Sərindi bulaqları.
İzin ver ağ sinənə
Baş qoyum, yatım, barı.

Bazarın şah bazarı,
Qurulmuş şah bazarı.
Aşiqin şan bağrından
Qovulmuş şahbaz arı.

Arazın qıraxları,
Dolu gəlir arxları.
Şeh düşmüş gülə bənzər
Yarımın dodaxları.

Bizim evin quşları,
Qızıldan sərpuşları.
Qızlar seyrə çıxanda
Alır başdan huşları.

El köçür dağa sarı,
Ucadır dağ hasarı.
Ürəyin nar istəsə,
Dolan gəl bağa sarı.

Bağında yarpaq sarı,
Gül sarı, yarpaq sarı.
Yar əlindən yaram var,
Gəl yarama ağ sarı!

Arxalığın acarı,
Gey, yaraşır acarı.
Ləbin təki bal olmaz,
Mənim təki ac arı.

Bağında üzüm sarı,
Yeməli üzüm sarı.
Yara gələn qadanı
Çəkərəm özüm sarı.

Geyinibdi yar sarı,
Bayqu ilə yar sarı.
Kəbədə ölsə aşiq,
Yönün qoyun yar sarı.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Sən mənimsən, mən sənin,
Budu sözün axırı.

Əzziyəm yazdan ayrı,
Qələm kağızdan ayrı.
Ayrılsın, necə dözsün
Bu göz o gözdən ayrı.

Zərxaradan libası,
Gey sallan, olma ası.
Məni yandırdı yaxdı
Gözlərinin qarası.

Əlində yar alması,
Tutubdu yar alması.
Yaxşı olar yar könlün
Küsəndə yar alması.

Gedirdim bağ arası,
Tapdım bir gül parası.
Bir qız gördüm, qəlbimin
Təzələndi yarası.

Qaşlarının qarası,
Sənsən bağrım parası.
Bir oğlan, bir qız ola,
Bir güllü bağ arası.

Əynində var xarası,
Al-yaşılı, qarası.
Məni dərdə salıbdı,
Üzü bir ay parası.

Qızıl üzüyün xası,
Silindi könlüm pası.
Ağlımı başdan aldı
Bu zalımın balası.

Bənövşə güllər xası,
Nədi onun bahası?
Qızılgüldən don biçdim,
Tər qönçədən yaxası.

Qarabağın alçası,
Döşənibdi xalçası.
Bir gözəl qız sevmişəm,
Qızılgülün qonçası.

Pənahı, o pənahı,
Zülf üzün o pənahı.
Sənsən Kəbə sarayı,
Çəkərmi öpən ahı?

Araz axır qıyqacı,
Bu gələn iki bacı.
Biri öz sevgilimdi,
Biri onun dilmancı.

Gülgəzin gül adaşı,
Mey daşı, gülə daşı.
Yıxar bülbül öyünü,
Kim atsa gülə daşı.

Aşıq gəzər dağ-daşı,
Axtarar yaşılbaşı.
Can alan bir gözəlin
Sürməni neylər qaşı?

Aşıq yaxşıdı Yaxşı,
Xalın yaxşıdı, Yaxşı.
Sərraf baxdı, bəyəndi,
Dedi: yaxşıdı Yaxşı.

Sən yaxşı, mən də yaxşı,
Su gəlir bəndə yaxşı.
İmran dilli aşiqi
Salıbdı bəndə Yaxşı.

Arxalığın naxışı,
Gözəldi yar baxışı.
Gəzəsən Şəki-Şirvan,
Tapmazsan məndən yaxşı.

Qarşımızda qana tay,
Tərlan çalar qanat ay.
Bir cüt xal var üzündə,
Hər biri bir cana tay.

Aşiq göz ala gərək,
Kabab köz ala gərək.
Qaş qara, kirpik qara,
Üz ağ, göz ala gərək.

Aşiq biriylə gərək,
Gövhər düriylə gərək.
Dünyada gözəl çoxdu,
İlqar biriylə gərək.

Əziziyəm xan gərək,
Can oda yaxan gərək.
Açıldı köksün bəndi,
Göründü yaxan gərək.

Qar yağır kürək-kürək,
Damları dirək-dirək.
Qonşuda bir qız gördüm,
Öpməyə ürək gərək.

Qarşımızda tək ətək,
Yar bağrımı təkə tək.
Qapında kəlbin olum,
Tək mənə dəysin ətək.

Gəl oturub çay içək,
Göy atlasdan don biçək.
İlqar üstə durmağa
Quran gətir, and içək.

Əziziyəm bir-bir çək,
Sürmə götür bir-bir çək.
Ölsəm qanlım olacaq,
Bir qaş, bir göz, bir birçək.

Barmağımda bir üzük,
Sağ qolumda bilərzik.
Mən ona qurban olum,
Boynumdan beli nazik.

Yar geyinib tamam al,
Tamam yaşıl, tamam al.
Bu yarımçıq canımı
Rəhmin yoxsa, tamam al.

Nal istəsən, məndə nal,
Sən atın al, mən də nal.
Sinəm əttar dükanı,
Nə istəsən məndən al.

Atdandıq düşəndə nal,
At getməz, düşəndə nal.
Aşiq, dərdinə dərman
Var, dərdə düşəndən al!

Əziziyəm narın al,
Heyvasın al, narın al.
Gəl mənə bir rəhm eylə,
Ürəyimin narın al.

Ovçu-ovçu ha maral,
Budu getdi ha maral.
Belə can almaq olmaz,
Can alırsan, hamar al.

Get bazardan incir al,
Saatına zincir al.
Uzaq yoldan gəlibsən,
Gir qoynuma dincin al!

Qapıda durma, gözəl,
Boynunu burma, gözəl.
Saxla müjgan oxunu,
Sinəmə vurma, gözəl.

Əzizim güldən gözəl,
Oxur bülbüldən gözəl.
Yar mənə bir gül verib,
Özü o güldən gözəl.

Dəstədən üzül, gözəl,
Sıraya düzül, gözəl.
Sən göndərən naməni
Saxlaram yüz il, gözəl.

Dövlətin, varın gözəl,
Vardı bir yarın gözəl.
Şirindi hər meyvədən
Qoynunda narın, gözəl.

Dağların başına gəl,
Dibinin daşına gəl.
Ay qız, anan qoymasa,
Yaşına-yaşına gəl.

Qarşımızda yüzən gəl,
Sona, göldə yüz, ən, gəl.
Yarım vəfalı olsa,
Mana neylər yüz əngəl.

Zülfün siyah, yüz, yüz il,
Ömrün olsun yüz, yüz il.
Aşiq səndən yüzülməz,
Sən aşiqdən yüz yüzil.

Bu meşə meşə deyil,
Gülü bənövşə deyil.
Öpəndə ləbindən öp,
Göz öpmək peşə deyil.

Araşqının al yaşıl,
Çayda balıq qaynaşır.
Yarın səsi gələndə
Evdə qanım qaynaşır.

Arxalığın çin yaşıl,
Baxdıqca göz qamaşır.
Çöldən səsin gələndə
Evdə dilim dolaşır.

Mən aşiqəm bağda gül,
Bağçada gül, bağda gül.
Dillərdə bir dilbərdi,
Ona çatmaz bağda gül.

Nə durubsan bəstə gül,
Halın yoxsa xəstə, gül.
Mən yarıma söz atdım,
Yarım mənə dəstə gül.

Aşiqə yaz, incə gül,
Görübdü yaz incə gül.
Bülbül yüz kitab oxur
Bir əlif yazınca gül.

Əzizim reyhanı gül,
Şahi gül, reyhanı gül.
Gülün kimi gül bitməz,
Götürsə cahanı gül.

Əziziyəm qanlı gül,
Qanlı seviş, qanlı gül.
Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.

Əziziyəm yaxşı gül,
Yaxşı danış, yaxşı gül.
Bülbül ürəkdən oxur,
Bağda görsə yaxşı gül.

Əziziyəm oyan gül,
O yan bülbül, o yan gül.
Başın yastıq incidər,
Gəl sinəmə dayan gül.

Aşiq yamanca dögül,
Xalın yamanca dögül.
Günümüz belə keçsə,
Mənə yamanca dögül.

Sən ulduzsan, mən ayam,
Say quşlardan mən sayam.
Məcnun kimi gəzərəm,
Leyli müştağındayam.

Qardaş, belin bağıyam,
Ayağın torpağıyam.
Üzündə bir gül bitib,
Mən onun yarpağıyam.

Əlində saza yannam,
Qəmzəyə, naza yannam.
Baş qoyub dizin üstə
Qış yatsam, yaz oyannam.

Qönçə güləm, bağdanam,
Tər laləyəm, dağdanam.
Bostançıdan xəbər al,
Desin hansı tağdanam.

Gəl mənim atam, anam,
Dərdindən yatanmanam.
Qoynunda cüt məmələr,
Tərləmiş tutanmanam.

Dərya ollam, bulannam,
Sucaq ollam, sulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Dağ-dərəni dolannam,
Dərya kimi bulannam.
Gözlərim sənə qurban,
Mən gözsüz də dolannam.

Çeşmə ollam, bulannam,
Dağları dörd dolannam.
Əlin əlimə versən,
Sail olub dilənnəm.

Araz kimi bulannam,
Bağça kimi sulannam.
Əlim sənə çatınca,
Kət-kət gəzib dolannam.

Sızıldar becə yaram,
Dərd verər gecə yaram.
El bilir, aləm bilir,
Mən sənə necə yaram.

Bülbülü ac saxlaram,
Güldən bir tac saxlaram.
Yarım utancaq olsa,
Tutub dilmanc saxlaram.

El içində bekaram,
Çətrim üzə tökərəm.
Özgələrə xan olsam,
Öz yarıma nökərəm.

Əziziyəm atmaram,
Yarı yada satmaram.
And olsun yaradana,
Yadımdan çıxartmaram.

Yaralıyam, yatmaram,
Dərdi batman-batmanam.
Yar göndərən bu dərdi
Heç bir dərdə qatmaram.

Gedərəm, oturmaram,
Acı söz götürmərəm.
Yüz il ömürdən getsə,
Səndən əl götürmərəm.

Çaylar təkin axmaram,
Başa həna yaxmaram.
Bir dəfə üzün görsəm,
Aya, günə baxmaram.

Niluferəm, açmaram,
Ətrim bica saçmaram.
Yar yolunda baş qoysam,
Öz əhdimdən qaçmaram.

Bir kəsim yox, naçaram,
Hər qapıya açaram.
Atan, anan verməsə,
Allam, səni qaçaram.

Dərya tək bulanmaram,
Dəryadan sulanmaram.
Aləm sənsiz dolansa,
Mən sənsiz dolanmaram.

Naçaram mən, naçaram,
Bağlı qapı açaram.
Yar gözün yaşlı görsəm,
Baş götürüb qaçaram.

Hicran dağın aşaram,
Duman gəlsə çaşaram.
Mən bir qaynar qazanam,
Odun az qoy, daşaram.

Araz deyiləm, coşam,
Kür deyiləm, qaynaşam.
Apar sərraf yanına,
Gör nə qiymətli daşam.

Yarı yola salmışam,
Qayğısına qalmışam.
Mən yarımın iyini
Bacısından almışam.

Təndirə daş qoymuşam,
Üstə lavaş qoymuşam.
Gündüz gəlmə, gecə gəl,
Böyrümü boş qoymuşam.

Qapıya daş qoymuşam,
Qaş üstə qaş qoymuşam.
Ölləm, səndən dönmənəm,
Yolunda baş qoymuşam.

Dərd əlindən solmuşam,
Saç-birçəyim yolmuşam.
Axır bu eşq odunnan
Əriyib mum olmuşam.

Mən aşiq kimə bəndəm,
Sazımda simə bəndəm.
Yarla görüşmək üçün
Bir kiçik himə bəndəm.

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Mən gedərgi qonağam,
Bir şirin dilə bəndəm.

Əhmədəm, Kəbədəyəm,
Kəbəyəm, Kəbədəyəm.
İldə bircə həc olur,
Mən gündə Kəbəyəm.

Şirin çayın qəndiyəm,
Zülflərin kəməndiyəm.
Aləm tufana getsə,
Gözlərinin bəndiyəm.

Əzizinəm bəstəyəm,
Əlində güldəstəyəm.
Xəbər alsan halımı,
Mən səninçün xəstəyəm.

Mən dağlarda çiçəyəm,
Əl vurma, köynəkçəyəm.
Yar ki məni bəyənir,
Göyçəklərdən göyçəyəm.

Qızılgül dəstəsiyəm,
Qaşların ustasıyam.
Özgə bir dərdim yoxdu,
Camalın xəstəsiyəm.

Ay qız, sənə mailəm,
Boynunda həmailəm.
Dost payı şirin olar,
Hər nə versən qailəm.

Əzizim dağa gəlləm,
Bağçaya, bağa gəlləm.
Qış günü yar gözləsə,
Qar yağa-yağa, gəlləm.

Əzizim mən də gəlləm,
Minnəm səməndə, gəlləm.
Qoşullam çarvadara,
Siz olan kəndə gəlləm.

Kirpiklərin san billəm,
Məni kəlbə san, billəm.
Aşiq der, ayrılıqdan
Ölümü asan billəm.

Ovçuyam, Təklədənəm,
Tək evli Təklədənəm.
Arazbar tərlanıyam,
Sonalar təklədənəm.

Mən aşiq o gülə nəm,
Zülflərin o gülə nəm.
Quran gətir, and içim,
Səninlə o gülənəm.

Eləmi o gülə nəm,
Tez keçdi o gülə nəm.
Nə deyirsən and içim,
Səninlə o gülənəm.

Arxalığı büzmənəm,
Əlli mənəm, yüz mənəm.
Əlim səndən üzülsə,
Qəlbim səndən üzmənəm.

Tamburun teli mənəm,
Şirvanın yeli mənəm.
Girəydim qız qoynuna,
Cənnətin gülü mənəm.

Qarşıda inci mənəm,
Ləl mənəm, inci mənəm.
Vəfalı yar yolunda
Can versəm, incimənəm.

Mən aşiq incimənəm,
Dürr mənəm, inci mənəm.
Baş qoyub dizin üstə
Can versəm, incimənəm.

Dağların qarı mənəm,
Ərimez qarı mənəm.
Bir alagöz dilbərin
Qanlısı, qarı mənəm.

Təbriz mənəm, Xoy mənəm,
Gözlərindən doymanam.
Versələr dünya malın,
Səni əldən qoymanam.

Bağçalarda gül mənəm,
Bülbül mənəm, gül mənəm.
Sübhədək yalvarmasan,
Danışmanam, gülmənəm.

Dağları aşan mənəm,
Əlimdə yovşan mənəm.
Çox da yarım kasıbdı,
Əhdim var, boşanmanam.

Dağları gəzən mənəm,
Daşları düzən mənəm.
Yarım vəfalı yardı,
Əlimi üzəmmənəm.

Dağ başında sar mənəm,
Qəlbi qara tar mənəm.
Deyirlər yar küsübdü,
Demə günahkar mənəm.

Çardaxda oturmənəm,
Gül-çiçək bitirmənəm.
Dünyanı qız bürüsə,
Səndən əl götürmənəm.

Aşiq elə düşənəm,
Şehəm, gülə düşənəm.
Zülfün tək dağılqanam,
Üzə-gözə düşənəm.

Pəncərəmdə şüşə nəm,
Yarpaq üstə düşə nəm.
Nə sən gözdən salansan,
Nə mən gözdən düşənəm.

Bu yoldan gecə dönnəm,
Dönərsən, becə dönnəm.
Əgər sən məndən dönsən,
Mən səndən necə dönnəm.

Dağları qar bəzərəm,
Bağ salıb, bar bəzərəm.
Əlimə saz götürüb,
Çalaram, yar bəzərəm.

Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm.
Burdan bir sona keçdi,
Onu arar, gəzərəm.

Əzizim yandı Kərəm,
Od tutdu, yandı Kərəm.
Hazıram şirin canı
Yolunda qurban verəm.

Dumanı çən bilərəm,
Kölgəni sən bilərəm.
Gecə gəl gir yanıma,
Tərləsən mən silərəm.

Bu bağı bağ eylərəm,
Üstün çardaq eylərəm.
Eşitsəm sən gəlirsən,
Yolun çıraq eylərəm.

Gürəm, gülü neylərəm,
Gülə qulluq eylərəm.
Mənə öz gülüm gərək,
Özgə gülü neylərəm.

Əziziyəm, çəkmərəm,
Vermə qəlyan, çəkmərəm.
Əlim saçına dəysə,
Şahmar olsa çəkmərəm.

Su üzündə üzmərəm,
Hər sitəmə dözmərəm.
Mən sənə bənd olmuşam,
Ölməmiş əl üzmərəm.

Durna kimi süzmərəm,
Yaman dərdə dözmərəm.
Məndən uzaq gəzsən də,
Əlim səndən üzmərəm.

Qızılgülü əkmərəm,
Dərib yerə tökmərəm.
Əlim zülfünə dəysə,
Şahmar olsa çəkmərəm.

Ov gəlsə ötürmərəm,
Tənə söz götürmərəm.
Yüz il ömrümdən keçsə,
Səndən əl götürmərəm.

Qızılgülü dərərəm,
Pəncərəyə sərərəm.
Vəfalı bir yar olsa,
Yolunda can verərəm.

Arxalığın biçmişəm,
Tikməyə and içmişəm.
Bizim bu Balakəndən
Şümal boyu seçmişəm.

Qızılgülü biçmişəm,
Üstündə and içmişəm.
Min gözəlin içindən
Bircə səni seçmişəm.

Eldən yana düşmüşəm,
Nahaq qana düşmüşəm.
Yar məni bərkə çəkib,
İmtahana düşmüşəm.

Bu yoldan işləyəydim,
Xəncər gümüşləyəydim.
Eşq ilə yarı sevib,
Üzündən dişləyəydim.

Bu gecə sizə gəldim,
Pəncərənizə gəldim.
Basdığınız torpağa
Qapandım, dizə gəldim.

Tor gördüm, tələ bildim,
Çağırdın, gələ bildim.
Bir yatmış ceyran gördüm,
Yar yatıb elə bildim.

Səni bülbül bilərdim,
Sarı sünbül bilərdim.
Bağçamızda açılmış
Bir qızılgül bilərdim.

Mən aşiq, üzə mərdim,
Dəryada üzə mərdim.
Mən də qara geysəydim,
Zülfün tək üz əmərdim.

Su gəldi bağa neylim?
Dəydi yarpağa neylim?
Görüşürük bağçada,
Gəlmir otağa neylim?

Bağa su duşdu neylim?
Ağaclar içdi neylim?
Müjgan oxunu atdın,
Qəlbimdən keçdi neylim?

Aşiqə o yar mənim,
Qəm bağrım oyar mənim.
Məkkəmdi, Mədinəmdi,
Kəbəmdi o yar mənim.

Alça gül açdı, neynim?
Dilim dolaşdı, neynim?
Bir alagöz yar sevdim,
Xəyalım çaşdı, neynim?

Aşıq, süzgün gözlərim,
Qəmdən üzgün gözlərim.
Gözəldən doya bilməz,
Baxsa yüz gün gözlərim.

Yanan çıraq olaydım,
Yoldan iraq olaydım.
Yarım biçin biçəndə
Soyuq bulaq olaydım.

Dağ üstə sarı baxdım,
Tar gördüm, hara baxdım.
Bir dəfə üzün gülsə,
Açılar qara baxtım.

Əzizim neynən alım,
Əlifi beynən alım.
Küsdürüb yola saldım,
Könlünü neynən alım?

Bağlarında bar xanım,
Heyva xanım, nar xanım.
Aşiq bir dilbər görüb,
Çağırırlar Narxanım.

Mən aşiq bala canım,
Həsrətdə qala canım.
Yarın ala gözləri
İstər ki, ala canım.

Mən aşiq yara canım,
Qurbandır yara canım.
Tutum, qoyum qəfəsə,
Göndərim yara canım.

Əzziyəm yazdı canım,
Al qələm, yaz di canım.
Bülbülü bağda görüb,
Deyir ki, yazdı canım.

Dərd gölündə üz, canım,
Dərdi sapa düz, canım.
Yara qurban verərəm,
Əgər olsa yüz canım.

Eləmi Baxtiyarım,
Bax elim, bax diyarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım?

Barmağı üzük yarım,
Qolu bilərzik yarım.
Əyil, üzündən öpüm,
Dodağı nazik yarım.

Qönçə idim, gül oldum,
Boy atdım, sünbül oldum.
Bir dilbilməz quş idim,
Oxudum, bülbül oldum.

Dəryadan balıq tutdum,
Tutub, gündə qurutdum.
Bir vəfalı yar tapdım,
Bivəfanı unutdum.

Qızılgül oyum-oyum,
Dərim sinəmə qoyum.
Bülbül güldən doymayır,
Mən səndən necə doyum.

Dağ aşdım, sala düşdüm,
Nə yaman hala düşdüm.
Yar xəlvət bizə gəldi,
Gördülər, qala düşdüm.

Dağ aşdım, yana düşdüm,
Gecikdim, bana düşdüm.
Yardan busə istədim,
Elə bil qana düşdüm.

Aşiqə düşdü gözüm,
Kababa düşdü gözüm.
Baxdı, yarı görmədi,
Gözümdən düşdü gözüm.

Bağında vardı üzüm,
Dillərdə gəzdi sözüm.
Yarı bikef görüncə
Kaş ki, çıxaydı gözüm.

Başına necə dönüm?
Dolanım, necə dönüm?
Tərsa dinindən dönməz,
Mən səndən necə dönüm?

Canım o bağa qurban,
Gələn qonağa qurban.
Qaşa-gözə heyranam,
Büllur buxağa qurban.

Gülü biçənə qurban,
Suyu içənə qurban.
Kişmir geyib sallanıb,
Burdan keçənə qurban.

Mən aşiq, sözüm qurban,
Qoy olsun gözüm qurban.
Yara qurban nə lazım,
Mən ona özüm qurban.

Samavarı qaynadan,
Üstə çaynik oynadan.
Əyil öpüm üzündən,
Qaş altdan göz oynadan.

Mən gəlirdim bulaqdan,
Yarım çıxdı qabaqdan.
Yalvardım, axır aldım
Bir öpüş bal dodaqdan.

Yaralıyam yanımdan,
Quşlar içər qanımdan.
Sən mənə qurban dedin,
Mən də keçdim canımdan.

Əzziyəm o divannan,
O xannan, o divannan.
Üz görməz, rüşvət almaz,
Qorxuram o divannan.

Ay doğur Talıstandan,
Gün qalxır Gülüstandan.
Bir cüt şamama dərdim
Yar bəsləyən bostannan.

Qorun sənə baxandan,
Çaylar kimi axandan.
Gizləmə şux məməni,
Qoy görünsün yaxandan.

Əziziyəm ya xandan,
Ya sultandan, ya xandan.
Açıldı sinən bəndi,
Məmən çıxdı yaxandan.

Mən aşiqəm yaxan dan,
Ya sultandan, ya xandan.
Bir dəstə gül olaydım,
Asılaydım yaxandan.

Əziziyəm o xandan,
O sultandan, o xandan.
Səndə bir cüt nar gördüm,
Göz çəkmərəm yaxandan.

Arı doymaz balından,
Gözəl çıxmaz şalından.
Üstümə nur töküldü,
Yarın ay camalından.

Mən aşiq ilqarından,
Sözündən, ilqarından.
Yarına ilqar verən
Dönərmi ilqarından?

Qaşların qarasından,
Öpəydim arasından.
Ayrılmaq necə olsun
Filankəs balasından?

Gəlişin Azattardan,
Xəbər ver azattardan.
Aşiq, dərdinə dərman
Tapılır az əttardan.

Əziziyəm al bundan,
Yanax bundan, xal bundan
Şeytan vəsvəsə verir,
Dur bir öpüş al bundan.

Gəlişin ay Ağsudan,
Xəbər ver, ay ağ sudan.
Sonanı göldə gördüm,
Kəsmənəm ayaq sudan.

Mən gəlirdim iraxdan,
Çıxdı gülüm bulaxdan.
Gülüm, bircə soraydım
Bal süzülən dodaxdan.

Mən aşiq oda gir yan,
Mən giryan, o da giryan.
Dedim, könlüm, odun al,
Demədim, oda gir, yan.

Çəpəri basma, oğlan!
Yolumu kəsmə, oğlan!
Mən özgənin malıyam,
Hələ tələsmə, oğlan!

Söz-söhbəti naz, oğlan,
Keyf-damağı saz, oğlan.
Özün gələ bilməsən,
Nə sözün var yaz, oğlan!

Sənə qurban ay oğlan,
Mənə ver sən hay, oğlan.
Gəzdim eli-obanı,
Yoxdur sənə tay, oğlan.

Qara buruqsaç oğlan,
Qapımızı aç, oğlan.
Atam, anam yatıbdır,
Götür məni qaç, oğlan.

Köynəyin yaşıl oğlan,
Geyin, yaraşır oğlan.
Gəlmə bizim məhləyə,
Anam dalaşır oğlan.

Bazarda var qul alan,
Kül başına dul alan!
Həmıdan bəxtəvərdir,
Qız əlindən gül alan.

Ay çıxdı peşman-peşman,
Gün çıxdı ona düşman,
Gəl xəlvətdə görüşək,
Nə dost bilsin, nə düşman.

Dolan gəl bizə, ceyran,
Zülfün tök üzə, ceyran.
Qorxmursan yad ovçudan,
Çıxırsan düzə, ceyran?!

Əzziyəm gözə ceyran,
Sürmə çək gözə, ceyran.
Çox tərlan ovlamışam,
Görünmür gözə ceyran.

Alma versəm, almazsan,
Sən almadan qalmazsan.
Hansı bağın gülüsən,
Saralmazsan, solmazsan?!

Qızıl üzük taxmazsan,
Sən qızıla baxmazsan.
Hansı çayın suyusan,
Hər tərəfə axmazsan?

Əzizim haralısan?
Gəncənin maralısan.
Getmə gözüm önündən,
Gözümün qaralısan.

Ay gələn, haralısan?
Ürəkdən yaralısan.
Gözlərindən tanıram,
Bu yerin maralısan.

Mən aşiq haramısan,
Zülflərin daramısan.
Gözəl olmasan da sən,
Könlümə yaramısan.

Sən bu yerin canısan,
Sultanısan, xanısan.
Ətrindən doymaq olmaz,
Təbrizin reyhanısan.

Yarpaq tək əsən olsan,
Saçbağın kəsən olsan.
Əzrayıl mənə neylər,
Başım üstə sən olsan.

Əziziyəm ayımsan,
Ulduzumsan, ayımsan.
Salma məni gözündən,
Sən ki mənim payımsan.

Ay qız, mənim payımsan,
Göy üzündə ayımsan.
Mən səni çox istərəm,
Yaxşı mənim tayımsan.

Tapmadın tay mənimçün,
Vermədin hay mənimçün.
Mən ölsəm, sənə qurban,
Sən ölsən, vay mənimçün.

Aşiqəm üzəsən can,
Zülfünə düzəsən can.
Bilsən yar vəfalıdır,
Yolunda üzəsən can.

Aşığam o yatıncan,
Mən yanım o yatıncan.
Kəsim yasdığın dibin,
Yalvarım o yatıncan.

Getmərəm elinizdən,
Doymaram dilinizdən.
Ollam yaşılbaş sona,
Uçaram gölünüzdən.

Aşığa gözümüzdən,
Kababa közümüzdən.
Xaldan, zülfdən doysa da,
Doymadı gözüm üzdən.

Burax getsin qəm əldən,
Qoyma düşsün dəm əldən.
Gedir öz canım getsin,
Getməsin həmdəm əldən.

Bağçaları qəndildən,
Köynəyi var məndildən.
Yar ilə mərc gəlmişik,
O dodaqdan, mən dildən.

Aşiqəm səna dildən,
Oxuram səna dildən.
Haşa ki mən məzluma,
Zülm ola sən adildən.

Əzizim gülü güldən,
Xəbər al gülü güldən.
Canan güllər içində,
Seçmərəm gülü güldən.

Aşiq Yaxşıya məndən,
Dürrün yaxşı Yəməndən.
Salam, dua, təmənna
Apar Yaxşıya məndən.

Aşiqəm alma məndən,
Dağ səndən, alma məndən.
Dərmanın sənin olsun,
Tək dərdin alma məndən.

Əzizim sayma məndən,
Uman var pay məməndən.
Olaydım əmlik quzu,
Əməydim hey məməndən.

Gəl aşiq dönmə məndən,
Ver tiflə dön məməndən.
Durub sallanmaq səndən,
Boyuna dönmək məndən.

Əziziyəm can məndən,
Cisim məndən, can məndən.
Kaman, ox səndən olsun,
Hədəf məndən, can məndən.

Yolun sal yeləsindən,
Dolan gəl beləsindən.
Gündə bir qurban kəsim
Gözümün giləsindən.

Uman var pay ləbindən,
Heç olmaz tay ləbindən.
Olaydım su təşnəsi,
Əməydim ay ləbindən.

Kür bulanır lilindən,
Baş açmıram dilindən.
Sən yaylaqdan qar göndər,
Mən Arazbar gülündən.

Əzizim gədiyindən,
Ay doğdu gədiyindən.
O yara qurban olum,
Dönməz öz dediyindən.

Mən aşiq duyməsindən,
Aç ilmə düyməsindən.
Tutaydım ağ məməndən,
Əməydim düyməsindən.

Əzizim çini çindən,
Maçinin Çini çindən.
Tüccar çəkmiş zülfünü,
Keçirmiş çini çindən.

Əziziyəm zülfündən,
Nədən salıb zülfün dən?
Şahmar gəlsə qorxmanam,
Gözlə məni zülfündən.

Əziziyəm yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Qolların sal boynuma,
Ayaqların üz yerdən.

Əziziyəm yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Camalın bayram ayı,
Baxışırlar yüz yerdən?

Əzizim mina gərdən,
Mina boy, mina gərdən.
Yeldən, küləkdən qorun,
Qorxuram sına gərdən.

Bir quşum var sərgərdən,
Xəbər verir hər yerdən.
Ağlımı başdan alıb,
Billur buxaq, ağ gərdən.

Gəmim gəldi səfərdən,
Soraq var bir nəfərdən.
Bağçamıza yar gəlib,
Xəbərim yox xəbərdən.

Aşıq gəlir saz ilən,
Ördək ilən, qaz ilən.
Yar məni yola saldı
Qəmzə ilən, naz ilən.

Bulağın başı ilən,
Dibinin daşı ilən.
Sənə qəlbimi açdım
Gözümün yaşı ilən.

Sən narımsan, mən gilən,
Bağçamızda əkilən.
Hər gün divar dalından
Mənəm baxıb çəkilən.

Gedirdim can-baş ilən,
Yolum düşdü daş ilən.
Yar öz dərdi-dilini,
Bildirdi göz-qaş ilən.

Qalmışam eşikdə mən,
Bir qızıl beşikdə mən.
Yar bağçaya gələndə
Duraram keşikdə mən.

Əziziyəm gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar,
Sənə qurban gündə mən.

Əziziyəm dərdə mən,
Dözəmmərəm dərdə mən.
Sən yat dincin algilən,
Keşikçinəm dərdə mən.

Mən aşiqəm, gözə mən,
Qaşlara mən, gözə mən.
Ov vurular oxlara,
Vurulmuşam gözə mən.

Peyman tutdum sözə mən,
Gəlib çıxdım düzə mən.
Bağlamışam könlümü
Xumar baxan gözə mən.

Əzizim haraycı mən,
Carçı mən, haraycı mən.
Yar bu gün seyrə çıxıb,
Haray gül, haray çəmən.

Əzizim haraycı mən,
Carçı mən, haraycı mən.
Məmələr savaşanda
Olaydım haraycı mən.

Nə desən qanıram mən,
Səni yar sanıram mən.
Mənə od nə gərəkdi,
Odsuz da yanıram mən.

Aşiqəm yanıram mən,
Hər sözü qanıram mən.
Yüz min gözəl yığılsa,
Yarımı tanıram mən.

Donam ki, geyiləm mən?
Yar gördüm əyiləm mən?
Mənə bivəfa demə,
İlqarsız deyiləm mən.

Xəstən mənəm, xəstən mən,
Bağçada güldəstən mən.
Sən elə bir çiçəksən,
Hər görəndə məstəm mən.

Darçının lüləsindən,
Dolan gəl beləsindən.
Gündə bir qurban kəsim
Gözümün giləsindən.

Dan yeri ziyada sən,
Əsdikcə ziyad əsən.
Kəsərəm, dilim, səni,
Nə dedin, ziyadə sən?

Göy üzündə pərdəsən,
Saldın məni dərdə sən.
Mən səni çox sevirəm,
Göydə Allah, yerdə sən.

Hələ tərsən, təzəsən,
Bağ-bağçanı bəzə sən.
Biləsən vəfasını,
Yolunda can üzəsən.

Əziziyəm üzəsən,
Ürbənd salma üzə sən.
Girəsən yar bağına,
Bir cüt narın üzəsən.

Əziziyəm genə sən,
Səfa gəldin genə sən.
Fikrim, zikrim, xəyalım,
Sənsən, sənsən, genə sən.

Əziziyəm zirəsən,
Zəfəransan, zirəsən.
Qurban olum o günə,
Bir qapımdan girəsən.

Elat köçür, atdan sən,
Gözlə özün yaddan sən.
Dilimin əzbərisən,
Heç çıxmazsan yaddan sən.

İncəsən incidən sən,
Sədəfdən, incidən sən.
Kəsərəm, dilim, səni,
Biləm yar incidənsən.

Şuxsan, məzəli sənsən,
Elin gözəli sənsən.
Mənim nakam baxtımın
Sonu, əzəli sənsən.

Ellərin gözəlisən,
Dadlısan, məzəlisən.
Əlim səndən üzmərəm,
Sevdamın əzəlisən.

Xoş gəldin səfa gəldin,
Bizə həm səfa gəldin.
Nə mən öldüm qurtardım,
Nə sən insafa gəldin.

Haray sevməli gəlin,
Seçib yeməli gəlin.
Xəlvətdə bir sözüm var
Sənə deməli, gəlin.

Əziziyəm bir amin,
Bir dua de, bir amin.
Bu gündən məhəbbətim
Artıb sənə birə min.

Aşiqəm oda sənin,
Düşəli oda sənin.
Yetimin bir canı var,
Dilərsən, o da sənin.

Üzündə xaldı sənin,
Yanağın aldı sənin.
Şirin şərbət yanında
Ləblərin baldı sənin.

Ay qız, adın var sənin,
Meyxoş dadın var sənin.
Hamı səni çox sevir,
Yoxsa cadın var sənin?

Qamətin şuxdu sənin,
Əlində oxdu sənin.
Mən səni çox sevirəm,
Xəbərin yoxdu sənin.

Əzizim dili şirin,
Bülbülün dili şirin.
Mənə bir sirr veribdi,
Bal dodaq, dili şirin.

Əzizim binə gəlsin,
Köç gəlsin, binə gəlsin.
Sevdim tərsa qızını,
And verin dinə gəlsin.

Əzizim sara xalın,
Can alır hara xalın.
Ürəyimə xal saldı,
Ağ üzdə qara xalın.

Aşıq tapar, mən zamın,
Atın çapar, mən zamın.
Yara şəfa dərmanı
Könlüm, apar, mən zamın.

Boz atın boylamasın,
Çək başın, oynamasın.
Gəlirsən, gecədən gəl,
Ürəyim oynamasın.

Sirr sözün məndə qalsın,
Saldım kəməndə, qalsın.
Can məndə qərar tapmaz,
Qoy verim səndə qalsın.

Çən alıb dağlar başın,
Bağ başın, bağlar başın.
Camalın bir aynadır,
Hər görən bağlar başın.

Aşiqəm sinə qoyun,
Sidrimi sinə qoyun.
Yaxşını qibləsinə,
Məni tərsinə qoyun.

Əlində ayna bunun,
Tutubdu ayna bunun.
Dilin, dişin, dodağın,
Yeyəsən ay nə bunun.

Əlində ay nə bunun,
Qaşları yay nə bunun.
Tutasan ağ məməsin,
Sıxasan ay nə bunun.

Əzizim məndə munun,
Nəyi var məndə munun.
Özü cənnət çiçəyi,
Kövsəri mən də munun.

Qaftanıdı al munun,
Köbəsidi şal munun.
Şeytan dağdağa eylər,
Dur qadasın al munun.

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Oğlan, xiffət eyləmə,
Mənim canım sağ olsun.

Sar gəlsin dağa dolsun,
Bülbüllər bağa dolsun.
Sevdiyim yar yolunda
Canım sadağa olsun.

İstəmədim yar olsun,
Nişan aldım, ad olsun.
Yardan mənə xəbər yaz,
Mənim könlüm şad olsun.

Əzizim aydın olsun,
Ay doğsun, aydın olsun.
İki həsrət qovuşdu,
Gözlərin aydın olsun!

Bu gələn canın olsun,
Gəlsin mehmanın olsun.
Hara getsən tez qayıt,
Canım qurbanın olsun.

Yar dili yemiş olsun,
Dediyin demiş olsun.
Əynindəki köynəyin
Yaxası gümüş olsun.

Şərabı iç, nuş olsun,
Piyalən gümüş olsun.
Əyil üzündən öpüm,
Yeri bənövüş olsun.

Qoy dağlar təndə dursun,
Nişan ver, məndə dursun.
Can sənsiz qərar tapmır,
Göndərim səndə dursun.

Mən aşiqəm ay Dursun,
Ülkər yatsın, ay dursun.
Öləndə qəbrim üstə
Tellərini yay dursun.

Mən aşiqəm yan dursun,
At oxunu yan dursun.
Zülfünə qadağa de,
Ağ üzünnən yan dursun.

Əzizim səksəndigün,
Ay doğdu, səksəndi gün.
Camalın bədirləndi,
Ay qorxdu, səksəndi gün.

Fələyin çarxı dönsün,
Su gəlsin arxı dönsün.
Ləblərindən öpüş ver,
Ağzımın talxı dönsün.

Danışdı, dindi zülfün,
Gərdənə mindi zülfün.
Dəstələ qoy qoynuna,
Qan eylər indi zülfün.

Bağında məzə nobar,
Əlində gəzə nobar.
İzin ver ağ sinəndən
Dərim bir təzə nobar

Əzizim Bağdada var,
Min atın, Bağdada var.
Bağçada gördüyün gül
Bizim bu bağda da var.

Əzizim meydana var,
Min atın, meydana var.
Yar belə xumarlanır,
Bilmirəm meydə nə var?

Dur atdan Xaldana var,
Murğ üçün xal dana var.
Əmməli dil, dodaqdı,
Buxaqda xalda nə var.

Əzizinəm təkdə var,
Dağda otlar tək davar.
A cüt yatan bəxtəvər,
Heç demirsən tək də var.

Mən aşiq, xalx ana var,
Xal düşmüş, xalxanə, var.
Göz gördü, könül sevdi,
Bilmənəm xalxa nə var.

Getmə, yad eldə nə var?
Gərdəndə beldə nə var?
Nə var ağ buxaqda var,
Öpməli teldə nə var?!

Mən aşiqəm, Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
Yar yardan ayrılsa da,
Məhəbbət ölüncə var.

Mən aşiq dağda nə var,
El köçmüş, dağda nə var.
Nə gəzir dəli könlüm,
Sevgisiz dağda nə var?

Qızılgüldə dənə var,
Dərildikcə yenə var.
Baş qoyum dizin üstə,
Tər tökülsün dənəvar.

Bu qara üzdə nə var?
Yad deyən sözdə nə var?
Gözəl görmək savabdır,
Qoy baxım, gözdə nə var?

Bağında, Şirin, nə var?
Yeməli şirin nə var?
Gəzsən cümlə cahanı,
Sevgidən şirin nə var?

Qarşıda göz izi var,
Kababda köz izi var.
Üzünə yadlar baxmış,
Üzündə göz izi var.

Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Bir cüt nar itirmişəm,
Məndə güman yeri var.

Araşqının zəri var,
Butası var, zəri var.
Xumar baxan gözlərin
Ulduza bənzəri var.

Eləmi, qəməsi var,
Belində qəməsi var.
Minmişəm eşq atına,
Olmuşam qəmə suvar.

Bülbül oxur səsi var,
Həm zili, həm pəsi var.
Şirin sözlü dilbərin
Can alan qəmzəsi var.

Şah dağının qarı var,
Ürəkdə ah zarı var.
Yarın nə dərdi-qəmi,
Mənim təkin yarı var.

Başında ağ şalı var,
Yaşılı var, alı var.
Ceyran yerişli yarın
Ağ buxaqda xalı var.

Əlində baydası var,
Baydanın qaydası var.
Əlini ver əlimə,
Canıma faydası var.

Dağ başında saray var,
Sarayda nə haray var?
Qaşın, gözün timsalı
Nə ulduz var, nə ay var.

Danışmağa heyim var,
Əlifim var, beyim var,
Yara qurban can olsun,
Candan əziz nəyim var?

Əlimdə qəfəsim var,
Saxlaram həvəsim var.
Elə səni deyərəm,
Nə qədər nəfəsim var.

Bağında ağ üzüm var,
Getmə dayan, sözüm var.
Gözlərindən qorxuram,
Qaşlarında gözüm var.

Pəncərədə üzüm var,
Ana, sənə sözüm var.
Qonşu oğlanlarının
Kiçiyində gözüm var.

Dərvişəm kəşkülüm var,
Hər güldən beş gülüm var.
Gəlmişəm mən qapına,
Əlbət bir müşkülüm var.

Dağ döşündə quyu var,
Şirin-şərbət suyu var.
Ay qız, sənin qoynunda
Şamamanın boyu var.

Xankəndinin düzü var,
Çöllərində düzü var.
İki könül bir olsa,
Kimin buna sözü var?

Əziziyəm, ya Qarqar,
Xaçın, Tərtər, ya Qarqar.
Bəyaz məmə, ağ sinə,
Utanmazmı yağar qar.

Əzizinəm yağar qar,
Oynar bulud, yağar qar.
Gözü yolda yarım var,
Ya söylənər, ya qarğar.

Məni tapdı, ay azar,
Katiblər ayə yazar.
Dağıldı bulud zülfün,
Gün üzünə ay azar.

Qarşımızda laləzar,
Nədən çəkdin nalə, zar?
Bu gələn canan oldu,
Dəxi çəkmə, Lalə, zar.

Mən aşiqəm gülə zar,
Bülbülə zar, gülə zar,
Yara qarşı gələndə
Ağıl çaşar, dil azar.

Qamış taladan azar,
Yar görüb əqlim azar.
Mən bir qızı sevmişəm,
Tanrı ömrümə yazar.

Atım, tutum alma, yar,
Evdə yalqız qalma, yar.
Əl mənim, ətək sənin.
Nəzərindən salma yar.

İşim düşdü bəndə, yar,
Can qalmadı təndə, yar.
Allah məni öldürsün,
Sən də qurtar, mən də, yar.

Könlüm qaldı səndə, yar,
Təbib yardı, sən də yar.
Mən sənə neylədim ki,
Küsüb getdin sən də, yar!

Gül düzübdü telə yar,
Ətək sancıb belə yar.
Dərdin al, nazın götür,
Düşməz ələ belə yar.

Qarşımızda o diyar,
Mən duymazam, o duyar.
Gəl Mövcudun yolunda,
Pərvanə tək odu yar.

Zənəxdanın xaldı yar,
Dil-dodağın baldı, yar.
Səndəki bu gözəllik,
Mahala səs saldı, yar!

Odun götür, yaxşı yar,
Yaxşı doğra, yaxşı yar.
İyidi gümrah eylər
Qədirbilən yaxşı yar.

Köç eyləsin sənəm yar,
Qalsın səndə tənəm yar.
Səni aləm sevsə də,
Əzəl sevən mənəm, yar.

Yan-yana durduğum yar,
Çadırın qurduğum yar.
Gözəllikdə tayın yox
Qurbanı olduğum yar.

Aç qoynun üşüdüm yar,
Ləbindən nuş edim yar.
Sən çor de, mən can deyim,
Tək səsin eşidim yar.

Pəncərədən baxan yar,
Bulaq kimi axan yar.
Gözlə, görən olmasın,
Açılıbdı yaxan, yar.

Xumar-xumar baxan yar,
A sultan yar, a xan yar.
Ağlım almaq istəsən,
Açıq saxla yaxan, yar.

Arxalığı dizdən yar,
İnciyibdi bizdən yar.
Atan səni döyəndə
Gəl qoynumda gizdən, yar.

Əziziyəm, dəryalar,
Nə dərindi dəryalar.
Xoş o zülfün halına,
Ağ buxaqdan tər yalar.

Başım ağrır, vay salar,
Üstə dərman qoysalar.
Mən səndən əl üzmərəm,
Təpə dırnaq soysalar.

Əzizim badamçalar,
Gül açıb badamçalar.
Zülflərin şahmar ilan,
Qorxuram adam çalar.

Mən aşiq altın ovlar,
Gecənin altın ovlar.
Bəxtəvər gül başına,
Tər buxaq altın ovlar.

Aşiq odada ağlar,
Kababı oda dağlar.
Yuz fikrim var, bir əqlim,
Səni görcək od ağlar.

Gül açıb ara bağlar,
Tutulub bara bağlar.
Aşiqlar yüz söz desə,
Axırın yara bağlar.

Qarşıda yara bağlar,
Bayqular yara bağlar.
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

Biçinçi bafa bağlar,
Biçdikcə bafa bağlar.
Bir yar bivəfa çıxsa,
Ona kim bəfa bağlar.

Əzizim sinə bağlar,
Xalların sinə bağlar.
Gözəllərdə qaydadı,
Üz örtər, sinə bağlar.

Dağlar başı buz bağlar,
Döşündə yarpız bağlar.
Məni gəlin oxlasa,
Yaralarım qız bağlar.

Savalanım buz bağlar,
Dörd yanı yarpız bağlar.
Qaşın-gözün şəninə,
Aşıq gəlsə söz bağlar.

Qarşıda yaxşı bağlar,
Meyvəli, yaxşı bağlar.
Aşığın sınıq könlün
Bağlasa Yaxşı bağlar.

Mən aşiqəm ay bağlar,
Ay bağçalar, ay bağlar.
Qaşın, gözün təhrində
Hansı usta yay bağlar.

Xəzəl oldu göy bağlar,
Göy bağçalar, göy bağlar.
Gözəldə nə qaydadı,
Ağ buxağa göy bağlar.

Əzizim gülü bağlar,
Açıbdı gülü bağlar.
Özün bir sona dilbər,
Dilin bülbülü bağlar.

Yar bağçada baş bağlar,
Zülfün yuyar, yaş bağlar.
Gah gülər, gah danışar,
Gah bağrına daş bağlar.

Verib baş-başa dağlar,
Dönübdü daşa dağlar.
Tərlan könlüm qonubdu
Bir qələmqaşa, dağlar.

Qarşıda əyri dağlar,
Düz dağlar,. əyri dağlar.
Gözün dağı düz çəkər,
Qaşların əyri dağlar.

Bu dağlar kaşı dağlar,
Ağardıb başı dağlar.
Məni heyran qoyubdu
Yarımın qaşı, dağlar.

El köçdü, Muğan ağlar,
Çəkər şur, Muğan ağlar.
Şanənin zülm işindən
Aşiq der: muy qan ağlar.

Tut ağacın qırdılar,
Üstə divar qurdular.
Yeniyetmə qız üstə
Doqquz oğlan qırdılar.

Ağacda var mazılar,
Könlüm səni arzular.
Əyil üzündən öpüm,
Qoy baxsın tamarzılar.

Əlində pay nə olar,
Qaşların yay nə olar.
Qol dolayıb boynuna,
Qucasan, ay nə olar!

Bulaq başı toz olar,
Üstü dolu qız olar.
Əyil dəsmalın götür,
Mən götürsəm söz olar.

Bulaq başı toz olar,
Üstü dolu qız olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar.

Dağ başına çıxarlar,
Aya dəm-dəm baxarlar.
Eşqdən ev tiksən də,
Evin birdən yıxarlar.

Bağda gülü yar sular,
Könlüm yarı arzular.
Gizlətmə gül camalın,
Qoy baxsın tamarzılar.

Əzizim yaman qaşlar,
Vermədi aman qaşlar.
Səf çəkin kirpiklərə,
Sayədir kaman qaşlar.

Göy üzü damar-damar,
Ay baxar xumar-xumar.
De, nə var gözlərində,
Hər görən bir pay umar?

Göy üzü damar-damar,
Ay baxar xumar-xumar.
Gözün cəllada oxşur,
Baxan mərhəmət umar.

Göy üzü damar-damar,
Ay baxar xumar-xumar.
Bivəfa yar yolunda
Doğrandım damar-damar.

Gün ortada dayanar,
Aləm nura boyanar.
Bir bayatı deyərəm,
Yar yuxudan oyanar.

Qarşımızda, a çapar,
Qəmzən məni a çapar.
Səfil görsən aşiqi,
Kəlbin diyə, aç apar.

Samavar cəh-cəh vurar,
Üstündə nimçək durar.
Qurban olum qardaşa,
At üstə göyçək durar.

Qaşların qatar-qatar,
Kirpiklərin ox atar.
Qoynun əttar dükanı,
Məmələrin qənd satar.

O tay bu taya baxar,
Arxasından çay axar,
Çıxsın gözlərim, əgər
Sənsiz dünyaya baxar.

Dağ başında yar aşar,
Yar dolanar, yar aşar.
İşvə, qəmzə, bir də naz,
Tək bir sənə yaraşar.

Gedirsən hara, dilbər?
Qaş-gözü qara dilbər.
Rəhmin olsun gəl eylə,
Dərdimə çara, dilbər.

Gəl çıxma dağa, dilbər,
Qorxum var yağa, dilbər!
Gülün bir ömrü yoxdu,
Bəzəkdi bağa, Dilbər!

Bu yol Cavada gedər,
Dönər Cavada gedər.
Uçubdu könlüm quşu,
Gör nə havada gedər.

Su gələr, asta gedər,
Astabaasta gedər.
İlqarsız qız yanına
Sağ olan xəstə gedər.

Ceyranlar qoşa gedər,
Gözlə, ox boşa gedər.
Yar ilqara düz olsa,
Ömür, gün xoşa gedər.

Quş uçar dəstə gedər,
Hərə bir səsdə gedər.
Səni görən cavanlar
Evinə xəstə gedər.

Bu yol yolamı gedər?
Maral kolamı gedər?
On beşini keçən qız
Evdə yolamı gedər?

Araz axar, yan gedər,
Üstündə min can gedər.
Yaramı yar bağlasın,
Yoxsa axar, qan gedər.

Aşıq gecədən keçər,
Karvan gecədən keçər.
Yarın fikri, xəyalı
Gecə məni dəng edər.

Ağ dəvə düzdən gedər,
Yükü Tiflisdən gedər.
Oğlanı dərd aparar,
Dərmanı qızdan gedər.

Bağlardan al bar, göndər,
Səndə hər nə var, göndər.
Açılmamış yaxandan
Əl dəyməmiş nar göndər.

Kəklik daşda nə gəzər,
Qələm qaşda nə gəzər?
Sən tək yarı olanın
Ağlı başda nə gəzər?

Bu tərlan sara bənzər,
Tükü tərlana bənzər.
Qoynundakı məmələr
Gül tökmüş nara bənzər.

Dərya dərin kim üzər?
Suyu sərin kim üzər?
Bir vəfalı yar olsa,
Ondan əlin kim üzər?

Su gələr bağa dəyər,
Gülə, yarpağa dəyər.
Mən bir canan sevmişəm,
Cümlə torpağa dəyər.

Su gələr daşa dəyər,
Kirpiklər qaşa dəyər.
Yarın bir cüt öpüşü
Qohum-qardaşa dəyər.

Su gələr bəndə dəyər,
Kəkil kəməndə dəyər.
Səndəki bu gözəllik
Cəmi bu kəndə dəyər.

Aşiq minaya dəyər,
Hər gün min aya dəyər.
Qaşın kimi qaş olmaz,
Üzün min aya dəyər.

Aşiq yaradan deyər,
Bayqu yara dan deyər.
Canım muştuluq olsun,
Hər kim yara dan deyər.

Bu dərd məni ləng elər,
Başa vurar, dəng elər.
Sevgi adam öldürməz,
Saraldar bədrəng elər.

Pəncərədən əl elər,
Əlləri gəl-gəl elər.
O gözlər ki səndə var,
Axırda əngəl eldər.

Əziziyəm yaz gələr,
Payız gedər, yaz gələr.
Toru olan tez qursun,
Belə tərlan az gələr.

Bu sular mələr gələr,
Dağları dələr gələr.
Yar-yarı çox istəsə,
Gecəni bölər gələr.

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər.
Qoy öpüm ağ üzündən,
Qaranlıqdı, görməzlər.

Aşiqəm ağa gözlər,
Bostana, bağa gözlər.
Dönüb yaz buluduna,
İstəyir yağa gözlər.

Əzizim qara gözlər,
Qələm qaş, qara gözlər.
Günüm qara eylədi
Qaradan qara gözlər.

Dikilib hara gözlər?
Axtarır çara  gözlər.
Məni divanə edib,
Səndəki qara gözlər.

Gözlərin kimi gözlər?
Kim bilir, kimi gözlər?
Nə qaşın kimi qaş var,
Nə gözün kimi gözlər.

Mən aşiq simi gözlər,
Tar çalan simi gözlər.
İlqarın mənimlədi,
Gözlərin kimi gözlər.

Ovçu ayağı gözlər,
Eyvan dayağı gözlər.
Məndə taqət qoymadı,
Baxdı o yağı gözlər.

Aşiq, yaxşı dan gözlər,
Mürğün yaxşı dən gözlər.
Baxdıqca şirin düşər,
Doymaz Yaxşıdan gözlər.

Əzizim, xunu gözlər,
Şah damar xunu gözlər.
Yarın fikri, xəyalı,
Kəsib yuxumu, gözlər.

Dağ döşündə nərgizlər,
Bənövşələr, nərgizlər.
Bura bir tərlan qonub,
Göldə sonanı izlər.

Əziziyəm nərgizlər,
Top-top bitər nərgizlər.
Bu gün bir maya gördüm,
Qoltuğunda nər gizlər.

Arpanı əkən bilər,
Xırmana tökən bilər.
Qınamayın aşiqi,
Sevdanı çəkən bilər.

Aşiq hər sözü bilər,
Əyrini, düzü bilər.
Dərdimi yara deyin,
Dərmanın özü bilər.

Yağış yağar, nəm çilər,
Gün boylanar, dəm çilər.
Gəl məni tez götür qaç,
Əl çəkməyir elçilər.

Əzizim ay incilər,
Yox sizə tay incilər.
Sənə baxan gözlərim
Günü gündən incilər.

Pəncərədən əl eylər,
Əlləri gəl-gəl eylər.
İki könül bir olsa,
Dağdan, daşdan yol eylər.

Aşiq nə fəğan eylər?
Çeşmim nə fəğan eylər?
Sonalar göldə üzər,
Nəfi nə fəğan eylər?

Yaqut yəməni neylər?
Ördək çəməni neylər?
Sən tək boylu buxunlu
Sərvi-səməni neylər?

Əlində qırğı neylər,
Tutubdu, qırğı neylər.
Cəllad gözlü nə görmüş,
Aləmi qırğın eylər.

Mən aşiq malı neylər?
Qızılgül alı neylər?
Mənim canım səndədi,
Cəsəddə qalı neylər?

Qara at nalı neylər,
Qara qaş xalı neylər.
Vəfalı yarı olan
Dövləti malı eylər.

Bal tutan şanı neylər?
Sevgi nişanı neylər?
Sənin kimi mahcamal
Ənnik kirşanı neylər?

Dəyirman üstü ləklər,
Çırmanıb ağ biləklər.
Oğlan qızdan ötəri
Dizin-dizin iməklər.

Əzizim qara tellər,
Ağ üzdə qara tellər.
Sənin bu nazü qəmzən,
Könlümü qarat eylər.

Mən aşiq şanə tellər,
Olubdu şanə tellər.
Ürəyimin başını
Alıb nişanə tellər.

Kəməndin atan tellər,
Naz-qəmzə satan tellər.
Əl vurma, çalar səni
Qıvrılıb yatan tellər.

Həmaili düzərlər,
Qazlar göldə üzərlər.
Sağ əlin qaydasıdır,
Gərdən qucar üz əllər.

Yaşılbaşlar üzərlər,
Tərlan kim süzərlər.
Sənə tay ola bilməz
Yüz obalar, yüz ellər.

Qızılgülü dərərlər,
Məcməiyə sərərlər.
İki istəkli yarı
Bir-birinə verərlər.

Qızılgülü seçərlər,
Budağından biçərlər.
Vəfalı yar yolunda
Candan-başdan keçərlər.

Gəl tökmə qan, a dişlər,
Quş uçar, qanad işlər.
İzin ver, ağ buxaqda
Qoy batsın qana dişlər.

Saleh mindi qara nər,
Süsən, sünbül, qaranər.
Doğsa günəş camalın,
Şah dağından qar ənər.

Mən aşiqəm gülə sər,
Gül tutubdu güləsər.
Yar bağçaya gəlməsə,
Bülbül küsər, gül əsər.

Bu dağda yovşan bitər,
Altında kəklik itər.
Mən yara nə dedim ki,
Ağ üzündə durdu tər.

Əziziyəm yarı tər,
Yarı qonça, yarı tər.
Kirpik çalma, gözlərim,
Kölgə salsan, yar itər.

Qayada ilan ötər,
Bağdadda xurma bitər.
Ay qız, elə sallanma,
Cavanam, ağlım itər.

Carqala oldu şəhər,
Gəzək biz ayrı təhər.
Üzü qırmızı güldü,
Qoynunun içi gövhər.

Çadır qurdum düzdədi,
Tənəfləri bizdədi.
On gəlin məni sevsə,
Mənim gözüm qızdadı.

Kişmir şalın məndədir,
İki ucu təndədir.
Yüz nocavan yığılsa,
Mənim gözüm səndədir.

Araxçının məndədir,
Sərmişəm, çəməndədir.
Aləm gözələ dönsə,
Mənim gözüm səndədir.

Bu uçan pərvanədir,
Qəlbi şanə-şanədir.
Mən xəbərsiz gəlmişəm,
Yar dəli-divanədir.

Mən aşiq nə şanədir,
Zülfün şanə-şanədir.
Ağ buxaqda bu ləkə
Məndən bir nişanədir.

Əzizim tərsi nədir?
Üzü nə, tərsi nədir?
Məni bu dərdə salan
Ağ buxaq, tər sinədir.

Yaralı yaram nədir?
Qəm ilə aram nədir?
Bu dərdə sən salıbsan,
Çəkməsəm çarəm nədir?

Buğdalar köklü nədir?
Yar sevdim, bir danədir.
Olmuşam yar dəlisi,
Deyirlər divanədir.

Qızılgülüm dəstədir,
Bülbül oxur, səsdədir.
Yarın sözü, söhbəti
Elə bil şikəstədir.

Göydə ulduz bəstədir,
Evimiz yol üstədir.
Bir sabah gəl, bir axşam,
De ki, yarım xəstədir.

Bu gecə xoş gecədir,
Yar qoynu boş gecədir.
Ala gözdən xəbər al,
Yalqız yatmaq necədir?

Dağlar başı meşədir,
Könlüm sınıq şüşədir.
Yarın yara töhfəsi
Bir dəstə bənövşədir.

Bülbül bu bağda gəzir,
Qonur budaqda gəzir.
Ceyranım öz yanımda,
Maralım dağda gəzir.

Bağça barın istəyir,
Heyva, narın istəyir.
Oğlan yzə durubdu,
Getmir, yarın istəyir.

Çay aşağı buz gəlir,
Dəstə-dəstə qız gəlir.
Bir əlində şiş kabab,
Bir əlində duz gəlir.

Bağdan bar iysi gəlir,
Heyva, nar iysi gəlir.
Gəl dolanım başına,
Səndən yar iysi gəlir.

Dağlarda bir ün gəlir,
Ay dolanır, gün gəlir.
Gözün qadasın alım,
Adın nə şirin gəlir.

Bağça bar üstən gəlir,
Heyva, nar üstən gəlir.
Aşıq deyən mahnının
Hamısı yar üstən gəlir!

Araz gəlir, lillənir,
Suyu gəlir, güllənir.
Yarı xəlvətdə görcək
Mənim qəlbim dillənir.

Bağban, mənə bar gətir,
Əsirgəmə, var gətir.
Əkilməmiş ağacdan
Dərilməmiş nar gətir.

Arxalığın xaradır,
Bağı, bəndi qaradır.
Kəhər at yəhərlənib,
Yar, səfərin haradır?

Payızın əzəlidir,
Bağçanın xəzəlidir,
Adına qurban olum,
Adların gözəlidir.

Göydə ulduz əllidir,
Yüz deyil, düz əllidir.
Mən yarımı tanıram,
Gözlərindən bəllidir.

Əzizim nar kimidir,
Bağçada bar kimidir.
Ağ buxaq, mina gərdən,
Yatıbdı qar kimidir.

Gözlərin sus kimidir,
Axan ulduz kimidir.
Mən sənsiz necə yatım,
Yorğanım buz kimidir.

Səhərin dan yeridir,
Sübh yeri, dan yeridir.
Bulaq başı hər axşam
Bir dəstə can yeridir.

Dağlarda qar incidir,
Gülləri xar incidir.
Özün dürsən, sədəfsən,
Qoynunda narıncıdır.

Dağ başı qar gərəkdir,
Çən, duman, tar gərəkdir.
Dərdimə dərman üçün
Təbibim yar gərəkdir.

Bu səs mənim səsimdir,
Ahımdır, nəfəsimdir.
Mənə sovqat gətirsən,
Bir dəstə gül bəsimdir.

Səməndin yerigəndir,
Çək tazyan, yerigəndir.
Dərdin aşiq canında,
Qoy qalsın, yeri gəndir.

Xədəngin yay iləndir,
Xasilar yayiləndir.
Ceyran zülfün həlqəsi
Ya əqrəb, ya ilandır.

Qala başında təndir,
Odun gətir, gəl yandır.
Öyrənməmiş tərlanı
Sal qoynuna öyrəndir.

Keçmə, bu çay dərindir,
İçmə, suyu sərindir.
Bülbüllər bağa gəlsə,
Toy-bayram güllərindir.

Kür qırağı sərindir,
Girmə, içi dərindir.
Oğlanı dərdə salan
Bir alagöz gəlindir.

Bu bağda nar şirindir,
Heyvadan nar şirindir.
Sağ olsun qohum-qardaş,
Hamıdan yar şirindir.

Bu kədər nə kədərdir?
Dərd, qəm çəkmə, hədərdir.
Hər bir kəsin öz yarı,
Özgə gəldi-gedərdir.

Aşiq, başım qaldadır,
Cüyür-ceyran yaldadır.
Gözlərin ahu gözü,
Dilin, ağzın bal dadır.

Oğlan, gözün aladır,
Atam evi qaladır.
Eşqin məni yandırır,
Məhəbbət bir bəladır.

Əzizim nağaradır,
Çalınan nağaradır.
Özün bir ağ mayasan,
Gözlərin nə qaradır?

Bu dağ bu dəşt haradır?
Könlüm para-paradır.
Mən ki səni sevirəm,
Qanın niyə qaradır?

Tut ağacı qarmaqdır,
Tutu barmaq-barmaqdır.
Yar bir namə göndərib,
Hər sözü yalvarmaqdır.

Gedirəm, yolum dağdır,
Dörd yanım bağça, bağdır.
Çəkərəm yar qəhrini,
Nə qədər canım sağdır.

Əzizim yar dağıdır,
Görünən yar dağıdır.
Könlüm fələk dağıtmaz,
Dağıtsa yar dağıdır.

Bu dağ şəfa dağıdır,
Seyri-səfa dağıdır.
Əlini çək başıma,
Əlin cafa dağıdır.

Əzizim, nə yağıdır?
Nə dostdur, nə yağıdır.
Yanağın gül qönçəsi,
Sinən cənnət bağıdır.

Aşiq yar aşığıdır,
Xalın yara şığıdır.
Qurban olum o zülfə,
Boyun yaraşığıdır.

Ay doğub hilalıdır,
İldən, aydan halıdır.
Ağlım aparan gözəl
Bilmirəm haralıdır?!

Oğlan, adın Alıdır,
Hamı bizdən halıdır.
Verdiyin qızıl üzük
Barmağımın malıdır.

Bu gələn haralıdır?
Dağların maralıdır.
Əyil üzündən öpüm,
Ürəyim yaralıdır.

Aşiq yapışqanlıdır,
Xalın yapışqanlıdır.
Bağda bülbül ölübdür,
Gülə yapış, qanlıdır.

Eləmi kamanıdır,
Qaş gözün kamanıdır.
Gizlətmə ay üzünü,
Dərdimin dərmanıdır.

Mən aşiq xırmanıdır,
Qızılgül xırmanıdır.
Əlin qoy sinəm üstə,
Dərdimin dərmanıdır.

Bu gələn qaraltıdır,
Ağ sinən qar altıdır.
Can gedibdir aşiqdən,
Qalan bir qaraltıdır.

Eləmi qıyqacıdır,
Xalların qıyqacıdır.
Yadıma sən düşəndə
Qəlbimi dərd acıdır.

Dağlarda oy naşıdır,
Səyyaddan oy naşıdır.
Görüşürük xəlvətdə,
Deyirlər oynaşıdır.

Qaşları qaradandır,
Haqq bizi yaradandır.
Qurban olduğum Allah,
Bu sevgi haradandır?

Əziziyəm nə qandır?
Nə qovğadır, nə qandır.
Yar məskəni mənimçün
Həm dağdır, həm arandır.

Dərdimi yara qandır,
Bayqular yara qandır.
Tanrı üçün aşiqin
Ərzəsin yara qandır.

Dağların başı qardır,
Üstündə daşı vardır.
Burdan keçən gözəlin
Əcəb göz-qaşı vardır.

Arxalığın narışdır,
Papağın bir qarışdır.
Sən dağda, mən aranda,
Nə yaman sifarışdır!

Hay salıram, oyanmır,
Dərdə, qəmə boyanmır.
Eşq oduna düşmüşük,
Mən yanıram, o yanmır.

Dağ başından yar aşmır,
Yar görünmür, yar aşmır.
Sən hələ çox cavansan,
Bu naz sənə yaraşmır.

Dəryada çıraq yanır,
Baxdıqca iraq yanır.
Sevgi şirin şərbətdir,
İçdikcə ürək yanır.

Əzizim haram ağrır?
Sızıldar yaram, ağrır.
Təbib ol, dərdim soruş,
Mən deyim haram ağrır.

Dağdan gəlir yar, aşır,
Yar dolanır, yar aşır.
Gəl qol-boyun olaq bir,
Görək nə cür yaraşır?

Ay qız, məni bəndə vur,
Zülfünlə kəməndə vur.
Yaxşı olsam, qul elə,
Yaman olsam, bəndə vur.

Əzizim çən geri dur,
Dağlarda çən, geri dur.
Sənə gələn qadanı
Mən alım, sən geri dur.

Aşiq, getmə, dayan, dur,
Dərdim sənə ayandır.
Yar göndərən namədə
Ürək sözü bəyandır.

Gedən, getmə, dayan, dur,
Sirrim sənə əyandır.
Gəlişinə mən qurban,
Gedişin nə yamandır!

Dağ başında əsən, dur,
Yollarımı kəsən, dur.
Aləm Kəbəyə dönsə,
Mənim qibləmə sən dur.

Dağ başında ov budur,
Çaxmaq budur, qov budur.
Sevgi od deyil yana,
Oddan da alovludur.

Kişmiri şallı budur,
Yanağı xallı budur.
Getsən gözüm önündən,
Deyərəm qanlı budur.

Bu yol Şirvan yoludur,
Piyalələr doludur.
Çiynimə kölgə düşdü,
Dedim bəs yar yoludur.

Bu eldə sada çoxdur,
Dərd çoxdur, qada çoxdur.
Dost min olsa da azdır,
Yad bir olsa da çoxdur.

Bağda bülbül oxuyur,
Qızıl çələng toxuyur.
Yanağın gül butası,
Ləbin ənbər qoxuyur.

Bostanda yemiş olur,
Yeməmiş dəymiş olur.
Oğlanı dərdə salan
Qız deyən ölmüş olur.

Aşıq çalır, dil oxur,
Bağçada bülbül oxur.
Gözəldə nə qaydadır,
Saçlarına gül toxur?

Aşiq kəndə düşübdür,
Gəlib fəndə düşübdür.
Səni görəndən bəri
Könül dərdə düşübdür.

Su gəlir güldür-güldür,
Suyunu bu gün doldur.
Salırsan, sal qoynuna,
Salmırsan, məni öldür.

Əlli gündür, yüz gündür,
Əlim yardan yüzgündür.
Bir gün yar ayrısıyam,
Elə billəm yüz gündür.

Bu gün ayın üçüdür,
Girmə, bostan içidir.
Dodaqların bal-şəkər,
Dilin badam içidir.

Arxalığın iki qat,
Birin saxla, birin sat.
Əgər mənim yarımsan,
Gəl bu gecə bizdə yat.

Qarşımızda nə sən get,
Doğra bağrım nə sən get.
Aşiq der: bu yastıqdan,
Nə mən durum, nə sən get.

Əzizim xəlidir bu,
Qan çəkən zəlidir bu.
Yarın divanəsiyəm,
Deyirlər dəlidir bu.

Şəftəlim al olubdu,
Dəyibdi, al olubdu.
Hər gün oxuyan bülbül
Bu sabah lal olubdu.

Arxın suyun kəs, doldu,
Bağda gülüm dəst oldu,
Yara bir gül göndərdim,
İyləyincə məst oldu.

Cara gedən bir yoldu,
Biri sağ, biri soldu.
İki sinən arası
Damağa gedən yoldu.

Gəmim çayda yan oldu,
Ürəklərdə qan oldu.
Üzdə xalını görcək
Könlüm bəndivan oldu.

Dağlar başı qar oldu,
Gül bağçalar xar oldu.
Sevgilim seyrə çıxdı,
El-oba gülzar oldu.

Eləmi gümüş oldu,
Zər döndü gümüş oldu.
Mənim qanlım ağ buxaq,
Sənin qanlın diş oldu.

Bulaq suyu duruldu,
Üstə divan quruldu.
Bir gözəlin yolunda
Səksən iyid qırıldı.

Bağçanın yarı sudu,
Yarı qum, yarı sudu.
Bağman, kəsmə budağı,
Bülbül gül varısıdı.

Bulaq üstünün buzu,
Ətir qoxur yarpızı.
Yar gəlsə, qurbanım var
Hər sürüdən bir quzu.

Bu dərənin uzunu,
Sürün gəlsin quzunu.
Mən qonşusun istədim,
Verdi mənə qızını.

Bazardan aldım qutu,
İçində kəklikotu.
Dizin üstə baş qoyum,
Çimdikləmə, düz otu.

Torun dağda qur, ovçu,
Ovun keçir, vur ovçu!
Nə yatıbsan bərədə,
Maral gəlir, dur ovçu!

Gəmim bir yana döndü,
Sular ümmana döndü.
Ləbindən kam alanda
Ürəyim qana döndü.

Dağ aşdım, yal göründü,
Dəryada sal göründü.
Dedilər yarın gəlir,
Baxdım, hilal göründü.

Bu gün bazar günüdü,
Çərçi gəzər günüdü.
Küçələr mərmər olsun,
Yarın gəzər günüdü.

Əzizim gül üşüdü,
Şeh düşdü, gül üşüdü.
Güldün, ağlım apardın,
Bu necə gülüşüdü?

Əlimdən qaşıq düşdü,
Getdi, yaraşıq düşdü.
Göründü ay camalın,
Aləmə işıq düşdü.

Bir ox atdım, yan düşdü,
Ovum qaçdı, qan düşdü.
Tor qurdum, maral tutdum,
Bir tülək tərlan düşdü.

Seyr etdik yar, o üzü,
Bayqunun yara üzü.
O gündən qorxar aşiq,
Zülf düşə, yara üzü.

Axşam üzü, dan üzü,
Quşlar oxur ban üzü.
Yardan bir busə aldım,
Tez bürüdü qan üzü.

Şirvanın təlx üzümü,
Yeməyə təlx üzümü.
Səndən əl götürmərəm,
Danlasa  xalq üzümü.

Soldurma gəl gülümü,
Uçurtma bülbülümü.
Bir xəlvət yerdə otur,
Deyim dərdi dilimi.

Əzizim gördüyünü,
Göz tanır gördüyünü.
Yarımı xəbər alsan,
Sinəmdə gör düyünü.

Aşiqəm gördü günü,
Xəstənin gördügünü.
Cənnətdə görməz aşiq
Səninlə gördügünü.

Saqidə sürmə dövrü,
Həmdəmsiz sürmə dövrü.
Aşiq der: gözlərində
Xub sürdü sürmə dövrü.

Qış çəkilir, yaza bax,
Göydə süzən qaza bax.
Baxdı, ağlım apardı,
Gedən sərvinaza bax.

Bağa bax, bostana bax,
Dilə bax, dastana bax.
Necə kənardan keçir,
Gözləri məstana bax.

Kağızın ağına bax,
Sinəmin dağına bax.
Könül gözəl istəsə,
Gəncənin bağına bax.

Gözəlin adına bax,
Ləbinin dadına bax.
Yarın fərağındayam,
Sinəmin oduna bax.

Bulağın başına bax,
Dibinin daşına bax.
Mən sevdiyim gözəlin
Gözünə, qaşına bax.

Kəpəzin qaşına bax,
Sal duran daşına bax.
Zülfüm yadına düşsə,
Dağların başına bax.

Xırman üstə dənə bax,
Aç gözünü, mənə bax.
Dərdə dərman istəsən,
İzin al, gərdənə bax.

Danış, tamburum, danış!
Bir sən mənimlə barış!
Açıban qollarını
Gəlib boynuma sarış!

## AYRILIQ. İNTİZAR. İSTƏK-ARZU.
## QƏM-KƏDƏR. ÜZÜNTÜ-NİGARANÇILIQ.

Duman, gəl bürün dağa,
Sürünü sürün dağa;
Ya mələrəm, taparam,
Ya sallam bir ün dağa.

Ey saqi, qalx ayağa,
Mey doldur, qalx ayağa.
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa.

Gəl gedək baş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən,
Tökək qan-yaş bulağa.

Təbriz üstü Marağa,
Zülfün gəlmir darağa.
Yardan xəbər gəlmədi,
Mən düşmüşəm sorağa.

Xəzəl çıxıb qurşağa,
Bir ün düşübdü bağa.
Bülbül gülün axtarır,
Qonur budaq-budağa.

Dəniz qırağı ada,
Canım düşübdü oda.
Ölümümə yanmıram,
Yarım qalacaq yada.

Maral getdi bu dağda,
Gedib itdi bu dağda.
Bağban sənə nə deyər,
Bülbül ölsə budaqda?

Elədimi su yazda,
Axar, gedər su yazda.
Mən yarı görməmişəm,
Keçən yaz da, bu yaz da.

Durmuşam özüm yolda,
Dolaşar sözüm yolda.
Yarın fərağındayam,
Qalıbdı gözüm yolda.

Ulduzlar sayrışanda,
Qəlb qəlbə qarışanda.
Çətin olur ayrılmaq,
Göz-gözə alışanda.

Əzizim, otağında,
Bülbüləm budağında.
Bala anadan ayrı
Can verir otağında.

Bülbül uçar kollarda,
Gül budağlı qollarda.
Hardasan, yar, hardasan?
Gözüm qaldı yollarda.

Bulud yox. bax səmaya,
Ulduz tək ax səmaya.
Zərrəcə üzün görsəm,
Kafərəm, baxsam aya!

Mən aşiq qala qala,
Dağ üstə qala qala.
Yar yolunda can üzdüm
İntizar qala-qala.

Bağçada barın qala,
Heyvan yox, narın qala.
Qiyamət o gün qopar,
Öləsən, yarın qala.

Bu yol gedir Xalxala,
Yandı bağrım xal-xala.
Qorxuram gedəm qalam,
Nazlı yarım xalx ala.

Gülü biçdim oraqla,
Sərdim yerə paraqla.
İtirmişəm yarımı,
Axtarıram soraqla.

Ana, mənə az ağla!
Qış sızılda, yaz ağla!
Nə vaxt yadına düşsəm,
Ağ kağıza yaz, ağla!

Ay doğub batarmola?
Ülkərə çatarmola?
Ana baladan ayrı
Dincəlib yatarmola?

Bu gələn Qəmbər ola,
Müşk ilə ənbər ola.
Səni mənə yetirən
Bəlkə peyğəmbər ola.

Qoltuğumda bağlama,
Mən gedirəm, ağlama!
Gedərəm, yenə gəlləm,
Yadlara bel bağlama.

Əlində var barama,
Saçlarımı darama.
Aman, çıraq gətirin,
Bacım baxsın yarama.

Araxçın burma-burma,
İçində sarı xurma.
Namə yazıb göndərsəm,
Üç gündən artıq durma.

Dərdi dərdimə qatma,
İlqarın ver, aldatma.
Qoyub gedirəm səni,
Məni əğyara satma!

Əzizim yana-yana,
Od düşüb xəstə cana.
Yar qoydu getdi məni,
Oldum dəli, divana.

Bu dərələr yastana,
Kəklik dolub bostana.
Qorxuram yağış yağa,
Qara papaq istana.

Xumar gözlər məstana,
Adın sığmaz dastana.
Ağla, a yarım, ağla,
Təki dəsmal istana.

Aşiq qarabaqara,
Xalın qarabaqara.
Yarın itirmiş aşiq,
Gəzir qarabaqara.

Mən aşiq, gözdə qara,
Çək sürmə gözdə qara.
Yar yarın gözləməkdən
Qalmadı gözdə qara.

Aşiqin qanı qara,
Dərdi çox, qanı qara.
Tutun qoyun qəfəsə,
Göndərin canı yara.

Mən aşiqəm gülzara,
Çəmənzara, gülzara.
Ayrılığa dözməkdən
Axır gəlib gül zara.

Mən aşiqəm tey yara,
Canım aldı tey yara.
Boynum kündədə olsun,
Əlim yetsin tey yara.

Ürək şana-şan yara,
Bizdən sovuşan yara.
Bir ayrılıq, bir ölüm
Qoymaz qovuşam yara.

Seyrana gedən olsa,
Qızılgül görən olsa,
Yazıb kağız göndərrəm,
Dostuma, gedən olsa.

Gedərəm, gedən olsa,
Yolun öyrədən olsa,
Yara namə yazmışam,
Yanına gedən olsa.

Gülərəm, gülən olsa,
Dərdimi bilən olsa,
Ağlamaqdan doymaram,
Göz yaşım silən olsa.

İstəkanı yarınca,
İçdim, qaldı yarınca.
Bu gün bir qızı gördüm,
Gözüm qaldı dalınca.

Yolların kənarınca,
Tökülübdü qar incə.
Sonam sallandı getdi,
Laçın da bir yanınca.

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

Dərd ürəyim oyunca,
Qurban gedim boyunca.
Eşitsən ki, ölmüşəm,
Ağla mənə doyunca.

Qəm ürəyim oyunca,
Geyim aldım boyunca.
Üç il nişanlı qaldım,
Bir görmədim doyunca.

Dağılıbdır qu daşa,
Axır gəlir su daşa.
Əlim yardan üzülüb,
Sığınmışam bu daşa.

Bu dağlardan daş düşüb,
Qələm üstə qaş düşüb.
İntizaram, qoy gedim,
Yadıma qardaş düşüb.

Tut ağacı pıtıraq,
Cərgə vuraq oturaq.
Birin sən de, birin mən,
İntizardan qurtulaq.

Boynunda var sarılıq,
Yaman olur ayrılıq.
Sən gəl özündən inci,
Gör nə günə qalırıq.

Aman, aman, ayrılıq,
Olur yaman ayrılıq.
Eşidəndə başımdan
Qalxır duman, ayrılıq.

Məhləmizdə var söyüd,
Verdilər mənə öyüd.
Mənim yarım uşaqdı,
Tanrı, onu tez böyüt!

Gözüm qaldı incidə,
Dərddir başa inci də.
Gülümü qoydum getdim,
Qorxuram xar incidə.

Dərdim var ürəyimdə,
Yaram var kürəyimdə.
Tanrı, məni öldürmə,
Arzum var ürəyimdə.

Bir gül əkdim ləyəndə,
Gül boynunu əyəndə.
Sənə qurban kəsərəm
Əlim əlinə dəyəndə.

Durnalar düzüləndə,
Sirəmlə süzüləndə.
Qiyamət o gün qopar,
Əl əldən üzüləndə.

Əzizim qala məndə,
Bürc məndə, qala məndə.
Qorxuram bivaxt öləm,
Həsrətin qala məndə.

Dağ məndə, tala məndə,
Bürc məndə, qala məndə.
Məhşərim o gün olar,
Həsrətin qala məndə.

Qalyanın səri məndə,
Çəkmişəm, səri məndə.
Sənnən keçən günlərin
Qalıb əsəri məndə.

Gün səndə, gecə səndə,
Bağa meh gec əsəndə,
Bir cüt qurban kəsərəm
Sən gələn gecəsində.

Kişmirdən şaldı səndə,
Dil deyil, baldı səndə.
Mən verdiyim nişana
Yadigar qaldı səndə.

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəribə əsər eylər,
Tənəli söz yetəndə.

Dəryanın o yüzündə,
At oynatdın düzündə.
İki muraz demişəm,
Biri qaldı gözümdə.

Əziziyəm qar gündə,
Yağır dağa qar gündə.
Yarı görmək istəyir
Ürəyim bu dar gündə.

Əzizim qala yerdə,
Bürc yerdə, qala yerdə.
Qorxuram qərib öləm,
Cənazəm qala yerdə.

Dağlarda, meşələrdə,
Sərin su şüşələrdə.
Hamı yerbəyer oldu,
Mən qaldım küçələrdə.

Aşıq gələndə sözə,
Simli saz gərək dözə.
Sən ki küsüb getmişdin,
Necə baxaq göz-gözə?

Ovçu çıxanda düzə,
Gecə dönər gündüzə.
Qəribin bir canı var,
O da qurbandı sizə.

Mən aşiq incə belə,
Kəmər çək incə belə.
Qoy kor olsun gözlərim
Səni görüncə belə.

Gün keçir gedir belə,
Keçən gün gəlməz ələ.
Bu arxa su bir gəlib,
Ümid var bir də gələ.

Aşıq əldə saz gələ,
Ördək gələ, qaz gələ.
Könlüm intizardadı,
Gözləyir ki, yaz gələ.

Əzizim şirin gələ,
Şirin nar şirin gələ.
Fərhad qayalar çapar,
Gözləyər Şirin gələ.

Əziziyəm gün gələ,
Ay çəkilə, gün gələ.
Ömrümü bada verdim,
Gözlədim xoş gün gələ.

Gözlə, dağa qar gələ,
Tərlan uça, sar gələ.
Mən gedirəm yol üstə,
Ümid var ki, yar gələ.

Mələ, ceyranım mələ,
Balanı vermə ələ.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

Karvan gəldi qənd ilə,
Yükün tutdum qənd ilə.
Mən yardan ayrılmazdım,
Ayırdılar fənd ilə.

Dağların başı ilə,
Dibinin daşı ilə.
Yara bir namə yazdım,
Gözümün yaşı ilə.

Gəl məni qoyub getmə,
Nar kimi soyub getmə.
Vur qılıncı boynuma,
Sərgərdan qoyub getmə.

Narıncı oyub getmə,
Qabığın soyub getmə.
Mən yazığa rəhm eylə,
İntizar qoyub getmə.

Dağdan buz axdı, getmə,
Yolun tozaxdı, getmə.
Yad ellər, qürbət ellər,
Məndən uzaxdı, getmə.

Aşiq, yar aşdı genə,
Xalın yaraşdı genə.
Öyün nur ilən doldu,
Qapın yar aşdı yenə.

Dağdan yel əsir yenə,
Səbrimi kəsir yenə.
Getdin, məni eylədin
Yolunda əsir yenə.

Elədimi yüz dənə,
İnci, sədəf yüz dənə.
O gündən çox qorxuram
İnciyəsən, üz dönə.

Köç qalıb mən gələnə,
İl ilə tən gələnə.
Səyirt köhlən atını,
Oturram sən gələnə.

Evləri gün düşənə,
Alma qoydum nişanə.
Qara yaylıq yaraşar
Yardan ayrı düşənə.

Aşiqəm sinəsinə,
Mim yaz gül sinəsinə.
Nə ləbim ləbə dəydi,
Nə sinəm sinəsinə.

Əziziyəm, nə fərə,
Nə turac var, nə fərə.
Mənim yarım uşaqdı,
Göndərməyin səfərə.

Gül açıb dəstə-dəstə,
Bülbül qonub gül üstə.
Ayrılığa tabım yox,
Necə dözüm mən xəstə.

Qızılgül dəstə-dəstə,
Yarımın boyu bəstə.
Qürbətdən dönüb gəlsə,
Bəslərəm sinəm üstə.

Araz axır qol üstə,
Xoş günü var sol üstə.
İstərəm yetəm yara,
Yağı durub yol üstə.

Bir bülbüləm kol üstə,
Budaq üstə, qol üstə.
Səfərdir, ayrılıqdır,
Gəl görüşək yol üstə.

Şeh düşüb üzüm üstə,
Nimçə ver, düzüm üstə.
Yardan bir xəbər gətir,
Muştuluq gözüm üstə.

Yol gedir Tərtər üstə,
Tər tökülür tər üstə.
Yar çuxası məndədir,
Görən nə örtər üstə?

Ay doğar, batmaz gecə,
Yar yarın atmaz gecə.
Ana baladan ayrı
Dincəlib yatmaz gecə.

Aşiqəm, əyən gecə,
Dost boyun əyən gecə.
Cəsəddə canım titrər
Əl-ələ dəyən gecə.

Dağlara çən gəlincə,
Durmadın mən gəlincə.
Əzrail canım alsa,
Ölmərəm sən gəlincə.

Dağ döşündə bənövşə,
Qoymaram bağrı şişə.
Yar yolunda ağlamaq
Mənə olubdur peşə.

Mən aşiq yazanı yaz!
Al qələm yaz, a Niyaz.
Bülbül gülün yarpağın
Saxlamış yaza niyaz.

Əzziyəm baqi qalmaz,
Zülf üzdə baqi qalmaz
Gül üzün bir də görsəm,
Didarım baqi qalmaz.

Bu dağdan aşmaq olmaz,
Kağızdan başmaq olmaz.
Küsülü yar ötürdüm,
Daha barışmaq olmaz.

Bu yerlərdə sar olmaz,
Duman getsə, tar olmaz.
Vədə verdin gəlmədin,
Səndən mənə yar olmaz.

Əzizim xalı solmaz,
Yanağın xalı solmaz.
Qürbət dərdi çəkirəm,
Dərd məndən xalı olmaz.

Gecə uzun, ay batmaz,
Dərdin dərdimə çatmaz.
Yarından ayrı düşən
Nə dincəlməz, nə yatmaz.

Araz, Araz, xan Araz,
Dağlardan axan Araz.
Yardan bir xəbər gətir,
Evimi yıxan Araz.

Araz, Araz, xan Araz,
Gəl eyləmə qan, Araz.
Qoy gedim, yar gözləyir,
Nədir bu tüğyan Araz?

Araz, Araz, can Araz,
Nə gedirsən yan, Araz?
Sevgilim gəmidədi,
Gəl eyləmə qan, Araz.

Xoş günlər ələ gəlməz,
Dolaşıb belə gəlməz.
Uçubdu telli sonam,
Qayıdıb gölə gəlməz.

Gedər maralım, gəlməz,
Qəlbi yaralım gəlməz.
Sən gəlməsən qapıya,
Gedər qərarım gəlməz.

Gəmi gələr, yan verməz,
Açma yaram, qan verməz.
Səni gözləyən ürək
İntizardı, can verməz.

Əzizim meşə mənsiz,
Dağ mənsiz, meşə mənsiz.
Qorxuram xiffət çəkə,
Yar dərdə düşə mənsiz.

Su tək çağlaram sənsiz,
Qara bağlaram sənsiz.
Gecələr sübhə kimi
Dərddən ağlaram sənsiz.

Bu dağda mənəm sənsiz,
Dağı enmənəm sənsiz.
Harda ahu mələsə,
Bil ki, o mənəm sənsiz.

Bağa girmərəm sənsiz,
Gülün dərmərəm sənsiz.
Desələr qərib ölüb,
O qərib mənəm sənsiz.

Dağlar çəkər ah sənsiz,
İl olmaz mübah sənsiz.
Gecələr ilə dönüb,
Açılmır sabah sənsiz.

Bağında alma yalqız,
Ağacdan salma yalqız.
Gedirsən tez qayıt gəl,
Qürbətdə qalma yalqız.

Dağlarda lalə yalqız,
Gül bitər, lalə yalqız.
Qorxuram yar gəlməyə,
Sərtaxtım qala yalqız.

Əziziyəm, badam qız,
Məhlənizdə yadam, qız.
Bircə üzünü görsəm,
İllərəcən şadam, qız.

Göydə var sarı yıldız,
Xoş gəldin, kiçik baldız.
Get bacına deyinən,
Məni qoymasın yalqız.

Əziziyəm, qalasız,
Şəhər olmaz qalasız.
Mən ki gedərgi oldum,
Sağlığınan qalasız.

Kağız yazdım qarasız,
Dərdə düşdüm çarasız.
Gərək mənim dilimcə
Yara siz yalvarasız.

Bostan əkdim xiyarsız,
Günüm keçdi biyarsız.
Yuxuda səni gördüm,
Ayıldım ixtiyarsız.

Yar köynəyi bizdədi,
Düymələri düzdədi.
Getdim yarı görməyə,
Dedilər Tiflisdədi.

Dağda maral mələdi,
Dili yox, lal mələdi.
Yara yetmək istərəm,
Mənə bir yol bələdi.

Bağçalar bar eylədi,
Meyvə nübar eylədi.
Yar məni qoydu getdi,
Qəlbim qubar eylədi.

Əzizim cəbr eylədi,
Yar yara cəbr eylədi.
Sağ olsun ürəyim ki,
Bir belə səbr eylədi.

Qış getdi, qar gəlmədi,
Nə də bahar gəlmədi.
İl dolandı, ay ötdü,
Gözlədim, yar gəlmədi.

Bu dağ yolu kəsmədi,
Sözün dedin, kəsmə, de.
Yar məndən əlin üzdü,
Ümidini kəsmədi.

Tərlan sara yetmədi,
Dərdə çara etmədi.
Günüm qürbətdə keçdi,
Əlim yara yetmədi.

Bu günün adı nədi?
Şənbədi, adınadı?
Cəfa çəkdim, yar sevdim,
Bilmədim dadı nədi.

Maralın qaşdı, nədi?
Dağları aşdı, nədi?
Ay keçdi, il dolandı,
Ürəyi daşdı, nədi?

Bu gecə nə gecədi,
Ay ülkərdən ucadı.
Şeyx olub mən biləydim,
Yarın halı necədi.

Güllər bülbülü gəzdi,
Bülbüllər gülü gəzdi.
Yardan əli üzülən
Məcnun tək çölü gəzdi.

Mən gələndə yaz idi,
Çöllər dolu qaz idi.
İstədim namə yazam,
Miürəkkəbim az idi.

Bu əllər yad əlidi,
Köməyim dad əlidi.
Gedirsən, tez qayıt gəl,
Ürəyim zədəlidi.

Burda bir can yeridi,
Etdi cövlan, yeridi.
İntizar gözlərimə
Elə bil qan yeridi.

Bu yer düzən yeridi,
Sonam süzən yeridi.
Gözlədim, yar gəlmədi,
Əlim üzən yeridi.

Mən gedəndə qış idi,
Çöllər dolu quş idi.
İstədim namə yazam,
Barmaqlarım üşüdü.

Ay getdi, ilə gəldi,
Dövranım belə gəldi.
Səndən cavab alınca
Dağ-daş da dilə gəldi.

Araza gəmi gəldi,
Su daşdı, gəmi gəldi.
Yaş tök, ağla, gözlərim,
Ayrılıq dəmi gəldi.

Bu çaydan gəmi gəldi,
Şeh düşdü, nəmi gəldi.
Gəl gözlərindən öpüm,
Ayrılıq dəmi gəldi.

Küləyin nəmi gəldi,
Qüssəsi, qəmi gəldi.
Gəl görüşək, ayrılaq,
Körpüyə gəmi gəldi.

Gəmi gəldi, yan gəldi,
İçində bir can gəldi.
Yar yoluna baxmaqdan
Gözlərimə qan gəldi.

Sən gedəli düz ildi,
Elə bil ki, yüz ildi.
Ömrüm ah-vayda keçdi,
Axdı, ipə düzüldü.

Göydən yerə nur endi,
Köynəyin de, nədəndi?
Yar məndən küsüb gedib,
Heç bilmirəm nədəndi?

Yolları dərədəndi,
Gümüşdən sinəbəndi.
Baxıram, yar görünmür,
Dağılsın belə kəndi.

Saç qara kömürdəndi,
Gün keçər ömürdəndi.
Vədə verdin gəlmədin,
Ürəyin dəmirdəndi.

Ay doğdu, cilvələndi,
Göydən yerə nur endi.
Çoxdan yarı görmürəm,
Elə bildir gələndi.

Əzizim təzələndi,
Ay doğdu, təzələndi.
Bu gözlər səni gördü,
Yaralar təzələndi.

Aşıq qarıyam indi,
Yolu yarıyam indi.
Görsən, söz qoşarsanmı?
Qoca qarıyam indi.

Boz atı Əli mindi,
Atlandı, Əli mindi.
Könlüm yarı arzular,
Yetişmir əlim indi.

Bu çaylar coşar indi,
Qaynayıb daşar indi.
Gözüm dağlarda qalıb,
Yar gəlib aşar indi.

Mixək əkdim, qalx indi,
Ağzım oldu talx indi.
Yar məndən üz döndərdi,
Qoy dincəlsin xalq indi.

Qərənfiləm, talx indi,
Dəli könlüm, qalx indi.
Yarım əlimdən getdi,
Rahat olsun xalx indi.

Aşiqin üzdən dərdi,
Artıbdı üzdən dərdi.
Fələk cidalıq saldı,
Demə ki, üz döndərdi.

Su gəlsə arxa bəsdi,
Dolansa çarxa bəsdi.
Bir kərə üzün görsəm,
Arxabaarxa bəsdi.

Qış yolunu yaz kəsdi,
Qaranı bəyaz kəsdi.
Gecə durdum qapıda,
Əllərim ayaz kəsdi.

Bu il nə ildi, getdi,
Bir şirin dildi, getdi.
Mən yara neylədim ki,
Vəfasız bildi, getdi.

Qərənfil açdı, getdi,
Ətrini saçdı, getdi.
İstədim qucam yarı,
Əlimdən qaçdı, getdi.

Mən aşiq daşlı getdi,
Yarım birbaşlı getdi.
İki könül ayrıldı,
Gözləri yaşlı getdi.

Bu dağdan bir can getdi,
Ürəyindən qan getdi.
Qız nə cür ağlamasın,
Sevdiyi oğlan getdi.

İl gəldi, ayla keçdi,
Günlərim sayla keçdi.
Yardan əlim üzüldü,
Günüm ah-vayla keçdi.

Gecələr gecə keçdi,
Gündüzüm heçə keçdi.
Yar, mənsiz keçən gecən
Bir danış, necə keçdi?

Aylar keçdi il kimi,
Kaman qaşlar mil kimi.
Yar gəldi qürbət eldən,
Qəlbim açdı gül kimi.

Sapan tək atma məni,
Yadlara satma məni.
Yolunu gözləyirəm,
Nagüman etmə məni.

Tutubdu ov çəməni,
Göllərdən qov çiməni.
Ya mələrəm taparam,
Ya vurar ovçu məni.

Al ələ, büz ilməni,
İnci tək düz ilməni.
Vəfalı dost unutmaz,
Görməsə yüz il məni.

Eldən aralar məni,
Vurar, yaralar məni.
Gözlərim yolda qalıb,
Basır qaralar məni.

Mən aşiq gözdər məni,
Sürmədi göz dərməni.
Siz Allah, qoyun gedim,
Yar yatmaz, gözdər məni.

Eləmi deyər məni,
Yadlara deyər məni.
Ayrılıq uzun olsa,
Kaman tək əyər məni.

Əzizim gözlər məni,
Öldürər gözlər məni.
Qoyun gedim yol üstə,
Yar orda gözlər məni.

Çaldı bu gözlər məni,
Kababa gözlər məni.
Ürəkdə sevgi olsa,
Gəlincə gözlər məni.

Əzizim Xuda səni,
Saxlasın Xuda səni.
Bir arzum, var görəydim,
Hər gün yuxuda səni.

Göz gördü yar, a səni,
Bayqula yara səni.
İllər ayrısı canım,
Yetirrəm yara səni.

Saxlaram qora səni,
Kal səni, qora səni.
Sən getdin, tez gələsən,
Kim saldı tora səni.

Əkəydim arpa səni,
At gələ qırpa səni.
Bilsəydim ayrılıqdı,
Çəkərdim sarfa səni.

Saxlasın salam səni,
Gördüm pürkəlam səni.
Əttar malı deyilsən,
Pul tökəm alam səni.

Gəlmişəm görüm səni,
Qəlbimə hörüm səni.
Qapı-baca bağlanıb,
Bəs hardan görüm səni?

Əzizim, hörüm səni,
Don tikim, hörüm səni.
Əlac o yerə qalıb,
Yuxuda görüm səni.

Əzizim dağlar səni,
Tilsimə bağlar səni.
Bir cüt maralım itib,
Göz görər, ağlar səni.

Su gəlir zini-zini,
Xəzəl tutub üzünü.
Mən yara nə verim ki,
Göstərsin bir üzünü.

Götür, as üzəngini,
Asta bas üzəngini.
Tanrı canım alaydı,
Səndən əl üzən günü.

Gətirdilər gəlini,
Bağladılar belini.
Yetişdi vüsal günü,
Aldım ələ əlini.

Qızıl bafta incini,
Dolduraram çin-çini.
Sən gəlincə dərd oyar
Ürəyimin içini.

Mən aşiq bir az bəri,
Gəncədən bir az bəri.
Könlümün bir diləyi,
Dilimin bir əzbəri.

Əzizim, bəzən, yeri,
Gey, sallan, bəzən, yeri.
Nola mən də gəzəydim,
Yar gəlib gəzən yeri.

Mən aşiq zil qədəri,
Qaşların mil qədəri.
Hər sabah üzün görsəm,
Açıllam gül qədəri.

Aşiqin düşmüş dəri,
Dür görsən düş müşdəri.
Yarəb, anarmı ola?
Mən gözdən düşmüşdəri.

Gəncənin küçələri,
Banlamaz beçələri.
Necə sənsiz yatım mən
Bu uzun gecələri?

Şirvanın gədikləri,
Almadır yedikləri.
Yadıma bir-bir düşər
Yarımın dedikləri.

Mən aşiq dəmdə mahi,
Dəryada dəmdə mahi.
Gül yüzün firqətindən
Çəkərəm dəm-dəm ahi.

Çox gəzdim Qarabağı,
Şirvanı, Qarabağı.
Bir cüt tərlan itirdim,
Boynunda qara bağı.

Ovçu, dolan üst dağı,
Ovu gözlə, pus dağı.
Yarın fəraqında mən,
Olmuşam qəm dustağı.

Duman bürüdü dağı,
Dağları tutdu yağı.
Axtardım rast gəlmədi,
Nə ölüsü, nə sağı.

Eləmi yara yağı,
Yar olub yara yağı.
Astanamı toz basıb,
Kəsilib yar ayağı.

Ürəyim ah bulağı,
Gözlərim şah bulağı.
Qürbətdə yar sevənin
Qara gəlsin duvağı.

Müştağıyam, müştağı,
Ənbər zülfün müştağı.
Üzüm üzün həsrəti,
Gözüm gözün müştağı.

Pəncərənin işığı,
Oldum gözün aşığı.
Gedirsən, get, tez qayıt,
Evimin yaraşığı.

Yalqız ağac yaldadı,
Dağlar ona daldadı.
Demirsənmi, ay zalım,
Gözlərimiz yoldadı.

Kəklik gəzir, koldadı,
Çayın suyu qoldadı.
Ümidim üzməmişəm,
Hələ gözüm yoldadı.

Yarım dua yolladı,
Saldı suya yolladı.
Özü gələ bilmədi,
Salam-dua yolladı.

Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama, xumar gözlüm,
Ölmərəm, yaram azdı.

Bu dağlar qəm dağıdı,
Çək hələ, qəm dağıdı.
Səndən gələn xoş xəbər
Dəryaca qəm dağıdı.

Bu bağlar olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Əmim oğlu qalaydı,
Boy-buxuna dolaydı.
Höreydim saçlarımı,
Bəlkə məni alaydı.

Ay batıb, gün olaydı,
Zülfün düyün olaydı.
Sənnən keçən günlərin
Biri bu gün olaydı.

Ağacda bar olaydı,
Meyvəsi nar olaydı.
İkimiz bir köynəkdə,
Köynək də dar olaydı.

Dağlarda qar olaydı,
Don vurub xar olaydı.
Dil bilən, söz anlayan
Bir nazlı yar olaydı.

Torun dəryada qaldı,
İşin fəryada qaldı.
Ölərsəm, ölüm haqdı,
Heyif, yar yada qaldı.

Gün qalxdı göydə qaldı,
Gözüm o öydə qaldı.
Xoş gün səninlə getdi,
Başımda sevda qaldı.

Əzizim ilə qaldı,
Ay keçdi, ilə qaldı.
Bülbüllər uçdu, getdi,
Ayrılıq gülə qaldı.

Aşıq, saza nə qaldı,
Ərzəm yazana qaldı.
Bülbül intizar çəkər,
Görək yaza nə qaldı.

Əziziyəm nə qaldı,
Nə səs küydü, nə qaldı?
Gözlərim gözlərinə
Həsrət qaldı, nə qaldı.

Dağlarda duman qaldı,
Çən getdi, duman qaldı.
Yarın qayıtmağına,
Təkcə bir güman qaldı.

Dağ başını qar aldı,
Tərlan uçdu, sar aldı.
Getdin, dərdim artırdın,
Rəngim ruhum saraldı.

Yaşıl dağlar qaraldı,
Gül tək rəngim saraldı.
Bir sözüm, bir şəkilim
Səndə yadigar qaldı.

Dağ başını sar aldı,
Gülü bağda xar aldı.
Yolunu gözləməkdən
Gözüm kökü saraldı.

O görünən Ağdamdı,
Qara damdı, ağ damdı.
Yar yoluna baxmaqdan
Gözlərimə ağ damdı.

Baxırsan hara, qandı,
Ox dəyib, yara qandı.
Yardan ayrı düşmüşəm,
Ürəyim qara qandı.

Əzizim o da yandı,
Mən getdim, o dayandı.
Ayrılığa dözmədi,
Kərəm tək oda yandı.

Əzizim dilim yandı,
Ağzımda dilim yandı.
Ayrılıq bir od saldı,
Alışdı, dilim yandı.

Bu gələn tar çalandı,
Tərlandı, sar çalandı.
Yardan ayrı düşəli
Ömrümə xar calandı.

Əzizim gülüstandı,
Aç oxu, “Gülüstandı”.
Bülbülün göz yaşından
Bağçada gül istandı.

Ovçu gendən yayındı,
Oxu məndən yayındı.
Bir dəfə kirpik çaldım,
Gözüm səndən yayındı.

Dağlar nə pis dağlardı,
Yolum kəsib bağlardı.
Yazıq yarım qürbətdə,
Gözü yolda, ağlardı.

Xəbəri quş apardı,
Vətənə tuş apardı.
Gözlədim yar keçəcək,
Onda da huş apardı.

At məni aldı qaşdı,
Yollarım qaya, daşdı.
Anama xəbər verin,
Mənzilim uzaqlaşdı.

Arxalığım narışdı,
Qaytanı bir qarışdı.
Sən aranda, mən dağda,
Bu necə sifarışdı?

Gülləri dər, dəstə qoy,
Götür xonça üstə qoy.
Məni sənə verməzlər,
Yüz tümən də üstə qoy.

Qaradı qaşın, ördək,
Yaşıldı başın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın, ördək?

Gün çıxdı, gündür fələk,
Ağlatma, güldür, fələk!
Ya məni yara yetir,
Ya da ki öldür, fələk!

Dağlardan əsdi külək,
Səbrimi kəsdi külək.
Sevgilim dəryadadı,
Əsdiyin bəsdi, külək.

Bağçamızın gülü şək,
Bülbülü şək, gülü şək.
Ayrı düşdük, ağladıq,
Gəl indi də gülüşək.

Yerişi asta kəklik,
Quyruğu dəstə kəklik.
Səndən büryan bişirib,
Aparım dosta kəklik.

Dağ başını qar alı,
Günüm ağlı, qaralı.
Yardan soraq gəlməsə,
Gedər gözüm qaralı.

Tükü ağlı-qaralı,
Qəlbi oxdan yaralı.
Qovuşmasa yar-yara,
Dərddən rəngi saralı.

Seyr eylə, ay aralı,
Şəmsdən ay ar alı.
Varmı ola mənim tək
Canandan ay aralı?

Əzizim, axındımı?
Su gəlir, axındımı?
Baxın yar gələn yola,
Mənzili yaxındımı?

Aşıq dərdə zalımı,
Saldı dərdə zalımı,
Yardan dərman gəlməsə,
Məndən dərd azalımı?

Yol ilən gələn varmı?
Oynayıb gülən varmı?
İtirmişəm dostumu,
Yerini bilən varmı?

Dağlardan enən varmı?
Bir xəbər verən varmı?
Ağ üzlü, ala gözlü
Yarımı görən varmı?

Əzizim balabanı,
Asta çal balabanı.
Hamı gəldi qürbətdən,
Bəs mənim balam hanı?

Qızıl üzük miyanı,
Durmaz barmağın qanı.
Dağlardan xəbər alın,
Hanı ellər sultanı?

Seyr etdik Bələkanı,
Gürcüstan, Bələkanı.
Yarından ayrı aşiq
Olubdu bəla kanı.

Bu ellər al məkanı,
Yadına sal məkanı.
Mərd gedib qürbət elə,
Yurd olub qal, məkanı.

Dağ başı qar məkanı,
Bağçalar bar məkanı.
Əyilsin uca dağlar,
Görünsün yar məkanı.

Bu dağlar qar məkanı,
Sar gəlsə var məkanı.
Alçalsın uca dağlar,
Görünsün yar məkanı.

Mən aşiq, meh dumanı,
Dağıdar meh dumanı.
Hamının Mehdisi var,
Bəs mənim Mehdim hanı?

Əzzinəm dağaranı,
Kəsibdi dağ aranı.
Yaxşıdan ötrü aşiq
Ha gəzir dağ, aranı.

Dağlarda lalam hanı?
İçməyə lalam hanı?
Hamı salamat gəldi,
Bəs mənim balam hanı?

Bağçada barım hanı?
Gül tökdü narım hanı?
Hamının yarı gəldi,
Bəs mənim yarım hanı?

Çəkdim yar cəfasını,
Görmədim səfasını.
Siz Tanrı, qoyun gedim,
Bir bilim vəfasını.

Bağında alma barı,
Dərd-qəmə dolma, barı.
Yarnan keçən günləri
Yadıma salma, barı.

Durna tək süzmə, barı,
Mərcanı düzmə, barı.
Üzünə həsrət qaldım,
Kağızın üzmə barı.

Təbriz yanı düz barı,
Gölə qalxıb hasarı.
Sən orda qal, mən burda.
Çəkək bu intizarı.

Mən aşiqəm üz barı,
Bağında var düz barı.
Nolaydı, yar gələydi,
Oturaydım üz barı.

Araz, burdan ax barı,
Sallan barı, ax barı.
Həsrət qalma, gözlərim,
Bir doyunca bax, barı.

Kababa gözdən barı,
Hammal, gözdə anbarı.
İraq olduq könüldən,
Olmayaq gözdən barı.

Gəl qapımı aç, barı,
Evimə nur saç, barı.
Yağı durub yollarda,
En dağları qaç, barı.

Qalanın yan divarı,
Od tutub yandı barı.
Göstərin yar çeşməsin,
Ürəyim yandı, barı.

Boynumda var mirvarı,
Göz yaşını sil barı.
Gəl oturaq diz-dizə,
Bir az danış, gül barı.

Araşqının dardarı,
Gəl başımın sərdarı.
Evimizə gəlməsən,
Qonşumuza gəl barı!

Mən aşiq, yar diyarı,
Bayqunun yar diyarı.
Bir yana durun dağlar,
Görünsün yar diyarı.

Şirvanın boz dağları,
Tutubdu toz dağları.
Arxam, köməyim olsa,
Aşaram tez dağları.

Dağların sal buzları,
Sal daşı, sal buzları.
Hər gecə gözləyirəm,
Sayıram ulduzları.

Eləmi su kolları,
Basıbdı su kolları.
Eşitsəm yarım gəlir,
Süpürrəm bu yolları.

Dər gətir dəstə narı,
Qoynunda bəstə narı.
Könlüm səni arzular,
Necə ki xəstə narı.

Şirvanın şirin narı,
Dadlıdı şirin narı.
Sizinki sizin olsun,
Göndərin bizim yarı.

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Yarın küsüb getdiyi
Olur ildən yuxarı.

Mən aşiq, sazdan ayrı,
Uçar qu qazdan ayrı.
Yarın həsrətindəyəm,
Düşmüşəm yazdan ayrı.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Sevişdik, ayrı düşdük,
Gəzək bir zaman ayrı.

İrəvan çağalası,
Yandı bağrım arası.
Bir oğlan, bir qız olsun,
Bir güllü dağ arası.

Qubanın ağ alması,
Doludu bağ alması.
Yarım gələnə qaldı
Yaramın sağalması.

Aşıq ellər ayrısı,
Şana tellər ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

Dəyirmanın su arxı,
Təmizləyin bu arxı.
Gedirsən, tez qayıt, gəl,
İntizar qoyma xalxı.

Qızıl üzüyün qaşı,
Yandı bağrımın başı.
Gedirsən, tez qayıt, gəl,
Ürəyimin sirdaşı.

Qızıl üzük yanaşı,
Firuzədəndi qaşı.
Yardan ayrı düşəli
Yanır bağrımın başı.

Əziziyəm, bala, gəl,
Dumanlıdı qala, gəl.
Yarı görmək istəsən,
Min atın, dördnala gəl.

Dərdi de dostuna, gəl,
Bu  yolun rastına gəl.
O vaxt sən gələcəksən,
Qəbrimin üstünə gəl!

Əziziyəm şama, gəl,
Pərvanə tək şama gəl.
Günorta vədəliyəm,
Get dolan, axşama gəl.

Xoya gəl, Mərəndə gəl,
Bağdan bar dərəndə gəl.
Bir gəldin, xəstə gördün,
Bir də can verəndə gəl!

Ceyran, çölə bir də gəl,
Ördək, gölə bir də gəl.
Bir gəlmisən, getmisən,
İl dolansın, bir də gəl!

Əziziyəm bizə gəl,
Al yaşıl gey, bizə gəl.
Üzün kirşanı neylər,
Çək sürməni gözə, gəl.

Axşam oldu, bizə gəl,
Gey qırmızı təzə, gəl.
Bir əlində şiş kabab,
Bir əlində məzə gəl.

Əziziyəm dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gələr,
Dərd bilməzə demə gəl.

Qüssəyə gəl, qəmə gəl,
Kef istəsən, dəmə gəl.
Dərd bilən özü gələr,
Bilməyənə demə, gəl.

Ağ dona bürünmə, gəl,
Uzaqdan görünmə, gəl.
Dostunla görüşməyə
Yad kimi ərinmə, gəl.

Bir namə yaz, bəri gəl,
Eyləmə naz, bəri gəl.
Bu yol qürbət yoludu,
Yolunu az, bəri gəl.

Əzizim az bəri gəl,
Yolundan az, bəri gəl.
Könlümün istəklisi,
Dilimin əzbəri, gəl.

Əlində saz, bəri gəl,
Eyləmə naz, bəri gəl.
Qışı qürbətdə keçir,
Gələndə yaz bəri gəl!

Dağları gəz, bəri gəl,
Dilimin əzbəri, gəl.
Gedirsən, sözüm yoxdu,
Gəlsən, bir az bəri gəl.

Mənim yarım, Bəsti gəl,
Kəmər belim kəsdi, gəl.
Söhbət vaxtı deyildi,
Məni yuxu basdı, gəl.

Çağıraram haray, gəl,
Hər həftə gəl, hər ay gəl.
Bir ilə dözmək olmur,
Heç olmasa hər ay gəl!

Əzizinəm hər ay gəl,
Hər həftə gəl, hər ay gəl.
Gözüm yollarda qaldı,
Çağırıram haray, gəl!

Çağıraram ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zənciri,
Yolunda dustağam, gəl!

Arxalığı biçdim, gəl,
Üstündə and içdim, gəl.
Vəfalı yar yolunda
Bir canımdan keçdim, gəl.

Göyərçinəm, uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı günün aşnası,
Yaman günə düşdüm, gəl.

Quşum gəl, a quşum gəl,
Qanadı sınmışım, gəl.
Sənnən başqa kimim var,
Diri ayrılmışım, gəl!

Quşum gəl ha, quşum gəl,
Qanadı sınmışım, gəl.
Mən sənə vəfalıyam,
Bivəfa çıxmışım, gəl.

Əziziyəm bağdan gəl,
Yolun azma, sağdan gəl.
Min atın yorğasını,
Sür, dumanlı dağdan gəl.

Gözləyirəm ha, sən gəl,
Yurda ayaq basan gəl.
Biz ki ilqar vermişik,
Ya mən gəlim, ya sən gəl!

Əzizinəm Həsən, gəl,
Gül budağın kəsən gəl.
Qəlbim səni istəyir,
Ya mən gəlim, ya sən gəl.

Dağlar duman oldu, gəl,
Halım yaman oldu, gəl.
Aya vədə vermişdin,
İllər tamam oldu, gəl!

Bağlarda bar oldu, gəl,
Ərik nubar oldu, gəl.
Vədə verdin gəlmədin,
Ürək qubar oldu, gəl!

Çəpər-çəpər oldu, gəl,
Üstə quşlar doldu, gəl.
Gözləməkdən al rəngim
Saralıban soldu, gəl.

Çayda sular dondu, gəl,
Bağa quşlar qondu, gəl.
Dolaqsız gedən oğlan,
Dolaq tamam oldu, gəl.

Aşiqə sən de, sən bil,
Zülfün əsəndə, sən bil.
Mən ki səndən ayrıldım,
Can qaldı səndə, sən bil.

Qoynunda var həmayıl,
İç, həm məst ol, həm ayıl
Gözlərimə qan gəldi
Gözləməkdən həm ay, il.

Güllərin yarı bülbül,
Dərdim var, qarı, bülbül.
Görəndə nalə çəkir
Öz gülün, sarı bülbül.

Dağda dolan, dağda gül,
Bostanda gül, tağda gül.
Bülbül intizardadı,
Açılmayır bağda gül.

Qəhərdən bişəndə gül,
Budaqdan düşəndə gül.
Bülbüllər fəğan eylər
Yadına düşəndə gül.

Gözəl gül, şahani gül,
Ləbi gül, dəhani gül.
Öz gülümü istərəm,
Bürüsə cahani gül.

Həyətləri sarı gül,
Yarı qönçə, yarı gül.
Gözlərindən sil yaşı,
Ayrılıqdı, barı gül.

Yaxşıdı alıcan gül,
Məkanım Alıcangül.
Bülbül yüz yol yaş tökər,
Tək bircə alıcan gül.

Yar arxanda bir dağam,
Yatmamışam, oyağam.
Dola qolun boynuma,
Bir saatlıq qonağam.

Hər paltara boyağam,
Yatmamışam, oyağam.
Səfərkeşəm, gedirəm,
Bir saatlıq qonağam.

Dolayıda bulağam,
Bağrı zolaq-zolağam.
Dedin gəlib aparram,
Yolunda göz-qulağam.

Dağlarda mən bulağam,
Suyu zolaq-zolağam.
Hansı yoldan gəlirsən,
O yola göz-qulağam.

Bağça sallam, bağ sallam,
Gül dibinə tağ sallam.
Ya axtarıb taparam,
Ya gözümə ağ sallam.

Bulaq olub bulannam,
Dörd bir yanı dolannam.
Əlin əlimə çatsa,
Sail ollam, dilənnəm.

Bağa girmişcən varam,
Gülün dərmişcən varam.
Yarı yuxuda görsəm,
Özün görmüşcən varam.

Dərd əlindən bezaram,
Yara namə yazaram.
Gözləyirəm, gəlməsən,
Əhdimizi pozaram.

Kəkliyi bıçaqlaram,
Tüklərin saçaqlaram.
Vədə verib gəlməsən,
Balıncı qucaqlaram.

Aşiqəm ay ağlaram,
Rəqibi ayaqlaram.
Yarınan keçən günü
Anaram, ay ağlaram.

Qara atı yağlaram,
Gül ağaca bağlaram.
Sevdiyimə getməsəm,
Gecə-gündüz ağlaram.

Hər sabahdan ağlaram,
Üzərəm can, ağlaram.
Yardan ayrı düşmüşəm,
Ah çəkib, qan ağlaram.

Yaylığı ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Dolanıb bizə gəlsən,
Səni qonaq saxlaram.

Əzizim dayanmaram,
Dönmərəm, dayanmaram.
Desələr yarın gəlir,
Görsəm də inanmaram.

Gedərəm, oturmaram,
Tənə söz götürmərəm.
Yüz il yüz ilə qala,
Səndən əl götürmərəm.

Dağ başında fanaram,
Söz-söhbəti qanaram.
Bir gün üzün görməsəm,
Alışaram, yanaram.

Qızılgülə hasaram,
Yel vuranda əsərəm.
Desələr yarın gəlir,
Quzu qurban kəsərəm.

Qərənfiləm, al xaram,
Açılmağa qorxaram.
Ay camalını görsəm,
Xəstə olsam, qalxaram.

Naçaram mən, naçaram,
Yaman dərdə düçaram.
Yar yadıma düşəndə
Nazbalıncı qucaram.

Bu gecə uymamışam,
Baş yerə qoymamışam.
Sən məndən doymusansa,
Mən səndən doymamışam.

Aşiqəm, dağı gəzəm,
Sinəmdə dağı gəzəm.
Mətləbim yarı görmək,
İşim nə dağı gəzəm?

Dağın ətəyindəyəm,
Gülün butağındayam.
Ölsəm də dərdim yoxdur,
Yarın otağındayam.

Bu eldə bir danəyəm,
Əl dəymə, pərvanəyəm.
Yarım gedib səfərə,
Dərdinnən divanəyəm.

Araz üstə nanəyəm,
Yel, əsmə, pərvanəyəm.
Yarım gedib Tiflisə,
Dəliyəm, divanəyəm.

Qərənfiləm, dəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Gedin deyin yarıma,
Həsrətindən xəstəyəm.

Bülbüləm, qol üstəyəm,
Şax budaq, qol üstəyəm.
Gəl öpüm gözlərindən,
Gedirəm, yol üstəyəm.

Yatmışam, yan üstəyəm,
Yaram var, qan üstəyəm.
Başım al dizin üstə,
Ölürəm, can üstəyəm.

Hay salsan, dada gəlləm,
Sirr vermə yada, gəlləm.
Ağlama, xumar gözlüm,
Ya ölləm, ya da gəlləm.

El köçsə, hara gəlləm?
Ürəyi yara gəlləm.
Dərdim çox, dərmanım yox,
Axtarıb çara, gəlləm.

Dağda yurd salıb, gəlləm,
Elinən qalıb, gəlləm.
Getdiyin yeri bilsəm,
Sorağın alıb gəlləm.

Kür-Araz daşıb, gəlləm,
Yolumu çaşıb gəlləm.
Hər yanı yağı tutsa,
Dağları aşıb gəlləm.

Əziziyəm yaz gəlləm,
Payız gəlləm, yaz gəlləm.
Günün mənsiz pis keçsə,
Bir namədi yaz, gəlləm.

Əzizim çəndə gəlləm,
Dumanda, çəndə gəlləm.
Kim getsə, kim qayıtsa,
Mən gül açanda gəlləm.

Dağ aşıb, düzə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Yüz il qazamat çəksəm,
Çıxcağın sizə gəlləm.

Mən aşiqilə gəlləm,
Ay keçər, ilə gəlləm.
Ayrılıq sitəmindən
Axırda dilə gəlləm.

Dindirmə, dilə gəlləm,
Bülbüləm, gülə gəlləm.
Bir aya vədə verdim,
Gözlə, bir ilə gəlləm.

Dağlara binə gəlləm,
Gedərəm, yenə gəlləm.
Bir dəfə üzün görsəm,
İmana, dinə gəlləm.

Əzizim sinə gəlləm,
Dağ aşıb sinə gəlləm.
Tez qurtarıb, tez gəlsən,
İmana, dinə gəlləm.

Nərgizi dərə billəm,
Dərib də sərə billəm.
Yar bizə gəlmiş olsa,
Ölü olsam, dirilləm.

Mən a quzum, Kərəməm,
Geyik kimi mələrəm.
Bir od sallam ağzıma,
Dağı, daşı dələrəm.

Əziziyəm düz mənəm,
Gülü bağdan üzmənəm.
Dərdə, qəmə dözmüşəm,
Ayrılığa dözmənəm.

Üzüyün qaşı mənəm,
Üstünün daşı mənəm.
Yar deyib kim ağlasa,
Gözünün yaşı mənəm.

Bağçalarda gül mənəm,
Bülbül mənəm, gül mənəm.
Yarımdan ayrılmışam,
Görüşməsəm, gülmənəm.

Dağları aşan mənəm,
Adı Zərnişan, mənəm.
Ölüncə yol gözlərəm,
Əhdim var, boşanmaram.

Dağ-daşı əzən mənəm,
Əhdim var, bəzənmənəm.
Hamı yara qovuşdu,
Sərgərdan gəzən mənəm.

Əzizim, bişən mənəm,
Yanan mən, bişən mənəm.
Marala tor quruldu,
O tora düşən mənəm.

Bağçaları bəzərəm,
Ayrılığa dözərəm.
Yardan xəbər gəlməsə,
Mən sərgərdan gəzərəm.

Bülbüləm, bağ gəzərəm,
Ölmərəm, sağ gəzərəm.
Leylini itirmişəm,
Məcnunam, dağ gəzərəm.

Bülbüləm, bağ gəzərəm,
Ceyranam, dağ gəzərəm.
Yüz yerdən yaram olsa,
Yar görsəm, sağ gəzərəm.

El-obanı gəzərəm,
Demə ki, bədnəzərəm.
Desələr yarın gəlir,
Otağımı bəzərəm.

Dağlarda tək gəzərəm,
Qara birçək gəzərəm.
Qaraqaş, qara gözlü,
Yarı göyçək gəzərəm.

Mənzərəm, mən Mənzərəm,
Qönçə gülə bənzərəm.
Yarı bağçada görsəm,
Telinə gül bəzərəm.

Aşıq necə eylərəm,
Günüm gecə eylərəm.
Sən mənsiz dolanırsan,
Sənsiz necə eylərəm?

Bütün gün fikr eylərəm,
Dərdimi zikr eylərəm.
Bir dəfə üzün görsəm,
Sevinib şükr eylərəm.

Alaçığa girmərəm,
Saçlarımı hörmərəm.
Yar elə küsdü getdi,
Bir də üzün görmərəm.

Dalımı dağa verrəm,
Dağa qadağa verrəm.
Bilsəm ki, yarım gəlir,
Canım sadağa verrəm.

Dərbənd yolun kəsərəm,
Yarpaq kimi əsərəm.
Yar qürbətdən gələndə
Quzu qurban kəsərəm.

Bənövşəyəm, mən tərəm,
Kol dibində bitərəm.
Yarı hər gün görməsəm,
Boynum əyri bükərəm.

Eləmi, gül istərəm,
Bülbüləm, gül istərəm.
Mən gedərgi qonağam,
Bir şirin dil istərəm.

Qaradağa gedirəm,
Yağa-yağa gedirəm.
İtirmişəm yarımı,
Axtarmağa gedirəm.

Məclisdə sağı gəzdim,
Dolandım, bağı gəzdim.
Yardan soraq almadım,
Məcnun tək dağı gəzdim.

Bircə belə mum idim,
Çay içində qum idim.
Baş yastıqda, göz yolda,
Gəlir sənə ümidim.

Ərimədim, mum idim,
Torpaq idim, qum idim.
İllər keçir, göz yolda,
Nə vaxt gələr ümidim?

Dağları gəzdim, gəldim,
Daşları düzdüm, gəldim.
Axtardım, tapammadım,
Əlimi üzdüm gəldim.

Mən aşiqəm nə dərdim,
Nə dərmanım, nə dərdim.
Yar getdi, təzələndi,
Mənim o köhnə dərdim.

Evlərində var kilim,
Lal olsun mənim dilim.
Gedəndə küsdü getdi,
Gəlsə necə dindirim?

Qızılgül əsdi, neylim?
Səbrimi kəsdi, neylim?
Yar getdi, üzü döndü,
Bu imiş qəsdi, neylim?

Bağça mənim, bar mənim,
Heyva mənim, nar mənim.
Küsdürmüşdü, küsmüşdüm,
Könlüm aldı yar mənim.

Üzül-üzül, gözlərim,
Qəmə süzül, gözlərim.
Gördüyünü görməzsən,
Baxsan yüz il, gözlərim.

Əzizim mən də yetim,
Sən yetim, mən də yetim.
Hamı arzuya yetdi,
Gün olsun mən də yetim.

Elədimi mən yetim,
Sən dədəli, mən yetim.
Özün murada yetdim,
Dua elə, mən yetim.

Yarı ova yolladım,
Arxa, nova yolladım.
Özüm gələ bilmədim,
Çox-çox duva yolladım.

Yanan çıraq olaydım,
Yoldan iraq olaydım.
Yarım suya gələndə
Sərin bulaq olaydım.

Bulaqda su olaydım,
Üstə yarpız olaydım.
Yar bulağa gələndə
Orda yalqız olaydım.

Dağın qarı olaydım,
Sel tək carı olaydım.
Dilbilən, söz anlayan,
Qızın yarı olaydım.

Dağlarda çən olaydım,
Yoldan keçən olaydım.
Sən əkdiyin gülləri
Mən də biçən olaydım.

Dağlarda çən olaydım,
Çayır, çəmən olaydım.
Yar bulağa gələndə
Səhəngi mən olaydım.

Kişmir şalın olaydım,
Üzdə xalın olaydım.
Tanrıdan arzum budur,
Halal malın olaydım.

Üzükdə qaş olaydım,
Yara sirdaş olaydım.
Qızlar oturan yerdə
Mən də bir daş olaydım.

Bulaqda daş olaydım,
Daşla sirdaş olaydım.
Suya gedən qızlara
Hər gün yoldaş olaydım.

Kəhər üstə duraydım,
Kənd aşağı sürəydim.
Yar üzünü gizlədir,
Barı boyun görəydim.

Tüfəng olub ataydım,
Bir mənzilə çataydım.
Döşün üstə baş qoyub,
Şirin yuxu yataydım.

Ürəkdən yaralandım,
Ox dəydi, paralandım.
Ayrılıq olmasaydı,
Bəs niyə saralandım?

Bu dağdan yol salardım,
Karvanı bol salardım.
Bilsəydim getdiyini,
Boynuna qol salardım.

Çaya bir tordu atdım,
Suyu dəryaya qatdım.
Tapdım möhnət ağacın,
Kölgəsində tək yatdım.

Aşiqəm gülə baxdım,
Bülbüləm, gülə baxdım.
Yar sana vədə verdi,
Şad olub gül, a baxtım.

Bir dərdim var, kağızım,
Sən eylə car, kağızım.
Yetəndə yar yanına,
Dil aç, yalvar, kağızım.

Ox getdi, qaldı yayım,
Göyə qalxdı harayım.
Qismətim ayrılıqdı,
Görüşdə yoxdu payım.

Yox aşiq, necə sayım?
Əməyim necə sayım?
Yarsız keçən günləri
Ömrümə necə sayım?

Yağıdan gen dolanım,
Səninlə tən dolanım.
Tez gəl, intizar qoyma,
Başına mən dolanım.

Göydən gedən tərlanım,
Yar boynundan sallanım.
Çəkdir şəklini göndər,
Ona baxım allanım.

Vay mənim qara canım,
Bürünüb tara canım.
Gözün qurbanı, göy at,
Tez yetir yara canım.

Aşiqəm, yara canım,
Zay etdi yara xanım.
Büküm, qoyum qəfəsə,
Apar, get yara canım.

Bu dağda azdı canım,
Üzülüb nazdı canım.
Yardan xoş xəbər gəlib,
O gündən sazdı canım.

Qürbətdə qaldı canım,
Bir dinim, bir imanım.
Gəl, fələk, qıyma mənə,
Görüşə var gümanım.

Əzizim yarı canım,
Yarıdan yarı canım.
Yoluna göz dikməkdən,
Qalmayıb yarı canım.

Əzizim yarı canım,
Sancıbdı arı canım.
Yardan ayrı düşəli,
Qalmayıb yarı canım.

Bağ oldum, bostan oldum,
Dillərdə dastan oldum.
Üç günlük aşna üçün
Yüz illik dostdan oldum.

Aşiqəm dağı görüm,
Sinəmdə dağı görüm.
Mətləbim yarı görmək,
İşim nə dağı görüm?

Dada çatana qurban,
Köynək katana qurban.
Öz yarından xəbərsiz
Yalqız yatana qurban.

Dağlar başı al-əlvan,
Halım olubdu yaman.
Gedirəm, halal eylə,
Gəlməyimə yox güman.

Barmağımdan çıxdı qan,
Mən and içim, sən inan.
Gəlib yadıma düşdü
Səninlə keçən zaman.

Bir söz anla, bir dəm qan,
Könlüm oldu bir dəm qan.
Yara həsrət gözlərim
Bir yaş tökür, bir dəm qan.

Əziziyəm, binəm qan,
Ovlağım qan, binəm qan.
Ayrılıq həsrətilə
Döndü oldu sinəm qan.

Ay doğdu minaradan,
Ölmərəm bu yaradan.
Yarımı mənə yetir,
Yeri-göyü yaradan.

Qov tükəndi çaxmaqdan,
Su tükənmir axmaqdan.
Yar yardan necə doysun
Pəncərədən baxmaqdan?

Qov tükəndi çaxmaqdan,
Keçəm düşdü toxmaqdan.
Gözlərimə qan damdı
Yollarına baxmaqdan.

Su götürdüm hovuzdan,
Seçilmərəm tovuzdan.
Mənə bir xəbər deyin
Köynəyi qanovuzdan.

Gecə keçdi qaraldan,
Seçilmirsən maraldan.
Nə dərdim var, nə qəmim,
Sənsən məni saraldan.

Bu dağların qarından,
Doymadım nubarından.
Zərrəcə eşqi olan
Ayrılarmı yarından?

Dağların  yağışından,
Təngindən, axışından.
Bu gediş ömürlükdü,
Duymuşam baxışından.

Bağ gəzdim bar ucundan,
Heyva yox, nar ucundan.
Batıbdı yasa könlüm
Sənin tək yar ucundan.

Bağlar tükəndi bardan,
Yağı kam aldı yardan.
Nola bir xoş gün gələ,
Qurtaraq biz də dardan.

Su içirəm bardaxdan,
Öpüm qaymax dodaxdan.
Yaxın gələ bilmirəm,
Qadan alım uzaxdan.

Əziziyəm sar daşdan,
Uçub getmir sar daşdan.
Həm yarımdan ayrıldım,
Həm də qohum-qardaşdan.

Əziziyəm bir biryan,
Kabab biryan, bir biryan.
Sənlə keçən günləri
Sal yadına, bir-bir yan.

Dağların qarı dərman,
Yarama sarı dərman.
Yarım bir namə yazıb,
Yarı dərd, yarı dərman.

Salyanın yolu fərman,
Torpağı gözə dərman.
Əhvalından kağız yaz,
Həm dərd olsun, həm dərman.

Yol üstə vardı xırman,
El köçdü, qaldı xırman.
Ayrılıq xəstəsiyəm,
Sağaltmaz dava-dərman.

Dolannam fərağınan,
Əldəki yarağınan.
Yar gedib, bir xəbər yox,
Axtarram sorağınan.

Ot biçdim orağınan,
Gəzirdim qırağınan.
İtirdiyim nazlı yar
Tapıldı sorağınan.

Araz axar axımnan,
Suyu durmaz axımnan.
Yardan necə doyum mən,
Bircə kərə baxımnan.

Çıxıbdı düzə ceyran,
Düşübdü izə ceyran.
Çox tərlan ovlamışam,
Görünmür gözə ceyran.

Hay saldım oyanasan,
Güllərə boyanasan.
Yardan mənə bir xəbər,
Sən məndən o yanasan.

Gedərəm elinizdən,
Düşərəm dilinizdən.
Bir yaşılbaş sonayam,
Uçaram gölünüzdən.

Əzizim söz deməkdən,
Yoruldum söz deməkdən.
Nə sən yoldan yoruldun,
Nə mən yol gözləməkdən.

Aşiq yol gözləməkdən,
Sağı-sol gözləməkdən.
Nə sən yoldan əsirgə,
Nə mən yol gözləməkdən.

Saldı məni qəm əldən,
Qoymaz gələm, dəm əldən.
Getsə, qoy əğyar getsin,
Getməsin həmdəm əldən.

Əzizim üzüm dildən,
Xəbər ver üzüm, dildən.
Sənin şirin adını
Mən necə üzüm dildən?

Canımdan, cəsədimdən,
Bilmərəm kəs ətimdən.
Ayrıldıq, dərdim artdı,
Hər günkü dəsətimdən.

Bir quş gəlir Yəməndən,
Üz əlini ta məndən.
Ayrılıq fələkdəndi,
Nə səndəndir, nə məndən.

Yol keçir Kəsəməndən,
Su səndən, kasa məndən.
Qorxuram qərib öləm,
Yar ümid kəsə məndən.

Əziziyəm bar məndən,
Heyva məndən, nar məndən.
Gəlmişdim könlün alım,
İnciyibdi yar məndən.

Gedirəm ölkə səndən,
Qorxuram yolkəsəndən.
Gəl bir üzünü görüm,
Ayrıldım bəlkə səndən.

Döndüm əğyar elindən,
Can qurtardım felindən.
Qızıl kəmər olaydım,
Qucaydım yar belindən.

Əzizim, sözlərindən,
Doymadım sözlərindən.
Bilsəydim ayrılıqdı,
Öpərdim gözlərindən.

Aşıq deyər özündən,
Yarın ala gözündən.
Ayrıldım sevgilimdən,
Heç doymadım sözündən.

Aşıq dönməz sözündən,
Sözün deyər özündən.
Nola kamım alaydım,
Yarın xumar gözündən.

Əzizim ağ üzündən,
Kəfin al yağ üzündən.
Səni deyib gəlmişəm,
Gəl öpüm ağ üzündən.

Əzizim gül üzündən,
Tökülüb gül üzündən.
Ürəkdə həsrətim var,
Qoy öpüm gül üzündən.

Sal gedər Kür üstündən,
Min atın, sür üstündən.
Bu tər şəfa təridi,
Ölmərəm, dur üstümdən.

Sür atını düz yerdən,
Ayaqların üz yerdən.
Sənsiz yaram sağalmaz,
Gəlsə təbib yüz yerdən.

Çəkilməz duman yerdən,
Küsərlər uman yerdən.
Bir maral itirmişəm,
Gəzirəm güman yerdən.

Eləmi yar içərdən,
Sök bağrım, yar içərdən.
Getdi gözüm qarası,
Çıxmadı yar içərdən.

Maral keçir enişdən,
Buynuzu var gümüşdən.
Mənə də bir pay göndər,
Qoynundakı yemişdən.

Su gəlir axmaq ilən,
Qayalar yıxmaq ilən.
Gözəldən gözmü doyar
Uzaqdan baxmaq ilən?

Tambur ilən, saz ilən,
Ördək ilən, qaz ilən.
Bircə gecə yataydım
Sevdiciyim qız ilən.

Bulağın başı ilən,
Dibinin daşı ilən.
Yara bir namə yazdım
Gözümün yaşı ilən.

El-obada, katda mən,
Kam qoymaram yadda mən.
Gəlincə yol gözlərəm,
Qallam kəbin altda mən.

Aldım ələ əsa mən,
Gəldim çıxdım yasa mən.
Bağban güldən ayrıldı,
Fəğan etdi yasəmən.

Göy üzündə pərdə mən,
Yaman düşdüm dərdə mən.
Öyrətdin sinən üstə
Necə yatım yerdə mən?

Xəstə mənəm, xəstə mən,
Yorğunam, şikəstə mən.
Dərdin qoy dərdim üstə,
Çəkərəm ahəstə mən.

Haray gül, haray çəmən,
Carçı mən, harayçı mən.
Yarı soraq etməkdən
Olmuşam harayçı mən.

Bir dəstə boyağam mən,
Yatmamış oyağam mən.
Qaş-gözünü süzdürmə,
Üç  aylıq qonağam mən.

Ocağı qalaram mən,
Od vurram, qalaram mən.
Yarım əlimə düşsə,
Duz kimi yalaram mən.

Od tutub yanaram mən,
Sirr sözün qanaram mən.
Sən gəldiyin vaxtı de,
Günləri sanaram mən.

Dəryada bir daşam mən,
Gövhərəm mən, qaşam mən.
Aranı dağlar kəsib,
Qanadım yox aşam mən.

Gəlmişəm son quşam mən,
Dağlara qonmuşam mən.
Ağlama, tərlan könlüm,
Gəldi-gedər quşam mən.

Çay deyiləm, axım mən,
El-obanı yıxım mən.
Girdim yar bağçasına,
Yar yox, kimə baxım mən?

Gəl saçını hörüm mən,
Bir-bir bəndin vurum mən.
Eyvana çıx, bax barı,
Bir üzünü görüm mən.

Elədimi yaddan mən,
Əğyardan mən, yaddan mən.
Yarla keçən günləri
Çıxarmaram yaddan mən.

Yaranmışam yoxdan mən,
Yaralıyam çoxdan mən.
Çox qorxuram, a qardaş,
Sənə dəyən oxdan mən.

Mən gedirəm, bilginən,
Yol üstündə durginən.
Ay dostum, gəl yaxına,
Halallığı verginən.

Əzizim tel üzünnən,
Tökülüb tel üzünnən.
Bivaxt yola saldılar,
Doymadım gül üzünnən.

Sirrim vermə yada sən,
Ya mən gəlim, ya da sən.
Cəsəddə can titrəyər
Hər düşəndə yada sən.

Gəzəsən, şən gələsən,
Ömrümə tən gələsən.
Əziz gün, əziz gecə,
Qonağım sən gələsən.

Əziziyəm gülə sən,
Danışasan, güləsən.
Bağban getdi, bağ soldu,
Həsrət qaldın gülə sən.

Qızılgülü dərəsən,
Yaylıq üstə sərəsən.
Yerin mənə nişan ver,
At göndərim gələsən.

Əziziyəm yaddan sən,
Aşnadan sən, yaddan sən.
Dilimin əzbərisən,
Heç çıxmazsan yaddan sən.

Ceyran, çölə gedirsən,
Ördək, gölə gedirsən.
Yara bir xəbər apar,
Bizim elə gedirsən.

Bağa girdim, nar deyin,
Qızılgülə xar deyin.
Gecə-gündüz yolunu
Gözləyirəm, yar, deyin.

Cavan gəlin, dul gəlin,
Ollam sənə qul, gəlin.
Bu yol gedər-gəlməzdi,
Gəl, gözlərəm yol, gəlin.

Qaradı qaşın sənin,
Ağrımaz başın sənin.
Həmişə həsrətdədi
Yarın, yoldaşın sənin.

Əzizim yolla gəlsin,
Dağ aşsın, yolla gəlsin.
Ürəkdə nisgilim var,
Bir namə yolla gəlsin.

Əmliyim cana gəlsin,
Yem verin, qana gəlsin.
İtib tülək tərlanım,
Yerinə sona gəlsin.

Əzizim hara gəlsin,
Ağ günüm qara gəlsin.
Xəbər getsin yarıma,
Dərdimə çara gəlsin.

Qoy maral izə gəlsin,
Taladan düzə gəlsin.
Əhdim var, yar bir genə,
Dolansın bizə gəlsin.

Əziziyəm yaz gəlsin,
Qış çəkilsin, yaz gəlsin.
Sifarişlə gəlmədi,
Dərdli namə yaz, gəlsin.

Əziziyəm yaz gəlsin,
Payız gəlsin, yaz gəlsin.
Qış ötdü, yaz gəlmədi,
Ümidim var, yaz gəlsin.

Yoxdan vara yetirsin,
Dərdə çara yetirsin.
Arzum budu fələkdən,
Yarı yara yetirsin.

Axar sular axmasın,
Quş qanadın çaxmasın.
Gedin, deyin yarıma,
Öldüm, yola baxmasın.

Yar qəlbimi oymasın,
Dərd üstə dərd qoymasın.
Fələk mərdi namərdə
Heç vaxt möhtac qoymasın.

Lampanı alışdırsın,
Şişəni yapışdırsın.
Əziz dostum küsübdü,
Bir Allah barışdırsın.

Tamburun qolu uzun,
Qoluna mərcan düzün.
Yarım var, uzaqdadı,
Mən burda necə dözüm?

İstəmədim yad olsun,
Nişan verdim ad olsun.
Ordan bir xəbər göndər,
Məlul könlüm şad olsun.

Ev tikdim, tağlı olsun,
Bağ saldım, bağlı olsun.
Deyirlər nə vaxt gələr?
Deyirəm, sağlıq olsun!

Aşıq yansın, kül olsun,
Haqqa təvəkkül olsun.
Yara yaylıq demişəm,
Haşiyəsi gül olsun.

Bağ-bağçalar şam olsun,
Ya çinar, ya şam olsun.
Gec gəlib, tez gedirsən,
Otur, qoy axşam olsun.

Əzizim aydın olsun,
Ay doğsun, aydın olsun.
Eşitdim yarın gəlir,
Gözlərin aydın olsun.

Ay çıxsın, aydın olsun,
Ucalsın, aydın olsun.
Yarın qürbətdən gəlib,
Gözlərin aydın olsun.

Xoş gün bayramın olsun,
Gülşən seyranın olsun.
Niyə gec-gec gəlirsən,
Canım qurbanın olsun.

Vəfalını var olsun,
Vəfasızı xar olsun.
Kaş ki bu gələn qonaq
Ala gözlü yar olsun.

Eləmi, düşəndə gül,
Budaqdan düşəndə gül.
Sarı bülbül qan ağlar,
Yadına düşəndə gül.

Nə xoş keçir bu şən gün,
Atlanan gün, düşən gün.
Ağlım başımdan oynar
Yar yadıma düşən gün.

Kağızın ağa dönsün,
Bülbülün bağa dönsün.
Qapımdan gir içəri,
Ürəyim dağa dönsün.

Əziziyəm ləkdə var,
Sarı yemiş ləkdə var.
Ay cüt gəzən bəxtəvər,
Heç demirsən tək də var?

Dağ döşündə tələ var,
Bülbül bağda hələ var.
Əlim səndən üzüldü,
Könlüm səndə hələ var.

Meyvəsiz bağda nə var?
Bəhrəsiz tağda nə var?
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var?

Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Bir itkim var ürəkdə,
Səndə güman yeri var.

Dağlarda qar səsi var,
Bulud yox, qar səsi var.
Atınızı nalladın,
Yenə səfər səsi var.

Fələyin bir bağı var,
Gümüşdən çardağı var.
Mən yar həsrətindəyəm,
Ürəkdə yar dağı var.

Yolun bozu, ağı var,
Çıxma yola, yağı var.
Dindirmə, qan ağlaram,
Sinəmdə yar dağı var.

Başında ağ şalı var,
Örtübdü ağ şalı var.
Çıx bir yollar üstünə,
Gör kimə oxşarı var?

Çayların bol daşı var,
Bol suyu, bol daşı var.
Yar qürbətdə darıxmır,
Yanında yoldaşı var.

Mən aşiqəm, bir ay var,
Bir ulduz var, bir ay var
Gündə gördüyüm yarı
Görməyəli bir ay var.

Hər fəsildə üç ay var,
Üç ulduz var, üç ay var.
Könlüm səni arzular,
Görmədiyim üç ay var.

Əlimdə ələmim var,
Qızıldan qələmim var.
Əl çatmır, ünüm yetmir,
Uzaqdan salamım var.

Gedən, getmə, işim var,
Zərgərdə gümüşüm var.
Qərib, qürbət ölkədə
Qolu bağlı quşum var.

Əlimdə ələmim var,
Qızıldan qələmim var.
Fələk, gəl dəymə mənə,
Uzaqdan gələnim var.

Qarabağda bağım var,
Bağda göy yarpağım var.
Xəbərsiz gedən yardan
Təzə bir sorağım var.

Qırmızı yastığım var,
Divardan asdığım var.
Gözləyirəm, gəlmirsən,
Bağrıma basdığım var.

Dumanlı dağlarım var,
Bar verməz bağlarım var.
Gedirsən, tez qayıt gəl,
Dalınca ağlarım var.

Dağlar, səndə gözüm var,
Dərdə məndə dözüm var.
Xəbər ver yarın gəlsin,
Ürəyimdə sözüm var.

Dərvişəm kəşkülüm var,
Mənim də beş gülüm var.
Çağıraram, yarım gəl,
Sən açan müşkülüm var.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Gedirsən, tez qayıt gəl,
Gözü yolda qalan var.

Dağ başında duman var,
Bulud keçib, duman var.
Yardan xoş xəbər aldım,
Gəlməyinə güman var.

Od yanır, gözdəyən var,
Məclisdə sözdeyən var.
Əzrail, alma canım,
Yolumu gözdəyən var.

Nə uca dağların var,
Al-yaşıl bağların var.
Qürbət eldən tez qayıt,
Dalınca ağların var.

Özün dağa saldı qar,
Qış dolandı, qaldı qar.
İstədim yetəm yara,
Yolu-irzi aldı qar.

Mən aşiqəm, alma, yar,
Alıb yerə salma, yar.
Əl mənim, ətək sənin,
Nəzərindən salma, yar.

Könül verdim, getdi yar,
Muradına yetdi yar.
Yaman vəfasız çıxdı,
Məni nakam etdi yar.

Döşənibdi xəli, yar,
Çuxası vəznəli yar.
Durum yollara baxım,
Vədəlidi, gəli yar.

Qarşımızda alıyar,
Geyinibdi alı yar.
Qəm çəkmə, fəqir Bikəs,
Bir gün könül alı yar.

Axtarmadı izim yar,
Hara getdi bizim yar?
Çox gözlədim, gəlmədi,
Qucaqladım dizim, yar.

Eşit sözüm deyim, yar,
Donum göndər geyim yar.
Sən gedəli qalmayıb
Ürəyimdə heyim, yar.

Qollarım bağlayan yar,
Ürəyim dağlayan yar.
Getdim, qürbətdə qaldım,
Yaş töküb ağlayan yar.

Dağda nədi, tüstü yar,
Aldı duman üstü yar.
Ayrıldın, birdən getdin,
Görən dedi, küsdü yar.

Gün gedər, sarı qalar,
Dəvə ovsarı qalar.
Bilsəm nə yoldan gəlir,
Gözüm yol sarı qalar.

Dağ aşan dalda qalar,
Dinc başım qalda qalar.
Köç dönsə qürbət eldən,
Gözlərim yolda qalar.

Yolum oldu iraqlar,
Çiynim kəsdi yaraqlar.
Ayrılıq məlum oldu,
Mən ağlaram, yar ağlar.

Ələ almış sancaqlar,
Dost zülfünü sancaqlar.
Baba, bağlar küncündə
Xan bülbül səncə ağlar?

Dəryada var balıqlar,
Bağdadda xurmalıqlar.
Nə bu vüsal olaydı,
Nə də bu ayrılıqlar!

Aşıq yadına bağlar,
Xalın yadına bağlar.
Genə qoca bülbülün
Düşüb yadına bağlar.

Qarşıda qara bağlar,
Gec gəlmiş qara bağlar.
Yadına gecə düşmüş,
Üzünü qara bağlar.

Yar başa xara bağlar,
Şal bağlar, xara bağlar.
Bir gün səni görməsəm,
Ürəyim yara bağlar.

Bağça bar deyib ağlar,
Heyva, nar deyib ağlar.
Dərya üstə bitən gül,
O da yar deyib ağlar.

Mən aşiq salı bağlar,
Gəmiçi salı bağlar.
Gözlərim hərdən səni
Yadına salıb ağlar.

Qar yağar, dolu bağlar,
Yağılar dolu bağlar.
Yar yadıma düşəndə
Gözlərim dolub ağlar.

Gəncənin üstü bağlar,
Dumandan tüstü bağlar.
Mən yara neyləmişəm,
İnciyib küsdü, bağlar.

Sonam bağda baş bağlar,
Darar zülfün, yaş bağlar.
Gözləri yolda qalan
Ürəyinə daş bağlar.

Əzizim bica dağlar,
Gündüzü gecə dağlar.
Sevəsən verməyələr,
Görəsən necə dağlar.

A dağlar uca dağlar,
Dərdbilən qoca dağlar.
Qoy axtarım yarımı,
Verərəm bac, a dağlar.

A dağlar, uca dağlar,
Hamıdan qoca dağlar.
Ayrılıqdan üzüldüm,
Mən dözüm necə, dağlar?

Mən aşiq qoşa dağlar,
Verib baş-başa dağlar.
Yol verin, anam gəlsin,
Dönməyin daşa, dağlar!

Əzizim qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Gözləyin sevgilimi,
Düşməsin daşa, dağlar.

Əzizim gülsə dağlar,
Sal başa gülsəd ağlar.
Səndən ayrı gözlərim,
İnanma, gülsə də ağlar.

Bağçasız, barsız dağlar,
Heyvasız, narsız dağlar.
Yarını itiribdi,
Qalıbdı yarsız dağlar.

Əzizim qəlbi dağlar,
Ağ saçlı, qəlbi dağlar.
Yar fəraqı yamandı,
Yandırar qəlbi, dağlar.

Bükübdü beli dağlar,
Ağardıb teli dağlar.
Yetişibdi ayrılıq,
Axıdır seli dağlar.

Başı bəlgəli dağlar,
Dibi kölgəli dağlar.
Durmuşam yol ağzında,
Nə vaxt el gəli, dağlar?

Dağlar, bəlgəli dağlar,
Döşənib xəli dağlar.
Yar üz döndərsə getsə,
Ürəyim zəli bağlar.

Aşiq meşəli dağlar,
Həzar peşəli dağlar.
Yarı sinəndə gördüm,
Gül bənövşəli dağlar.

Dağlar, meşəli dağlar,
Tər bənövşəli dağlar.
Nədən könlüm açılmır,
Səndən aşalı, dağlar?

Həzar peşəli dağlar,
Üstü meşəli dağlar.
Qürbətdən gələn bulud
Nədən belə qan ağlar?

Dağlar, haramı dağlar,
Təbib yaramı bağlar.
Əl çatmaz, ünüm yetməz,
Kəsib aranı dağlar.

Qəlbimin gəşti, dağlar,
Dərd məndən keçdi, dağlar.
Sən yatıbsan naqafil,
Mehmanın köçdü, dağlar.

Xırdaca daşdı, dağlar,
Səndən yol aşdı, dağlar.
Atı gümüş bəzəkli,
Bir sonam qaşdı, dağlar.

A dağlar, daşdı dağlar,
Səndən kim aşdı, dağlar?
Gözlərim yuxu tutdu,
Ceyranım qaçdı, dağlar.

Ov səndə çaşdı, dağlar,
Üstündən aşdı, dağlar.
Ayrılığa dözürsən,
Ürəyin daşdı, dağlar.

Aşıq haralı, dağlar?
Qəlbi yaralı dağlar.
İstərəm duram gələm,
Kəsib aranı dağlar.

Üstü qonçalı dağlar,
Dibi yoncalı dağlar.
Qürbət elə gedənlər,
Sizdə dincəli, dağlar.

A dağlar, qarlı dağlar,
Meyvəli, barlı dağlar.
Yarıma yol göstərin,
Gözəl, ilqarlı dağlar.

Dağlar, ağ başdı dağlar,
Gözləri yaşdı dağlar.
Yalvarıram, düz deyin,
Sizdən kim aşdı, dağlar?

Eləmi daşlı dağlar,
Çınqıllı, daşlı dağlar.
Qorxuram yar gəlməyə,
Göz qala yaşlı, dağlar.

Bu dağlar, daşlı dağlar,
Çınqıllı, daşlı dağlar.
Qürbətdə yarı olan
Gözləri yaşlı ağlar.

Eldə tanını dağlar,
Dildə sanını dağlar.
Sağlığımda gülən yar,
Ölsəm, canını dağlar.

Əzizim naşı dağlar,
Ağardıb başı dağlar.
Soraq salıb axtarır
Yarı, yoldaşı dağlar.

Dar gündü, dedim, dağlar,
Hər dərdi yedim, dağlar.
Yardan bir xəbər verin,
Mənə rəhm edin, dağlar.

Çatılıb qaşın, dağlar,
Bilinmir yaşın, dağlar.
Hicran sənə də düşdü,
Ağardı başın, dağlar?

Səndə var çapar, dağlar,
Səndən pay çapar, dağlar.
Yardan sorağın olsa,
Məni də apar, dağlar.

Əzizim ulu dağlar,
Çeşməli, sulu dağlar.
Dibindən ellər köçər,
Başında bulud ağlar.

Ulduzlar batmaz, ağlar,
Yarı oyatmaz, ağlar.
İki könül ayrılsa,
Gecələr yatmaz, ağlar.

Eləmi yalqız ağlar,
Sonalar yalqız ağlar.
Kimsiz, kimsəsiz arif,
Qalıbdı yalqız, ağlar.

Kabab yanar, köz ağlar,
Dil alışar, söz ağlar.
Yar yardan ayrı düşsə,
Ürək yanar, göz ağlar.

Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Yardan ayrılan aşiq
Sərgərdan gəzər, ağlar.

Əzizinəm gül ağlar,
Gül ağlar, bülbül ağlar.
Bülbül güldən küsübdü,
Saralıbdı gül, ağlar.

Əlimdə sazım ağlar,
Baharım, yazım ağlar.
Getməsəm, öldürərlər,
Gedərsəm, nazım ağlar.

Gecə ağlar, dan ağlar,
Bu dərdə hər yan ağlar.
Yar yadıma düşəndə
Dərdli gözüm qan ağlar.

Xoruz durar, dan ağlar,
Hər gün verər ban, ağlar.
Yar yardan ayrılanda
Gecə-gündüz qan ağlar.

Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar.
Sən yadıma düşəndə
Başımda saçım ağlar.

Mən aşiq, Tərtər ağlar,
Çay gələr, Tərtər ağlar.
Yar yara tay olmasa,
Pünhanda tər-tər ağlar.

Əzizim sabah ağlar,
Şam yanar, sabah ağlar.
Yarından ayrı düşən
Durar, hər sabah ağlar.

Qərib çəkər ah, ağlar,
Gah sevinər, gah ağlar.
Səndən ayrı gözlərim,
Durar, hər sabah ağlar.

Qara-qara buludlar,
Para-para buludlar.
Mənim dərdi-dilimi
Yetir yara, buludlar.

Qəlbimi oxladılar,
Sərpuşda saxladılar.
Sənin kimi gözəli
Kimə adaxladılar?

Göydəki tərazılar,
Könlüm səni arzılar.
Nə ola bir gələydin,
Görəydi tamarzılar.

Su gələr, sel ayrılar,
Ağ üzdən tel ayrılar.
De, xoruz ban verməsin,
O incəbel ayrılar.

Əziziyəm tat anlar,
Tatın dilin tat anlar.
Nələr çəkir gecəni
Tək otaqda yatanlar.

Ağ duman qaşa dolar,
Kəkliklər daşa dolar.
Yardan bir xəbər bilən
Ya ağlar, ya şad olar.

Dağlar başı buz olar,
Külək əsər, toz olar.
Yardan bir xəbər gəlsə,
Mənim dərdim az olar.

Dağlarda al daş olar,
Təpə daş, yal daş olar.
Ayrılığa dözənin
Ürəyi sal daş olar.

Dağdan enəndə atlar,
Enər, dərədə otlar.
Bir gün yarı görməsəm,
Dözməz ürəyim, çatlar.

Bağça barın arzular,
Şirin narın arzular.
Yad eldə gəzən aşiq
Bircə yarın arzular.

Bu dağda çıraq yanar,
Baxdıqca iraq yanar.
Sevgili sevgilidən
Ayrılsa, ürək yanar.

Yol üstündə var pinar,
Yanında qalxıb çinar.
Bizim bu müşkül işi
Düzəltsin pərvərdigar.

Gedirsən, məni apar,
Yoxsa qiyamət qopar.
Oturub bir ah çəksəm,
Dalınca sellər qopar.

Getmə, qiyamət qopar,
Getsən, məni də apar.
Aparmasan, göz yaşım
Axtarar, səni tapar.

Gün dönər, aya çatar,
Hər gün hər aya çatar.
Başım cəllad əlində,
Əlim haraya çatar?

Zülfün tök belə, dilbər,
Tumar çək telə, dilbər.
Yetər intizar qoydun,
Dolan gəl belə, dilbər.

Bulud havada gedər,
Qələm davata gedər.
Bülbül gülün axtarır,
Durmaz yuvada, gedər.

Bu yol Corada gedər,
Dönər Corada gedər.
Uçub könlümün quşu,
Necə havada gedər.

Aşıq Gilana gedər,
Aşar Gilana gedər.
Bəxtəvər o kəsə ki,
Qədrin bilənə gedər.

Gün gələr, batar gedər,
Durnalar qatar gedər.
Vəfalıya can qurban,
Bivəfa atar, gedər.

Ovla, bizə qaz göndər,
Çox olmasa, az göndər.
Əgər gələ bilməsən,
Öz dərdini yaz göndər.

Dağlar, mənə qar göndər,
Əsirgəmə, bar göndər.
Ya dərdimə şərik ol,
Ya dərmanın var göndər.

Bülbüllər bağda gəzər,
Şamama tağda gəzər.
Eldə yad ovçu görüb,
Maralım dağda gəzər.

Dağlarda maral gəzər,
Tellərin darar, gəzər.
Mən yara neylədim ki,
Yar məndən kənar gəzər.

Dəryada fanar gəzər,
Hər axşam yanar, gəzər.
Eldən ayrı düşənlər
Günlərin sanar, gəzər.

Əlində fanar gəzər,
Od tutar, yanar, gəzər.
Ümidim bir yaradır,
O da ki kənar gəzər.

Yerişin qaza bənzər,
Boyun şahbaza bənzər.
Bircə üzünü görsəm,
Qış günüm yaza bənzər.

Bu gələn naza bənzər,
Yerişi qaza bənzər.
Sən gələn gün evimdə.
Qış olsa, yaza bənzər.

Əzizim qara çəkər,
Qaşların qara çəkər.
Yar məndən küsüb getsə,
Qəlbimi dara çəkər.

Əziziyəm mərd çəkər,
Namərd çəkməz, mərd çəkər.
Qızlar gəlin gedəndə
Dul arvadlar dərd çəkər.

Əziziyəm gec elər,
Dərdə dərman gec elər.
Mən ki yarsız dözmürəm,
Yarım mənsiz necelər?

Fələk zülmün gec elər,
Gec olsa da, güc elər.
İstədim dosta varam,
Düşdü qara gecələr.

Əllərin xına gözlər,
Ovçular sona gözlər.
Atma hicran oxunu,
Eləmə qan, a gözlər!

Aşıq birinci gözlər,
Sərraf birinci gözlər.
Dost yoluna baxmaqdan
Sən də bir inci, gözlər.

Aşıqlar sazı gözlər,
Eyləyər nazı gözlər.
Bülbül ah-fəqan çəkər,
Bu gələn yazı gözlər.

Bu yoldan gedən gözlər,
Dayanar nədən gözlər.
İntizardı, qoy gedim,
O nazikbədən gözlər.

Dağ başın dolu gözlər,
Sağ gedən solu gözlər.
Günlər keçər qürbətdə,
Yar yatmaz, yolu gözlər.

Yolçular yolu gözlər,
Dağları dolu gözlər.
Anası qürbətdədir,
Balası yolu gözlər.

Araz daşanda bilər,
Kür qovuşanda bilər.
Yar yarının qədrini
Ayrı düşəndə bilər.

Aşıq avanı neylər?
Dərdə davanı neylər?
Yar yarın özün istər,
Salam-duanı neylər?

Bu dağlar ahı neylər?
Başın külahı neylər?
Sən ordan bax, mən burdan,
Görək ilahı neylər?

Bu dağlar ahı neylər?
İyid pənahı neylər?
Ümidini gəl üzmə,
Görək ilahı neylər?

Ovsunçu ovsun eylər,
Təşnəyə o su neylər?
Yarsız dirilməz Səməd,
Təbib yüz ovsun eylər.

Sözbilən düzgü neylər?
Gözəllər güzgü neylər?
Yardan ayrılan canım,
Qəm səni üzgün eylər.

Eləmi o gün eylər,
O qüzey, o güneylər.
Yar yara qovuşanda
Bayramın o gün eylər.

Dağda səyyad səs eylər,
Ov görər, həvəs eylər.
Bir görmüşəm boyunu,
Bir də görsəm, bəs eylər.

Durna süzər, səs eylər,
Səs eylər, həvəs eylər.
Həsirin üstə bir yer,
İkmizə də bəs eylər.

Təndir üstə kösöylər,
Kösöy yanar, his eylər.
Desələr yarın gəlir,
Sınıq könlüm səs eylər.

Ceyranım düzə gələr,
Düzdə üz-üzə gələr.
Yar bəzənib çıxıbdı,
İnşallah, bizə gələr.

Qış dolanır, yaz gələr,
Ördək gələr, qaz gələr.
Əgər kağız olmasa,
Yarpaq üstə yaz, gələr.

Dəryadan gəmi gələr,
Kür köçər, gəmi gələr.
Doyunca bax gözümə,
Ayrılıq dəmi gələr.

Qoyunlar mələr gələr,
Dağları enər gələr.
Yarım vəfalı olsa,
Gecəni bölər gələr.

Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr.
Səni mənə versələr,
Hamıya da xoş gələr.

Araz daşanda mələr,
Kür qovuşanda mələr.
Bala öz anasından
Ayrı düşəndə mələr.

Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.
Sənsiz bir ah çəkərəm,
Dağ inildər, daş mələr.

Gecələr, ay gecələr,
Yox sənə tay, gecələr.
Yardan əlin üzüldü,
Günlərin say, gecələr.

Gecələr, ay gecələr,
Gün gedər, ay incələr.
Bir dəfə üzün görsəm,
Ağlar gözüm dincələr.

Gecələr, xoş gecələr,
Qoynu bom-boş gecələr.
Yarı məndən ayırdın,
A bağrı daş gecələr.

Qızılgülü dərərlər,
Məxmər üstə sərərlər.
Xoş o qızın halına,
Sevdiyinə verərlər.

Yaraqları düzdülər,
Hər tərəfi süzdülər.
Mənim nə vaxtım idi,
Əlim səndən üzdülər?

Xoş günü düzən gülər,
Elləri süzən gülər.
Qorxuram yar ayağın
İncitsin üzəngilər.

Mən aşiq gözüm işlər,
Kababa közüm işlər.
Baxaram yar yoluna,
Nə qədər gözüm işlər.

Bu gələn ah gətirər,
Gah tutar, gah gətirər.
Yardan əli üzülən
Kimə pənah gətirər?

Gülü bağdan-bağa sər,
Meyvəsin dər, tağa sər.
Əlim əlinə dəysə,
Ürəyim zağ-zağ əsər.

Tufan gələr, dağ əsər,
Yel vuranda bağ əsər.
Yar yadıma düşəndə
Ürəyim zağ-zağ əsər.

Bağban bağdan bar istər,
Heyva istər, nar istər.
Mənim intizar könlüm
Ala gözlü yar istər.

Aşiq olan yar istər,
Bağban bağdan bar istər.
Mənim bu xəstə könlüm
Əl dəyməmiş nar istər.

Mən aşiq bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Yarla keçən günlərim
Yadıma bir-bir düşər.

Yarım iraq gedibdir,
Cibdə daraq gedibdir.
Fikrim ilə xəyalım
Ondan qabaq gedibdir.

Şirvandan karvan gedir,
Qabaqda sarvan gedir.
İntizar gözlərimdən
Gecə-gündüz qan gedir.

Bu yoldan qazax gedir,
Elə bil duzax gedir.
Yarım düşüb yadıma,
Xəyalım uzaq gedir.

Qab-qacaq irəfdədir,
Hərə bir tərəfdədir.
Hər gün gördüyüm yarı
Görmürəm bir həftədir.

Sinəmdə yaram nədir?
Qəm ilə aram nədir?
Dərdim qürbət dərdidir,
Bəs buna çaram nədir?

Burdan uzaq Gəncədir,
Zülfün pəncə-pəncədir.
Ölüm birdəfəlikdir,
Ayrılıq işgəncədir.

Gələn qonaq gedəndir,
Getməyir o nədəndir?
Məni belə saraldan
Bir nazlı ağbədəndir.

Dağda bitən nə dəndir?
Nə darıdır, nə dəndir.
Dedin gözlə, gəlirəm,
Gəlməyirsən, nədəndir?

Başım ağrır nədəndir?
Ürək zədən-zədəndir.
Səndən ayrı düşməyim,
Bilmirəm ki, nədəndir?!

Kür qırağı sərindir,
Girmə, oğlan, dərindir.
Oğlanı dərdə salan
Ala gözlü gəlindir.

Dağ başından səs gəlir,
Elə bil bir kəs gəlir.
Yar göndərən namədən
Bir isti nəfəs gəlir.

Əzizim nədən gəlmir?
Qürbətə gedən gəlmir.
Hamı gedənlər gəldi,
Yar gedib nədən gəlmir?

Əcəb hikmət, qərib sir,
Aça bilməz qərib sir.
Xəyalın gəlmiyən gün
Aşiq alar, qəribsir.

Mən aşiqəm yar əsir,
Bayqu vermiş yara sir.
Yüzün görməyə könlüm
Zülfün kimi yar əsir.

Göydə ulduz cidadır,
Canım yara fədadır.
Qəm çəkmə, maral gözlüm,
Mətləb verən Xudadır.

Qızıl güllər koldadır,
Əl çatmayan qoldadır.
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadır.

Bülbül oxur, koldadır,
Şax budaqda, qoldadır.
Nə qədər gəlməmisən,
Gözüm elə yoldadır.

Nazbalış baş altdadır,
Qara göz qaş altdadır.
Arzum var durum gəlim,
Qollarım daş altdadır.

Qərənfil qutudadır,
Xumar göz yuxudadır.
Bir gözüm yorulanda,
Bir gözüm qapıdadır.

Bu görünən qaladır,
Dörd bir yanı taladır.
Yarı sevmək şirindir,
Ayrılmaq bir baladır.

Bu qala bir qaladır,
Dörd bir yanı taladır.
Ayrılmaq asan işdir,
Görüşmək bir baladır.

Gedirəm, yolum dağdır,
Əcəb meyvəli bağdır.
Yolunu mən gözlərəm,
Nə qədər canım sağdır.

Qalanın daşı azdır,
Üstündə kaşı azdır.
Vermədilər yarımı,
Dedilər yaşı azdır.

Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gedən var, nə gələn,
Deyən yollar bağlıdır?

Ay çıxıbdı, yarıdır,
Göy üzünün barıdır.
Yar dərdi hər aşiqin
Belin bükər, qarıdır.

Bu ayın altısıdır,
Körpünün altı sudur.
Yarı xəlvətdə görmək
Könlümün arzusudur.

Oğlan, getmə, amandır,
Halım mənim yamandır.
Gəl incitmə məni sən,
Öz başına dolandır.

Sarı gülüm samandır,
Günüm gündən yamandır.
Səndən mənə bir xəbər,
Bağrım çatlar, amandır.

Dağlar başı dumandır,
Mənim halım yamandır.
Nə çox sürdü ayrılıq,
Bəlkə axır zamandır?

Bu dağdan yol ayrılır,
Ağ üzdən tel ayrılır.
Ölürəm, canım çıxır,
O incəbel ayrılır.

Soyuq isti çağırır,
Duman tüstü çağırır.
Baş yasdıqda, göz yolda,
Dilim dostu çağırır.

Yağış tökür, çay daşır,
Dindirmə, dilim çaşır.
Sabah səfər günüdü,
Qolun boynumdan aşır.

Sözü qana-qana dur,
Çəkin, yana-yana dur.
Daha məni görməzsən,
Sızla, yana-yana dur!

Piyalən dolu xubdur,
İçməyə dolu xubdur.
Dost gəzən yeri gördüm,
Gözlərim doluxubdur.

Gedən, getmə, dayan, dur,
Halım sənə əyandır.
Gəlişinə mən qurban,
Gedişin nə yamandır.

Yaşılım, abım yoxdur,
Bu yerdə babım yoxdur.
Gedirsən, tez qayıt gəl,
Qüssəyə tabım yoxdur.

Məxmərəm, babım yoxdur,
Yaşılam abım yoxdur.
Küsülüsən gəl barış,
Küsüyə tabım yoxdur.

Əzizim güldür, güldür,
At oxun güldür, güldür,
Yara həsrət gözlərim
Yaş tökər güldür-güldür.

Dağlar başı tütündür,
Kimin qəlbi bütündür.
Əyil üzündən öpüm,
Dünya ölüm-itimdir.

Bu gələn Üskülüdür,
Əlində yasgülüdür.
Neçə yerdən yaram var,
O da yar niskilidir.

Karvan yola düzülür,
Ala gözlər süzülür.
Necə mən ağlamayım,
Əlim yardan üzülür.

Çayda balıq üzüşür,
Sirəm-sirəm düzüşür.
Yar yardan ayrılanda
Tər quruyur, üz üşür.

Evin dalı qarağat,
Qarağatdan yara at.
Yardan mana bir xəbər,
Mən də olum farağat.

Bağçalar al oluydu,
Başında şal oluydu.
Gireydim yar bağına,
Qoruxçu lal oluydu.

Söz deyən aşıq oldu,
Elə yaraşıq oldu.
Bu gün yar bizə gəldi,
Evimiz işıq oldu.

Dağlar qara zil oldu,
Yağdı, qar əzil oldu.
Səndən ayrı bir günüm
Mənə qərəz il oldu.

Sən gedəli il oldu,
Yandı bağrım kül oldu.
Səninlə uçan quşlar
Oxudu bülbül oldu.

Aşıq nədən dəm oldu?
Sözüm-sovum qəm oldu.
Bəd gündə, bəd ayaqda
Yar mənə həmdəm oldu.

Qızılgül həşəm oldu,
Dərmədim, həşəm oldu.
Səndən ayrı düşəli
Ağlamaq peşəm oldu.

Qızılgül xəndan oldu,
Dərmədim, dən-dən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

Dağa getdim, qar oldu,
Dağ başıma dar oldu.
Bülbül bağçadan uçdu,
Könlüm evi xar oldu.

Axşam gəldi, vaxt oldu,
Sinəm yara taxt oldu.
Söhbətim qurtarmamış
Yar getməli vaxt oldu.

Məskənim Qazax oldu,
Ürəyim duzax oldu.
Mən yara yaxın getdim,
Yar məndən uzax oldu.

Burda bir ev quruldu,
Altında su duruldu.
Aləmin yarı gəldi,
Mənim boynum buruldu.

Sonam göldə san durdu,
Tərlan gördü, yan durdu.
Yarım birbaşa getdi,
Ürəyimdə qan durdu.

Qapıda çinar qurudu,
Çayda sular durudu.
Yar yolun gözləməkdən
Çiynim, boynum qurudu.

Su gələr daşa dolu,
Qar yağar qaşa dolu.
Yar yardan ayrılanda
Gözləri yaşa dolu.

Dağ başından en yolu,
Dağda var bilən yolu.
Gül-çiçəyə tutaram
Yar dönüb gələn yolu.

Ağ dəvənin oyunu,
Çoban, qaytar qoyunu.
Görməmişəm çoxdandı
Nazlı yarın boyunu.

Dost əlindən al oxu,
Kamanına sal oxu.
Göz yaşiylə ərzəm var,
Yetişcəyin al oxu.

Dağlara qar düşübdü,
Üstündən tar düşübdü.
Gedirəm, dayanmaram,
Yadıma yar düşübdü.

Karvan yola düzüldü,
Sağdan-sola düzüldü.
Arzum, kamım almamış
Əlim yardan üzüldü.

Buluddan nur süzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə
Yarı canım üzüldü.

Burdan bir ağa döndü,
Sallandı, bağa döndü.
Yarım qürbətdən gəldi,
Ürəyim dağa döndu.

Ay doğdu, yana döndu,
Ulduzlar sana döndü.
Bala dərdin çəkməkdən
Ürəyim qana döndu.

Əzizim quma döndu,
Daş-torpaq quma döndü.
Yar yolun gözləməkdən
Ürəyim muma döndü.

Zülfündə şana, döndü,
Töküldü yana, döndü.
Yolunu gözləməkdən
Ürəyim qana döndü.

Ay qız, adın Hürüdü,
Duman dağı bürüdü.
Verdiyin qızıl üzük
Barmağımda çürüdü.

Bağlara sada düşdü,
Dərd üstən qada düşdü.
Bulud keçdi, ay çıxdı,
Yar gəldi, yada düşdü.

Göydən bir bala düşdü,
Dolandı, dala düşdü.
Yar bir namə göndərdi,
O da ki qala düşdü.

Ay çıxdı, düzə düşdü,
Qıvrım tel üzə düşdü.
Fələk bir iş işlədi,
Ayrılıq bizə düşdü.

Əzizim üzə düşdü,
Sürmə çək, gözə düşdü.
Hər kəs öz keyfindədi,
Ayrılıq bizə düşdü.

Tellərin üzə düşdü,
Yel vurdu, üzə düşdü.
Yar yarından ayrıldı,
Məcnun tək düzə düşdü.

Gül əkdim, ləkə düşdü,
Şamama yekə düşdü.
Yolunu gözləməkdən
Gözümə ləkə düşdü.

Pəncərədən gün düşdü,
Gün düşdü, bağrım bişdi.
Ala gözlü cananım
Genə yadıma düşdü.

Dağlara dolu düşdü,
Şeh düşdü, dolu düşdü.
Qəbirimi yol üstə qaz,
Bəlkə yar yolu düşdü.

Axşamüstü dan üzü,
Quşlar oxur dan üzü.
Qardaşın xoş sədası
Sənə çata dan üzü.

Əziziyəm yas öyü,
Yas otağı, yas öyü.
Yandım yarın oduna,
Oldum ocaq kösöyü.

Arxalığım üçdümü?
Düyməsi gümüşdümü?
Göz ağlayır, üz gülür,
Bu da bir gülüşdümü?

Arxalığım üçdümü,
Düyməsi gümüşdümü?
Yarım getdi, gəlmədi,
Müjdəsi öpüşdümü?!

Deyəmmədim sözümü,
Yolda qoydun gözümü.
Gedirsən, tez qayıt gəl,
Öldürərəm özümü.

Gəncənin talx üzümü,
Yeməyə talx üzümü.
Qoyub getmə məni sən,
Danlayar xalx üzümü.

Hündür dağın düzünü,
İtirmişəm izini.
Bircə görmək istərdim
Əziz dostun üzünü.

Açıb güllər üzünü,
Bülbül deyər sözünü.
Çəkərəm yar həsrətin
Aylar, illər uzunu.

Bağlama, aç üzünü,
Örtmə o qaş-gözünü.
Gəl mənə naz eləmə,
Yerə salma sözümü.

Dərd gəlir təndən ötrü,
Yoldan ötəndən ötrü.
Mənim burda kimsəm yox,
Gəlmişəm səndən ötrü.

Gəlinin taxtına bax,
Gün keçir, vaxtına bax.
Çox da yarı kifirdi,
Sən onun baxtına bax.

Əziziyəm yasa bax,
Qara günə, yasa bax.
Bu yar məni öldürər,
Ya bu gündü, ya sabah.

İraqdan gələnə bax,
Bir geri dönənə bax.
Yarı qürbətdən gəlib,
Çırağı yanana bax.

Dağları gəz, daşa çıx,
Vur dövranın, başa çıx.
Desələr ki, yar gəlir,
Qabaqlaram baş açıq.

Gün çıxdı qədir Allah,
Taqsırım nədir, Allah?
Ya məni yara yetir,
Ya da ki öldür, Allah.

Xoş günün adı qardaş,
Ağzımın dadı qardaş.
Arzularam, gəlməsən,
Tutaram yadı qardaş.

Göydən gedən quş qardaş,
Xəncəri gümüş qardaş.
Bacın səni arzular,
Heç gəlmirsən tuş, qardaş.

Qardaş-qardaş quş qardaş,
Xəncəri gümüş qardaş.
Getmə qərib ölkəyə,
Çək cilovu düş, qardaş.

Görünən dağlar imiş,
Üstündə bağlar imiş.
Yar yardan ayrılanda
Nə yaman ağlar imiş.

Dağların başı ağmış,
Qar imiş, təzə yağmış.
Əcəl, gəl apar məni,
Yarsız nə yaşamaqmış.

Üzülmüşəm, üzülmüş,
Xumar gözlər süzülmüş.
Görən varmı mənimtək
Əli yardan üzülmüş?

## LAYLA. NAZLAMA

Balam gəlir yatmağa,
Böyüyüb boy atmağa.
Sabah yuxusu şirin,
Qıymıram oyatmağa.

Quşlar uçdu havada,
Balası var yuvada.
Gözüm bəndivanındı,
Dilim sənə duvada.

Qızılgül bitib suda,
Birin kəs, birin buda.
Mən durum keşiyində,
Sən yat şirin yuxuda.

Canım bala, gül bala,
Ana qədrin bil, bala.
Yaman günün gərəyi,
Çağıranda gəl, bala.

Oxunur əzən, bala,
Dur geyin, bəzən, bala.
Boyuna anan qurban,
Tappatap gəzən bala.

Laylası dərin bala,
Yuxusu sərin bala.
Tanrıdan əhdim budur,
Toyunu görüm bala.

Sənə nolubdu, bala?
Rəngin solubdu, bala.
Oyan bir gül yuxudan,
Məməm dolubdu bala.

Lay-lay quzum, ağlama,
Ürəyimi dağlama.
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama.

Lay-lay dedim adına,
Hay yetişsin dadına.
Boya-başa çatanda
Məni də sal yadına.

Dağların lalasına,
Gözlərin qarasına.
Analar qurban olsun
Öz körpə balasına.

Dağların lalasına,
Gün düşüb talasına.
Bacılar qurban olsun
Qardaşın balasına.

Laylayım el başına,
Sancılsın tel başına.
Səni kim istəməsə,
Qalmasın il başına.

Lay-lay dedim yatınca,
Gözlərəm ay batınca.
Canım zinhara gəldi
Sən hasilə çatınca.

Lay-lay dedim boyunca,
Baş yastığa qoyunca.
Pardaxlan, qızılgülüm,
Bir iyləyim doyunca.

Bir gül əkdim boyunca,
İyləmədi doyunca.
Ömrüm, günüm uzansın
Bu balamın toyunca.

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat yuxun algilən,
Mən durmuşam keşikdə.

Evində, eşiyində,
Yat quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

Lay-lay çaldım həmişə,
Karvan enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Boya-buxuna dol, gəz,
Boynuma dola qol, gəz.
Cavanlar cərgəsində
Sən də bir igid ol, gəz.

Yaxamdan al məməni,
Tutmasın qal məməni.
Ağlama, əziz balam,
Ağzına sal məməni.

Eləmi sürmə məni,
Çək gözə sürmə, məni.
Uşaq yatmır, ağlayır,
Ağzına sür məməni.

Nazlasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan
Bir igid bilim səni.

Atıban tutdum səni,
Əcəb ovutdum səni.
Ömr üzdüm, cəfa çəkdim,
Şükür, böyütdüm səni.

Qızılgülün çanağı,
Astanalar torpağı.
Kim balamı istəməz,
Gözünə bibər yarpağı.

Balamın əl yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin
Balama can sağlığı.

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı.
Qız gözümün qarası,
Oğlan ürək başıdı.

Atım, tutum bu balanı,
Şəkərə qatım bu balanı.
Atası evə gələndə
Qabağa tutum bu balanı.

Atın, tutun bu balanı,
Şəkərə qatın bu balanı.
Şəkərdən acı olsa,
Götürün, atın bu balanı.

Layla deyim düz, barı,
Gəl dərdimi üz, barı.
Balama qurban olsun
Yüz dul arvad, yüz qarı.

Mən əzziyəm, şonqarı,
Dülgər yonar yonqarı.
Balama qurban olsun,
Doqquz qoca, on qarı.

Əlində var hanası,
Qulağında tanası.
Bir toyunu görəydim,
Olaydım bəy anası.

Yurd yox taladan savay,
Gül yox laladan savay.
Anaya nə əzizdir
Körpə baladan savay?

A lay-lay, yenə lay-lay,
Can deyim sənə lay-lay.
Sənə gələn dərd, bəla
Qoy gəlsin mənə, lay-lay.

Lay-lay, a balam lay-lay,
Alınmaz qalam, lay-lay.
Sənə kəc baxanları
Yandırsın nalam, lay-lay.

Qızılgül butam, lay-lay,
Ətrinə batam, lay-lay.
Balam ərsəyə gələ,
Toyunu tutam, lay-lay.

A lay-lay, bəyim lay-lay,
Gözəl-göyçəyim lay-lay.
Qürbət ölkə, yad eldə,
Arxam, köməyim lay-lay.

Lay-lay beşiyim, lay-lay,
Evim-eşiyim lay-lay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin, lay-lay.

Lay-lay, hər kəsim lay-lay,
Sənə nər kəsim lay-lay.
Yat, yuxun şirin olsun,
Ucalsın səsim, lay-lay.

Lay-lay maralım, lay-lay,
Səbrim, qəralım lay-lay.
Böyü, bir qoç igid ol,
Sənə yar alım, lay-lay.

A lay-lay, quzum lay-lay,
Ayım, ulduzum lay-lay.
Sən hasilə çatınca
Hər dərdə dözüm, lay-lay.

Nərgizi üzüm, lay-lay,
Yaxana düzüm, lay-lay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm, lay-lay.

Lay-lay, bülbülüm, lay-lay,
Sarı sünbülüm, lay-lay.
Bağçalarda gül çoxdur,
Bir qızılgülüm, lay-lay.

A lay-lay, gülüm lay-lay,
Gülüm, bülbülüm lay-lay.
Böyü, sənin sayəndə
Mən də bir gülüm, lay-lay.

Bürünüb dona bülbül,
Köç edər sona bülbül.
Balam dil açan günü
Mat qaldı ana bülbül.

Yaylığı kirli balam,
Qəlbi fikirli balam.
Cahıl-cuhul içində
Mənim şəkilli balam.

Lay-lay balam, gül balam,
Sən mənim sünbül balam.
Laylayımla yatasan,
Oyatsın bülbül, balam.

Lay-lay dedim, gül balam,
Gül balam, bülbül balam.
Mən sevindim sənilən,
Sən də sevin, gül, balam!

Lay-lay balam, can balam,
Mən sənə qurban, balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan, balam.

Lay-lay dedim, can balam,
Mən sənə qurban, balam.
Bir belə yatmaq olmaz,
Dur açılır dan, balam.

Uyu balam, yat balam,
Qızılgülə bat, balam.
Şütük bağın bağlayım,
Şirin-şirin yat, balam.

Yol üstə bulaq ollam,
Sarınnam, dolaq ollam.
Sən mənim birdənəmsən,
Özüm göz-qulaq ollam.

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə
Quzu, qurban demişəm.

Lay-lay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan durunca,
Canımı qurban dedim.

Lay-lay dedim, yat dedim,
Yastığa baş at, dedim.
Bala, çəkim nazını,
Boya-başa çat, dedim.

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun balam, deyim.

Lay-lay mənim bəbəyim,
Bir arzum, bir diləyim.
Bəd gündə, bəd ayaqda
Sənsən mənim köməyim.

Əzizim, mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın,
Sayəndə mən dolanım.

Sən mənim bir dinarım,
Bir ağçam, bir dinarım.
Amandır, əsmə, külək,
Salarsan, birdi narım.

Balam, gəl soyun görüm,
Sərvtək boyun görüm.
Tanrıdan arzum budur,
Balamın toyun görüm.

Laylayım, sözüm qurban,
Ağlasan gözüm qurban.
Böyü, boya-başa çat,
Boyuna özüm qurban.

Mən aşiq quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər sabah boyun görsəm,
Kəsərəm quzu qurban.

Bunu verənə qurban,
Könül görənə qurban.
Mən ki fərə demişdim,
Xoruz verənə qurban.

Lay-lay dedim ucadan,
Səsim çıxmır bacadan.
Tanrı səni saxlasın
Çiçəkdən, qızılcadan.

Lay-lay dedim yatasan,
Dərdi, qəmi atasan.
Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan.

Lay-lay dedim yatasan,
Qızılgülə batasan.
Qızılgül kölgəsində
Şirin yuxu tapasan.

Oğul, gəl yarağımsan,
Güzgümsən, darağımsan.
Hər gün lazım olmasan,
Dar gündə gərəyimsən.

Lay-lay dedim ürəkdən,
Qolum düşdü biləkdən.
Boy at, igid, cavan ol,
Məni salma diləkdən.

Lay-lay deyim carçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım
Küçələrdə carçı mən.

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə,
Ayaq tutub gəzəsən.

Lay-lay dedim biləsən,
Düşməyəsən dilə sən.
Boya-buxuna çatıb,
Oynayasan, güləsən.

Əziziyəm, zirəsən,
Zəfəransan, zirəsən.
Qurban olum o günə,
Bir qapıdan girəsən.

Yeni gül-çiçək olsun,
Yarpağı ləçək olsun.
Bir bala göstərin ki,
Balamdan göyçək olsun.

Balamsan sən, nəyimsən?
Arxamsan, köməyimsən.
Mən sənin əziz anan,
Sən mənim diləyimsən.

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən.
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

Dağlarda lalam sənsən,
Alınmaz qalam sənsən.
Kimim yox, kimsənəm yox,
Bir şirin balam sənsən.

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Layla deyin balama,
Qoy yatsın, oyatmayın.

Bağın dərdim heyvasın,
Tökər külək meyvəsin.
Ata-ana can deyər,
Sevər ürək meyvəsin.

Bu dağların nalasın,
Laçın verməz balasın.
Mən balamı istərəm,
Balam istər balasın.

Qızılgül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budu,
At minən çağın olsun.

Bağçamızda bar olsun,
Heyva olsun, nar olsun.
Sən ayaq aç, gəz, dolan,
Düşmən görsün, xar olsun.

Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun.
Sənə layla çağırım,
Düşmənlərin yox olsun.

Dağ başında qalam var,
Ürəyimdə nalam var.
Xalxın dövləti, varı,
Mənim də bir balam var.

Sözü sözdən alan var,
Zülfün üzə salan var.
Əziz oğlum, tez böyü,
Gözü yolda qalan var.

Dağ başına qar yağar,
Bulud keçər, ay doğar.
Sənintək ay parçasın
Analar tək-tək doğar.

Şan bağlayan arılar,
Qonar gülə, sarılar.
Balama qurban olsun
Yaşı ötmüş qarılar.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim balam körpədir,
Saxlasın pərvərdigar.

İgid qalasın istər,
Dağın lalasın istər.
Mən balamı istərəm,
Balam balasın istər.

Dərya, dibin dərindir,
Suyun qandır, irindir.
Ata-ana əzizdir,
Bala candan şirindir.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.

Bala dadı bal dadır,
Bala adam aldadır.
Şirin sözün, söhbətin
Hələ sənin daldadır.

Bu görünən Şirazdır,
Şah mənzili Şirazdır.
Tifilim sənə qurban,
Məmə kiçik, şir azdır.

Elin dərdi azardır,
Dərddən, qəmdən bezardır.
Bala baldan şirindir,
Balasız ev məzardır.

Bağda bülbül oxuyur,
Saça sünbül toxuyur.
Balamı iyləyirəm,
Elə bil gül qoxuyur.

Mən gördüm haçan günü,
Dağlardan qaçan günü.
Yeddi qurban kəsərəm
Balam dil açan günü.

* * *

Çəkdim cəfasın,
Gördüm vəfasın.
Böyütdüm onu,
Sürüm səfasın.

Mən çalım oyna,
Qurban boyuna.
El-oba gəlsin,
Sənin toyuna.

Qızım qızdı,
Yüz tümən azdı.
Minliyi gətirin,
Qızımı götürün.

Dağın maralı,
Gözün qərarı.
Dünyanın malı
Bu balama qurban.

Badam badamı,
Oğlan adamı.
Qoy elçi gəlsin,
Alsın qadamı.

Ay qız adamı,
Sındır badamı.
Elçiyə çay ver,
Alım qadanı.

Dağda meşəlik,
Gül, bənövşəlik.
Mən həmişəlik
Bu balama qurban.

Tükəndi ahım,
Yoxdur günahım.
Balam böyüsə,
Odur pənahım.

Ağardı başım,
Yoxdur sirdaşım.
Qohum-qardaşım
Bu balama qurban.

Gördüm nalasın,
Çəkdim bəlasın.
Balam da istər
Körpə balasın.

Çaydakı qazlar,
Tükün tarazlar.
Nişanlı qızlar
Bu balama qurban.

Göydə ulduzlar,
Şaxtalı buzlar,
Cehizsiz qızlar
Bu balama qurban.

Dağda arılar,
Şanın yarılar.
Qoca qarılar
Bu balama qurban.

Tüstüsüz damlar,
Sarı badamlar,
Tənbəl adamlar
Bu balama qurban.

A dağdağanlar,
Bülbül boğanlar,
Oğlan doğanlar
Bu balama qurban.

Dağdakı atlar
Quyruğun qatlar.
Göyçək arvadlar
Bu balama qurban.

Bu bölük atlar,
Çəməndə otlar,
Ərsiz arvadlar
Bu balama qurban.

Dağda inəklər,
Otdar, iməklər.
Xonçalı bəglər
Bu balama qurban.

Çaydır, dənizdir,
Quldur, kənizdir.
Balam hər nədir,
Mənə əzizidir.

Oğul ürəkdir,
Qızıl dirəkdir.
Götürün, saxlayın –
Qıza gərəkdir.

Min tümən azdır,
Qızdır, o nazdır.
Verin balamı –
Halı nasazdır.

Qız bir maraldır,
Gözdə qaraldır.
Həsrət çəkənin
Rəngin saraldır.

## QADAN-BALAN CANIMA

Bağrımda tut nubarı,
Yeməyə tut nubarı.
Sevdin, ala bilmədin,
Adımı tutma barı.

Yaralıyam, yazığam,
Dərddən qəlbi qazığam.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, mən yazığam.

Qoçaqdı, şirdi balam,
Qiblədi, pirdi balam,
Gəl fələk, qıyma mənə,
Yazığam, birdi balam.

Qərənfiləm, qalxaram,
Açılmağa qorxaram.
Gecə cıqqırın çıxsa,
Yerimnən dik qalxaram.

Qaya mənəm, dağ mənəm,
Dağ üstə bulaq mənəm.
Arxan yox, köməyin yox,
Sənə göz-qulaq mənəm.

Mən bu dərddən ölmərəm,
Dərdi-dərdə bölmərəm.
Əziz canımdan dönsəm,
Bir balamdan dönmərəm.

Gözümün qarasınnan,
Yaş axar qarasınnan.
Adam da əl çəkərmi,
Öz ciyərparasından?

Bir səs gəlir ellərdən,
Şirin-şirin dillərdən.
Tanrı, balamı saxla
Ağır aylar, illərdən.

Ah çəkmə, solaram mən,
Saçlarım yolaram mən.
Mən ölsəm, sənə qurban,
Sən ölsən, nolaram mən?

Balamı tanıram mən,
Hər sözün qanıram mən.
Yuxuda ah çəkəndə
Od tutub yanıram mən.

Balamsan, bir dənəsən,
Sədəfsən, dürdənəsən.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, bir dənəsən.

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə din, danış,
Ürəyim dağa dönsün.

Əzizim hay mənimçün,
Verəydin pay mənimçün.
Mən ölsəm, sənə qurban,
Sən ölsən, vay mənimçün.

Bayram, bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə çox yatdın?
Anan qurbanın olsun.

Qurbanın quzu olsun,
Quzunun yüzü olsun.
Quzudan qurban olmaz,
Ananın özü olsun.

Qalalar, ay qalalar,
Laçın orda balalar.
Ana balasın verməz,
Bəlkə güclə alalar.

Bala demə, qan olar,
Yel əsər, tufan olar.
Bala gəzən yerlərə
Analar qurban olar.

# ALQIŞ. ÖYMƏ. ÖYÜD-NƏSİHƏT. HİKMƏT

Bülbül dolubdur bağa,
Bir gül salıbdır dağa.
Sayanın qulu olsan,
Saymayana ol ağa.

Əziziyəm bu dağa,
Bu qayaya, bu dağa.
Məxmər çul nə yaraşır
Bir palanlı ulağa?!

Altı dərya, üst ada,
Sən bu dərdi üz ta da.
Hər şagird qabil olsa,
Ustad olar ustada.

Təzə buğda, tər buğda,
Xırman üstə sər buğda.
Ruzudur, bərəkətdir
Çölə düşən hər buğda.

Xəbər getsin o yada,
Yatmış könlüm oyada.
Bivəfaya sirr vermə,
Gedər açar o, yada.

Kəpəz dağın başında,
Sirr var hər bir daşında.
Sən özünə dost qazan,
Düşmən ocaq başında.

Elədimi sal buza,
Balta neylər sal buza?
Qarnı tox olan köpək
Gecə hürər ulduza.

Mən aşiqəm nəvaya,
Bir qulaq as nəvaya.
Nə namərdə bel bağla,
Nə aha düş, nə vaya.

Ey dünya, məlik dünya,
Təpəsi dəlik dünya.
Ya bir köşkü saray tik,
Ya bir kölgəlik, dünya.

Buxarıya od qala,
Odun gətir, od qala.
Elə yandır düşməni,
Məşhərəcən od qala.

Odun gətir, qoy, qala,
Doldur qəlyan, qoy qala.
Sözün ötməyən yerdə
Ürəyində qoy qala.

Ucadır bizim qala,
Dərd getməz, yüz il qala.
Bədəsil əsil alma,
Boyunca qızıl qala.

Açıbdı bağda lala,
Bənzər gül üzə lala.
Zərrəcə səbri olan
Tez yetişər vüsala.

Dağlarda gördüm lala,
Əldə tutdum piyala.
Kim görübdü dünyada,
Zülm evi abad qala?

Al kəməri, bel bağla,
Saçlarına tel bağla.
Nə yada sirrini ver,
Nə namərdə bel bağla.

Kaman bəla, ox bəla,
El gələli yox bəla.
Namərd dostla tuş olsun,
Başın çəkər çox bəla.

Nəhrəni çalxa sola,
Yağ gərək qalxa, dola.
Arx çay deyil, su gələ,
Su gərək arxa dola.

Əlimdə var bağlama,
Mən gedirəm, ağlama.
Bəlkə getdim, gəlmədim,
Namərdə bel bağlama.

Tut ağacın darama,
Əldən çıxar barama.
Halal zəhmətlə gələr,
Haram gedər harama.

Xalqın pisin danışma,
Pis deməyə çalışma.
Öz pisinə arif ol,
Özgənkinə alışma.

Eləmi nərdivana,
Ayaq qoy nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana.

İşim düşdü divana,
Axır gəldim mən cana.
Heç vaxtı bel bağlama
Bir ilana, bir xana.

Arif olan söz qana,
Söz anlaya, söz qana.
Yüz min tülkü yığılsa,
Neyləyər bir aslana?

Əziziyəm mərdana,
Sözüm dedim mərdana.
Qorxağa oğul deməz
Qoçaq ata, mərd ana.

Günləri bir-bir sana,
Yad verdi bir sirr sana.
Bir elm, bir də sənət
Xəzinədir insana.

Əzizim gülüstana,
Şeh düşüb gülüstana.
Ayıq ol, şeyda bülbül,
Xar qonar gülüstana.

Əzizim daldasına,
Mərd iyid daldasına.
Namərd aslan olsa da,
Sığınma daldasına.

Bülbül qonar taxtına,
Gül açılar baxtına.
Xəstənin tabı olmaz,
Armud yetər vaxtına.

Gün getdi dağ başına,
Örtüb duvaq başına.
Könül şamama istər,
Dolanar tağ başına.

Bu dağların başına,
Bülbül düşər qaşına.
Mahir ovçu düz vurar,
Güllə atmaz boşuna.

Aşıq gedər hər yana,
Sözün deyər mərdana.
İyidə ürək verər
Bərk ayaqda mərd ana.

Zülfünü bağda dara,
Düşübdür bağ da dara.
Vəfalı bir dost üçün
Rumu gəz, Bağdad ara.

Qızışıb çöldə ara,
El çıxıbdır biyara.
Tənbəl acından ölsə,
Eldən ona nə çara?

Əziziyəm bu yara,
Gedər, qalmaz bu yara.
Yada dost demək olmaz,
Dost hara, düşmən hara?

Gəz dolan, bağdan ara,
Bülbülü bağdan ara.
Bağbanın könlü olsa,
Nə gəlib bağda nara?

Mən aşiq qəlbi nara,
Ay doğar qəlbi nara.
Dil ilə dost olanın
İş ilən qəlbin ara.

Qohum hara, yad hara,
Bel bağlama əğyara.
Həyasız qonşun olsa,
Tez köç, canın qurtara.

Əziziyəm Salmasa,
Xoydan köç, get Salmasa.
Bəndə bəndəyə neylər,
Fələk gözdən salmasa?

Mən aşiq bilən olsa,
Qədrini bilən olsa.
Birliyi top dağıtmaz,
Ona səs verən olsa.

Eləmi yaxşı ata,
Pulun ver yaxşı ata.
Oğul bədəsil olsa,
Dərd çəkər yaxşı ata.

Əzizim yaxşı ata,
Yar oxun yaxşı ata.
Sözü de qoç iyidə,
Pulu ver yaxşı ata.

Dövran dolandı çarxa,
Gün keçdi qorxa-qorxa.
Namərdə yaxa vermə,
Mərdə yana, yol arxa.

Mən aşiq naçar başa,
Dərd gəlsə qaçar başa.
Namərdə vermə sirrin,
Min oyun açar başa.

Ox atma sən bu daşa,
Bu qayaya, bu daşa.
Düşməni elə vur ki,
Kəlləsindən bud aşa.

Bulud dağdan oğranıb,
Para-para doğranıb.
Qoca kötük üstündə
Çoxlu budaq doğranıb.

Dərd əlindən yandı dağ,
Getməz sinəmdən bu dağ.
Ana gəzən ağacda
Qız gəzər budaq-budaq.

Əziziyəm nəmən dad,
Ağ yüzündən nə mən dad.
Sən ol ədalətli şah,
Nə sən dad et, nə mən dad.

Dər gülü, at igidə,
Varın var sat igidə.
Bərk gündə, bərk ayaqda
Yoldaşdır at igidə.

Durnalar düzüləndə,
Qıy vurub süzüləndə.
Düşmən murada yetər
Əl yerdən üzüləndə.

Gülü sən dər, de məndə,
Hicranın dərdi məndə.
Yüz nadan qurban olsun
Bir nəfər dərdiməndə.

Əzizim yaman gündə,
Boynumda yaman gündə.
Bir yaxşı yüz yaşasın,
Ölsün yüz yaman gündə.

Əzizim aman gündə,
Sözün de aman gündə.
Dost kimdi, düşmən kimdi,
Tanırsan yaman gündə.

Mən aşiq duman yerdə,
Dağ yerdə, duman yerdə.
Düşmən felinə düşmə,
Qalarsan yaman yerdə.

Aşıq deyər sin ayə,
Sin yazılıb sin ayə.
Doğru sözü mərd danış,
Yalan sözdən sin, ayə.

Maral baxar təpəyə,
Özün yıxar təpəyə.
Oba sahibsiz olsa,
Donuz çıxar təpəyə.

Əzzinəm düşməz ələ,
Mey içən, düş məzələ.
Yaxşı saxla gözəli,
Bir candı düşməz ələ.

Bulağın başı ilə,
Dibinin daşı ilə.
İyidə alqış dedim,
Gözümün yaşı ilə.

Əzizim yol eləmə,
Dərdimi bol eləmə.
Basma bağın çəpərin,
Düşmənə yol eləmə.

Aşiqəm bir canana,
Bircə gül, bircə nana.
Hər canana can vermə,
Canı ver bir canana.

Əzizim o ləngine,
İyidin o ləngine.
Ürəyində kin olan
Göz tikər ölən günə.

Əzizinəm sənginə,
Mina gərdən səngi nə?
Şahin-şonqar sığınar
Yalçın dağlar sənginə.

Çay qırağı çətənə,
Gül göndərdim vətənə.
Allah qismət eləsin
Öz könlümə yatana.

Sözün demə tərsinə,
Tər təni qoy, tərsinə.
Su öz səmtinə axır,
Dövran gedir tərsinə.

Bu yerlər qalın meşə,
Yanımda ol həmişə.
Aranında gül bitsin,
Yaylağında bənövşə.

Əzizim sərin ayaz,
Göy bulud, sərin ayaz.
Dosta gələn qadanı
Düşmənin sərinə yaz.

Axar su gedər, qalmaz,
Ürəkdə kədər qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

Ulduz göydə sayılmaz,
Çiy yumurta soyulmaz.
İki könül bir olsa,
Bir-birindən ayrılmaz.

Belə ağlamaq olmaz,
Ürək dağlamaq olmaz.
Tülək tərlan yerində
Sarı saxlamaq olmaz.

Yaxşı dostdan yad olmaz,
Yad ürəyi şad olmaz.
Düşmən yüz nemət versə,
Heç birində dad olmaz.

Dağ başında iz olmaz,
İz olsa da düz olmaz.
Dəvə adamsız otlar,
Sürü çobansız olmaz.

Bu dağda arı olmaz,
Dağların barı olmaz.
İki dilli aşiqin
Sevimli yarı olmaz.

Tənbəldən kömək olmaz,
Kimsəyə gərək olmaz.
İşində çalışgilən,
Zəhmətsiz yemək olmaz.

Eləmi hörən olmaz,
Yar telin hörən olmaz.
Şahın zülmü yüz olar,
Rəhmini görən olmaz.

Əzizim gülşən olmaz,
Bir güllə gülşən olmaz.
Dost-dostdan incik olsa,
İnciyər, düşmən olmaz.

Yay günündə qar olmaz,
Söyüd qalxar, bar olmaz.
İki dilli gözəldə
Əhdə etibar olmaz.

Bağçanın üstü olmaz,
Ocaqsız tüstü olmaz.
Dostdan düşmən tapılar,
Düşmənin dostu olmaz.

Dağ başı duzax olmaz,
Gün qara, üz ağ olmaz.
Sən haqq işə boyun qoy,
Haqq səndən uzaq olmaz.

Zəhmətsiz bir iş olmaz,
Dumansız yağış olmaz.
Göydə bir bulud olsa,
Ondan qarlı qış olmaz.

Əzizim qar qalanmaz,
Qar yağmaz, qar qalanmaz.
Düşməni möhkəm vursan,
O bir də qarğalanmaz.

Sayad dağda tor qurmaz,
Qurub boynunu burmaz.
Sınıq qaba pinc qoysan,
Yenə gedər su, durmaz.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz.
Bir dost vəfalı olsa,
Dostu yaddan çıxartmaz.

Sel gələr düzə baxmaz,
Qonur göz gözə baxmaz.
Yarı ürəkdən sevən
Hər deyən sözə baxmaz.

Qəlbi dağı yar aşmaz,
Hicran bizə yaraşmaz.
İş görəndə öz ağlın,
Yad ağlınan kar aşmaz.

Əziziyəm yüz il gəz,
Yüz il dolan, yüz il gəz.
Bir vəfalı yar üçün
Heç gəzməsən, yüz il gəz.

El arxandır, güvən gəz,
Dağda bitər güvəngəz.
Nə dövlətə bel bağla,
Nə fələyə güvən, gəz.

Çobanı qoyun əyməz,
Eyləyər toyun, əyməz.
İgid oğul düşmənə
Yalvarıb boyun əyməz.

Aşiq yey işin bilməz,
Xalın yey işin bilməz.
Yapalaq tərlan olsa,
Didər, yeyişin bilməz.

Bu gedən hay da verməz,
Çağırram, hay da verməz.
Bir dost bivəfa olsa,
Dostuna fayda verməz.

Aşıq sözün bitirməz,
Ovçu ovun itirməz.
Üzüm gündə qalmasa,
Dönüb sirkə yetirməz.

Əziziyəm yüz ha, yüz,
Sonam, göldə üz ha, üz.
Düşmən gəlib dost olmaz,
Yalvarasan yüz ha, yüz.

Əzizim ləngəridi,
Gəminin ləngəridi.
Çox bilib, az danışmaq
İyidin ləngəridi.

Qaşların qəməridi,
Tellərin kəməridi.
Dəvəni sərvan əyər,
İyidi qəm əridi.

Payam var, dəmirdəndi,
Mayam var, xəmirdəndi.
Gələn günə yaxşı bax,
Keçən gün ömürdəndi.

Seyr elədik fərzəndi,
Göydən yerə fərz endi.
Gərək iyid atanın
İyid olsun fərzəndi.

Əlində fanar indi,
Alışıb yanar indi.
Söz içində söz demə,
Ariflər qanar indi.

Qərənfil haça bəntdi,
Sana, gör neçə bəntdi.
Vəfalıya can qurban,
Bivəfa heçə bəntdi.

Qara atın kəkili,
Tel-tel olub tökülü.
Hər yetənə yar desən,
Yar bacandan tökülü.

Qasid gəldi haf kimi,
İncəlmişdi sap kimi.
Gözlə, yarın qəlbini
Qırma çini qab kimi.

Əgər sevsə el səni,
Yıxa bilməz ev səni.
Namərdə boyun əymə,
Qoy aparsın sel səni.

Yar bilər yar qədrini,
Tar çalan tar qədrini.
Cəfa çəkməyən bülbül
Bilməz bahar qədrini.

Səbr elə, sana səbri,
Mərd gərək qana səbri.
Hər bir səbir tükənsə,
Tükənməz ana səbri.

Dağ başı qala yeri,
Gəz, dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

Əzizim bəzən, yeri,
Gey sallan, bəzən yeri.
Dərd-qüssə ola bilməz
Azadlıq gəzən yeri.

Boylanır ağca pəri,
Adlanır dağ çəpəri.
İnsan paxıl olmasa,
Neyləyər bağ çəpəri.

Gül açıbdı meşəsi,
Sındı könlüm şüşəsi.
Bivəfa yar olanın
Ağlamaqdı peşəsi.

Lələ öldü, bez gəti,
Arşın apar, tez gəti.
Nə qonşudan söz apar,
Nə qonşudan söz gəti.

Mən aşiq ara işi,
Zülf işi, ara işi.
Yarınan özün danış,
Ev yıxar ara işi.

Aşiqin nəm əndişi,
Zülf işi, kəmənd işi.
Başıma nələr gətdi
Əqlimin kəm əndişi.

Bağdan meyvə dər, kişi,
Dərib yerə sər, kişi.
Qışı yayda qarşılar
Ağlı olan hər kişi.

Aşiq ov alsa dağı,
Yaram avalsa dağı.
Naşı ovçu ov vurmaz,
Tamam ov alsa bağı.

Gəzdim dağı dağlığı,
Yoxdu onun bağlığı.
Mal-dövlət gedər qalmaz,
Qalar bir can sağlığı.

Bu gün hava yaxşıdı,
Dərdə dəva yaxşıdı.
Oğrunun qazanından
Bizim tava yaxşıdı.

Aşiq varisə qaldı,
Yarım var isə qaldı.
Namərd yığdı, yemədi,
Öldü, varisə qaldı.

Dağlara salma hayı,
Qaçar maralın tayı.
Könlü bədöy istəyən
Vaxtında alar dayı.

Lələ yerin Arqalı,
Mələməz ay arqalı.
Kəsəkəs meydanında
Namərd qaçar, ər qalı.

Çox gördüm qilü-qalı,
Oldum işindən halı.
Qarı düşmən dost olmaz,
Yedirsən yağı, balı.

Axtarma yad ağalı,
Ya düzü, ya dağalı.
Ye malın, sür dövranın,
Yeməsən, yada qalı.

Gün keçdi, qara salı,
Dalınca qar əsalı.
Vədəsiz köç eyləyən
Özünü qara salı.

Aşıq gəzər mahalı,
Sözlə bəzər mahalı.
Çox gəzən, çox dolanan
Olar hər işdən halı.

Gəlin, gəlin olmazmı?
Al-yaşılı solmazmı?
Gəlin evdən gedəndə
Evi viran olmazmı?

Ay çıxdı yanı-yanı,
Göründü bircə yanı.
Bərk ayaqda, bərk gündə
Dostu, düşməni tanı.

Namərdlə mərdi tanı,
El sevər mərd atanı.
Oğul fərsiz çıxanda
Öldürər dərd atanı.

Dağların mehdi barı,
Güllərin şehdi barı.
Kasıbın varı olmaz,
Varlının etibarı.

Əziziyəm cidarı,
Qarşıda var cidarı.
Hər kəsin öz əməli
Ayağının cidarı.

Əzizim dağa sarı,
Yar gəlir dağa sarı.
Ətrafda sar dolanır,
Buraxma bağa sarı.

Xalların öz qarası,
Yaxşıdır öz qarası.
Su yuyar hər ləkəni,
Yuyulmaz üz qarası.

Əzizim il yarası,
Ağrıdır il yarası.
Xəncər kəssə, sağalar,
Sağalmaz dil yarası.

Eləmi mərdə tası,
Doldur ver mərdə tası.
Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

Görən oydu talançı?
Kəndi soydu talançı?
Tamahkarı aldadar
Doğru satan yalançı.

Mən aşiq ər şabaşı,
Bərgüşad, ərşə başı.
Namərddən kişi olmaz,
Yetişsə ərşə başı.

Aşıq neylər yad aşı,
Çaxçax döyər ha daşı.
Bülbül ilən yoldaş ol,
Gülü bağdan ha daşı.

Əziziyəm qaş daşı,
Gövhər daşı, qaş daşı.
Cahıl ilə bal yemə,
Ahıl ilə daş daşı.

Çayda qovar daş daşı,
Çaxmaq daşı, qaş daşı.
Qardaş bacıdan keçməz,
Bacı atmaz qardaşı.

Qərənfil abı gərək,
Yar yarın babı gərək.
Yad eldə yar sevənin
Dəryaca tabı gərək.

Bağçalarda gül gərək,
Gül gərək, bülbül gərək.
Sidq ilə dost olan kəs
Ürəkdən də bir gərək.

Aşiq biriynən gərək,
Sədəf dürüynən gərək.
Dünyada gözəl çoxdur,
İlqar biriynən gərək.

Əziziyəm tən gərək,
Pay bölünsə tən gərək.
Sarvanla dost olanın
Darvazası gen gərək.

Əziziyəm yaxşı bil,
Yaxşı öyrən, yaxşı bil.
Özünə yaxşılığı
Özgəyə də yaxşı bil.

Başa geymiş ya məndil,
Səni elər yaman dil.
Lələ, fəna dünyada,
Ya zərbaft gey, ya məndil.

Sayadım sayıq deyil,
Yatıbdı, ayıq deyil.
Söz verib üz döndərmək
Heç yara layıq deyil.

Əziziyəm təmiz ol,
Saf ürək qərəzsiz ol.
Ədəbin, elmin olsun,
Hər yerdə də əziz ol.

Dostun bir tək dostu ol,
Arxa-dirək dostu ol.
Dost deyib, dost olanda
Söz yox, ürək dostu ol.

Eləmidir mərdə qul,
Eylə məni mərdə qul.
Fürsəti bada verməz
Qaçaq iyid, mərd oğul.

Mərd anadan mərd oğul,
Namərdə bəy, mərdə qul.
Qorxaq töhmət artırar,
Baş ucaldar mərd oğul.

Bağçada açılıb gül,
Müştaqdır ona bülbül.
Ömür keçər, qarıyar,
Qarımaz heç vaxt könül.

Şitildir, koran degül,
Bitibdir Goranda gül.
Dostu görəndə ağla,
Düşməni görəndə gül.

Mən aşiqəm yenə gül,
Əl çal, oyna, yenə gül.
Dünyaca qəmin olsa,
Düşmən görsən yenə gül.

Dağa yelbə nə lazım,
Girər qəlbə, nə lazım.
Ağacda bar olmasa,
Ona səlbə nə lazım.

Əziz oğlum, naz oğlum,
Dərsindən qalmaz oğlum.
Qələmin al əlinə,
Arzı-kamın yaz, oğlum.

Mənim əziz, gül oğlum,
Gül oğlum, bülbül oğlum.
Dərsin oxu rəvanla,
Sonra danış, gül oğlum.

Əzizim içmə, dostum,
Hər sudan içmə, dostum.
Uyma əğyar sözünə,
Dostundan keçmə, dostum.

Oğlum, çəkin yalandan,
Yalan-yaman, ilandan.
İlan vuran sağalar,
Sağalmazsan yalandan.

Bir gül aldım oxandan,
Alıb asdım yaxamdan.
Bir lal axan sudan qaç,
Bir də yerə baxandan.

Əzizim o tağından,
Qaşların o tağından.
Mərdin töyləsi yaxşı,
Namərdin otağından.

Dağların harayından,
El köçdü harayından.
Mərdin daxması xoşdur,
Namərdin sarayından.

Qaşların qarasından,
Xal düşüb arasından.
Adam da əl çəkərmi
İstəkli balasından?

Əzizim çək ucundan,
Qəlyanı çək ucundan.
Nə namərdə yoldaş ol,
Nə bəla çək ucundan.

İnci burdan, dürr burdan,
Min atını sür burdan.
Məclisdə yerin tanı,
Deməsinlər, dur burdan.

Əziziyəm yan dolan,
Nöqtələrin qan dolan.
Yaxşılara yoldaş ol,
Yamanlardan yan dolan.

Dağ başında durmasan,
Torun atıb qurmasan,
Tərlan ovlamaq olmaz,
Binədə oturmasan.

Görünür ov dərədən,
Get onu qov dərədən.
Ovçu naşı olmasa,
Keçirməz ov bərədən.

Əzizim çeşmə məndən,
Çay məndən, çeşmə məndən.
Yad sözü yalan olur,
İnanma, keçmə məndən.

Dəyirmanın pərindən,
Suyu çıxar dərindən.
Elin sözü bir olsa,
Dağ oynadar yerindən.

Dəyirmançı çəkər dən,
Qəlyan götür, çək hərdən.
Namərddən uzaq dolan,
Nə dərd olsa çək ərdən.

Bağ salıb, gül əkməyən,
Gülün yerə tökməyən,
Balın qədrin nə bilir
Arı qəhrin çəkməyən?

Ay Ələsən, Ələsən,
Ömrü vermə yelə sən.
Hər işdə səbirli ol,
Peşman olar tələsən.

Dağ-dərəni addan sən,
Keç alovdan, oddan sən.
Yolun uğurlu olsun,
Gözlə özün yaddan sən.

Mən aşiqəm dürüs din,
Dürüs iman, dürüs din.
Ya məclisdə lal otu,
Ya dinirsən, dürüs din.

El gəlsin, elə dəysin,
Mey əssin, telə dəysin.
Tək əldən nə səs çıxar?
Əl gərək ələ dəysin.

Bülbülü bağda asın,
Gül-çiçək tutsun yasın.
Zəhmət çəkən, bağ salan,
Sürər bağın səfasın.

Ürək yara olmasın,
Sınsın para olmasın.
Rəngin qara olsa da,
Qəlbin qara olmasın.

Dağdan enəndə qoyun,
Çoban eyləyər toyun.
Söz-söhbətin bilməyən
Başa açar min oyun.

Güllərin həşəm olsun,
Gün vursun, həşəm olsun.
Var-dövlətim olunca,
Sənətim, peşəm olsun.

Yar gərək yanan olsun,
Hər dərdi qanan olsun.
Dost tapdın, elə dost tap,
Sayılan, sanan olsun.

Meyvə gərək tər olsun,
Övlad gərək nər olsun.
İyidə yaraşıqdır,
Ad qazansın, ər olsun.

Bağa girdim bar üçün,
Heyva üçün, nar üçün.
Əsirgəmə canını
Bir vəfalı yar üçün.

Sığal vurar telə o,
Kəmər bağlar belə o.
İgidi el saxlayar,
Arxa olsa elə o.

Dağı, daşı gəzdi yar,
Dərd əlindən bezdi yar.
Sən sözünü açıq de,
Söz kimindi, tez duyar.

Mən aşiq göz yeri var,
Üzündə göz yeri var.
Məclisdə məqam gözlə,
Hər sözün öz yeri var.

Su üstə bir pəri var,
Çoxlu dərdi-səri var.
Hər nə desən qıza de,
Arvadların əri var.

Əldə piyaləsi var,
Ürəkdə naləsi var.
Mərdə get, çirkin olsun,
Namərdin bəlası var.

Aşığın zil səsi var,
Həm zili, həm pəsi var.
Sındırma yar könlünü,
Onun da kimsəsi var.

Bulaq üstə bəsti var,
Bəstinin bir dəsti var.
Sirr vermə öz dostuna,
Dostun da bir dostu var.

Əlində baydası var,
Baydanın qaydası var.
Sonradan peşmançılıq,
Onun nə faydası var.

Əlində lalası var,
Qəlbində nalası var.
Gedirsən cavana get,
Qocanın balası var.

Dağların talası var,
Gün düşüb alası var.
Mərddən uzaq dolanma,
Namərdin balası var.

Dağ başında duman var,
Yar gələcək, güman var.
Göstərmə ay camalın,
Həsrət çəkən, uman var.

Əziziyəm busan var,
Yol üstünü busan var.
Bir cüt nar bəsləmisən,
Gizlə, umub küsən var?

Qədəyi bez qocaldar,
Yeg sallan, gəz, qocaldar.
Arvadın deyingəni
Kişini tez qocaldar.

Dağ başı səsli qalar,
Ocağı hisli qalar.
Yemək ilən dost olan
İllərlə küslü qalar.

Dağ üstə duman qalar,
Yağışa güman qalar.
Yağ yağ ilə qarışar,
Yarmalar yavan qalar.

Dağ başını qar alar,
Duman gələr, tar alar.
İllər keçər sağalmaz
Söznən dəyən yaralar.

Dağ başını qar alar,
Gün əyilər, saralar.
İgid ölər ad qoyar,
Müxənnətdən nə qalar?

Dağ başını qar alar,
Duman alar, qar alar.
İnsan azad olmasa,
Ömrü, günü qaralar.

Əzizim daşa çalar,
Ömrümü daşa çalar.
Yemə namərd çörəyin,
Qayıdar başa çalar.

Tüstülənər bacalar,
Ocaq üstə sac olar.
Zəhmət sevən gün görər,
Tənbəl hər vaxt ac olar.

Mən aşiqəm budaqlar,
Bağban bağı budaqlar.
Ana gəzən budağı,
Bala bir-bir budaqlar.

Üz tutub Qafa bağlar,
Çıxıbdı safa bağlar.
Bir dost bivəfa olsa,
Kim ona vəfa bağlar.

Aşmağa asan dağlar,
Qar başın basan dağlar.
Yetim çox çətin gülər,
Ağlasa hasand ağlar.

Əzizim nədən bağlar,
Pərvanə nədən bağlar.
Əkmə namərd zəmisin,
Nə bitər, nə dən bağlar.

Əzizim dağı danlar,
At oxun dağıdanlar.
Naşı ovçu ov vurmaz,
Qayıdı, dağı danlar.

Ağ almanı soyarlar,
Ağ boşqaba qoyarlar.
Çağrılmamış qonağı
Qaş-gözünən qovarlar.

Qış dolanar, yaz olar,
Göldə ördək, qaz olar.
Hər nə desən qıza de,
Gəlin kələkbaz olar.

Kabab yanar, köz olar,
Nəzər dəyər, göz olar.
Qohumdan qız alanda
Aralıqda söz olar.

Dağ başında hay olar,
Dərd-qəm olsa, vay olar.
Çaylar axsa, göl olsa,
Bulaq suyu çay olar.

Dağ döşündə hay olar,
Dərd əlindən vay olar.
El bir yerə yığılsa,
Gücü coşqun çay olar.

Axça dinarmı olar?
Heyva de narmı olar?
Əyri bitən bir söyüd
Gəlib çinarmı olar?

Elədimi gün olar,
Dağ başında gün olar.
Yaxın dostla yad olmaq,
Olsa da bir gün olar.

Mən aşiq oda yaxar,
Qəlyanın oda yaxar.
Dost dostunun yolunda
Canını oda yaxar.

Tüfəng atma, səs çıxar,
Ovu daşdan gəz, çıxar.
Yaman günə səbr edən
Yaxşı günə tez çıxar.

Göy üzü damar-damar,
Göydən yerə nur damar.
Ustada kəc baxanın
Gözlərinə qan damar.

Dağ başında bir fanar,
İllər keçər, hey yanar.
Söz dəmir kimi şeydir,
Sən döydükcə uzanar

Əzizim baş aparar,
Sel gələr, baş aparar.
Xana nökər olanın
Ayağın daş aparar.

Əziziyəm sin durar,
Ovçu gəzər, sin durar.
El yığılsa, bir olsa,
Zərbi kərən sındırar.

Əziziyəm sin durar,
Dağda bulud sin durar.
Sirkə dönüb tünd olsa,
Öz qabını sındırar.

Dağ başına qondu sar,
Əkdim ağac, verdi bar.
Sirrini dosta demə,
Dostunun da dostu var.

Əlində var bol açar,
Qapı bağlar, yol açar.
İgid ağzını açmaz,
Bərk ayaqda qol açar.

Kilidə saldım açar,
Kilid açıldı naçar.
İgid sirr saxlamasa,
El ondan uzaq qaçar.

Aşıq hənəklə gedər,
Salxım tənəklə gedər.
Kələk ilə gələn şey
Dönər, küləklə gedər.

Gün dolanar, ay gedər,
Bulud taybatay gedər.
Oxun göz yumub atma,
Əldən çıxar, yay gedər.

Aşiq yad olar gedər,
Xalın yad olar gedər.
Göz görmüyə-görmüyə,
Könül yad olar gedər.

Su gələr, axar gedər,
Dağ-daşı yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

Yar nazın yara çəkər,
Xalların qara çəkər.
Elin gücü bir olsa,
Düşmənin dara çəkər.

Sən ağasan, mən nökər,
Mən işlirəm, sən bekar.
Bir adam paxıl olsa,
Ömrü boyu dərd çəkər.

Aşiq yüz ilə dəgər,
Şana yüzilə dəgər.
İl var bir günə dəgməz,
Gün var min ilə dəgər.

Mən aşiqəm yad ellər,
Yad ölkələr, yad ellər.
Belə sərxoş gəzənin
Şamamasın yad əllər.

Mən aşiq qara tellər,
Ağ üzdə qara tellər.
Namərdlə sirdaş olsan,
Qəlbini qarat eylər.

Məclisdə var badalar,
Saqi alar sadalar.
Əli açıq, gözü tox
Süfrə açar, ad alar.

Adam solsa, əyilər,
Yaşa dolsa, əyilər.
Haqq sözün qabağında
Dağ da olsa, əyilər.

Su axar, divan eylər,
Bağçaya ravan eylər.
İyidin yaxşı dostu
Ömrünü cavan eylər.

Mən aşiq şirin eylər,
Püstanın şirin eylər.
Yar özü şirin olsa,
Hər işin şirin eylər.

Gün xoş keçsə, dərd ölər,
Qüssə gedər, dərd ölər.
Haqq yolunda can qoyan
Ad qazanar, mərd ölər.

Bulud gələr, yan verər,
Dağları nişan verər.
Kələklə dövran sürən
Möhnət ilə can verər.

Kababı köz öldürər,
Sürməni göz öldürər.
İyidi qılınc kəsməz,
Tənəli söz öldürər.

Dağ başında yel əsər,
Düşər üzə tel, əsər.
Doğru söz tez kar eylər,
Qılıncdan da pis kəsər.

Mixək əkdim biri tər,
Biri qönçə biri tər.
Bəylə bostan əkənin
Tağı belində bitər.

Aşıq barından keçər,
Gələr, barından keçər.
Namərdlə dost olanın,
Ömrü yarıdan keçər.

Dərdi, qəmi, at keçər,
Dərd olsa qat-qat, keçər.
Sakit dolan, səbr elə,
Ömrün salamat keçər.

Hər kim ədəbtələbdir,
Səadətə səbəbdir.
İnsan ilə heyvanın
Təfavütü ədəbdir.

Duman dağa pərdədir,
Göydə deyil, yerdədir.
Ağalıq dövlət olsa,
İyidlik hünərdədir.

Babam deyir bəs nədir,
Yuxu adam əsnədir.
Gec yatmaq, tez oyanmaq
Dövlət deyil bəs nədir?

Yol üstündə daş nədir?
Düz yolda çaşbaş nədir?
Özün ki yıxılmısan,
Axıtdığın yaş nədir?

Eləmi şanəsidir,
Bu zülfün şanəsidir.
Hər işdə kamil olmaq
Ağıl nişanəsidir.

Minsən, at yaxşı şeydir,
Təmiz zat yaxşı şeydir.
Düşmən zəif də olsa,
Ehtiyat yaxşı şeydir.

Səyyad, qəlbin nə şəndir,
Dağdan ovun düş, endir.
Yoxdur pulun vəfası,
Əldən-ələ düşəndir.

Aşıq cəfa nə bilir,
Seyrü-səfa nə bilir.
Əğyardan dostluq umma,
Əğyar vəfa nə bilir.

Gündür gəlir, boş keçir,
Ömrü günə qoş, keçir.
Keçən gün keçdi, getdi,
Gələn günü xoş keçir.

Yel əsəndə gül incir,
Bülbül incir, gül incir.
Yad bağban, bağa girmə,
Yarpaq düşər, gül incir.

Bir quş gəlir aladır,
Yeri, yurdu taladır.
Kasıblıq pis olsa da,
Dövlət başa bəladır.

Əzizim yar aşıqdır,
Bu yara yar aşıqdır.
Çox bilib, az danışmaq
İgidə yaraşıqdır.

Dövran çox qarışıqdır,
Yad gəlib barışıqdır.
Ayıq-sayıq dolanmaq
İgidə yaraşıqdır.

Dağda yol-iz yaxşıdır,
Hər yan nərgiz yaxşıdır.
Yeddi fərsiz oğuldan
Bir fərli qız yaxşıdır.

On bir ondan yaxşıdır,
Çuxa dondan yaxşıdır.
Yağıya boyun əysən,
Ölmək ondan yaxşıdır.

Dost dostla tən yaxşıdır,
Olmasa gen yaxşıdır.
Bir dostda sirr qalmasa,
Ondan düşmən yaxşıdır.

Əzizim bu yaxşıdır,
İçməyə su yaxşıdır.
Karsız, uzaq qohumdan
Yaxın qonşu yaxşıdır.

Vüsal yarın naxşıdır,
Göz könülün baxşıdır.
Olsa ağıllı düşmən,
Nadan dostdan yaxşıdır.

Əzizinəm yüz qandır,
Əlli qandır, yüz qandır.
Kəbə yıxmaq bir evsə,
Könül yıxmaq yüz qandır,

Dağlarda urağandır,
Yürəyim dolu qandır.
Yolsuzu yola tapşır,
Yol özü vurağandır.

Göydə ulduz axandır,
Nə sultandır, nə xandır.
Fələyə bel bağlama,
Fələk evlər yıxandır.

Dağ başın duman almır,
Yar yarın dərdə salmır.
Dövlət şirin olsa da,
Axır heç kəsə qalmır.

Əldə əsa, yaxşı dur,
Yaxşı danış, yaxşı dur.
Yaxşı igid yurdunda,
Pis qalmasa yaxşıdır.

Əziziyəm yaxşı dur,
Yaxşı otur, yaxşı dur.
Öz ayranın turş olsa,
Yad aşından yaxşıdır.

Bu dağda səda çoxdur,
Dərd-qəm çox, səda çoxdur.
Dost min də olsa, azdır,
Yad bir olsa da çoxdur.

Ovçuda aman olur,
Əlində kaman olur.
Oxlama yar könlünü,
Ox dəysə, yaman olur.

Göydən yerə yağır nur,
Ağır otur, ağır dur.
El içində düz dolan,
Görən desin ağırdır.

Bulud gəlir qathaqat,
Bir birinə çathaçat.
İgidi darda qoymaz
Mənzil kəsən bədöy at.

Tüfəngini yaxşı at,
Yaxşı doldur, yaxşı at.
Mərdin başın ucaldar
Nəcib arvad, yaxşı at.

Əziziyəm yaxşı at,
Nişan götür, yaxşı at.
İgidi cavan saxlar
Yaxşı arvad, yaxşı at.

Qoruqda qoyun, quzu,
Qoyuna verdim duzu.
Dövlətə susamayın,
İgidə verin qızı.

Yerdən dursa Koroğlu,
Torun qursa Koroğlu.
Qan sel kimi tökülər,
Bir qıy vursa Koroğlu.

Sürü tanır qurdunu,
İgid sevər yurdunu.
Bir xain, bir də qorxaq
Batırar bir ordunu.

Əzizim gəz dostunu,
Bir zaman gəz dostunu.
Yüz il yüz ilə getsə,
Dost atmaz öz dostunu.

Əzizim haqqa doğru,
Aç qəlbin haqqa doğru.
Dünyada bədbəxt olar
Gedən nahaqqa doğru.

Əzizim qandı, öldü,
Odlara yandı öldü.
Ağac əyildi, sındı,
İgid utandı, öldü.

Əzizim ara sözü,
Sərraf ol, ara sözü.
Öz sözünü özün bil,
Ev yıxar ara sözü.

Əzizim gör düyünü,
Ay doğdu, gördü günü.
Namərddə sirr əylənməz,
Mərd deməz gördüyünü.

## HÖRMƏT-EHTİRAM. SAYIB-SAYILMAQ. GÜN-GÜZƏRAN

Dan yeri qızaranda,
Gəl gəzək biz aranda.
Qalsa da oğlan qalsın,
Qalmasın qız aranda.

Bu yerdə gülən olsa,
Tərimi silən olsa.
Qardaşlıq gözəl şeydir,
Qədrini bilən olsa.

Həyətləri soğanlıq,
Suyu gəlir bulanlıq.
Təzə çıxan çitlərdən.
Yara allam tumanlıq.

Yeznə, yeznə, can yeznə,
Gəl bizə mehman, yeznə.
Köçün dağdan gələndə,
Bir quzu qurban, yeznə.

Yar gül taxıb telinə,
Əlin vurub əlinə.
Qoy sağ olsun qaynata,
Hörmət elər gəlinə.

Yeznə, yeznə, yezdicə,
Şahın-şonqar gözlücə.
Yeznəm arandan gəlir,
Ətəkləri tozluca.

Təbriz mənim zəmimdir,
Dərya üstə gəmimdir.
On tümən ziyanım var,
Min tümən çəm-xəmimdir.

Gəlin var, nəs deyəndir,
Gəlin var, pis deyəndir.
Gəlinə qurban olum,
Oğlumu istəyəndir.

Sular arxa dolandı,
Doldu çarxa, dolandı.
Günüdən qorxan gəlin
Qorxa-qorxa dolandı.

Dayı, dayı, can dayı,
Can sənə qurban dayı.
Anam pilov bişirib,
Gəl bizə mehman, dayı.

Dəyirman üstə çiçək,
Yarpağı ləçək-ləçək.
Qardaş bir qız sevibdi,
Uzunboy, qarabirçək.

Sarımsağım, soğanım,
Yad qızından doğanım.
Candan olub canımı,
İlan kimi boğanım.

Sən mənim ağa qaynım,
Dolan gəl bağa, qaynım.
Qoçum yox, qurbanım yox,
Canım sadağa, qaynım.

Bir quş gəlir Ağdaşdan,
Xəbər verin qardaşdan.
Qardaş bacıdan doysa,
Bacı doymaz qardaşdan.

Aşıq doymaz sözündən,
Qan-yaş tökməz gözündən.
Ər adını çəkməyin,
Gəlin gedər özündən.

Almanı alma, gəlin!
Al yerə salma, gəlin.
Evdə söz-sov çox olar,
Ürəyinə salma, gəlin!

Gəlin, diləkli gəlin,
Ceyran ürəkli gəlin.
Xamır yoğur, çörək yap,
Ay şir biləkli gəlin!

Köynəyin çitdi sənin,
Könlün məsciddi sənin.
Çoxmu dərdə düşübsən,
Rəngin uçubdu sənin.

Yar taxıbdı tanasın,
Yarı gəlsin sanasın.
Anasın sevən oğul
Sevər qayınanasın.

Girdim bağa nar üçün,
Heyva dərdim yar üçün.
Analar qız bəsləmiş
İgid oğlanlar üçün.

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Sonsuza qonaq gəlsə,
Atın tutar qız bağlar.

Yerpənəyi soyarlar,
Al-yaşıla boyarlar.
Çağrılmamış qonağı
Astanadan qovarlar.

Əlində bayda tutar,
Baydanı çayda tutar.
Yığılar qohum-qardaş,
Hərə bir qayda tutar.

Bağban bağdan var istər,
Bağda hər nə var, istər.
Sonsuz baş yerə qoysa,
Yığılarlar varislər.

Bu baxış qıyqacıdır,
Ürəyimi acıdır.
Qardaşın dərdin çəkən
Qardaş deyil, bacıdır.

Dəyirman boş dolanır,
Üstündə quş dolanır.
Qurban olum qardaşa,
Niyə sərxoş dolanır.

## BAĞLAMA. TAPMACA

Məmmədbağır bağında,
Gül bitər budağında.
Yel vurar yelləndirər,
Sırğası qulağında.

Dağdan gəlir dağala,
Qolları budaq, ala.
Səksən səkkiz caynaqlı,
Az qalır adam ala.

Çıxdım qız qalasına,
Ox atdım yuvasına.
Quşlardan hansı quşdu,
Süd verir balasına?

Mən aşiqəm, bir ata,
Bir oğuldu, bir ata.
Səksən qatır, yüz dəvə,
Yüklənibdi bir ata.

Bir quşum var alaca,
Uçar qonar ağaca.
Ağacda bir ev tikər,
Nə qapı qoyar, nə baca.

Aya bax, axtalanıb,
Qapılar taxtalanıb.
Meydana bir at gəlib,
Burnunnan noxtalanıb.

Həşədə, ay həşədə,
Bir quş tutdum meşədə.
Atanın yeddi oğlu,
Hamısı bir peşədə.

Oturmuşdum səkidə,
Ürəyim səksəkədə.
Göydən bir alma düşdü,
Bir qızıl nəlbəkidə.

Balta vurdum çəkilə,
Çəkil yerə tökülə.
Quşlardan hansı quşdu,
Özü dizə çəkilə?

Dağ, təpə dərmə-dərmə,
Xalların dərmə-dərmə.
Yetişməmiş nar gördüm,
Çağırır dərmə, dərmə.

İki şax, iki sinə,
Biri nə, ikisi nə?
Bir ağacda beş alma,
Gün düşüb ikisinə.

O nədi ki, gələn yaz,
Gələn qışdı, gələn yaz.
Qış bir xörək bişirdi,
Yağın tökdü gələn yaz.

Hər qurd ipək sarımaz,
Ayaq tutsa yeriməz.
Min il min ilə qalsa,
Yaxşı, yaman çürüməz.

Aşiqəm, yasəmənsiz,
Gül bitməz yasəmənsiz.
Ərşdə bir mələk ölmüş,
Getməzlər yasə mənsiz.

Bu günləri şənbədi,
Könlümə düşən nədi?
Nə əti var, nə qanı,
Ocaqsız bişən nədi?

Pəsdədi, ha pəsdədi,
Şəki Şirvan üstədi.
Yemişlərdən hansıdı
Çəyirdəyi üstədi?

Həsdədi, ay həsdədi,
Taxtı rəvan üstədi.
Bu yemiş nə yemişdi,
Bir budağı üstədi?

Hatəm Hatəm hətdədi,
Hatəm koxa kəntədi.
Dişi qarnı altında,
Dodaqı dal qatdadı.

Əl-ayağı dəstədi,
Qolları qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çərxi-fələk üstədi.

Həstədi, a həstədi,
Şəki Şirvan üstədi.
Qırağı qızıl kərpic,
Üstü badam üstədi.

Dağlarda qar əridi,
Ayaq tutub yeridi.
Dərə görüb bağırdı,
Dərya görüb kiridi.

Onun adı Pəridi,
Könlümə müştəridi.
Axşam anadan oldu,
Səhər durdu, yeridi.

Dəyirmana dən gəldi,
Qırmızı don tən gəldi.
Toxunmamış çuvalda
Üyünməmiş un gəldi.

Axar suyun tək bəndi,
Tək təhnəsi, tək bəndi.
Bir bağa bağban oldum,
Yüz arxı var, tək bəndi.

Bağrım başı zədəndi,
Zərdəndi, zəbərdəndi.
Yaşıl əkdim, al tökdü,
Görən əsli nədəndi?

Nədəndi ay nədəndi,
Bağrım başı zədəndi.
Yarpağında od yanar,
Ağacı göynədəndi.

Nədəndi ay nədəndi,
Bağrım zədən zədəndi.
Ağacında od yanar,
Yarpağı göy nədəndi.

Nədəndi ay nədəndi,
Dərmə, nazik bədəndi.
Plov üstə məskəni,
Görən rəngi nədəndi?

Hədəndi, ha hədəndi,
Dörd qırağı bədəndi.
Yaşıl vurdum, al çıxdı,
Görəsən bu nədəndi?

Hədəndi ha hədəndi,
Qara bağrım zədəndi.
Bu kola bir od düşüb,
Görün dərdi nədəndi?

Daşdandı, dəmirdəndi,
Xörəyi xəmirdəndi.
Aləmə yemək verər,
Özü doymaz nədəndi.

Aşiq, ayə nişindi,
Oxur ayə nişindi.
Kəlləgöz göyə baxar,
Baxmaz ayə nişin di.

Qızılgül beçə verdi,
Sana, gör neçə verdi?
Yarpaqsız ağac gördüm,
Torpaqsız beçə verdi.

Bu meşə gül meşəli,
Altı tər bənövşəli.
Bir kişinin min oğlu,
Hamısı bir peşəli.

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Əyilir su içməyə,
Böyürür oğlax kimi,

İlim, ilim iynəsi,
İlin xatın düyməsi.
At ocağa, bas qucağa,
Getsin illər xəstəsi.

O tayda duran kişi,
Əlində Quran kişi.
Atama de at alsın,
Nə erkək, nə də dişi.

Aşiq bir qan hesabı,
Axı bir qan hesabı.
Bir söz ki yerdə qala,
O da bir qan hesabı.

Nə dili var, nə ağzı,
Nə tarı var, nə sazı.
Hər yerdən xəbər verər,
Oxuyar xoş avazı.

Əzziyəm qan ayağı,
Kəkliyin qan ayağı.
Aşıq bir şey görübdü,
Üç başı, on ayağı.

Əmimoğlu ustadı,
Əli kəmər üstədi.
Suda körpü salıbdı,
Gəl gör necə ustadı.

Yumru-yumru sarıdı,
Yumru gözü darıdı.
Gəzir bizim bağçada,
Üç həftənin barıdı.

Aşiqəm bir ov aldı,
Səyyadım bir ov aldı.
Yar adım xəbər alsan,
Bir qaf, bir be, bir daldı.

Aşiq busadə qaldı,
Ləbin busadə qaldı.
Altısı yoxa çıxdı,
Biri pusada qaldı.

Ay doğdu, axtalandı,
Doğduqca axtalandı.
Bazara bir nər gəldi,
Yüz yerdən noxtalandı.

Qızılgül pardaxlandı,
Qol atıb çardaxlandı.
Torpaqsız yerdə bitdi,
Yarpaqsız budaqlandı.

Yeri qazdım, qum çıxdı,
Qumdan minarə çıxdı.
Bildirki keçəl oğlan
Bu il çinara çıxdı.

Qazdım, qazdım, qum çıxdı,
Qumdan minarə çıxdı.
Bu gecə ölən oğlan
Sabah bazara çıxdı.

Namazlıyam, namazı,
Almışam dəstəmazı.
Məscidin su, qibləm ət,
Harda qılım namazı?

Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Cümlə cahan sultanı.

Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı.
Anam bir oğlan doğub,
Yerin, göyün sultanı.

Ahanı, ha ahanı,
Gəzər cümlə cahanı.
İstanbuldan su içər,
Təbriz onun məkanı.

Bir quşum var ahanı,
Gəzər cümlə cahanı.
Götürrəm öldürməyə,
Nə əti var, nə canı.

Aşiq, yara dan hanı?
Bayqu yara dan hanı?
Aləmi haqq yaratdı,
Haqqı yaradan hanı?

Buxarı, ha buxarı,
Buxarıdan yuxarı.
Ordan bir oğlan çıxdı,
Çiyni qara çuxalı.

Buxarı, ay buxarı,
Tüstü çıxar yuxarı.
Kənddə bir oğlan gördüm,
Əyni yaşıl çuxalı.

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdü,
Dizi beldən yuxarı.

Əziziyəm əmər hey,
Beldə gümüş kəmər hey.
Göydə bir madyan gördüm,
Yerdə qulun əmər hey.

Ay yel baba, dur gedək,
Madyanını sür gedək.
Bir qapının qıfılın
Min qapıya vur gedək.

Altı daşdı, daş deyil,
Üstü daşdı, daş deyil.
Heyvan kimi otlayır,
Heyvana yoldaş deyil.

Balacayam, sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam.

Bir sehrli fanaram,
Kibritsiz də yanaram.
Nə yerdə yox, nə göydə,
Havadan sallanaram.

Dağdan-dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı,
Daha quşdan bezərəm.

Lələyəm, lələndiyim,
Bələyə bələndiyim.
Əkdim, biçdim, sovurdum
Belimə şələndiyim.

Anam, atam var mənim,
Suda xatam var mənim.
Dörd anadan olmuşam,
On beş atam var mənim.

Aşiq, yaradan öldüm,
Bayqu, yaradan öldüm.
Kamansız oxa gəldim,
Qansız yaradan öldüm.

O üzdə ana gördüm,
Qulaqda tana gördüm.
Səksən oğul, qırx ata,
Yüz əlli ana gördüm.

Dağda dəleyman gördüm,
Suda Süleyman gördüm.
Yatar, göyşər daş gördüm,
Duzsuz bişmiş aş gördüm.

Mən aşiqəm tamam qan,
Oxu hərfi tamam qan.
Üç yüz altmış damarın,
Birisində tamam qan.

Əmirdən ay əmirdən,
Gündü keçən ömürdən.
Yemişlərdən hansıdı,
Özəyi var dəmirdən.

Halalar, hay halalar,
Dağda kəklik balalar.
Nə kiçiyi böyüyər,
Nə irisi balalar.

Əzizim qəssab ağlar,
Sarı don qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar.

Mən aşiqəm buz bağlar,
Əyri çəkər, düz bağlar.
Bu gün bir hikmət gördüm,
Od içində buz bağlar.

Aşıq su deyib ağlar,
Yanar, su deyib ağlar.
Dəryada bir gül bitib,
O da su deyib ağlar.

Aşıq deyər hər aylar,
Hər həftələr, hər aylar.
Dəryada bir gül bitib,
Yandım deyib haraylar.

Yaşıllar, ay yaşıllar,
Divardan boylaşıllar.
Bir həyətdə yeddi qız,
Ər üstə savaşıllar.

Qoz ağacın oyarlar,
Üstünə tel qoyarlar.
Vaxtsız durub ağlasa,
Qulağını burarlar.

Qatar-qatar uçarlar,
Şahin görüb qaçarlar.
Gündüzləri otlayıb,
Axşamları uçarlar.

Qara qoçum yağlanar,
Meşələrdə buğlanar.
O necə qıfıldı ki,
Açarsız da bağlanar.

Salxım-salxım sallanar,
Çox qaldıqda ballanar.
Göydə nərdivan olsa,
Çıxar, ordan sallanar.

Samur kürkünü burar,
Divar dibində durar.
Oxur, elmin bitirər,
Qızıldan bir ev qurar.

Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında sarvan yatar.

Yatanda yumru yatar,
Əlinə dərman qatar.
Kim istəsə tutmağa,
Tikanı ələ batar.

Əzziyəm, üç gül açar,
Üç gülü müşgül açar.
İldə üç yol balalar,
Həftədə üç gül açar.

Bu yol hazara gedər,
Mehdi bazara gedər.
Atası oturmamış,
Oğlu bazara gedər.

Hacılar haca gedər,
Cəhd edər gecə gedər.
Bir yumurta içində
Qırx, əlli cücə gedər.

O tayda durar gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə
Qırxını qırar gedər.

Bağda hər nə var göndər,
Heyva göndər, nar göndər.
Əl dəyməmiş budaqdan
Dərilməmiş bar göndər.

Dağlarda lala gəzər,
Əldə piyala gəzər.
Nə yumurtlar, nə doğar,
Yanınca bala gəzər.

Sürü bir vamda mələr,
Naharda, şamda mələr.
Yaxasız köynək geyən
Bacasız damda mələr.

Əziziyəm ay mələr,
Bulud göydə ay mələr.
Qoç bir quzu görübdü,
Süd deyibən ay mələr.

Göy üzündə ay mələr,
Bulud altdan say mələr.
Burda bir qoç quzum var,
Acıb, salar hay, mələr.

Əzziyəm yolu gözlər,
Dağları dolu gözlər.
Anası qürbətdədi,
Balası yolu gözlər.

Xırda-xırda öldülər,
Qəbirlərə girdilər.
Beş-altı ay su verdim,
Dirçəlibən durdular.

Uzun-uzun dərvişlər,
Gecə bizə gəlmişlər.
O qədər oynamışlar,
Xurd-xəşil olmuşlar.

Xan pişiyim sərhasər,
Çölə çıxma, yel əsər.
Qonaq bu il burdadı,
Gələn il də sərhasər.

Evimə ozan gəlibdir,
Pərgar pozan gəlibdir.
Gündüz olan işləri
Gecə yazan gəlibdir.

Ləbin bir qədəh meydir,
İçən əbədi heydir.
Baba der: mənim dostum
İki mim, bir dal, heydir.

Uçan bir quş kənəkdir,
İşi tamam kələkdir.
Dəyirmana can verər,
Xırmana da gərəkdir.

Dağdan, daşdan qan gələr,
Qıvrılmış ilan gələr.
Qabağında durmayın,
Qudurmuş aslan gələr.

Nənə, bizə yağ gətir,
İnəkləri sağ gətir.
Çalxanmamış nehrədən
Ərinməmiş yağ gətir.

Zülfün ucu gümüşdür,
Sal boynuna ilişdir.
Yemişlərin içində
Yarpaqsız nə yemişdi?

Gündoğandan gün doğur,
Aşiq aşiqi boğur.
Ana on beş yaşında,
Qızları oğlan doğur.

Dəyirmana dən doldu,
Zülf üzünə bənd oldu.
Üç yüz altmış taxta
Bir mismara bənd oldu.

Dərya qırağı düzdü,
Sanasan əlli, yüzdü.
Oğlu şahlıq eləyir,
Anası hələ qızdı.

Bir beləcə mücrünü,
Gördüm onun gücünü.
Yeddi qatar dəvə də
Çəkməz onun gücünü.

Bu yerlərin dağı yox,
Bağçası var, tağı yox.
O nədi ki ağlayır,
Gözlərinin yaşı yox.

Araba gedər, tozu yox,
Suda üzər, izi yox.
Çanaqçıda qışlamış,
Ağzı qara, gözü yox.

## SINAMA. İNAM. YOZUM

Ləyəndə, ay ləyəndə,
Gül boynunu əyəndə.
Yeyilər kal vaxtında,
Yemək olmaz dəyəndə.

Tabaq tabaq içində,
Sübhü sabah içində.
Dayanıb ayaq üstə,
Ətri də var içində.

Sandıq sandıq içində,
Qızıl sandıq içində.
Araza bir od düşdü,
Biz də yandıq içində.

Həvəng həvəng içində,
Həvəng də zəng içində.
Nə yerdədi, nə göydə,
Əsil firəng içində.

Ağ at biyan içində,
Quyruğu qan içində.
Getdim qanı silməyə,
Qaldım biyan içində.

Qutu qutu içində,
Sandıq qutu içində.
Fatmanın ağ yaylığı,
O da qutu içində.

Mən aşiqəm, düz yerdə,
O göydədi, biz yerdə,
O yer olmaz keçməsin,
Salmaz bircə iz yerdə.

Üzərrik dana-dana,
Ocaqdan götür sana.
Nəzəri bəd olanın
Gözləri odda yana.

Əziziyəm ay mədəd,
Ülkər mədəd, ay mədəd.
Dan ulduzu dikləndi,
Ayrılıqdı, ay mədəd.

Heyranam boz börkünə,
Qonubdu toz börkünə.
Yayın, bədnəzər çoxdu,
Dəyməsin göz börkünə.

Yarım yollandı işə,
Yolu düşdü enişə.
Nola bir bulud gələ,
Göydən yerə nəm düşə.

Bu dağı aşmaq olmaz,
Narıncı başmaq olmaz.
Başa gələn gələcək,
Qəzadan qaçmaq olmaz.

Apar bazara məni,
Vermə nəzərə məni.
Aç belindən şalını,
Düşür məzara məni.

Gül səni, tikən səni,
Göz gördü tikən səni.
Heç kimsə yıxmaz aşiq,
Yıxmasa tikən səni.

Aşiqin düzən işi,
Müşküldür düzən işi.
Aləm yığılsa, bilməz
Haqq özü düzən işi.

Göydə ulduz vidadı,
Qardaş boyu cidadı.
Ürəksiz çıxma yola,
Murad verən xudadı.

Dərya bol su olaydı,
Dibi yosun olaydı.
Yarı kama çəkməyə
Məndə ovsun olaydı.

Mən aşiq tel mədarı,
Dağıtdı sel mədarı.
Göydən nur tökülməsə,
Kəsilər el mədarı.

Evciyəzi gəzərəm,
Dörd dövrəsin bəzərəm.
Səni evdə görməsəm,
Qapına daş düzərəm.

Tək gündü, nəsdi, neynim?
Ürəyim əsdi neynim?
Yar ürəyim başını,
Doğradı kəsdi, neynim?

Lələyəm mən bu daşdan,
Bu qayadan, bu daşdan.
Nə kimi var, nə kimsəm,
Yaranmışam bu daşdan.

Aşiqəm aşdan-aşdan,
Sən kirpikdən, mən qaşdan.
Nə atam yox, nə anam,
Yaranmışam ağ daşdan.

Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Balama kəc baxanın
Gözlərini ovasan.

Əliyəm, olan gündən,
Dəryalar dolan gündən.
Ruhum ruhun sevibdir,
Ruhlar xəlq olan gündən.

Getmiş idim suva mən,
Alammadım duva mən.
Sərgərdan bir quş oldum,
Tikəmmədim yuva mən.

Ay qız, adın var sənin,
Meyxoş dadın var sənin.
Hamı həsrətin çəkir,
Yoxsa cadın var sənin?!

Əzizim yaxşı gəlsin,
Yaxşı de, yaxşı gəlsin.
Tutubsan əli falı,
Axırın yaxşı gəlsin.

Üzərriyim çatdasın,
Yaman gözlər partdasın.
Ağrım, bəlam tökülsün,
Dərd üstümdən atdasın.

Əziziyəm sini var,
Qocalıbdı, sini var.
Olmuşam yar dəlisi,
Deyirlər ki, cini var.

Siz a dağlar, tir dağlar,
Sizdə vardır, sir dağlar.
Yarım sizdən keçibdir,
Siz olubsuz pir, dağlar.

Zülf töküb üzə dilbər,
Çıxıbdır düzə dilbər.
Duvaq salın üzünə,
Gəlməsin gözə dilbər.

Aşıq qocalar, gəzər,
Eldə ucalar, gəzər.
Sonsuz öləndən sonra
Ruhu bacalar gəzər.

Su gedər, cəva neylər?
Peyvəstə cəva neylər?
Yaxşı həmdərd aşiqin
Ömrünü cavan eylər.

Əzizim qara neylər?
Ay doğar, qara neylər?
Mən ki nəzər salmışdım,
Bədnəzər yara neylər?

Aşıq özün bildirər,
Deyər, sözün bildirər.
Məni ağladan fələk
Axır bir gün güldürər.

Aşiq gül işi qandır,
Yarın gülüşü qandır.
Dan yeli ziyad əsər,
Sellər gəlişi qandır.

Duman gəlir, çən yayır,
Hər tərəfə tən yayır.
Sən say öz saydığını,
Gör bir fələk nə sayır.

Əzizim yazı budu,
Baharı, yazı budu.
Mən bunu kimdən bilim,
Alnımda yazı budu.

# VƏSFİ-HAL. HAL-ƏHVAL

Gülü tökdüm tabağa,
Qoydum qala sabaha.
Yar məni mehman eylər,
Xonça düzər qabağa.

Sayada bax, sayada,
Torun qurub qayada.
Toruna tərlan düşüb,
Kimsəsi yox oyada.

Dağ başın qar alanda,
Gül dibin xar alanda.
Günüm ah-vayla keçər
Yar yada yar olanda.

Dağda payız olanda,
Sarı sünbül solanda.
Yara nişan göndərin
On beş yaşa dolanda.

Əzizim, arı şanda,
Beçələr arı şanda.
Mələklər şadlıq eylər
İki yar barışanda.

Durma qapı dalında,
Gözüm qaldı xalında.
Gedim deyim anama,
Gəlim qalım yanında.

Gözüm qaldı o qaşda,
O kirpikdə, o qaşda.
Məcnuntək divanəyəm,
Gəzirəm dağda-daşda.

Tovuza bax, tovuza,
Köynəyi qanovuza.
Sevdim, ala bilmədim,
Qaldı gələn payıza.

Toy elə, gəlim toya,
Qurbanam belə boya.
Bu gün gördüyüm yarı
Bir də görəmmi ola?

Sərraf sözdən söz ala,
Sözün gərək düz ala.
Bir nazlı yar görmüşəm,
Buxaq büllur, göz ala.

Əzizim dağda lala,
Oxşur gül üzdə xala.
Dərdi, qəmi azalar,
Kim yetişsə vüsala.

Oğlan eylədi nala,
Əlində var piyala.
Məndən yaxşısın gördü,
Düşdü özgə xəyala.

Xəncəri işlə, yolla,
Üstün gümüşlə, yolla.
Mənə beş alma göndər,
Birini dişlə yolla.

Mən aşiq gül əndama,
Çıxıbdır gülən dama.
Olam bir atlas köynək,
Yaraşam gül əndama.

Ağ alma, qızıl alma,
İrəfə düzül, alma.
Yarım yoldan keçəndə
Cərgədən üzül alma.

Ağ alma, qızıl alma,
Nimçəyə düzül alma.
Bilsəydim yar göndərib,
Saxlardım yüz il alma!

Zülfü tökmə gərdana,
Gərdan düşübdür qana.
Yar dolanıb bağçada,
Gəzir mərdi-mərdana.

Qızım, qızım, qız ana,
Qızı verrəm ozana.
Ozan axça qazana,
Qızım geyə, bəzənə.

Bir don aldım miyana,
Al-yaşıla boyana.
Mən qalmışam bu tayda,
Yar gedibdir o yana.

Təbriz üstü Miyana,
Qızılgülə boyana.
Oxu, bülbülüm, oxu,
Bəlkə yarım oyana.

Əziziyəm bir yana,
Bir alışa, bir yana.
Camalın müştağıyam,
Qoyub getmə bir yana.

Könül vermə alana,
Qoyma könül talana.
Yarla görüşüm qaldı
Sur tütəyin çalana.

Mən aşiq günbatana,
Ay gedir günbatana.
Gözləyirəm yolunu,
Dolan gəl gün batana.

Ay gəlir gün batana,
Gedər ellər yatana.
Əgər məni sevirsən,
Elçi göndər atama.

Corabımın ağına,
Gül vurmuşam bağına.
Əgər məni sevirsən,
Gəl qonşunun bağına.

Mən aşiqəm halına,
Üzdə qoşa xalına.
Lalə, bənövşə yetməz
Yarın gül camalına.

Gün qalxar öz vaxtına,
Gedər çıxar taxtına.
Niyyətin hər nə olsa,
Qismət olar baxtına.

Gün getdi dağ başına,
Yar örtüb ağ başına.
Oğlan şamama istər,
Dolanar tağ başına.

İynə sancdım divara,
Elçi göndərdim yara.
Elçiyə zaval olmaz,
Özüm elçiyəm yara.

Şalını alma qara,
Başına salma qara.
Getmişdim yar sevməyə,
Düşdüm mən qalmaqala.

Əzizim alma qara,
Geyməyə alma qara.
Xəlvətdə bir yar sevdim,
Kim saldı qalmaqala?!

Əziziyəm yar yara,
Qara bağrım yar yara.
O gün bayramın eylər,
Qismət olsa yar yara.

Bir ox atdım şikara,
Şikar düşübdü dara.
Xoş günün varisiyəm,
Dərd-qəm hara, mən hara?

Su gəlir qalxa-qalxa,
Tökülür bizim arxa.
Arzu-kam yetişibdir,
Bildirin toyu xalxa.

Su gəlir, dolur çarxa,
Tökülür bizim arxa.
Burda bir yar sevmişəm,
Qardaşdan qorxa-qorxa.

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Bir mərd oğlan istərəm,
Məni götürə qaça.

Narınca bax, narınca,
Əl vurma saralınca.
Məndə ürək qalmadı
Yar könlünü alınca.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Şama döndü ürəyim
Səndən cavab alınca.

Göz üstə qoyub papaq,
Gəzir eldə keyfi çağ.
Məndən üzün döndərib,
Ürəyimə çəkib dağ.

Ağac başında paraq,
Yarın əlində yaraq.
Gəlsin, açım qəlbimi,
Bu sövdadan qurtaraq.

Başımda sarı sancaq,
Yarı gül, yarı sancaq.
Məni sənə verməzlər,
Gərək mən qaçım ancaq.

Bu dərədən qaz gedə,
Qaqqıldaşa, tez gedə.
Tanrıya rəvadırmı,
Dul kişiyə qız gedə?

Oturmuşdum səkidə,
Ürəyim sək-səkidə.
Yardan üç alma gəldi
Bir qızıl nəlbəkidə.

Mixək əkdim ləyəndə,
Mixək boynun əyəndə.
Bir cüt qurban demişəm,
Əlim əlinə dəyəndə.

Çiçək əkdim ləyəndə,
Çiçək boynun əyəndə.
Mən bir qurban kəsərəm
Əli əlimə dəyəndə.

Qərənfili dərəndə,
Dərib yerə sərəndə.
Yara könlümü verrəm,
Mənə könül verəndə.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Burda bir toy olacaq,
Gələn ayın içində.

Bir oğlan var biçində,
Sarı sünbül içində.
Nola onu görəydim
Bu həftənin içində.

Gülü atdım dənizə,
Batdı çıxmadı üzə.
Nola bizim bağçada,
Yar gələ bir gün bizə.

Yarımın adı Mirzə,
Göndərmişəm Tiflisə.
Sovqatın istəmirəm,
Sağlığı gəlsin bizə.

Qızıl üzük firuzə,
Gedin deyin xoruza.
Bu gecə banlamasın,
Yar gələcəkdir bizə.

Bitibdir dağda lala,
Oxşur gül üzdə xala.
Sidqinən sevən ürək
Axır çatar vüsala.

Dağlar başında lalə,
Əlində var piyalə.
Mən səninəm, ay oğlan,
Düşmə özgə xəyalə.

Yolum düşdü yad elə,
Zülfüm gündə yad elə.
Çuxan sənə yaraşır,
Ya bəzən gəl, ya belə.

Yol düşdü Kəndəbilə,
Tehrana, Kəndəbilə.
Bikamal deyil aşiq,
Əcəli gendə bilə.

Mən aşiq yarımgilə,
Qan qalıb yarım gilə.
Tanrı səbəb salaydı,
Gedəydim yarımgilə.

Tanrı, məni quş eylə,
Qanadım gümüş eylə.
Dar yolda, dar küçədə
Yarı mənə tuş eylə.

Girdim bağa üzümə,
Tikan batdı dizimə.
Əyildim çıxartmağa,
Yar göründü gözümə.

Dağa yağır qar yenə,
Ov ovlayır sar yenə.
Bilmirəm niyə məni
Bəyənməyir yar yenə?

Əziziyəm yar yenə,
Yaralandım, yar, yenə.
Gör nə günə qalmışam,
Məndən qaçır yar yenə.

Bağ salmışam yol üstə,
Meyvəsi var bol üstə.
Gedirəm yar görməyə,
Yağı durub yol üstə.

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Allah, məni öldürmə,
Toyum vardır il üstə.

Lampa üstündə şişə,
Gül üstündə bənövşə.
İlahi, yada salaq,
Bəlkə sevən yar düşə.

Sərin meh, gözəl ayaz,
Hey əsir gözəl ayaz.
Qələminə mən qurban,
Gözəli gözələ yaz.

Əzizim oda salmaz,
O Xoydur, o da Salmas.
Səməndər də mənimtək
Özünü oda salmaz.

Bağda biyan tapılmaz,
Gülə ziyan tapılmaz.
Sonsuzun pis günündə,
Yazıq deyən tapılmaz.

Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz.
Bu mənim sönmüş könlüm,
Yar görməsə açılmaz.

Zülfün qarara yetməz,
Dərdin sinəmdən getməz.
Səni görən gözlərim
Özgəyə nəzər etməz.

Dağdan gəldik ikimiz,
Zərli yorğan yükümüz.
Tanrı mətləbin versin,
Bir görüşək ikimiz.

Qərənfiləm, qələmsiz,
Qərarım gəlmir sənsiz.
Qoynunda qar-buz olsun,
Necə yatırsan mənsiz?!

Bostan əkdim xiyarsız,
Gülün dərmərəm yarsız.
Gecə yuxuda gördüm,
Ayıldım ixtiyarsız.

Gözüm o gələndədi,
Xəncəri belindədi.
Mən ağlaram, o gülər,
İnsaf öz əlindədi.

Göydə ulduz bəllidi.
Gah yüzdü, gah əllidi.
Mən yarımı görmüşəm,
Şəvə qara tellidi.

Ox atdım, ayım gəldi,
Sanadım, sayım gəldi.
Yar göndərən xonçada,
Mənim də payım gəldi.

Dağ başına bar gəldi,
Demə ahü-zar gəldi.
Qardaşı gözləyirdim,
Bir də gördüm yar gəldi.

Alma atdım, nar gəldi,
Kətan köynək dar gəldi.
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi.

Dağ aşdı, Leyli getdi,
Leylinin meyli getdi.
Gözlədi yar gəlmədi,
Küsüb, gileyli getdi.

Yar dağdan aşdı getdi,
Ürəyi daşdı getdi.
Axtardım, soraqladım,
Dedilər, qaşdı getdi.

Burdan Təbrizə kimi,
Qar yağar dizə kimi.
Bir dözmüsən, bir də döz
Gələn payıza kimi.

Sular gəldi Nil kimi,
Qaşlar durub mil kimi.
Hər sabah boyun görsəm,
Qəlbim açar gül kimi.

Sarı qovun dilimi,
Uçurtma bülbülümü.
Gəl qapı daldasına,
Deyim dərdi-dilimi.

Qaş-gözünü süzəni,
Belə inci düzəni,
Yarəb, sən tez sovuşdur
İki həsrət gəzəni.

Öldürər bu dərd məni,
Doğrayar bənd-bənd məni.
Yarım vəfalı olsa,
Axtarar kənd-kənd məni.

Eləmi dərdə məni,
Qul elə mərdə məni.
O gedən yarın qəhri
Salıbdı dərdə məni.

Göy at yallaram səni,
Gümüş nallaram səni.
Məni yara yetirsən,
Məxmər çullaram səni.

Atdı bu bağlar səni,
Od qoyar dağlar səni.
Əğyara həmdəm oldun,
Göz görcək ağlar səni.

Eləmi dağlar səni,
Qar gələr bağlar səni.
Düşmən görər, şad olar,
Dost görüb ağlar səni.

Bu dağların meşəsi,
İylidir bənövşəsi.
Könülsüz gedən qızın
Ağlamaqdır peşəsi.

Bu yerdə yol yarıdı,
Yolçu yolda qarıdı.
Mən sevdiyim çalpapaq
Başımın sərdarıdı.

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Aşıq Yəməndə qaldı,
Bülbül çəməndə qaldı.
Bu dərd məni öldürdü,
Dərmanı səndə qaldı.

Bağçada gülüm yandı,
Süsən, sünbülüm yandı.
Xumar gözlüm, su gətir,
Ağzımda dilim yandı.

Ay qız, ay qız, amandı,
Əlində zəfərandı.
Əhd-peyman eləmişik,
Bu gün vədən tamamdı.

Dolayı gəl, dolayı,
Süpürmüşəm sarayı.
Toyumuza az qalıb,
Gözlərəm təzə ayı.

Araxçının haşımı,
Hara qoyum başımı.
Məni sənə verməzlər,
Tökmə gözün yaşını.

Qızıl üzük miyanı,
Durmaz barmağın qanı.
Bu gün-sabah gələcək
Məhləmizin sultanı.

Bu sarışmaq zamanı,
Ay canımın imanı.
Bircə görmək istərdim
Uzaqdakı cavanı.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Qəm çəkmə, gözəl igid,
Qız sənindir axırı.

Əzizim olma ası,
Keçir bu qəmli yası.
Ağlım, huşum apardı,
Gedən yarın sevdası.

Əlində nağarası,
Dolaşır bağ arası.
Könül sevən gözəlin
Nə ağı, nə qarası.

Kərə yağın tortası,
Qızıl kəmər ortası.
Allah muradın versin
Gələn bazar ertəsi.

Aşıq gələr, yanar hey,
Dərdi canda yanar hey.
Tərlan uçar havadan,
Ovun alıb, enər hey.

Aman fələk, ax fələk!
Çıx bacadan bax, fələk!
Mənə elçi gəlməsə,
Get evini yıx, fələk.

Əzizim qarmı görək,
Dağlarda qarmı görək?
Özü pis oğlan deyil,
Vəfası varmı görək?

Sallandı gəldi Göyçək,
Başında güllü ləçək.
Əlində bir dəstə gül,
Üzü güldən də göyçək.

Tamburun teli nazik,
Qol üstə cift bilərzik.
Yadigara vermişəm
Qırmızı qaşlı üzük.

Bu gün bayram elərik,
Bağda seyran elərik.
Yar bayrama gəlməsə,
Bayramı tərk elərik.

Bağçalarda sarı gül,
Yarı qönçə, yarı gül.
Nişanlın sabah gəlir,
Barı sevin, barı gül.

Ay deyiləm, ulduzam,
Gəlin deyiləm, qızam.
Qapıda duran oğlan,
Gəl yanıma, yalqızam.

Qara atın nalıyam,
Qara qaşın xalıyam.
Çəkmə cəfamı, oğlan,
Mən özgənin malıyam.

Qara atın nalıyam,
Göyçək qızın xalıyam.
Məni bir oğlan sevir,
Çoxdandır ki, halıyam.

Dərdin dərmanı ollam,
Gülün xırmanı ollam.
Sən boyda, sən buxunda
Görsəm, qurbanı ollam,

Kişmiri şalın ollam,
Üzündə xalın ollam.
İlqarın düzgün olsa,
Vəfalı yarın ollam.

Qönçə güləm, bağdanam,
Bənövşəyəm, dağdanam.
Bostançıdan xəbər al,
Desin hansı tağdanam.

Bağa girmişcən varam,
Gülün dərmişcən varam.
Yarı yuxuda gördüm,
Özün görmüşcən varam.

Qara atı bağlaram,
Gül dibində saxlaram.
Özüm deyən olmasa,
Gecə-gündüz ağlaram.

Naçaram ha naçaram,
Bağlı qapı açaram.
Yarım cavan olmasa,
Baş götürüb qaçaram.

Təxt üstündə yatmışam,
Əlimdə şam tutmuşam.
Yadıma yar düşübdür,
Dünyanı unutmuşam.

Ağ donu ağartmışam,
Qolların daraltmışam.
Özüm qarabuğdayı,
Çoxların saraltmışam.

Dağların qaşı mənəm,
Üstünün daşı mənəm.
Məhləmizdə qız çoxdur,
Hamının başı mənəm.

Çay aşağı getmərəm,
Çadramı yellətmərəm.
Xoruzgöz oğlan gərək,
Dul kişiyə getmərəm.

Bənövşəyəm, mən tərəm,
Kol dibində bitərəm.
Gözləyərəm, gəlməsən,
Boynu əyri bitərəm.

Al-yaşıl geyinmişəm,
Dağdan düzə enmişəm.
Qohum-qardaş var olsun,
Yarı mən bəyənmişəm.

Arxalığı biçmişəm,
Üstündə and içmişəm.
Yüz gözəlin içində
Təkcə səni seçmişəm.

Yarım yad oldu mənim,
Ömrüm bad oldu mənim.
Yarım özgənin oldu,
Bədnam ad oldu mənim.

Əzizim mən də yetim,
Sən yetim, mən də yetim.
Hamı arzuya yetdi,
Gün olsun mən də yetim.

Aşıq şirin camalım,
Versin şirin cam, alım.
Qonşuda bir qız sevdim,
Odur şirincə malım.

Talada quzu gördüm,
Bir maral izi gördüm.
Endim bulaq üstünə,
Sevdiyim qızı gördüm.

Aranda quzu gördüm,
Tükü qırmızı gördüm.
Açdım cənnət qapısın,
Sevdiyim qızı gördüm.

Suyun bəndinə qurban,
Yarın fəndinə qurban.
Yar atını yəhərlər,
Sinəbəndinə qurban.

Maraldanam, maraldan,
Düşmüşəm mən qaraldan.
Nə dərdim var, nə qəmim,
Sənsən məni saraldan.

Köynəyi yaşıl oğlan,
Geyin, yaraşır, oğlan.
Bizim bağda dolanma,
Anam dalaşır, oğlan!

Əllərin aldım, oğlan,
Qoynuma saldım, oğlan.
Vədə verdin, gəlmədin,
İntizar qaldım, oğlan.

Ovçu vermədi aman,
Toruna düşdü tərlan.
Yarla peyman bağlayıb,
Qoymuşam yolunda can.

Qızılgülsən, butasan,
Məni salma oda sən.
Mən o güldən deyiləm,
İyləyəsən, atasan.

Ay qız, kimin qızısan?
Almadan qırmızısan.
Atan-anan bəsləmiş,
Bəxtimin ulduzusan.

Eləmi üzə sancan,
Zülfünü üzə sancan.
Yarın vəfalı olsa,
Yolunda üzəsən can.

Narıncan, hay narıncan,
Saxlaram saralıncan.
Aşiqə ölüm xoşdur,
Yara həsrət qalıncan.

Əziziyəm qov məndən,
Çaxmaq səndən, qov məndən.
Yüz ilin ovçusuyam,
Yenə qaçır ov məndən.

Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən.
Bizə də qismət olsun
Heybədəki yemişdən.

Oğlan gəlir enişdən,
Kəmərbəndi gümüşdən.
Yar ilə mərcimiz var,
Mən dodaqdan, o dildən.

Samavarı qurgilən,
Burğusunu burgilən.
Əgər mənim yarımsan,
Gəl qarşımda durgilən.

Əziziyəm bir də mən,
Doldur içim, bir də mən.
Ömür keçdi, gün keçdi,
Cavan olmam bir də mən.

Mixək əkdim mərzə mən,
Bağlamadım dərzə mən.
Pis günlərin əlindən
Kimə yazım ərzə mən?

Dəryada fanaram mən,
Od tutub yanaram mən.
Qaş altdan göz eyləmə,
Arifəm, qanaram mən.

Sayadam, duraram mən,
Boynumu buraram mən.
Harda bir tərlan görsəm,
Ona tor quraram mən.

Qapında inləyim mən,
Sözün de dinləyim mən.
Qoy axsın gözüm yaşı,
Bir az sərinləyim mən.

Sular gəlir lilinən,
Bülbül oynar gülünən.
Bir söz dedim, küsdü yar,
Könlün aldım dilinən.

Qardaş, gəl, köməyimsən,
Arzumsan, diləyimsən.
Başqa gündə gəlməsən,
Bu gün gəl, gərəyimsən.

Mən aşiqəm pəri sən,
Ellərin şahpərisən.
Könlümün bir arzusu,
Dilimin əzbərisən.

Düşübdü meyli, deyin!
Olub gileyli deyin.
Eşqin divanəsiyəm,
Gəzirəm, Leyli, deyin!

Əlində bayda gəlin,
Durubdu çayda gəlin.
Tanrı mətləbin versin
Bu gələn ayda gəlin.

Qara şəvəsaç gəlin,
Dur qapını aç gəlin.
Atan səni verməyir,
Kəhəri min qaç, gəlin.

Aşıq, nədir illətin?
Ürəkdə var niyyətin.
Məni heyran qoyubdur
Şirin sözün, söhbətin.

Çalxa-çalxa, yağ olsun,
İç, damağın çağ olsun.
A qaytanqaş baldızım,
Qoy qardaşın sağ olsun.

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Oğlan, xiffət eyləmə,
Mənim canım sağ olsun.

Əlində hana güldün,
Yan ötdün, yana güldün.
Mən səninçün ağladım,
Sən nədən mənə güldün?

Əzizim dişdə nə var?
Qan durub, dişdə nə var?
Güldün ağlım apardın,
De bu gülüşdə nə var?

Mən aşiq gözümüz var,
Kababa közümüz var.
Biz də gözəl görmüşük,
Bizim də gözümüz var.

Bağda püstə yeri var,
Püstə üstə yeri var.
Bizə gələn qonağın
Gözüm üstə yeri var.

Aşıq gəlir, sazı var,
Qəmzəsi var, nazı var.
Hər baharın bir qışı,
Hər qışın bir yazı var.

Ağacda qarmağın var,
Əldə beş barmağım var.
Yetimlərimdəm ötrü
Sənə yalvarmağım var.

Sözü sözdən alan var,
Zülfün üzə salan var.
Gözəl oğlan, tez böyü,
Gözü yolda qalan var.

Savalanın düzü var,
Üstündə sal buzu var.
Belə ki yar sallanır,
Ürəyində sözü var.

Üzər göldə sonalar,
Sonam gələr, can alar.
Əhd-peyman bağladıq,
Qoy sevinsin analar.

Arı baldan gül ovlar,
Ovçular maral ovlar.
Gözün gözümə dəydi,
Cana saldı yalovlar.

A dağlar, bizim dağlar,
Sizə var sözüm, dağlar.
Qurbanam qara gözlü
Yarıma özüm, dağlar.

Əziziyəm ağ damlar,
Ağ eyvanlar, ağ damlar.
Yar məndən üz döndərsə,
Gözlərimə ağ damlar.

Araz axar, burular,
Suyu daşda durular.
Ürəkdə arzun olsa,
Sənə də toy qurular.

Qardaşlar, hay qardaşlar,
Yağış yağar, qar başlar.
Ölsə bacılar ölsün,
Heç ölməsin qardaşlar.

Dəryada çıraq yanar,
Baxdıqca iraq yanar.
Yar yarına qovuşsa,
Dost gülər, qıraq yanar.

Dəyirman üstü çinar,
Yarpağı dinar-dinar.
Yarım hələ uşaqdır,
Söz demə, qəlbi sınar.

Aşıq əldə saz apar,
İşvə gətir, naz apar.
Qışda adaxlanmısan,
Toyun elə, yaz apar.

Yaşım üzümdən gedər,
Axar gözümdən gedər.
Çəkməyin oğlan adı,
Ağlım özümdən gedər.

İgid minər at, gedər,
At demə, murad gedər.
Yaxşı qızın cehizi
Bəylərə sovqat gedər.

Göydə ulduz şah gedər,
Gah əylənər, gah gedər.
Mən istəyən oğlanın
Qabağında şah gedər.

Sərçələr ala gəzər,
Dalınca bala gəzər.
Çirkin üzün gizlədər,
Gözəl budala gəzər.

Oxun qalxana dəyər,
Atma, qalxana dəyər.
Yar dərdi mənə dəydi,
Görən xalxa nə dəyər.

Ələklər, ay ələklər,
Çırmansın ağ biləklər.
Xəbər getsin dostlara,
Hasil olsun diləklər.

Bizdə olan gözəllər,
Bağ-bağçanı bəzərlər.
Nişan günü süfrəyə
Şirin şərbət düzərlər.

Düzülüb sana dişlər,
Batıbdır qana dişlər.
Elə bil mirvaridir,
Durub yan-yana dişlər.

Yaşıl geyib enişlər,
Saralıb ağ yemişlər.
Sirəm-sirəm düzülüb,
Durub mirvari dişlər.

Qəlbim sənin evindir,
Gəl qəlbimi sevindir.
Səndən yüz-yüz yaram var,
Hərəsi bir telindir.

Əzizim məni dindir,
Xoş xəbər de, sevindir.
Mən ki səni sevirəm,
Varım-yoxum sənindir.

Çay aşağı buz gəlir,
Dəstə-dəstə qız gəlir.
Bir əlində çörək var,
Bir əlində duz gəlir.

Dağ üstə boran gəlir,
Qarları soran gəlir.
Atın dördnala çapır,
Arxamda duran  gəlir.

Ovçu bərədən gəlir,
Dağdan, dərədən gəlir.
Dağda qar yox, bulud yox,
Bu sel haradan gəlir?

Mən aşiqəm gün gəlir,
Ay dolanır, gün gəlir.
Gözlərin aydın olsun,
Nişanlın bu gün gəlir.

Dağlar başı işıqdır,
Gün dağa yaraşıqdır.
Qaynanam məni sevmir,
Oğlu mənə aşıqdır.

İstəkanın qanlıdır,
Toxunma, dərmanlıdır.
Burda bir yar sevmişəm,
Anası şirvanlıdır.

Dur get, xoruz banıdır,
Evimizin yanıdır.
Baxtıma bir yar düşüb,
Behiştin qılmanıdır.

Bu düz yol el yoludur,
Gərdənin tel yoludur.
Başım bulud oynağı,
Gözlərim sel yoludur.

Əzizim yol üstüdür,
Evimiz yol üstüdür.
Bir səhər gəl, bir axşam,
Görən desin dostudur.

Məhlədə bitər söyüd,
Yarpağı gömgöy söyüt.
Kiçikcə bir yar sevdim,
Xudam, sən özün böyüt.

Naşı bilməz sözünü,
Kor eyləyər gözünü.
Ana bala ucundan
Oda yaxar özünü.

Mən aşiq çəndən ötrü,
Dumandan, çəndən ötrü.
Onun burda nəyşi var,
Gəlmişdi səndən ötrü.

## ŞƏNLİK. TOY-DÜYÜN. XEYİR-DUA

Gəmidə var talaşa,
Asta sür, dəyər daşa.
Qohum-qardaş yığılsın,
Gəlin gəlir qardaşa.

Qapımızda cüt qalaq,
Qızın birin biz alaq.
Qardaşına demişik,
Anasına yalvaraq.

Yaylığı verdim sizə,
Oynayanda sal üzə.
Oyna, qaytar yaylığı,
Göndərim qaragözə.

Bulağın başı ilə,
Dibinin daşı ilə.
Gəlin seyrə çıxıbdır
Qohum-qardaşı ilə.

Kəmər bağla belinə,
Şərbət verim əlinə.
Sən gəlinim olanda
Xına qoyum telinə.

Qardaş gəlir enişə,
Yolu dönüb gümüşə,
Qardaşa qız tapmışıq,
Üzdə xalı bənövşə.

Aşiqəm ovum ay qız,
Çaxmağım, qovum ay qız.
Yoldaşıma gəlsənə,
Başına dönüm, ay qız.

Aşıq Salatın yeri,
Sallan, Salatın yeri.
Sənə nişan gəlibdi,
Gəl gey xalatın yeri.

Qızım qızlar sonası,
Var qızıl tomağası.
Qızıma elçi gəlib,
Yeddi oymaq ağası.

Gözəl yaşına gərək,
Sürmə qaşına gərək.
Toy günü tirmə şalı
Örtə başına gərək.

Bu dağda inci mənəm,
Dürr mənəm, inci mənəm.
Sən bu toyda oynasan,
Mən səndən incimənəm.

Bağçadan gül üzəydim,
Tellərimə düzəydim.
Qardaşımın toyunda
Bir doyunca süzəydim.

Baydanın qaymağınnan,
Qablara yaymağınnan.
Qardaşım bir qız sevib
Qarabağ oymağınnan.

Dur ayağa, qız gəlin,
Tellərini düz, gəlin.
Toyçulara, yaxın gəl,
Düş ortaya süz, gəlin.

Ulduz gəlin, ay gəlin,
Olmaz sənə tay, gəlin.
Qardaşının toyudur,
Nazik yuxa yay gəlin.

Gəlin, səlatin gəlin,
Geyib xələtin gəlin.
Çatıb oğlan evinə,
Alıb muradın gəlin.

Mən aşiq xəli bağlar,
Döşənmiş xəli bağlar.
Toy günü yarın belin
Bir cavan əli bağlar.

Bu evlər bizim evlər,
İçində olsun toylar.
Yığılsın qız-gəlinlər,
Oynasın püstə boylar.

Əlində sovça gəlir,
Su dolu dolça gəlir.
Qardaşımın toyuna
Başlarda xonça gəlir.

Dağ aşır, keçi gəlir,
Keçinin üçü gəlir.
Dur çıxaq tamaşaya,
Yarımın köçü gəlir.

Bu gün ayın onudur,
Zərxaradan donudur.
Qurban olum qardaşa,
Bu gün onun toyudur.

Üstündəki aya bax,
Bu evdəki toya bax.
Toyda dostum oynayır,
Halal olsun, boya bax.

## QARĞIŞ

Oturmuşdum dalanda,
Səbir gəldi duranda,
Oğlan, əlin qurusun,
Mənə şillə vuranda.

Gün çəkilib batanda,
Gündüzə şər qatanda.
Ovçu, əlin qurusun,
Marala ox atanda.

O qızı bax, o qıza,
Çəpərdən baxır bizə.
Qızı bizi verməsəz,
Axirət olmaz sizə.

Qarşıda yaman bala,
Dil vurma, yaman bala.
Zabit der: görüm dəysin
Yamana yaman bəla.

Ocağı yaxşı qala,
Odun qoy, yaxşı qala.
Nə olar bu dünyada,
Pis ölə, yaxşı qala.

Ay dönübdür hilala,
Haram düşməz halala.
Namərdin bağçasında
Nə gül bitsin, nə lala.

Bülbül gələ, bağ dola,
Tərlan qona, dağ dola.
Yarıma kəc baxanın
Gözlərinə ağ dola.

Əlimə yaxdım həna,
Sözüm dedim yar qana.
Ömür-gün ki pis keçir,
Dağılsın qoy zamana.

Sevdigim, zülfü qara,
Qaş qara, zülfü qara.
Əgər mənə gəlməsən,
Tapşırram zülfüqara.

Aşıq özün de yara,
Ürək sözün de yara.
Yarı məndən eyləyən,
Düşsün itkin diyara.

Biz hara, bura hara,
Bizi saldılar tora.
Bizi tora salanı
Getsin imansız gora.

Tənəkdə vardı qora,
Bilmədim, düşdüm tora.
Bizi ayrı salanı
Rahat getməsin gora.

Ağ çuxa, qara çuxa,
Yar geyib hara çıxa?
Sənə yaman baxanın
Gözünə yara çıxa.

Qardaşa bax, qardaşa,
Papağın qoyub başa.
Qardaşın düşmənləri
Dönsünlər qara daşa.

Gəz dolan Yəməni də,
Misri də, Yəməni də.
Haqq götürsün aradan,
Pisi də, yamanı da.

Gəlin gedək Başkəndə,
Ayaq götür, aş kəndə.
Necəsən bir ah çəkim,
Yağış yağa daş kəndə.

Gecələr ay keçəndə,
Bulud tay-tay keçəndə.
Mən sənə qarğayaram
Günüm ah-vay keçəndə.

Qalmadı azan yerdə,
Qəbrimi qazan yerdə.
Görüm qələmin sınsın
Mənə ox vuran yerdə.

Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Əli sınsın ovçunun
Səni vurduğu yerdə

Eləmi Kərəm düzə,
Düşübdür Kərəm düzə.
Başçın ölsün, ay durna,
Dağılsın fərən düzə.

Yox aşiq tikə-tikə,
Kəs bağrım tikə-tikə.
Öləndə yar ağlasın
Kəfənim tikə-tikə.

Dağ başı sərin ayaz,
Göy bulud, sərin ayaz.
Elə nə qada gəlsə,
Yağının sərinə yaz.

Araz, Araz, xan Araz,
Sultan Araz, xan Araz!
Çayın, çeşmən qurusun,
Mənim təki yan, Araz![1]

Şirvana gedən gəlməz,
O nazik bədən gəlməz.
Viran qalsın yad ölkə,
Yar gedib, nədən gəlməz!

Qərənfiləm, qələmsiz,
Qərarım gəlmir sənsiz.
Yuxuna od tökülsün,
Necə yatırsan mənsiz!

Bir gecə var, bir gündüz,
Zülfün kürəyə gen düz.
Fələk sənsiz aşiqi
Heç qoymasın bir gündüz.

Quşlar qanad üstədi,
Atma, qanad üstədi.
Əlin qurusun, fələk,
Oğlan murad üstədi.

Bağında gilas dəydi,
Yetişdi, gilas dəydi.
Əlin qurusun, ovçu,
Atdığın nə rast dəydi.

Gəldi bir ay da getdi,
Canım ax-vayda getdi.
Kamandan ox tükəndi,
Əlimdən yay da getdi.

Qərənfil haçabətdi,
Saymadım neçə bətdi.
Düşsən mənim dərdimə,
Görərsən necə dərddi.

Dağda itirdim izi,
Yar qoydu getdi bizi.
Qara duvaqlı qalsın
Yarı öyrədən qızı.

Aşiq yara xəbəri,
Bayqu, yara xəbəri.
Ölsün yaralı canım,
Getsin yara xəbəri.

Dağların var mələri,
Dibində iydələri.
Kasıba qız vermirlər,
Tökülsün didələri.

Qara atın qulağı,
Gözləri şah bulağı.
Eşitdim yar evlənib,
Qara gəlsin duvağı.

Yaz gedib, qış olaydı,
Qaş gözə tuş olaydı.
Düşmən dili tutulsun,
Dost deyən iş olaydı.

Dəryada gəmim qaldı,
Biçmədim zəmim qaldı.
Arzun ürəkdə qalsın,
Necə ki mənim qaldı.

Əzizim yasamalı,
Xalların yasamalı.
Məni yardan edənin
Tökülsün yasa malı.

Əzizim bu meydanı,
Gəzərəm bu meydanı.
Gedənlər geri gəlməz,
Çöl olsun bu meydanı.

Əziziyəm ayranı,
Şana zülfün ayranı.
Dünyadan kam almasın
Səni məndən ayranı.

Aşiqəm öz məzarı,
Şan baldan üzməz arı.
İtirəsən qəbrimi,
Gəzəsən yüz məzarı.

Mən aşiqəm acarı,
Yuyulmamış acarı.
Hər kim yara pis desə,
Dilin vursun ac arı.

Qızıl iynənin sapı,
Görünür bizim qapı.
Yarı yardan eyləyən
Dilənsin qapı-qapı.

Getmə, qal yan, qur ax-vay,
Rəqib ölsün, vuraq vay.
Əzrail canım alsın,
Yardan olsam qıraq, vay.

Mən aşiq dilim haray!
Yeməyə dilim haray!
Nə dedim yara dəydi?
Qurusun dilim haray!

Bağda meyvə dəysin, qoy,
Dəyib boynun əysin, qoy.
Canımın canı çıxsın,
Cəzasıdı, çəksin qoy.

Aman fələk, dad fələk,
Heç olmadım şad fələk.
İçirdiyin şərbətdən
Özün də bir dad, fələk.

Dağ başında ağ qaram,
Bağçalarda mən baram.
Günüm ah-vayla keçsə,
Təkcə sənə qarğaram.

Mən hamayıl deyiləm,
Ağlı zayıl deyiləm.
Qoy ölsün ölməlilər,
Sənə qayıl deyiləm.

Qaynar qazanım mənim,
Oynar ozanım mənim.
Düşsün qələmin əldən,
Yazı yazanım mənim.

Güneydən günə düşdüm,
Bağlı dügünə düşdüm.
Fələk, evin yıxılsın,
Sən deyən günə düşdüm.

Dağların lalasından,
El yatmaz nalasından.
Bizə ayrılıq salan
Görsün öz balasından.

Qaşların qarasından,
Öpəydim arasından.
Məni yardan ayıran
Ayrılsın balasından.

Gülün dər ək ucunan,
Qəlyanın tək ucunan.
Namərdə quş olubsan,
Bəlalar çək ucunan.

Dərd gələr gülə sardan,
Köç gedər Güləzardan.
Xarın ölsün, ay bülbül,
Qurtarsın gül azardan.

İlqarın oldu yalan,
Könlümü etmə talan.
Ayrılsın, ayrı düşsün
Bizə ayrılıq salan!

Eləmi pərdə salan,
Üzünə pərdə salan.
Görüm bir də gülməsin
Məni bu dərdə salan.

Dağlar, necə dağlarsan?
Qardan kəmər bağlarsan.
Qoy ölsün igid dostun,
Bax gör necə ağlarsan.

Mixək əkdim dəsinən,
Saxladım həvəsinən.
Məni səndən edənin
Günü keçsin yasınan.

Əziziyəm, yasa mən,
Dara zülfün, Yasəmən.
İstəkli ərin ölsün,
Gəlim sizə yasa mən.

Saleh, min de, ya səmən,
Süsən, sünbül, yasəmən.
Qoy ölən rəqib olsun,
Gündə gedim yasa mən.

Pəncərəsən, şişəsən,
Sivriləsən, düşəsən.
Sevgili yarın ölsün,
Əldən-ələ düşəsən.

Pəncərədə şüşəsən,
Sürüşəsən, düşəsən.
Yarı məndən eyləyən,
Yaman dərdə düşəsən.

Bu yollar işləməsin,
Bəzirgan qışlamasın.
Mən sevdim, sən apardın,
Tanrı bağışlamasın.

Saçların dara gəlsin,
Qəlbində yara gəlsin.
Məni məyus edənin
Ağ günü qara gəlsin!

Yar dönsün yara, gəlsin,
Dərdimə çara gəlsin.
Məni pis günə qoyan,
Bayramın qara gəlsin!

Əzizim hara gəlsin?
Zülfünü dara, gəlsin!
Sənsiz bayram eyləsəm,
Bayramım qara gəlsin!

Boz atın boylamasın,
Çək başın, oynamasın.
Gedirsən gecədən get,
Ürəyim oynamasın.

Əlin həna tutmasın,
Batsın qana, tutmasın.
Mənsiz ev tikən yerdə
Evin bina tutmasın.

Ovçular ov tutmasın,
Ovlasın, ov tutmasın.
Səni vuran ovçunun
Qolları sov tutmasın.

Ağ alman ağlı qalsın,
Dəsmalda bağlı qalsın.
İstəkli yarın ölsün,
Ürəyin dağlı qalsın.

Ağ çuxan ağlı qalsın,
Boğçada bağlı qalsın.
Mənnən üz döndərən yar,
Üzün duvaqlı qalsın.

Mən aşiq o da qansın,
Dedim dərdim inansın.
Məni yardan eyləyən,
Od tutub oda yansın.

Pərvanə oda yansın,
Mən gedim, o dayansın.
O ki məni yandırdı,
Od tutsun, o da yansın.

Pərvanə oda yansın,
Od tutsun, oda yansın.
Mən yandım yar ucundan,
Eşitsin, o da yansın.

Əzizim o dayansın,
Alışsın oda yansın.
Fələk bir dərd göndərib,
Mən yandım, o da yansın.

Bu dağlar oda yansın,
Od tutub, oda yansın.
Yara xəbər yetirin,
Mən yandım, o da yansın.

Köynəyin mili yansın,
Od alsın, gülü yansın.
Səni məndən edənin
Ağzında dili yansın.

Mən aşiq tar çalınsın,
Oxunsun, tar çalınsın.
Məni səndən edənin
Balası parçalansın.

Kəkliyim daşa dolsun,
Əl vurma, yaşa dolsun.
Məni səndən ayıran
Nə gülsün, nə şad olsun.

Getdigin Məşəd olsun,
Yolları güşad olsun.
Səni məndən ayıran
Nə gülsün, nə şad olsun.

Ağ at, yalın qurusun,
Xəttü xalın qurusun.
Apardın, gətirmədin,
Görüm nalın qurusun.

Dağları gəzən ölsün,
Daşların düzən ölsün.
Mən səndən əl üzmədim,
Əlimi üzən ölsün.

Yaylığı tikən ölsün,
Qırağın bükən ölsün.
Mən sənə göz tikmişəm,
Sənə göz tikən ölsün.

Büzmə köynək büzülsün,
İncə belin üzülsün.
Siftə gedən gecəsi
Yardan əlin üzülsün.

Fələyin çarxı dönsün,
Su gəlsin çarxı dönsün.
Başdan suyu bulansın,
Ayaqda çarxı dönsün.

Bülbülsüz bağda nə var?
Bu qəmgin çağda nə var?
Kül başına, a Məcnun,
Leylisiz dağda nə var?

Qırmızıdır kürkün, yar,
Çıx küçəyə, gör kim var?
Əhdinə düz çıxmadın,
Yerə girsin börkün, yar.

Dolan gəl belə, bağlar,
Kəməndin belə bağlar.
Bülbül ötməz, gül bitməz,
Çöl olsun belə bağlar.

Kür qırağı dərdovlar,
Dərdli gəzər, dərd ovlar.
Namərdi şahmar çalsın,
Keçsin cana zərdovlar.

Bu dağlar aza dağlar,
Qul olan azad ağlar.
Sənin də mənim kimi
Maralın aza, dağlar.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Nə gələn var, nə gedən,
Dönəsən daşa, dağlar.

Ağ saçlı pəri, dağlar,
Heç baxmır bəri, dağlar.
Yadlara məskən oldun,
Bir utan, əri, dağlar.

Su gəldi, eşil, dağlar,
Ömürdür beş il, dağlar.
Səndə düşmən izi var,
Göz-göz ol, deşil, dağlar.

Dumandır başın, dağlar,
Bilinmir yaşın, dağlar,
Qənimin haqqdan olsun,
Sökülsün daşın, dağlar.

Cara gedən yardılar,
Qızılgülü dərdilər.
Qırılsın belə yarı,
Yarı yada verdilər.

Əzizim qar, qış olar,
Qar yağar, qar, qış olar.
Sonsuzun işi gücü,
Fələyə qarğış olar.

Aşıq deyər, saz anlar,
Bülbül gülü yaz anlar.
Əldən qələmin düşsün,
Ölüm əmri yazanlar.

Su gələr, asta gedər,
Dolanar dosta gedər.
Viran qalsın bu yeri,
Sağ gələn xəstə gedər.

Qərənfil haça bətdir,
Sana gör neçə bətdir?
Düş bir mən düşən dərdə,
Görərsən necə dərddir.

Əlində hul oynadar,
Cibində pul oynadar,
Kül başına ay cavan,
Qız durub, dul oynadar.

Ay doğdu, düzə düşdü,
Qara zülf yüzə düşdü.
Fələyin çərxi dönsün,
Ayrılıq bizə düşdü.

Mən aşiqəm gün üzü,
Duman tutdu gün üzü.
Düşmən bir dərdə düşsün,
Heç görməsin gün üzü.

Şirvanın ay yaz gülü,
Açıbdır bəyaz gülü.
Gözün çıxsın, a bağman,
Vurubdur ayaz gülü.

Görmədi ozan günü,
İlqarı pozan günü.
Falçı, tasın sınaydı
Bəxtimi yozan günü.

# AĞI. OXŞAMA. SIZILTI. İNİLTİ

Araba bax, araba,
Qoyun vurar qoraba.
Allah bir iş işlədi,
Evim oldu xaraba.

Əziziyəm mərd ada,
Üstünə gəldim dada.
Özün öldün, tərk oldun,
Adın qaldı dünyada.

Aşıq ay, günü burda,
Dolan, say günü burda.
Qəbrinə çəpər ollam,
Qallam yay günü burda.

Əzizim göz almaya,
Dönübdü göz almaya.
Ərsəmiş nər öldürdün,
Qanlısan, gözəl maya.

Ana, məni az ağla!
Qışı dayan, yaz ağla!
Mənim bu dərdlərimi
Bir xəzələ yaz, ağla.

Əzizim yaman bəla,
Ağırdır yaman bəla.
Rəvadır yaxşı ölə,
Yerində yaman qala?!

Bağçada bar qalana,
Bağban saxlar alana.
Bir yazığın gəlirmi
Mən biçarə anana?

Mən aşiq bağça nana,
Bağ nana, bağça nana.
Həsrət qalan gözlərim,
Doyunca bax canana!

Mən aşiq oxusana,
Dərs alıb oxusana.
Sən bir gözəl maraldın,
Kim vurdu oxu sana.

Eləmi qarasına,
Qaşların qarasına.
Dur, anan qurban olsun
Ürəyin yarasına.

Çıxdım dağlar başına,
Yazı yazdım daşına.
Gələn-gedən oxusun,
Nələr gəldi başıma.

Bir atım var zil qara,
Göndər getsin İlqara.
Ömrün cavan çağında
Əcəb geydim zil qara.

Yayıldı gün bağlara,
Şeh düşdü yarpaqlara.
Heyf sənin bu canın
Qarışdı torpaqlara.

İrəfə düzdüm kasa,
Əlimə aldım hasa.
Öldün, düşmən sevindi,
Yığıldı, gəldi yasa.

Balam vay gunu düzdə,
Nalam ay, günü düzdə.
Qəbrinə çəpər olub,
Qalam yay günü düzdə.

Əzizim xəli yerdə,
Gül, bənövşəli yerdə.
Yar kimsəsiz can verdi,
Qaldı döşəli yerdə.

Xoruz ban verən yerdə,
Yaram qan verən yerdə.
Ana gəlsin yetişsin,
Oğul can verən yerdə.

Əzizim tikə-tikə,
Doğrandım tikə-tikə.
Anan saçını yolur
Kəfənin tikə-tikə.

Mələ ceyranım, mələ,
Balanı vermə ələ.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

Bulağın başı ilə,
Dibinin daşı ilə.
Sənə bir toy tutaram
Gözümün yaşı ilə.

Aşıq gəlir hay ilə,
Bulud gəzir ay ilə.
Baş qoyum dizin üstə,
Can verim ah-vay ilə.

Dağların lalasiylə,
Əldə piyaləsiylə.
Burda bir gəlin ölüb,
Yanının balasiylə.

Eləmi tikan gülə,
Sarmaşıb tikan gülə.
Fələk də göz tikibmiş,
Mən gözüm tikən gülə.

Fələyin qəhri mənə,
Heç gəlməz rəhmi mənə.
Aləmə şərbət verdi,
İçirtdi zəhri mənə.

Arazın gəmisinə,
Su salım zəmisinə.
Heç igidin balası
Qalmasın əmisinə.

Yükü yığdım düzünə,
Pərdə çəkdim üzünə.
Tanrı mənə pay verdi,
Genə verdim özünə.

Əziziyəm sis günə,
Pərdə tutub sis günə.
Özün öldün, qurtardın,
Məni qoydun pis günə!

Lay-lay de, dolan, ölməz,
Hər rəngi solan ölməz.
Sonsuzluq yaman şeydi,
Balası olan bilməz.

Aşıq gülmənəm sənsiz,
Deyib-gülmənəm sənsiz.
Dağ başında ov mələr,
Elə bil mənəm sənsiz.

Əziziyəm sarı qız,
Sarı köynək, sarı qız.
Aç belinin qurşağın,
Cənazəmi sarı, qız.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarvansız.
Aləmə dərman dedim,
Balam öldü dərmansız.

Mən aşiqəm yanar suz,
Ya heyvasuz, ya narsuz.
Ahım dağlara düşdü,
Qaçın ellər, yanarsuz.

Mənə fələk eylədi,
Oxum lələk eylədi.
Girdi güllü bağıma,
Ələk-vələk eylədi.

Quşlar qanad üstədi,
Atma, qanad üstədi.
Əlin qurusun, fələk,
Oğlum murad üstədi.

Aşiq ellər yeridi,
Şana tellər yeridi.
Qaysaqlanmış yarama
Təzə millər yeridi.

Bu bağlar olmaseydi,
Saralıb solmaseydi.
Mənə yas nə yaraşır,
Yar qəfil ölməseydi.

Bənövşə çiçəkləndi,
Yarpağı ləçəkləndi.
Yatdığı yalan oldu,
Ölümü gerçəkləndi.

Dan ulduzu dikləndi,
Karvan yola yükləndi.
Sinəm badamca közü,
El vurdu körükləndi.

Mən aşiq halıq verdi,
Hay verdi, halıq verdi.
Mən səni gizləmişdim,
Əzrayıl salıq verdi.

Mən aşiq çəkim dərdi,
Doğruyum, töküm dərdi.
Nə anam var, nə bacım,
Kiminnən çəkim dərdi?

Əzizim gəştə getdi,
Xəncər gümüşdə getdi.
Arxam, ümidim vardı,
O da döyüşdə getdi.

Əziziyəm can getdi,
Yaralandım, qan getdi.
Qız boynun büküb ağlar,
Namurad oğlan getdi.

Əziziyəm bar getdi,
Bağban getdi, bar getdi.
Etibarsız dünyadan
Etibarlı yar getdi.

Bahar gəldi, qar getdi,
Bağban getdi, bar getdi.
Məni pis günə qoydu,
Nakam öldü, yar getdi.

Ay nədən güldü, getdi?
Gecəni böldü, getdi.
Düşmən aman vermədi,
Cavanlar öldü, getdi.

Əzizim fənər keçdi,
Bu dağda fənər keçdi.
Əzrail sinən üstə,
Qəlbindən nələr keçdi?

Əlәnibdir ələyi,
Çirmənib ağ biləyi.
Xəbər olsun düşmənə,
Hasil olub diləyi.

Əziziyəm ov dili,
Ov danışar ov dili.
Yarımı ovlayıblar,
Öyrənmişəm ov dili.

Əzizim hey dərdimi,
Bu gələn Heydərdimi?
Kaş anam sağ olaydı,
Çəkəydi hey dərdimi.

Əzizim sal yerimi,
Kür axdı, sal yerimi?
Xəstənə bir rəhm eylə,
Ölürəm, sal yerimi.

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin deyin anama,
Tutsun mənim yasımı.

Bir ev tikdim dəyirmi,
Pəncərəsi iyirmi.
Ölüb hara gedirsən,
Bu yurd sənin deyilmi?

Yola tökmə tikəni,
Yol götürməz tikəni.
Yıxma anan evini,
Yoxdur daha tikəni.

Gəzdirdi çayda məni,
Yordu bu qayda məni.
Öldün, canın qurtardı,
Qoydun ah-vayda məni.

Apar bazara məni,
Vermə nəzərə məni.
Aç belindən şalını,
Düşür məzara məni.

Verdi nəzərə məni,
Saldı azara məni.
Aç belindən qurşağı,
Salla məzara məni.

Bağında yasəməni,
Laləni, yasəməni.
İstərdim yasdan çıxam,
Yar saldı yasa məni.

Əzizim, yasəməni,
Yar gəzər yasəməni.
Ölməyin yəqin oldu,
Batırdın yasə məni.

Dərd-qəmlə oydun məni,
Taladın, soydun məni.
Sən öldün, borcdan çıxdın,
Pis günə qoydun məni.

Gəlmişəm görüm səni,
Yıxmışam, hörüm səni,
Nə qapın var, nə bacan,
Bəs hardan görüm səni?

Mən aşiq düzlər səni,
Çağırır qızlar səni.
Aldı bağrına basdı
Yovşanlı düzlər səni.

Mən aşiq qala yeri,
Bürc yeri, qala yeri.
Yüz canı yanan olsa,
Verməz bir ana yeri.

Dağ döşü tala yeri,
Bürc yeri, qala yeri.
Bundan pis gün olarmı?
Yar ölə, qala yeri.

Görünür azan yeri,
Qəbrini qazan yeri.
Kor ollam, bir də görsəm,
Bala, sən gəzən yeri.

Eləmi düşən yeri,
Atlanıb düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

Əzizim bu gün səsi,
Gəlməyir bu gün səsi.
Fərhad ölüb bu dağda,
Gəlmir külüngün səsi.

Araza saldım teşti,
Cingildəmədi, keşdi.
Anama xəbər getsin,
Ağ günü qara keşdi.

Mən aşiq lala dağı,
Bürüyüb lala dağı.
Cəmi yara sağalar,
Sağalmaz bala dağı.

Bu dağlar tala dağı,
Bürüyüb lala dağı.
Hər dağ olsa çəkilər,
Çəkilməz bala dağı.

Əzizim vurma dağı,
Lələyə vurma dağı.
Ağlama, bacı Zeynəb,
Sinəmə vurma dağı.

Tez dolan Qaradağı,
Tapşır gəl, sara, dağı.
Öldürdülər igidi,
Çəkdilər yara dağı.

Aşıqda qiyam dağı,
Dügündə qiyam dağı.
Bir maral itirmişəm,
Onun dağıyam, dağı.

Mən aşiqəm aş dağı,
Dolan gəl, bir aş dağı.
Sağalsa hər bir yara,
Sağalmaz qardaş dağı.

Bu dağlar qaralıbdı,
Yağıbdı, qar alıbdı.
Bu qaranlıq meşədə,
Bir budaq saralıbdı.

Aşıq harada qaldı?
Getdi, harada qaldı?
Vaxtsız öldün, ay oğul,
Anan harada qaldı.

Yetim yuxuda qaldı,
Yatdı yuxuda qaldı.
Öldü yetim anası,
Bir aman xuda qaldı.

Əzizim, ovda qaldı,
Gözlərim ovda qaldı.
Mən səndən ayrılandan
Başımda sovda qaldı.

Ümidim yaza qaldı,
Göy sular qaza qaldı.
Qismətində bu imiş,
Xələtin taza qaldı.

Aman amana qaldı,
Halım yamana qaldı.
Bala, səni görməyim
Axır zamana qaldı.

Ovçu bərədə qaldı,
Peykan yarada qaldı.
Ana, özünü yetir,
Balan harada qaldı.

Sözüm sözündə qaldı,
Gözüm gözündə qaldı.
Əcəl aman vermədi,
Arzum gözümdə qaldı.

Əzizim binə qaldı,
El köçdü, binə qaldı.
Vəfalı yarı görmək
Qiyamət günə qaldı.

Bostan əkili qaldı,
Nə tağ, nə gülü qaldı.
Belə hara gedirsən,
Yetim tökülü qaldı.

Əzizim dağlı qaldı,
Yar qəlbi dağlı qaldı.
Zəncir, buxov görmədi,
Qollarım bağlı qaldı.

Ağ çuxa ağlı qaldı,
Boğçada bağlı qaldı.
Əziz nişanlım öldü,
Ürəyim dağlı qaldı.

Bağçada lalam qaldı,
Dərmədim, lalam qaldı.
Öldün, dərddən qurtardın,
Mənə də nalam qaldı.

Mən öldüm anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kam aldım,
Nə də nişanam qaldı.

Dağlarda Qasım qaldı,
Hayladım, səsim qaldı.
Oğluma toy etmədim,
Ürəyimdə sim qaldı.

Dağ üstünü qar aldı,
Gunum dərddən qaraldı.
Kilidlənməyən qapım
Kilidsiz bağlı qaldı.

Nə budaqdı, nə daldı,
Nə qovğadı, nə qaldı.
Öldün, canın qurtardı,
Mən yazığa nə qaldı?

Dağlarda nə calaldı,
Ovçular macal aldı.
Bir gözüm yar yolunda,
Bir gözüm əcəl aldı.

Dərdə məni bu saldı,
Uzun ömrüm qısaldı.
Qan ağlayan gözlərim
Viran bağa su saldı.

Görükən Qarağandı,
Mən dedim yara, qandı.
İgidim oxlanıbdı,
Ürəklər qara qandı.

Əziziyəm yüz qandı,
Əlli qandı, yüz qandı.
Qız, nişanlın ölübdü,
Zülf pərişan, üz qandı.

Səməndin oynağandı,
Sür getsin, oynağandı.
Səni vuran ovçunun
Əlləri, oy, nə qandı.

Görükən Qarağandı,
Əzgildi, qarağandı.
Maralı oxluyublar,
Tökülən qara qandı.

Əzizim, ağda yandı,
Şamama tağda yandı.
Özümü dağa verdim,
Alışdı, dağ da yandı.

Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mən səni ağlayanda
El səsimə oyandı.

Ay doğdu, laxtalandı,
Doğduqca laxtalandı.
Yarıma xəbər verin,
Məzarım taxtalandı.

Qızılgül axçalandı,
Dərmədim axçalandı.
Sənə kimlər qarğıdı,
Paltarın boxçalandı.

Qızılgül axçalandı,
Gülü tabaxçalandı.
Can verəndə gəlmədin,
Qəbrim də mıxçalandı.

Göydən bir ulduz axdı,
Axdı getdi, qonaxdı.
Ana bala ucundan
Canını oda yaxdı.

At məni aldı qaşdı,
Sümüklərim çalxaşdı.
Anama xəbər verin,
Mənzilim uzaxlaşdı.

Bağımda var gavalı,
Başım olub havalı.
Əzrail ova çıxdı,
Mənə vurdu zavalı.

Bağban bəslər gül alı,
Yarpaq yaşıl, gul alı.
Fələyin qaydasıdı,
Açılmamış gül alı.

Qamış tapdım yazılı,
Dörd bir yanı qazılı.
Çıxdım əcəl köşkünə,
Gördüm qəbrim qazılı.

Maralın gözü qanlı,
Topuğu dizi qanlı.
Balamı mənə verin,
Tutaram sizi qanlı.

Bağçanın var badamı,
Dadlıdır yar badamı.
İgidə el ağlasın,
Desinlər var adamı.

İstəməz yad adamı,
Əridər dad adamı.
Bala yandıran kimi
Yandırmaz od adamı.

Bu yerdə bağ olarmı?
Salxımı ağ olarmı?
Belə dərdi olanın
Anası sağ olarmı?

Əziziyəm axarmı?
Sular dağdan axarmı?
Kor oldu xan gözlərim,
Sənsiz bir də baxarmı?

At aldın, al yorğanı,
Yollara sal yorğanı.
Gələn əcəl təridi,
Üstümdən al yorğanı.

Bülbül hanı, gül hanı?
Bülbül gülün mehmanı.
Gəldim səni görməyə,
Bəs ağzında dil hanı?

Bağında gülün hanı?
Üstə bülbülün hanı?
Yaş töküb ağlayırsan,
Söz qoşan dilin hanı?

Bülbül gül barabarı,
Ceyran çöl barabarı.
Burda bir oğlan ölüb,
Bütün el barabarı.

Aşığın öz məzarı,
Şan baldan üzməz arı.
Gər itirsən qəbrimi,
Gəzərsən yüz məzarı.

Ağacda püstə sarı,
Dolan gəl dosta sarı.
Saçların kəfən eylə,
Cənazəm üstə sarı.

Aşıq ellər ayrısı,
Şana tellər ayrısı.
Bir gününə dözmədim,
Oldum illər ayrısı.

Əzzim üzüm ağacı,
Üzüm, düzüm ağacı.
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

Qardaş dedi qardaşı,
Qarlı dağdan qar daşı.
Bacı nə yaman ağlar,
Yoxsa ölüb qardaşı?

Əziziyəm gül ey vay,
Bülbül ey vay, gül ey vay.
Bir bağa bağban oldum,
Heç dərmədim gül, ey vay.

Mən əzziyəm gül ey vay,
Bülbülüm vay, gülüm vay.
Bağına bağban oldum,
Heç dərmədim gülüm, vay!

Canımı aldı fələk,
Mən getdim, qaldı fələk.
Bağda bir bar yetirdim,
Onu da saldı fələk.

Bu dərdi qanam gərək,
Odlara yanam gərək.
Yad ağlar, üzdən ağlar,
Ağlasın anam gərək.

Qazan daşdı, kəfin al,
Qaynadıqca kəfin al.
Bağçada bülbül ölüb,
Get güllərdən kəfən al.

Bağçada gül, bağda gül,
Bağda danış, bağda gül.
Öldürdülər bülbülü,
Al qan oldu bağda gül.

Dağ döşündə sarı gül,
Yarı qönçə, yarı gül.
Tez açıldın, tez soldun,
Açmayaydın barı, gül.

Mən aşiqəm oyan, gül,
Bu yan bağça, o yan gül.
Rəngin nədən saraldı,
Məni məğmun qoyma gül.

Qanadsız bir quşam, mən,
Dağlara qonmuşam, mən.
Xəstəydim xəbərsizdin,
İndi ki ölmüşəm mən.

Dağın suyun içdim, gəl,
Dağda yandım, bişdim, gəl.
Əzrail ova çıxdı,
İlk ovuna düşdüm, gəl.

Aman-aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Bir də səni görməyim,
Axır zaman oldu, gəl.

Qardaş gəl, ay qardaş gəl,
Qarlı dağları aş, gəl.
Bacın dərdə dözmədi,
Sən də gözündə yaş gəl.

Əziziyəm üstə gəl,
Qoy qəbrimin üstə gəl.
Aç başından şalını,
Cənazəmin üstə sal.

Mən aşiq güldən allam,
Gülü bülbüldən allam.
Bağda bir bülbül ölüb,
Hayıfın güldən allam.

Dərdin çoxdur, döz, anam,
Ürəyi köz-köz anam.
Qohum-qardaş dayansın,
Qoy ağlasın öz anam.

Yaslıyam, baş bağlaram,
Yuyaram, yaş bağlaram.
Tay-tuşunu görəndə
Bağrıma daş bağlaram.

Getdi gülüm, ağlaram,
Oldü zülüm, ağlaram.
Əsdi vədə küləyi,
Tökdü gülüm, ağlaram.

Xəstəyəm, yan üstəyəm,
Yaram var, qan üstəyəm.
Gəl bir qol-boyun olaq,
Ölürəm, can üstəyəm.

Dağların qarı mənəm,
Gün yoxdur, ərimənəm.
Qəbrimi dayaz qazın,
Cavanam, çürümənəm.

Arazın başı mənəm,
Torpağı, daşı mənəm.
Qəribə ağlayanın
Gözünün yaşı mənəm.

Ömür mənəm, baxt mənəm,
Dərdli desən, bax, mənəm.
Səndən sonra dünyaya
Bir də dönüb baxmanam.

Dərdi daşa deyərəm,
Coşa-coşa deyərəm.
İki əzizim ölüb,
Qoşa-qoşa deyərəm.

Mən aşiq gecələrəm,
Gündüzü gecələrəm.
Sən öldün, nakam getdin,
Mən sənsiz necelərəm.

Elədimi vay dərdim,
Vay dərmanım, vay dərdim.
Xalq gül əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

Azalmaz mənim dərdim,
Saz olmaz mənim dərdim.
Meşələr qələm olsa,
Yazılmaz mənim dərdim.

Keçməyir sözüm, neylim?
Bu dərdə dözüm, neylim?
Ah çəksəm aləm yanar,
Çəkməsəm özüm neylim?

Çiynimdə çuxa mənim,
Şal mənim, çuxa mənim.
Səni ölmüş görüncə
Gözlərim çıxa mənim.

Dağlar dağımdı mənim,
Qəm ovlağımdı mənim.
Dindirmə, qan ağlaram,
Yaman çağımdı mənim.

Qapıda durma, yetim,
Boynunu burma, yetim.
Kirpiyini ox edib,
Canıma vurma, yetim.

Qapının yanı yetim,
Sözümün canı yetim.
Qarın doyannan sonra
Deyərlər hanı yetim.

Yatmış idim, oyandım,
Dərdə, qəmə boyandım.
Daş olsam əriyərdim,
Torpaq idim dayandım.

Durma gəl, talan canım,
Odlara yanan canım.
Bala deyib yaş tökür
Balasız qalan canım.

Əzizim qara baxtım,
Açılmaz qara baxtım.
Ölübdü Əkbər oğlum,
Yatıbdı qara baxtım.

Mən aşiq sazlı gördüm,
Hökmüm yazılı gördüm.
Əcəl gəldi, mən qaçdım,
Qəbrim qazılı gördüm.

Əzizim biçin gördüm,
Yol ötdüm, biçin gördüm.
Mən səndən ayrılmazdım,
Fələyin gücün gördüm.

Çıxdım, yazılar gördüm,
Nə tamarzılar gördüm.
Anasınnan ayrılmış
Körpə quzular gördüm.

Sənə yaralı qurban,
Bağrı qaralı qurban.
Sənin təzə yarana
Köhnə yaralı qurban.

Kababa közü qurban,
Kəsirlər quzu qurban.
Özgədən qurban olmaz,
Öz dədən qızı qurban.

Əziziyəm dağdağan,
Dağda bitər dağdağan.
Ovçu vurub balasın,
Göl-göl olub dağda qan.

Mən öldüm ağlamaqdan,
Qəlbimi dağlamaqdan.
Bağda yarpaq qalmadı,
Yarama bağlamaqdan.

Yaralandım yanımdan,
Quşlar doymaz qanımdan.
Sən novcavan öləndə
Mən də keçdim canımdan.

Bağların divarından,
Şaxta gəlir qarından.
Təzə meyvə yetirdim,
Yemədim nübarından.

Qaşların qarasından,
Qoy öpüm arasından.
Gec tapıb, tez ayrıldım
Yarımın balasından.

Məni vurdu boz ilan,
Gözüm doldu toz ilən.
Mənim kimi varmı heç
Bostanı göy pozulan.

Mən aşiq bağlamaqnan,
Qan durmaz bağlamaqnan.
Oğul dağı ağırdı,
Sağalmaz ağlamaqnan.

Yaralandım yanımnan,
Quşlar doymaz qanımnan.
Bir bəlaya düşdüm ki,
Bezar oldum canımnan.

Dağlar, necə dağlarsan?
Qardan kəmər bağlarsan.
Qoy ölsün əziz balan,
Bax gör necə ağlarsan.

Kərgədənəm, kərgədən,
Yoxdur məni öyrədən.
Ovçu bir ov ovladı,
O da bizim cərgədən.

Su götürdüm hövüzdən,
Suyu çıxıbdı dizdən.
Fələk bircə balanı
Zorla ayırdı bizdən.

Mən ölürəm  çiçəkdən,
Üzüm örtün milçəkdən.
Yad gələr, ağı söylər,
Anam ağlar gerçəkdən.

Mən aşiq iti beldən,
Yer qorxar iti beldən.
Qoy məni yar ağlasın,
Desinlər itib eldən.

Bağa girdim əzəldən,
Dəstə tutdum xəzəldən.
Gülümü iyləməmiş,
Fələk aldı tez əldən.

Mən aşiq mina gərdən,
Mina boy, mina gərdən.
Torpaq altdan sal qoyun,
Qorxuram sına gərdən.

Bir quş gəlir Kərgərdən,
Kətan köynək, ağ gərdən.
Özün öldün, qurtardın,
Məni qoydun sərgərdən.

Kür üstündə Kəsəmən,
Baş sallayıb yasəmən.
Nə anam var, nə bacım,
Səsim qatam səsə mən.

Fələyə dərd verdim mən,
Nə dərd verdi yedim mən.
Aldı əldən yarımı,
Kimə ərzə gedim mən?

Bağçaları əkən mən,
Barın dərib tökən mən.
Balamı öldürdülər,
Nə bədbəxtəm, təkəm mən.

Mən aşiq, yasəmənnən,
Köynəyi yasəmənnən.
Qonşuda bir mərd ölüb,
Gəl gedək yasə mənnən.

Araz axar lilinən,
Bülbül oynar gülünən.
Səni necə ağlayım,
Bu qurumuş dilinən.

Bulağın başına sən,
Dibinin daşına sən.
Düyün qoydun, dağ çəkdin
Ürəyim başına sən.

Göy üzündə pərdəsən,
Qəfil düşdün dərdə sən.
Sən ki bir od-alovdun,
Necə yatdın yerdə sən?

Sən məni dindirmisən,
Qəm atın mindirmisən.
Yıxıb atam evini,
Belimi sındırmısan.

Yar göründü dağ üstən,
Yol keçirdi bağ üstən.
Fələyin qaydasıdı,
Çəkər dağı dağ üstən.

Yol gedirdim, oldu tən,
Kim var bu yoldan ötən.
Görəsən bu dünyada
Varmı murada yetən?

Sonam, səsəmi gəldin?
Dabanbasamı gəldin?
Sağlığımda gəlmədin,
Öldüm, yasamı gəldin?

Zülfünü dara gəlsin,
Dost-aşna hara gəlsin?
Sənsiz xoş gün keçirsəm,
Xoş günüm qara gəlsin.

Bağa bar alan gəlsin,
Heyva-nar alan gəlsin.
Çıxsınlar, çağırsınlar,
Miras mal alan gəlsin.

Qoyunu qoyun gəlsin,
Dərisin soyun, gəlsin.
Ay yığılan camaat,
Balamı qoyun gəlsin.

Elədimi yar getsin,
Təbib, yaram yar getsin.
Əcəl gəlsə, can getsə,
Yar üstünə yar getsin.

Anama deyin, ağlasın,
Başına qara bağlasın.
Gəldim əcəl qoymadı,
Nişanəmi saxlasın.

Məni görən ağlasın,
Torun hörən ağlasın,
Əzəl görən pis görüb,
İndi görən ağlasın.

Ov gəlsin, ov almasın,
Çaxmağı qov almasın.
Səni vuran ovçunun
Tərlanı ov almasın.

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

Sinnini günə qoyun,
Kölgədən günə qoyun.
Evin yiyəsi ölüb,
Gəlin bir binə qoyun.

Sənin o ala börkün,
Başıma bəla börkün.
Sana kim qarğamışdı,
Boş qala belə börkün.

Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribin vay xəbərin
Anasına yetirin.

Əzizim hay mənimçün,
Dəryalar çay mənimçün.
Mən ölsəm, sənə qurban,
Sən öldün, vay mənimçün.

Əziziyəm, yara var,
Yaram üstə yara var.
Paralanmış sinəmdə
Əl dəyməmiş hara var?

Dağların siri də var,
Ölən var, diri də var.
Demə dərdli bir mənəm,
Sənintək biri də var.

Ay keçir, ilə nə var,
Can yanır, dilə nə var.
Çox da bülbül yas tutub,
Bu yasdan gülə nə var?

Bağçada mərzimiz var,
Gəlmişik, ərzimiz var.
Bizə də macal verin,
Ürəkdə dərdimiz var.

Dağıstanın dağı var,
Çıxma yola, yağı var.
Dindirmə, qan ağlaram,
Məndə qardaş dağı var.

Göy üzündə bir ay var,
Bir ulduz var, bir ay var.
Bu günlərə qaldığım,
Uzaq deyil bir ay var.

Əynimdə zərxaram var,
Ürəyimdə yaram var.
Aç bağrımın başını,
Gör yanmamış haram var?

Ya məhrəm var, ya xam var,
Sal duvağın, baxan var.
Fələk əli dəyməmiş,
De, bir hansı yaxam var?

Altımda həsirim var,
Salıbsan, həsirim var.
Hara qoyub gedirsən,
Bir bölük yesirim var.

Əzizim laçın ağlar,
Soraqlar laçın ağlar.
Balası ölən ana
Çəngələr saçın, ağlar.

Dağ başında qala qar,
Ərimәyib hələ qar.
Gəl, aç bağrım başını,
Gör yanmamış hara var?

Daş zindanda daş qalar,
Su axar, yer yaş qalar.
Oğlu ölən ananın
Gözlərində yaş qalar.

Əziziyəm analar,
Mərd adını analar.
İgid oğul öləndə
Neyləyərlər analar,

Göydən gedən sonalar,
Bir-birinə yan alar.
Nalə çəkər, saç yolar
Oğlu ölmüş analar.

Karvan gələr, tay salar,
El-obaya say salar.
Qaya dağdan uçanda
Dağa-daşa hay salar.

Alçalar, ay alçalar,
Yaşıl çalar, al çalar.
Qəbrimi gizli qazın,
Düşmən görər, əl çalar.

Ağacda var alçalar,
Şaxın əyər alçalar.
Gizlin apar mafamı,
Namərd görər, əl çalar.

Əziziyəm çil ovlar,
Çil kəkliklər, çil ovlar.
Əcəl gəlsə qaçsan da,
Axır bir gün cilovlar.

Mən aşiq qara bağlar,
Bağlanıb qara bağlar.
Bülbül ölənnən sonra
Qızılgül qara bağlar.

Gül açmaz qara bağlar,
Göy bağlar, qara bağlar.
Balası ölən ana
Başına qara bağlar.

Bu bağlar, xara bağlar,
Döşənmiş xara bağlar.
Üstümdə yar ağlasın,
Yad ağlar, xarab ağlar.

Əzizim qəmə bağlar,
Belinə qəmə bağlar.
Ölübdür qoca bağban,
Batıbdır qəmə bağlar.

Buxarı qurum bağlar,
Od yanar, qurum bağlar.
Oğlu ölən analar
Obaşdan durur ağlar.

Əzizinəm, ya dağlar!
Mərdə kömək, ya dağlar!
Burda bir igid ölüb,
Qohum ağlar, yad ağlar.

Ay dağlar, cana dağlar,
Batıbsız qana, dağlar.
İgid getdi, gəlmədi,
Alışıb yana dağlar.

Bu dağlar, qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Sizdə oğul itirdim,
Dönəsiz daşa, dağlar!

Əzizim məzə dağlar,
Gülləri bəzə, dağlar.
Köhnə yaram üstündən
Çəkildi təzə dağlar.

Tənha qalasız, dağlar,
Gülsüz, lalasız dağlar.
Sizdə gəzən köçübdü,
Siz hələ varsız, dağlar.

Bağçasız, barsız dağlar,
Heyvasız, narsız dağlar.
Sizdə gəzən göçübdür,
Siz hələ varsız, dağlar?

Bu dağlar qanlı dağlar,
Göy geyib qanlı dağlar.
İgidin pis gününə,
Gəlib qanlı da ağlar.

Bu dağlar, yalın dağlar,
Dərd-qəmə dalın, dağlar.
Sizdə mərd basdırmışam,
Keşikdə qalın, dağlar.

Bu dağlar maçın dağlar,
Üstündə laçın, dağlar.
Oğlu ölən ananın
Dərdi var, qaçın, dağlar.

A dağlar, kəhər dağlar,
Üstünüz yəhər dağlar.
Anaların dərdinə,
Dözün birtəhər, dağlar.

Əziziyəm tur dağlar,
Sənə yağsın nur dağlar.
Gəlmişdim xəstə görəm,
Xəstə köçüb, yurd ağlar.

Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölüb,
Göy kişnər, bulud ağlar.

Dörd yanı böldü, dağlar,
Üstünüz göldü, dağlar.
Sizə ümid bağlayan
Bir oğlum öldü, dağlar.

Dəryada mahnı ağlar,
Əldə sürahı ağlar.
Mənim zülmümü görsə,
Dərd çəkər, ahu ağlar.

Burda bir naşı ağlar,
Sinəmin başı ağlar.
Eldə bir qərib ölüb,
Ocağı, daşı ağlar.

Burda bir göyçək ağlar,
Gələr ağbirçək ağlar.
Yad ağlar, yalan ağlar,
Öz anam gerçək ağlar.

Əzizim nazik ağlar,
Geyməyə nazik ağlar.
Qoy mənə yar ağlasın,
Yar ağlar. nazik ağlar.

Tufan qopar, el ağlar,
Çaylar daşar, sel ağlar.
Qəriblikdə ölənin
Yasın tutar, el ağlar.

Mən aşiq, gözəl ağlar,
Gözlərin gözəl ağlar.
Xəbər getsə anama,
Gör necə gözəl ağlar.

Əzizim, gözəl ağlar,
Gözəli gözəl ağlar.
Məni apar anama,
O məni gözəl ağlar.

Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Oğlu ölən analar
Sərgərdan gəzər, ağlar.

Bağça-bağda gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Oğlu ölən analar
Başa tökər kül, ağlar.

Əziziyəm, sim ağlar,
Saz inildər, sim ağlar.
Sən öldün, mən ağladım,
Mən ölsəm, bəs kim ağlar?

Bağ saldım, bağım ağlar,
Bostanım, tağım ağlar.
Sağsam, özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

Dilimdə sözüm ağlar,
Yaş tökər gözüm ağlar.
Ayrılıq çətin şeydir,
Mən necə dözüm, ağlar?

Əziziyəm qan ağlar,
Qan qaralar, qan ağlar.
Mən ölüm, yar bilməsin,
Gecə-gündüz qan ağlar.

Ağlayan başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Oğlu ölən analar
Durar obaşdan ağlar.

Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Bel batmaz, külüng kəsməz,
Qəbrimi qazan ağlar.

Bu dağda ozan ağlar,
Dərd-qəmin yazan ağlar.
Qürbətdə can verənin
Qəbrini qazan ağlar.

Mən aşiq o yan ağlar,
Maralı soyan ağlar.
Yar dərdindən öləni
Məzara qoyan ağlar

Yuvada laçın ağlar,
Görən bəs neçin ağlar?
Sən yadıma düşəndə
Başımda saçım ağlar.

Analar yanar, ağlar,
Gününü sanar, ağlar.
Donər göy göyərçinə,
Yollara qonar, ağlar.

Şəftəli dəyər, ağlar,
Budağı əyər, ağlar.
Dövran qəm, güzəran qəm,
Qəm qəmə dəyər, ağlar.

Göz üstündə qaş ağlar,
Bulud gələr, yaş ağlar.
Bir evdə sonsuz olsa,
Ocaq yanar, daş ağlar.

Əziziyəm haraylar,
Hər həftələr, hər aylar.
Baş yastıqda, göz yolda,
Dilim dostu haraylar.

Buxarı qurum olar,
Od yanar qurum olar.
Oğlu ölən anaya
Çox yaman zulum olar.

Apardılar, qoydular,
Ağladılar, doydular.
Ağca sinən üstünə
Ağır sallar qoydular.

Qardaşlar, ha qardaşlar,
Yağış yağar, qar başlar.
Cənazəm əyri gedər,
Yapışmasa qardaşlar

Əzizim yüz il yanar,
Yüz həftə, yüz il yanar.
Sənin də oğlun ölsə,
Ürəyin yüz il yanar.

Köynək yüstə mil yanar,
Ürək yanar, dil yanar.
Oğlun itirən ana
Dərd çəkər, yüz il yanar.

Əzizim məni tapar,
Yad gələr məni tapar.
Hardan bir bəla gəlsə,
Dolanar məni tapar.

Evdə bir ana yatar,
Ürəyi yana yatar.
Bura bir igid gəlib,
Boyanıb qana, yatar.

Qapıda şana yatar,
Yan düşüb yana yatar.
Burda bir oğlan ölüb,
Boyanıb qana, yatar.

O dağ bu dağa baxar,
Arasınnan çay axar.
Çıxsın mənim gözlərim,
Sənsiz dünyaya baxar.

Qəlyanı çəkənə ver,
Doldurub çəkənə ver.
Oğul dərdi ağırdı,
Apar get, çəkənə ver.

Bülbülə qonça gedər,
Bir əldə dolça gedər.
Toysuz ölən cavana
Bəzəkli xonça gedər.

Əzizim qonça gedər,
Gül açmaz, qonça gedər.
Mafanın qabağında,
Əllərdə xonça gedər.

Çayda balıq yan gedər,
Açma yaram, qan gedər.
Yüz min təbib neyləsin,
Əcəl gələr, can gedər.

Gül budağın gül əyər,
Yel əsdikcə tel əyər.
Oğul ölmək göz töksə,
Qardaş ölmək bel əyər.

Əzizim belin bükər,
Kəman tək belin bükər.
Cavan oğul ölümü
Ananın belin bükər.

Səhərdən əsən yellər,
Kəndirim kəsən yellər.
Mənim ölüm xəbərim
Anama desin yellər!

Gün gedər, Şamda mələr,
Urumda, Şamda mələr.
Yaxasız köynək geyən
Bacasız damda mələr.

Araz aşanda mələr,
Kür qovuşanda mələr.
Anasından balalar
Ayrı düşəndə mələr.

Bağda btiən kələmlər,
Suyun verər hərəmlər.
Oğlu ölən analar
Uzun çəkməz, vərəmlər.

Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.
Sənsiz bir ah çəkərəm,
Ahımdan dağ-daş mələr.

Gecələr, ha gecələr,
Oxur dərsin, hecələr.
Mən anamsız dözərəm,
Anam mənsiz necə elər?

Söz desən acı, neylər?
Baxsan qıyqacı, neylər?
Bir evdə qardaş ölsə,
Qardaşsız bacı neylər?

Mən aşiq göyəm yerlər,
Göyərmiş göyəm yerlər.
Mənə nişana qaldı
Ayağın dəyən yerlər.

Aşiq elli deyirlər,
Durna telli deyirlər.
Burda bir oğlan ölüb,
Bizim elli deyirlər.

Bu yoldan gələr geçər,
Ahular mələr, keçər.
Oğulsuz anaların
Qəlbindən nələr keçər?

Dağlara sərin düşər,
Kölgəsi dərin düşər.
Hər vaxt layla deyəndə
Yadıma Pərim düşər.

Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrim yol üstə qazın,
Anamın yolu düşər.

Əzizim lalə nədir?
Əldə piyalə nədir?
Eşitsəydin səsimi,
Bilərdin nalə nədir?

Gəldiyin yas yeridir,
Gəl əyləş, yas yeridir.
Aç ürəyim başını,
Tamam şikəst yeridir.

Lələ şah lələsidir,
Əcəl can tələsidir.
Lələnin qəbri üstə
Gözəl şah gələsidir.

Dağları qar alıbdır,
Yağıbdır, qar alıbdır.
Qalın meşə içində
Bir budaq saralıbdır.

Eyvanımız tağlıdır,
Yol-iz bütün bağlıdır.
Oğlu ölən anayam,
Sinəm oğul dağlıdır.

Köynəyin alasıdır,
Geyməsən alasıdır.
Qoy ağlasın bacılar,
Qardaşın balasıdır.

Gedim, hara yaxşıdır?
Çəksə dara yaxşıdır.
Düşmən ağ geyinəndə
Mənə qara yaxşıdır.

Əzizim yan durubdur,
Sal gəlib yan durubdur.
Burda bir cavan ölüb,
Aləmi yandırıbdır.

Əzizim yaman olur,
Ayrılıq yaman olur.
Cavan oğul ölümü,
Siz bilin, yaman olur.

Dağlara qar düşübdür,
Gör nə yaman düşübdür.
Qəbrimi ellər qazıb,
Necə də dar düşübdür?

Qardaş mənim gülümdür,
Gülümdür, bülbülümdür.
Bacı qardaşa qurban,
Qardaş ölsə, zülümdür.

Karvan yola düzülür,
Qara gözlər süzülür.
Necə mən ağlamayım?
Əlim yardan üzülür.

Yanan bir gülüm oldu,
Ağlar bülbülüm oldu.
Ana oğul itirdi,
Nə böyük zülüm oldu.

Gəmi gəldi, yan oldu,
Gecə keçdi, dan oldu.
Sevgilim vaxtsız öldü,
Ürəyim al qan oldu.

Kamanın əyən oldu,
Donunu geyən oldu.
Dost deyən yalan oldu,
Düşmənlər deyən oldu.

Şamama tağda durdu,
Gül açdı, tağda durdu.
Cəfa çəkdim, gül əkdim,
Onu da şaxta vurdu!

Əzizim, səksən oxu,
Səksən yaz, səksən oxu.
Yüz ağlayan bir yana,
Üstümdə sən tək oxu.

Atıbsan səksən oxu,
Sinəmdən çək sən oxu.
Qoy el-oba ağlasın,
Ağı de, tək sən oxu!

Qara gözlər süzüldü,
Əlim yardan üzüldü.
Ağca sinən üstə yar,
Ağır sallar üstədi.

Göydə duman tüstüdü,
Qəbrim yolun üstüdü.
Bir axşam gəl, bir sabah,
Görən desin dostudu.

Başımdan saçaq düşdü,
Bilmədim haçaq düşdü.
Tanrı bir dərdə saldı,
Həkimim qaçaq düşdü.

Dədəm öyü yas öyü,
Dədəm tikdi yas öyü.
Qardaş-qardaş deməkdən,
Oldum ocax kösöyü.

İtirmişəm sözümü,
Ölürəm, bas gözümü.
Əzrail, bir aman ver,
Yara deyim sözümü.

Əzizim belə günü,
Düşmənin belə günü.
Öləydi anan, oğul,
Görməydi belə günü.

Enişdə enənə bax,
Dolayı dönənə bax!
Muradına çatmayıb,
Çırağı sönənə bax!

Bir at mindim, başı yox,
Bir çay keçdim, daşı yox.
Burda bir qərib ölüb,
Qohumu, qardaşı yox.

Dağ döşündə naşı yox,
Ətəyində daşı yox.
Burda bir bacı ölüb,
Yanında qardaşı yox.

Mən aşiq üzümüm yox,
Bağım var, üzümüm yox.
Sən ki belə tez getdin,
Firqətə dözümüm yox.

Əziziyəm ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş mən özüm öləydim,
Deməyəydim, vay qardaş.

Şamaxı bazar imiş,
Oxuyan yazar imiş.
Gəldi gülüm soldurdu,
Nə yaman azar imiş.

## SAYA

Qoyun baxar dağlara,
Seltək axar dağlara.
Arandan dönən sürü
Yayda çıxar dağlara.

Gözəl keçsin halınız,
Artsın qaramalınız.
Avanınız yox olsun,
Tox gəlsin çobanınız.

Saya gəldi, gördünüz,
Salam verdi, aldınız.
Alnı təpəl quzunu
Sayaçıya verdiniz.

Qoyunun yüzü gəldi,
Dolandı düzü, gəldi.
Çobanın qucağında
Bir əkiz quzu gəldi.

Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında
Bir ala keçi gəldi.

Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim
Onu sağan gəlini.

Dağları, dərələri,
Daşları, bərələri.
Oturub qoyun sağın,
Bol olsun kərələri.

Nənəm, o xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi.

Nənəm, a qatar keçi,
Qayada yatar keçi.
Qışı soyuq gələndə
Balanı atar keçi.

Qızlara cehiz ağı,
Çobana çarıq bağı,
Qarılar tutar yağı,
Gəlin yeyər qaymağı.

Nənəm, qoyunun ağı,
Dolanıb gəldi dağı.
Qırpar qaraqiyağı,
İçər sərin bulağı.

Nənəm, qoyunun ağı,
Dolandı gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

Ellərin xan çobanı,
Sürünün yan çobanı.
Qoyun yuxuya qalsa,
Oyadar ban çobanı.

Qoyun gəzir aranı,
Görür qışı, boranı.
Yanında bir çoban var,
Döşündə var nişanı.

Əzizim bahar barı,
Şirindir bahar barı.
Kəsmə əmlik quzunu,
Qoy gəlsin bahar, barı.

Nənəm, qoyun qarası,
Qırxar, olar narazı.
Yaz günü dələməsi,
Qış günün qovurması.

Altı bulaq içərəm,
Üstü zəmi biçərəm.
Bir şişəyin yolunda
Candan-başdan keçərəm.

Açdım, yazılar gördüm,
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə
Çoxlu quzular gördüm.

Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban.
Sürünü yaxşı qoru,
Üzün ağ olsun, çoban.

Saya-saya sayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığı mayadan.

Örüşdən qoyun gəlsin,
Dərisin soyun, gəlsin.
Əmliyi sizin olsun,
Anasın qoyun gəlsin.

Nənəm, boz-ala qoyun,
Gəlib cəzana qoyun.
Yeyər sənin ucundan,
Gedə qız ala qoyun.

Nənəm, qarala qoyun,
Bənzər marala qoyun.
Çoban yununu qırxıb,
Basar xarala, qoyun.

Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə,
Çölə çıxammaz qoyun.

Nənəm, a təkcə qoyun,
Yunu var göycə, qoyun.
Yeyən sənin ucundan
Sallanar bəycə, qoyun.

Dağları endi qoyun,
Dolandı bəndi qoyun.
Ağartını bol eylə,
Sevindir kəndi, qoyun.

Nənəm, a dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən
Toxuyar xəli, qoyun.

Nənəm, yad alı qoyun,
Qanlı-qadalı qoyun.
Yeyən sənin ucundan
Böyük ad alı, qoyun.

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

Nənəm, a xallı qoyun,
Məməsi ballı qoyun;
Sürü dağdan enəndə
Tuturuq yallı, qoyun.

Nənəm, a sarı qoyun,
Ayaqla qarı qoyun;
Qapımda bol eləsin,
Nəslini Tarı, qoyun.

Nənəm, a qızıl qoyun,
Yollara düzül, qoyun;
Kəsilməsin damazlıq,
Ömr elə yüz il, qoyun.

Nənəm, a şişək qoyun,
Yunu bir döşək qoyun;
Bulamanı tez yetir,
Qırıldı uşaq, qoyun.

Nənəm, a gəlin qoyun,
Gətirər yelin qoyun;
Arxacda səni sağar
Bir gözəl gəlin, qoyun.

Sürünün gözü qoyun,
Dolan gəl düzü, qoyun;
İldə bir əkiz gətir,
Sevindir bizi, qoyun.

Nənəm, a ağbaş qoyun,
Qarlı dağlar aş qoyun;
Yağından plov olar,
Quyruğundan aş, qoyun.

Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun;
Çoban səndən küsübdü,
Südü ver barış, qoyun.

Kərəsini qoyunun,
Kürəsini qoyunun.
Ac olanda gəzərik,
Dövrəsini qoyunun.

Qoyun gəlir, yol olsun,
Yolun sağı sol olsun.
Yaxşı otar sürünü,
Südü, yağı bol olsun.

Toğlu kəssən, ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən
Boz qurda qismət olar.

Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər, dağlarda otlar,
Gələr, evləri bəzər.

Ağ qoyun aya bənzər,
Dağ aşar, çaya bənzər.
Qoyunlu evlər gördüm,
Qurulmuş yaya bənzər.

Ağ qoyun aya bənzər,
Dağ aşar, çaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

Qoyun gələr, naz gələr,
Südü nədən az gələr?
Ağartısı bol olsa,
Elin günü saz gələr.

Xırda-xırda çəpişlər,
Otların başın dişlər.
Gedər yaylağı gəzər,
Gələr aranda qışlar.

Buynuzuyla yer eşər,
Alnın vurar, döyüşər.
Gəzər dağlar döşündə,
Yeyər-yeyər, gərnəşər.

Ağ qoyun gələr düşər,
Dağlardan enər düşər.
Qabağında qoç təkə,
Dalınnan mələr düşər.

Saya yaxşı sayadır,
Yeri-yurdu qayadır.
Onun gözəl sözləri
Yatanları oyadır.

Əbrəş sürünün gözü,
Dolandı dağı, düzü.
Bər-bəzəkli xurcunda
Gəldi bir əmlik quzu.

# HOLAVAR

Qara kəlim aranda,
Çıxar gün qızaranda.
Xodaq murada çatır,
Kəlindən bar alanda.

Qaşqa kəlim boz, ala,
Tarlaya saldım yola.
Tay öküzlə iş aşmaz,
Öküz gərək cüt ola.

Dağ döşündə yatana,
Gün gedər ay batana.
Qara kəlim qarğıyar
Kotan macı tutana.

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə.
Tənbəl yatan öküzün
Quşlar qonar üstünə.

Qara kəl gedər işə,
Qorxum var bağrı bişə.
Nola bir bulud gələ,
Yağış yağa, nəm düşə.

Öküzlər qoşa getdi,
İşlədi, coşa getdi.
Kotan macı qırıldı,
Zəhmətim boşa getdi.

Kotanın xodaqları,
Partlayıb dodaqları.
Qarğayın, kotan sınsın,
Dincəlsin xodaqları.

Öküz qıyar canını,
Bilməz qamçı sanını.
Qayış çəkən qaşqa kəl
İş üstündə tanını.

Gözlə xoruz banını,
Kəllər işdə tanını.
Gütə getməyən öküz
Yerişindən tanını.

Qara kəl, ilim barı,
De dərdin, bilim barı.
Məni mağmın eyləmə,
Açılsın dilim, barı.

Qara kəlim, gündə mən,
Kölgədə sən, gündə mən.
Sən yat qaya dibində,
Qoy qaralım gündə mən.

Dağların enişi var,
Diki var, enişi var.
Gütə gedən öküzün
Özünün yerişi var.

Axşamlar, ay axşamlar,
Şamlar yanar axşamlar.
El-ulus evdə yatar,
Xodək harda axşamlar.

Qara kəl asta gedər,
Dolanar, dosta gedər.
Ay qaranlıq gecədə,
Hastabahasta gedər.

Bicə-bicə əkizlər,
Xodaq yerdə nə gizlər?
Qara kəl yorulanda
Dartar çəkər öküzlər.

Qara kəlim naz eylər,
Quyruq bular, toz eylər.
Ay qaranlıq gecədə
Kotanı pərvaz eylər.

Qara kəlim san gedir,
Öküzlərdən yan gedir.
Gecə-gündüz işləyir,
Dırnağından qan gedir.

Dost dostdan üzdən incir,
Bir acı sözdən incir.
Yükü ağır olanda
Öküz öküzdən incir.

Qurd sürüdən pay salır,
Çoban dağa hay salır.
Öküz ax-vay deməkdən
Boyunduruq vay salır.

Hola dedim, düşdü qac,
Göydə oynadı qırmanc.
Öküzlər ota getdi,
Qara kəlim qaldı ac.

# XOYRAT

Nədən yana,
Xalların nədən yana.
Yaxşı dost yaman gündə
Çəkilir nədən yana.

Qarsa yaz,
Bura gündü, Qars ayaz.
Qələm, qurbanın olum,
Qismətimi Qarsa yaz.

Oyanmadı,
Yatır yar, oyanmadı.
Qalandıq bir ocağa,
Mən yandım, o yanmadı.

Ay azaldı,
Göy üzün ayaz aldı.
Getdi, kömək qalmadı,
Arxamız ay azaldı.

Qar qalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

Qurd ağzı,
Qurd ulaşı, qurd ağzı.
Saya ağla dolunca
Dəydi ona qurd ağzı.

Kəs aranı,
Doldur ver kəsəranı.
Olursan vəfalı ol,
Olmursan, kəs aranı.

Qurud aşı,
Yeməyə qurud aşı.
İnsanın könlü olsa,
Göyərdər quru daşı.

Gəncə daşı,
Kür daşı, Gəncə daşı.
Qonşun bədövlət olsa,
Yıx evin gencə daşı.

Ozan oldum,
Obalar gəzən oldum.
Nə öldüm, nə qurtardım,
Hər dərdə dözən oldum.

Tutun, düşsün,
Batmanın bütün düşsün.
Qərib gəldi vətənə,
Atını tutun, düşsün.

Necə dağlar,
Görünür necə dağlar.
Yetimlik çəkən bilər,
Yaş gözü necə dağlar.

Belə meylər,
İçilməz belə meylər.
Sevən yar sevdiyinin
Axrın beləmi eylər?

Ay Alxas,
Gendə durma, ay Alxas!
Ər başı ərşə qalxar,
Öydə olsa ayal xas.

Hayat-hayat,
Qurulmuş hayat-hayat.
Gəzərsən, ömrün artar,
Yatarsan ha yat, ha yat.

Ala quzu,
Yeməyə ala quzu.
Nahaq yerdən ev yıxar
Adamın alaquzu.

# HƏR ÇİÇƏKDƏN BİR LƏÇƏK

Ağac atdım ağaca,
Bir quş vurdum balaca.
Yar yarını çox istər
Səfərdən gələn gecə.

Araz axır miyana,
Sən dəli, mən divana.
Bizim bağın bülbülü
Qonub sizin eyvana.

Ay dolandı batmağa,
Yarım getdi yatmağa.
Yasdığı dörd dolandım,
Qıymadım oyatmağa.

Gəl gedək Hun dağına,
Gün düşüb Hun dağına.
Səni doğan ananın
Od düşsün qundağına.

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Məni gəlinlər, qızlar
Dərib taxarlar döşə.

Eləmi, üstü olmaz,
Bacanın üstü olmaz.
Əgər odun yanmasa,
Ocaqda tüstü olmaz.

Əzizim, ay utanmaz,
Gün doğar, ay utanmaz.
Pisin pis əməllərin
Üzünə say, utanmaz.

Əzizinəm dolan, gəz,
Dağı-daşı dolan, gəz.
Ömrü bu puç dünyada
Hanı başa vuran kəs?!

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim işlədi,
Su belə duru gəldi?

Ağ dəvənin gözləri,
Yerə dəyməz dizləri.
Bu əyyamın qızları
Kəbin kəsər özləri.

Ərkin damı ucadı,
Üstü baca-bacadı.
Kişi, saqqalın qırxdır,
Arvad deyər qocadı.

Aşiq illər ayrısı,
Bülbül güllər ayrısı.
Günə dözməyən canım
Oldu illər ayrısı.

Mixək əkdim qalxındı,
Sınıq könlüm, qalx indi.
Sevgilimdən ayrıldım,
Qoy dincəlsin xalx indi.

Atəş daşı, duz daşı,
Gəl yeyək bulğur aşı.
Əl-ələ tutaq gedək,
Dosta-düşmana qarşı.

Su məndən, suçu məndən,
Çim kəsər suçu məndən.
Çəmən sudan qorxmaqdan
Qorxubdur su çəməndən.

Mən aşiq salı salsın,
Dəryalar salı salsın.
Salmasın xudam gözdən,
Hər kimsə salı salsın.

Dağlarda qar səsi var,
Yox deyil, var səsi var.
Atlar ifçin nallanıb,
Genə səfər səsi var.

Fələyin bir bağı var,
Üstündə çardağı var.
Mən o bağa getmərəm,
Qəlbimdə yar dağı var.

Ağ üzündə maçım var,
Güləbətin saçım var.
Mənə göyçək deyirlər,
Mənnən göyçək bacım var.

Dağ döşündə yol durar,
Su axmasa göl durar.
Xoş gün ömrü uzadır,
Qəm insanı öldürər.

Bu yol Fərata gedər,
Dönər Fərata gedər.
Bu yola göz dikənin,
Ömrü qarata gedər.

Qoşun gələr, san gedər,
Açma yaram, qan gedər.
Yüz min təbib neyləsin,
Əcəl gəlsə can gedər.

Ovçular ovu gözlər,
Çaxmaq da qovu gözlər.
Alvızdan qalxan tərlan
Göydə Murovu gözlər.

Aşıq minayə dəyər,
Xalın minayə dəyər.
İl var, bir günə dəyməz,
Gün var, min ayə dəyər.

Ata minən ağadır,
Atın yolu dağadır.
Yaxşı qulaq as, yarım,
Bu bayatı sanadır.

Tənhayi qaraqarı,
Rəqibi qara qarı.
Dağlar, qüzeyli könlüm,
Saxlaqıl qara qarı.

Qarşımızda yay damı,
Lələ tikdi, yay damı.
Payız cənnət, qış qurci,
Yaz sultandır yay damı.

Mən aşiq, qanlıları,
Qan tutsun qanlıları.
Quduz qurda dönəydim,
Tutaydım qanlıları.

Qayalar qarda qaldı,
Bülbüllər zarda qaldı.
Könül qapısı bağlı,
Açarı yarda qaldı.

Altunam, alma məni,
Dillərə salma məni.
Apar sərrafa göstər,
Qəlpəmsə, alma məni.

Al qayadan at məni,
En aşağı, tut məni.
Al qolların üstünə,
Layla de, uyut məni.

Haray, ellilər, haray!
Ceyran çöllülər, haray!
Bəndimi sel apardı,
Əli bellilər, haray!

Gəl çıxma dağa, gözəl,
Qorxuram yağa, gözəl.
Gülün ömrü az olar,
Bəzəkdi bağa gözəl.

Aşiqəm, dərdin alam,
Artıbdır dərdü nalam.
İstərəm dərd bilməzin
Əlindən dərdin alam.

Palutun yeri mənəm,
Torpaqda çürümənəm.
Gəlsinlər ziyarətə,
Qızların piri mənəm.

Fələki dindirəydim,
Gücümü bildirəydim.
Yarıma əl vuranın
Əllərin sındıraydım.

Maral, maral inəyim,
Qarnı xaral inəyim;
Addamacdan adlamaz,
Çəpər yarar inəyim.

Dağlar, səni yöndərim,
Yolun bəri döndərim.
Müşkül işim düşübdü,
Yanına kimi göndərim?

Gözlərim nəmdir mənim,
Yaş axar, nəmdir mənim.
Sayrıyam, sağalmanam,
Heç bilmən, nəmdir mənim.

Yol üstündə duraydım,
Tüfəngi dolduraydım.
Yarı məndən edənin
Rəng-rufun solduraydım.

Çay axar, dağı neylər,
Bağçalar bağı neylər.
Bir çıraq haqdan yana,
O çıraq yağı neylər.

Eləmi daşlı yerlər,
Torpaqlı, daşlı yerlər.
Bu dünyada hələ var
Gözləri yaşlı yerlər.

Qarşıda gələn dəmlər,
Bülbülə gələn dəmlər.
İndi gəlmək sizindir,
Getdi biz gələn dəmlər.

Mən aşiq həzər, dönər,
Dolanar, gəzər, dönər.
Bu dünya bir dəyirman,
Dərdinən əzər, dönər.

Mahud nədir, bez nədir,
Çuxa nədir, xəz nədir?
Əl dəyməyən bu torpaq
Göz görməyən xəznədir.

Bu qarlı dağ mənimdir,
Sol mənim, sağ mənimdir.
Kim əkdi, kim becərdi,
Kim dedi bağ mənimdir!

Tamburun teli laldır,
Bazardan alan baldır.
Qızlara qurban olum,
Gəlinlər ayrı maldır.

Kilsə başı zəng olu,
Səsdən adam dəng olu.
Tutaydım könül quşun,
Görəydim nə rəng olu.

# ƏDƏBİYYAT

1. Arvad ağısı (bayatı, haxışta, sevgi, layla, qayınana-gəlin sözləri), Bakı, 1918.

2. Azərbaycan xalq ədəbiyyatında bayatılar, Bakı, Azərbaycan Ədəbiyyat Cəmiyyəti Nəşriyyatı, 1926.

3. Azərbaycan bayatıları (*toplayanı H.Əlizadə*), Bakı, Azərnəşr, 1938.

4. Bayatılar (*tərtib edəni M.H.Təhmasib*), Bakı, Az.FAN Nəşriyyatı, 1943.

5. Bayatılar (*toplayanı və tərtib edəni H.Qasımov*), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1956, ikinci nəşri, 1960.

6. Bayatılar (*tərtib edəni A.Məmmədova*), Bakı, Elm, 1977.

7. Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun elmi arxivi, qovluq №1-7.

8. Tərtibçilərin topladığı bayatılar.

## MÜNDƏRİCAT

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

Vətən. Qürbət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .15

Mərdlik – namərdlik. Dostluq. İgidlik. Məğrurluq.
Namus – qeyrət – ar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24

Arxa. Kömək. Dayaq. İftixar . . . . . . . . . . . . . . . . . . . . . . . . .30

Umu-küsü. Giley-güzar. Şikayət – narazılıq. Bəxt-tale.

Məzəmmət. Etibarsızlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .33

Sərki. Qaxınc. Sancma. Bəzəmə . . . . . . . . . . . . . . . . . . . . . .86

Zülm. Zorakılıq. Haqsızlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . .88

Yeni dövran. Xoşbəxtlik. Bolluq-bərəkət . . . . . . . . . . . . . . . . .90

Eşq-məhəbbət. Vəfa-sədaqət. Naz-qəmzə . . . . . . . . . . . . . . . . .92

Ayrılıq. İntizar. İstək-arzu. Qəm-kədər.
Üzüntü-nigarançılıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .157

Layla. Nazlama . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .205

Qadan-balan canıma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .213

Alqış. Öymə. Öyüd-nəsihət. Hikmət . . . . . . . . . . . . . . . . . . . . .215

Hörmət-ehtiram. Sayıb-sayılmaq. Gün-güzəran . . . . . . . . . . . . . .233

Bağlama. Tapmaca . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .235

Sınama. İnam. Yozum . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .242

Vəsfi-hal. Hal-əhval . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .245
Şənlik. Toy-düyün. Xeyir-dua . . . . . . . . . . . . . . . . . . . . . . . . . .258
Qarğış . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .260
Ağı. Oxşama. Sızıltı. İnilti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .267
Saya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .287
Holavar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .291
Xoyrat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .293
Hər çiçəkdən bir ləçək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .295

Ədəbiyyat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .299

**AZƏRBAYCAN BAYATILARI**

“XXI – YENİ NƏŞRLƏR EVİ”

BAKI-2004

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektor: | *Pərvanə Məmmədova* |

Yığılmağa verilmişdir 12.05.2004. Çapa imzalanmışdır 17.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 19. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 213.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.